**AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ AQRAR ELM MƏRKƏZİ**

**AZƏRBAYCAN ELMİ-TƏDQİQAT KƏND TƏSƏRRÜFATININ İQTİSADİYYATI VƏ TƏŞKİLİ İNSTİTUTU**

12075

# AQRAR İQTİSADÇI ALİMLƏR

**Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun 50 illik yubileyinə həsr olunur**

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

**Bakı-2012**

65.325(5Aze)
A 45

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi ETKTİ və Tİ-nin Elmi Şurasının 17 fevral 2012-ci il tarixli 02 saylı qərarına əsasən çap edilmişdir.

| | |
|---|---|
| Tərtib edənlər: | Salahov S.V.<br>Balayev R.Ə.<br>Əlibəyov N.V. |
| Redaktor: | Salahov S.V. |
| Texniki redaktor: | Əliyeva S.Ə. |
| Kompyuter tərtibatçısı: | Hətəmova S.Ş. |
| Kompyuter yığıcısı: | Kərimova E.H. |
| Korrektorlar: | Babayeva A.F.<br>Əmirov F.Ş. |

**Aqrar iqtisadçı alimlər.** Bakı, 320 səh.

ISBN 978-9952-34-927-6

***Bütün dövrlərdə 1970-ci illərdə, ondan sonra, 1990-cı illərdə Heydər Əliyevin elmə diqqət və qayğısı çox yüksək səviyyədə idi. O, çox gözəl bilirdi ki, hər bir ölkənin, hər bir xalqın tərəqqisində elmin inkişafı müstəsna rol oynayır. Müxtəlif ölkələrin tarixinə, keçmişinə, təcrübəsinə nəzər salaraq görürük ki, ölkənin inkişafını, potensialını elmin inkişafı müəyyən edir.***

***İlham Əliyev***

# GİRİŞ

Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu SSRİ Nazirlər Sovetinin kənddə yeni iqtisadi münasibətlərin inkişafı ilə, həmçinin təsərrüfatçılığın forma və metodlarının dəyişməsi, ərazilər üzrə ixtisaslaşma, kəndli kooperativlərinin yaradılması, ictimai istehsalatın təşkili və digər problemlərin tədqiqi məqsədilə 8 may 1962-ci il tarixli 399 №-li Qərarı ilə Kənd Təsərrüfatı Akademiyasının iqtisadiyyat şöbəsinin bazasında yaradılmışdır. İnstitutun ilk direktoru olmuş i.e.d. professor Əliyev İsmayıl Həsən oğlu bu kollektivə 1962-1963-cü illərdə rəhbərlik etmişdir.

İnstitutun formalaşmasının birinci mərhələsində onun strukturu, maddi-texniki bazası yaradılmış, eyni zamanda əsas fəaliyyət istiqamətləri müəyyən edilmişdir. Qısa vaxt ərzində yüksək ixtisaslı kadrlar işə cəlb edilmiş, aqrar elmin qarşısında qoyulmuş məsələlərə uyğun olaraq elmi-tədqiqat işlərinin mövzusu hazırlanmış, həmçinin kənd təsərrüfatının aktual problemlərinə həsr edilmiş konfranslar və seminarlar keçirilməsi ilə bağlı işə başlanmışdı. Keçən əsrin 60-cı illərində institutun elmi-tədqiqat işləri kənd təsərrüfatı təşkilatlarında infrastrukturun inkişafı, kooperasiya və inteqrasiya, istehsal-iqtisadi münasibətlərin inkişafı, təsərrüfat hesabının tətbiqi, sahələr üzrə ixtisaslaşma, əmək məhsuldarlığı və onun təyin edilməsi metodları, kəndin inkişafının sosial problemlərinin həlli, kənd



təsərrüfatı müəssisələrində əməyin elmi təşkili və onun zəmanətli ödənişi məsələlərinə istiqamətlənmişdi.

Həmin dövrdə kənd təsərrüfatı dövlətin dəstəyinə baxmayaraq, iqtisadi baxımdan geridə qalmış sahə idi. Bu gerilik bir sıra kənd təsərrüfatı məhsullarının istehsalı, rentabellik və mənfəət üzrə planların yerinə yetirilməsində daha çox nəzərə çarpırdı. Respublikanın kənd təsərrüfatının əsasını suvarılan əkinçilik təşkil etdiyinə baxmayaraq, meliorasiya işləri zəif aparılır, yeni yararlı torpaqların dövriyyəyə daxil edilməsi üzrə tədbirlər görülmürdü. Kütləvi peşələr üzrə mütəxəssislərin, ixtisas peşələri üzrə mütəxəssislərin, fəhlələrin və texniki vasitələrin çatışmaması səbəbindən, aqrar sahənin sənaye əsaslarına keçirilməsi ləngiyir ümumiliklə kəndin maddi-texniki bazasımn möhkəmlədilməsi məsələlərinə lazımınca diqqət yetirilmirdi. Aqrar iqtisadiyyatın problemlərinin həllində elmi nailiyyətlərdən zəif istifadə olunurdu.

1969-cu ilin iyulunda Heydər Əlirza oğlu Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçiləndən sonra respublikanm kənd təsərrüfatı siyasəti kökündən dəyişdi. Azərbaycanın KP MK-nın həmin ilin avqust ayında keçirilən Plenumunda Heydər Əliyev proqram nitqi ilə çıxış etdi. Heydər Əliyev bu nitqində respublikanın ictimai-iqtisadi inkişafınm əsas istiqamətlərini əsaslandırdı və kənd təsərrüfatına mühüm yer ayırdı. Heydər Əliyev pambıqçılıq, üzümçülük, tərəvəzçilik, tütünçülük və çayçılıq sahələrində işlərin vəziyyətini hərtərəfli təhlil edib, kənd təsərrüfatmın bu sahələrində mövcud nöqsanları və səhvləri göstərmiş,

imkanları müəyyən etınış və elmi nailiyyətlər əsasında kənd təsərrüfatında məhsuldarlığın yüksəldilməsinin konkret istiqamətlərini təklif etmişdi. Respublika rəhbəri həmin Plenumda yüksək məhsuldar, xəstəliyə davamlı yerli bitki sortları yaratmağa imkan verən aqrar elmin nailiyyətlərinə, toxumçuluq təsərrüfatlarının inkişafına, damazlıq təsərrüfatlarının işinin yaxşılaşdırılmasına və məhsuldar heyvan cinslərinin yetişdirilməsi məsələlərinə böyük diqqət yetirməsinin vacibliyini əsaslandırmışdır. Bu baxımdan plenumda həmçinin aqrar sahədə çalışan alimlərin qarşısında dənli bitkilər, pambıq, üzüm, tərəvəz, meyvə və başqa məhsulların yetişdirilməsi və becərilməsi ilə əlaqədar mütərəqqi texnologiyaların işlənib hazırlanması və tətbiqi üzrə vəzifələr qoyulmuşdur.

1970-ci il iyulun 23-də Sov.İKP MK və SSRİ Nazirlər Soveti respublika rəhbərliyinin təşəbbüsü əsasında "Azərbaycan SSR-də kənd təsərrüfatının inkişafı tədbirləri haqqında" qərar qəbul etdi. Bu sənəd respublikada kənd təsərrüfatının sonrakı inkişafı üzrə konkret məsələləri müəyyən edən fəaliyyət proqramı oldu. Tezliklə kənd təsərrüfatının pambıqçılıq, üzümçülük, taxılçılıq, meyvəçilik, çayçılıq və heyvandarlıq kimi sahələrinin sonrakı inkişafı üzrə proqramlar işlənib hazırlandı. Respublikanın ayrı-ayrı regionlarında bitkiçilik və heyvandarlıq sahələri üzrə ixtisaslaşmanın əsası qoyuldu. Suvarılan əkinçiliyin respublikada kənd təsərrüfatının inkişafının əsasını təşkil etdiyini nəzərə alaraq, irriqasiya-meliorasiya qurğuları tikintisinin genişləndirilməsi, onların keyfiyyətinin yaxşılaşdırılması, şoran torpaqlarm yuyulması üzrə işlərin



sürətləndirilməsi əsas vəzifələrdən biri hesab edilirdi. İstehsal proseslərinin kompleks mexanikləşdirilməsi və əməyin təşkilinin təkmilləşdirilməsi üzrə işlər də geniş vüsət almışdı. İttifaq Hökuməti yuxarıda göstərilən məsələlərin həllini təmin etmək məqsədi ilə respublikanın texnika əldə etməsi üçün milyonlarla maliyyə vəsaiti, ehtiyat hissələri, tikinti materialları, mineral gübrələr, bitkilərin xəstəliklərinə və zərərvericilərə qarşı mübarizə üçün kimyəvi preparatlar ayırmışdı.

Kənd təsərrüfatınm sonrakı inkişafı üzrə İttifaq və respublika hökumətinin qərarları İnstitutun fəaliyyətində islahatların və elmi tədqiqat işləri planında köklü dəyişikliklərin əsasını təşkil etdi. Aqrar elmin qarşısında duran yeni vəzifələr nəzərə almmaqla institutun strukturu, elmi axtarışların və tədqiqatların mövzuları yenilənmiş, təsərrüfatlararası kooperasiya və aqrosənaye inteqrasiyası, istehsalın və əməyin təsərrüfatdaxili təşkili, maddi həvəsləndirmə və başqa məsələlər tədqiq edilmiş, kənd təsərrüfatı müəssisələrinin optimal ölçüləri, onların rasional yerləşdirilməsi, kənd təsərrüfatında ixtisaslaşmanın dərinləşməsi və respublika təsərrüfatlarında əkin sahələrinin strukturunun əsaslandırılması üzrə tövsiyələr verilmişdi. Həmçinin aqrar sahənin əsas sahələri, o cümlədən – pambıqçılıq, üzümçülük, tərəvəzçilik, tütünçülük, taxılçılıq, quşçuluq və heyvandarlığın infrastrukturu ilə bağlı bir sıra tədqiqatlar və araşdırmalar həyata keçirilmiş, kollektiv münasibətlərin, kooperasiya və inteqrasiya proseslərinin inkişafı və təkmilləşdirilməsi, özünümaliyyələşdirmə prinsipinin reallaşdırılması, təbii

şərait nəzərə alınmaqla kənd təsərrüfatının ixtisaslaşmasına dair tövsiyələr verilmişdir. Bu tədqiqatlar institutun alimləri tərəfindən dərc edilmiş bir sıra monoqrafiya və kitabların əsasını təşkil etmişdir.

Müxtəlif illərdə instituta kənd təsərrüfatı istehsalı sahəsində tanınmış mütəxəssis və təşkilatçı, i.e.d., professor Mirzəyev Sultan Abbas oğlu (1963-1973-cü illər), i.e.d. professor Qayıbov Kərim Məmməd oğlu (1973-1977-ci illər), i.e.n. dosent Məmmədov Rasim Fəti oğlu (1977-1979-cu illər), i.e.n. dosent Hacıyev Əhməd Hafiz oğlu (1979-1987-ci illər), i.e.d. professor Qasımov Həsən Allahyar oğlu (1988-1992-ci illər), i.e.d. professor Verdiyev Əhməd Çoban oğlu (1993-2001-ci illər) rəhbərlik etmişdir.

Qorbaçovun dağıdıcı yenidənqurmasının son mərhələsində Azərbaycanda kənd təsərrüfatınm üzümçülük, pambıqçılıq və başqa bu kimi sahələrinin fəaliyyəti əslində dağıdılırdı. Həmin illərdə ölkə ərzaq təhlükəsi ilə üzləşdi. 1990-cı illərin əvvəllərində aqrar iqtisadiyyatın göstəricilərinin təhlili göstərir ki, aqrar sahə öz imkanlarından qat-qat aşağı səviyyədə işləyirdi. Kənd təsərrüfatında əmək məhsuldarlığı kəskin azalmışdı.

SSRİ dağılandan və Azərbaycan öz dövlət müstəqilliyini bərpa edəndən (18 oktyabr 1991-ci il) sonra ölkənin tarixinin yeni dövrü - müstəqil, suveren dövlət dövrü başlandı. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə dünya miqyaslı görkəmli siyasətçi Heydər Əliyev hakimiyyətə gəldikdən sonra ölkədə vəziyyət kökündən dəyişdi. O, ilk növbədə vətəndaş müharibəsini və erməni silahlı qüvvələri



tərəfindən hərbi təcavüzü dayandırmağa nail oldu. Bunun nəticəsində respublika iqtisadiyyatının böhrandan çıxarılması və sabitləşdirilməsinə şərait yarandı. 1995-ci ilin noyabrında müstəqil Azərbaycanın Konstitusiyası qəbul edildi. Bu əsasda sonradan Respublika parlamenti tərəfindən 1000-dən çox qanunverici və normativ- hüquqi aktlar qəbul edilmişdir Onların 500-dən çoxu aparılan islahatların sürətləndirilməsinə və respublika iqtisadiyyatının effektivliyinin artırılmasına yönəldilmişdir.

Bu mürəkkəb illərdə Heydər Əliyevin ölkəmizin həyatında yürütdüyü hərtərəfli düşünülmüş xarici və daxili siyasət nəticəsində, daxili və xarici qüvvələrin yaratdığı maneələr aradan qaldırıldı, ölkəni vətəndaş qarşıdurması, özbaşınalıq, dərin iqtisadi və sosial-siyasi böhran, xarici siyasi mühitdən təcrid olunma vəziyyətindən çıxardı, onu sabit və davamlı inkişaf məcrasına salınması təmin olundu. Ölkə inamla ayağa qalxdı, həm yaradıcı fəaliyyət üçün, həm də dövlətçiliyin qorunub saxlanması və inkişafı üçün şərait yarandı. Buna görə 1996-cı ildən başlayaraq və sonrakı illərdə Azərbaycanın sosial-iqtisadi inkişafı bir qədər sabitləşməyə başladı ki, bu da ilk növbədə, real ÜDM-nin artımında əks olundu.

Keçid dövrünün bütün çətinliklərinə baxmayaraq, dövlət hər vasitə ilə ölkənin ərzaq təhlükəsizliyinin təminatında aparıcı rol oynayan aqrar sahənin inkişafına qayğı və yardım göstərirdi. 1995-ci ildən başlayaraq həyata keçirilən, əsasını ümummilli lider Heydər Əliyevin qoyduğu aqrar islahatlar bazar münasibətlərinin yaranmasına ciddi təsir göstərdi. Azərbaycanın ərzaq təhlükəsiz-

liyini təmin etməli olan aqrar sahənin ağır vəziyyətdən çıxardılması üçün Heydər Əliyev ilk növbədə, kənd təsərrüfatını düşdüyü böhranlı vəziyyətdən çıxarmağın yeni strategiyasını müəyyən etdi.

1999-cu il noyabrın 9-da Prezident Heydər Əliyev tərəfindən imzalanmış "1999-2000-ci illərdə Azərbaycan Respublikasında aqrar islahatların dərinləşməsi və kənd təsərrüfatında sahibkarlığın inkişafına yardım üzrə Dövlət Proqramı" haqqında Fərman respublikanın aqrar sektorunun sonrakı inkişafı üçün çox böyük əhəmiyyət kəsb edirdi. Bu Proqram, aqrar sektorda iqtisadi islahatların sürətlənməsi ilə yanaşı, sahibkarlığın inkişafı və sahibkarların iqtisadi maraqlarının müdafiəsi mexanizmlərinin formalaşması yollarını müəyyən etdi.

Ölkədə təsərrüfatçılığın müxtəlif növlərinin yaradılması prosesi qanunvericiliyin tələblərinə uyğun olaraq könüllü həyata keçirilirdi. Belə ki, torpaq və əmlak payları almış vətəndaşlar təsərrüfatçılığın hansı növü ilə məşğul olmağın onun üçün daha əlverişli olmasını özləri müəyyən edirdilər. Respublikada kəndli (fermer) təsərrüfatları, istehsal kooperativləri, kiçik müəssisələr, səhmdar cəmiyyətləri və digər yeni qurumlar yaradılmağa başlandı. Torpaq üzərində xüsusi mülkiyyət əsasında yaradılmış yeni münasibətlər kənd təsərrüfatının yenilənən strukturunun həlledici amilinə çevrildi. Bütün bunlar ölkənin sonrakı iqtisadi inkişafı və xalqın rifahının yaxşılaşması üçün möhkəm əsas oldu.

İllər keçdikcə, aqrar sahədə bazar sisteminə adekvat yeni müəssisələr yaranırdı. Buna görə institutun elmi-



tədqiqat işlərinin planlarına kənd təsərrüfatında yeni təsərrüfatçılıq ukladlarına uyğun, torpaq və mülkiyyət münasibətləri, kooperasiyanın və inteqrasiyanın yeni formaları ilə bağlı problemlər daxil edilirdi.

Prezident İlham Əliyev hakimiyyətə gəldiyi ilk günlərdən başlayaraq Azərbaycan iqtisadiyyatınm həyat qabiliyyətinin daha da gücləndirilməsi, müasir, keyfiyyətcə yeni səviyyəsi üçün zəruri olan geniş miqyaslı infrastruktur layihələri ilə bağlı təşəbbüslər irəli sürdü. Təcə 2011-ci ildə qeyri-neft sektorunda artım 2010-cu ilin müvafiq göstəricisi ilə müqayisədə 10%, o cümlədən kənd təsərrüfatında - 5,8% təşkil etmişdir. 2011-ci ildə əhalinin gəlirləri 2010-cu ilin müvafiq göstəricisi ilə müqayisədə demək olar ki, 20% artaraq, 36,6 milyard manata çatmışdır, adambaşına gəlirlərin məbləği ildə 3400 manat təşkil etmiş, yoxsulluq səviyyəsi dəfələrlə azalaraq 7,2%-ə düşmüşdür.

Hazırda iqtisadi inkişafın yüksək templəri və ölkənin maliyyə imkanlarının artınası aqrar sahəyə güzəştli kreditlər verilməsi, texnika və gübrələrlə təchiz edilməsi, subsidiyalar verilməsi yolu ilə onun dəstəklənməsi üçün əlavə stimullar yaradır. Belə ki, 2011-ci ildə aqrar sahəyə dövlət dəstəyi tədbirləri davam etdirilmiş, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı intensiv metodlar və müasir texnologiyalar əsasında genişləndirilmiş, aqrar sektorun infrastruktur təminatı əhəmiyyətli dərəcədə yaxşılaşmış, əsas ərzaq məhsulları ilə özünütəminetmənin səviyyəsi yüksəlmişdir.

Bununla belə, görüləsi işlər də çoxdur. Azərbaycan

Respublikasının Prezidenti İlham Əliyev qarşıda duran problemləri müəyyən edərək demişdir: "İndi vəzifə yüksək məhsuldarlıq və effektivlik, qabaqcıl texnologiyaların tətbiqi, emal müəssisələri şəbəkəsinin genişləndirilməsi, ən əsası – yerli məhsulun rəqabətə davamlılığınm artırılması hesabına bu sahədə istehsalın həcmini artırmaqdan ibarətdir". Odur ki, institutun elmi- tematik planına ölkənin aqrar-sənaye kompleksində bazar münasibətlərinin inkişafı ilə əlaqədar bir sıra əlavələr: iqtisadiyyatın aqrar sektorunda dövlət siyasəti; aqrar islahatın və onun nəticələrinin qiymətləndirilməsi; aqrar-sənaye məhsulları istehsalına dövlət dəstəyinin formaları və metodları; aqrar məhsulların və kənd təsərrüfatı üçün resursların qiymət dispariteti üzrə tədbirlər; təsərrüfatçılıq subyektlərinin maliyyə durumu və s. daxil edilmişdir. Bunlara əlavə olaraq, aqrar-sənaye məhsulları istehsalının mütənasib və tarazlaşdırılmış inkişaf sxemlərinin işlənib hazırlamasına, onun iqtisadi mexanizminin təkmilləşdirilməsinə, istehsal potensialından daha yaxşı istifadə edilməsinə və başqa hədəflərə yönəldilmiş kompleks tədqiqatlar aparılmışdır. Həmin məsələlər üzrə tədqiqat işlərinin təşkilinə hərtərəfli yanaşma yuxarı təşkilatların marağına səbəb olmuşdur. Məsələn, dövlət proqramları və regional proqramlar işlənib hazırlanarkən ərzaq təhlükəsizliyinin təminatına və quşçuluğun sənaye əsasında inkişafına dair təkliflər reallaşdırılmışdı. Eyni zamanda, institut respublikanın regionlarının sosial-iqtisadi inkişafınm əsas prinsiplərinin işlənib hazırlanmasına, aqrar islahatların təşkilatı-iqtisadi mexanizminin təkmilləşdirilməsinə, əmək



resurslarından istifadənin iqtisadi səmərəliyinin artırılması prioritetlərinin əsaslandırılmasına, kənd yerlərində sosial infrastrukturun inkişafına, torpaqdan istifadənin iqtisadi səmərəliyinin artırılmasına dair təkliflər hazırlamış və Kənd Təsərrüfatı Nazirliyinə təqdim etmişdir. İnstitutun əməkdaşları əsas tədqiqat mövzularının araşdırılması, aqrar-sənaye sahəsində təsərrüfatçılığın forma və metodlarının təkmilləşdirilməsinə dair təkliflər və tövsiyələr hazırlamaqla yanaşı, aqrar məsələlər üzrə bir sıra qanunların və normativ-hüquqi aktların hazırlanmasında fəal iştirak edirlər.

Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi strategiyasının reallaşdırması və kənd təsərrüfatının davamlı inkişafına dair optimal qərarlar qəbul edilməsi məqsədi ilə, həmçinin etibarlı, obyektiv və vaxtaşırı yenilənən informasiya bazasının təmin edilməsi üçün institut tərəfindən FAO (BMT-nin Kənd Təsərrüfatı və Ərzaq Təşkilatı) ilə əməkdaşlıq əsasında Quba-Xaçmaz, Aran və Lənkəran iqtisadi rayonlarında informasiya-monitorinq sisteminin ilkin pilot variantı yaradılmışdır. Bu sistemin təkmilləşdirilməsi və genişləndirilərək ölkənin bütün regionlarını əhatə etməsi üçün iş davam etdirilir.

Bu gün institutun kollektivi aqrar sahənin dövlət tənzimləməsinin prioritet istiqamətlərinin əsaslandırılması, torpaq münasibətlərinin və kənddə sahibkarlığın inkişafı, ərzaq təhlükəsizliyi, kənd təsərrüfatında idarəetmənin təşkilati strukturunun təkmilləşdirilməsinin optimal parametrlərinin əsaslandırılması, aqrar bazar infrastrukturunun formalaşması, aqrar sektorda kooperasiya və

inteqrasiya münasibətlərinin inkişafı, istehsalın proqnozlaşdırılması, aqrar sahənin investisiya cəlbediciliyinin artırılması, sahədə investisiya siyasətinin prioritetlərinin əsaslandırılması və bir sıra başqa aktual problemlərin həlli üzərində işləyir. Bunlardan əlavə, aqrar istehsalçıların maliyyə resursları ilə təmin edilməsi, kənd yerlərinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi və aqrar istehsalçıların məhsullarının rəqabətə davamlılığının artırılması üzrə məqsədli kompleks proqramlar hazırlamağın zəruriliyi əsaslandırılmışdır.

İnstitutun elmi araşdırmalarını daha uğurlu təbliğ etmək məqsədi ilə 2000-ci ildən etibarən hər rübdə "Azərbaycan Elmi -Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi Əsərləri" adlı elmi-praktik jurnal nəşr edilir. Jurnalda həm Azərbaycan Respublikasında, həm də Müstəqil Dövlətlər Birliyinin üzvü olan başqa ölkələrdə çalışan elmi işçilərin, aspirantların və dissertantların məqalələri dərc edilir. Jurnal Ali Attestasiya Komissiyasının elmlər doktoru və elmlər namizədi elmi dərəcələri almaq üçün dissertasiyaların əsas elmi nəticələrinin dərc edilməli olduğu aparıcı elmi jurnallar və nəşrlər siyahısına daxil edilmişdir. Jurnalın redaksiya şurasının və redaksiya heyətinin üzvləri həm Azərbaycan Respublikasını, həm də bir sıra MDB ölkələrinin: Rusiya, Qazaxıstan, Dağıstan və Gürcüstanı təmsil edən məşhur elm xadimləri – akademiklər, akademiyaların müxbir üzvləri, elmlər doktorları, professorlardır.

İnstitutda aqrar sahənin aktual iqtisadi problemlərini, ixtisaslı elmi kadrların hazırlanması məsələlərini müzakirə



edən Elmi Şura fəaliyyət göstərir. İnstitutun yaradılmasının ilk günlərindən elmi-praktik konfranslar keçirilməsinə böyük diqqət yetirilir. Bu konfransların işində həm Azərbaycan Respublikasında, həm də Müstəqil Dövlətlər Birliyinin üzvü olan başqa ölkələrdə fəaliyyət göstərən elmi tədqiqat təşkilatlarının, ali məktəblərin, nazirlik və idarələrin nümayəndələri iştirak edirlər. 2001-2011-ci illərdə İnstitutda 11 konfrans, o cümlədən 3 beynəlxalq və 8 respublika elmi-praktik konfransı keçirilmişdir.

İnstitutda elmi kadrların hazırlanması və möhkəmləndirilməsi məsələsinə böyük diqqət və qayğı göstərilir. 1991-2011-ci illərdə 82 nəfər aspiranturaya, 135 nəfər dissertanturaya və 42 nəfər doktoranturaya qəbul edilmişdir. Bu müddətdə 140 nəfər iqtisad elmləri namizədi və 11 nəfər iqtisad elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. Hazırda institutda çalışan 112 nəfərdən 66-sı elmi işçi, onlardan 8-i iqtisad elmləri doktoru və 24-ü iqtisad elmləri namizədidir. İnstitutda namizədlik və doktorluq dissertasiyaları müdafiə etmiş alimlərin böyük bir qismi müxtəlif təşkilatlarda - nazirliklərdə, idarələrdə, elmi və tədris təşkilatlarında rəhbər vəzifələrdə işləmişlər və hal-hazırda işləyirlər.

İnstitutun xarici ölkələrdəki həmkarlarla elmi əlaqələri müvəffəqiyyətlə inkişaf edir. Məsələn, 2011-2012-ci illərdə aqrar profilli on elmi tədqiqat institutu:Rusiya Kənd Təsərrüfatı Akademiyasının Ümumrusiya kənd təsərrüfatının iqtisadiyyatı institutu,-Ümumrusiya kənd təsərrüfatında istehsalın, əməyin və idarəetmənin təşkili elmi tədqiqat institutu, A.A.Nikonov adına Ümumrusiya aqrar

problemlər və informatika institutu, Qazaxıstan elmi tədqiqat aqrar-sənaye kompleksinin iqtisadiyyatı və kənd ərazilərinin inkişafı institutu, Moldova Dövlət Aqrar Universiteti,- M.M. Cambulatov adına Dağıstan Dövlət Aqrar Universiteti, Dağıstan Elmi Tədqiqat Kənd Təsərrüfatı İnstitutu, Dağıstan Dövlət Universiteti,Belarus Milli Elmlər Akademiyasının ASK-də sistemli tədqiqatlar institutu, Sankt-Peterburq Dövlət Aqrar Universiteti ilə elmi əməkdaşlıq haqqında müqavilələr bağlanmışdır. 2001-2012-ci illərdə institutun aparıcı alimləri təcrübə mübadiləsi məqsədi ilə, həmçinin konfranslarda, simpoziumlarda, treninqlərdə və sərgilərdə iştirak etmək üçün İngiltərə, Fransa, Almaniya, Norveç, Türkiyə, Misir, Hollandiya, İsrail, Çin, Macarıstan, Albaniya, Polşa və MDB ölkələrinə ezam edilmişlər.

Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu mövcud olduğu 50 il ərzində ölkənin aparıcı aqrar-iqtisadi tədqiqat mərkəzlərindən biri ola bilmişdir. İnstitut ölkənin aqrar siyasətinin strategiyasının və elmi əsaslarının, aqrar münasibətlərin, ərazi-sahəvi əmək bölgüsünün, aqrar bazarın formalaşmasının, aqrar sənaye kompleksində təsərrüfatçılığın müxtəlif təşkilatı-hüquqi formalarınm inkişafının, aqrar sənaye kompleksində islahatların, yüksək effektivliyə malik çoxukladlı aqrosənaye istehsalının yaranması, formalaşması və tənzimlənməsi, aqrar-sənaye kompleksində innovasiya proseslərinin, təsərrüfatlararası kooperasiyanın və aqrosənaye inteqrasiyasınm inkişafı, aqrar sahədə maddi-texniki ehtiyatlar bazarının formalaşması və idarəetmənin



təkmilləşdirilməsi, kəndin sosial inkişafı, ölkənin aqrar-sənaye kompleksinin səmərəliyinin artırılması və başqa aktual problemlərinin həllinin nəzəri və metodoloji əsaslarının işlənib hazırlamasına nəzərəçarpacaq töhfələr vermişdir. Əminliklə demək olar ki, islahatların müasir mərhələsində institutun alimləri qüvvə və bacarıqlarını səfərbər etməklə, qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.

**Az.ETKTİ və Tİ-nin direktoru,**
**i.e.d., professor** **S.V.Salahov**

12075

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

## Mahmudov Əhməd Əkbər oğlu



Əhməd Əkbər oğlu Mahmudov 1923-cü ildə may ayının 25-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şahtaxtlı kəndində dünyaya gəlmişdir.

O, 1941-ci ildə orta məktəbi bitirmiş, 1942-1945-ci illərdə Sovet Ordusu sıralarında xidmət etmiş, ordu sıralarından tərxis edildikdən sonra, 1946-cı ildə K.Marks adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun "Uçot-statistika" fakültəsinə daxil olmuş və 1950-ci ildə institutu fərqlənmə diplomu ilə bitirmişdir.

Məktəb illərindən sonra cəbhə həyatı və kənddə müəllimlik illəri Əhməd müəllimi daha da mətinləşdirmişdir. Heç də təsadüfi deyildir ki, 1950- ci ildə ali məktəbi fərqlənmə diplomu ilə bitirən Ə.Mahmudov elmi fəaliyyətə doğulub boya-başa çatdığı indiki Şərur rayonunun təsərrüfatlarının iqtisadiyyatını çox çətin şəraitdə tədqiqinə başlayır. Aspirantura illərində o, usanmadan hər bir təsərrüfatda olmuş, istehsal amillərini tədqiq etməklə ehtiyat mənbələrini aşkara çıxarmışdır. Bu tədqiqatlar nəticəsində o, 1956-cı ildə iqtisad elmləri namizədi alimlik dərəcəsi almaq üçün namizədlik dissertasiyası müdafiə etmişdir. O, öz tədqiqatlarında bir rayon timsalında inandırıcı şəkildə göstərirdi ki, istehsal və əmək potensialında səmərəli istifadə sayəsində məhsul istehsalını ən azı 2-3 dəfə artırmaq mümkündür. Lakin bunun üçün düzgün struktur



islahatları aparılmalı, sərmayə qoyulmalı və kadr potensialı gücləndirilməlidir. Bir sözlə istehsalın maliyyə və elmi tutumluğu artırılmalıdır.

Əhməd müəllimin elmi fəaliyyəti bütünlüklə Azərbaycan və MEA-nın iqtisadiyyat bölməsi və bu bölmənin əsasında yaranan Elmi-Tədqiqat İqtisadiyyat İnstitutu ilə bağlı olmuşdur. Onun gənc bir alim kimi formalaşmasında və inkişafında Azərbaycan və Rus iqtisadi məktəblərinin böyük rolu olmuşdur. AMEA-nın İqtisadiyyat İnstitutunda fəaliyyətə başlayan iqtisad elmləri namizədi öz tədqiqat arealını daha da genişləndirərək, 1967- ci ildə doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. Həmin dövrdə hörmətli alimin elmi ictimai mühitdə formalaşan müsbət imici, çalışdığı elm sahəsindəki öncül mövqeyi ona 1972-ci ildə AMEA-nın müxbir üzvü və 11 il sonra isə həmin akademiyanın iqtisadiyyat üzrə ilk həqiqi üzvü seçilməsinə zəmin yaratmışdır.

50-ci illərin axırlarından başlayaraq iqtisadiyyat sahəsində elmi tədqiqatların bir elmi mərkəzdə - Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda cəmləşməsi qısa müddətdə bu sahədə ciddi müsbət nəticələr verdi.

Akademik Əhməd Mahmudov respublikada iqtisadiyyat elmin formalaşmasında əvəzsiz xidmətləri olan bir vətəndaş, şəxsiyyətdir. Məhz onun rəhbərlik etdiyi illərdə Azərbaycan SSR EA İqtisadiyyat İnstitutu nəinki respublikada, eləcə də keçmiş Sovetlər məkanında sayılan elmi-tədqiqat mərkəzinə çevrilmişdi. Əhməd Mahmudovun rəhbərliyi altında respublikada iqtisad elminin real iqtisadi həyatla bağlılığı

daha geniş vüsət almış, elmi tədqiqatların nəticələrinin əhəmiyyəti xeyli yüksəlmişdi.

Əhməd Mahmudov böyük ziyalı, əsl vətəndaş kimi qeyd edirdi ki, respublikada iqtisadiyyat elmini ancaq sırf nəzəri, metodoloji problemlərə cəlb etmək o qədər səmərə verə bilməz. Çünki buna nə əlverişli imkan, nə də o qədər ehtiyac var idi. Reallıq respublikanın iqtisadi həyatının canlanması, xalq təsərrüfatının inkişafına kömək edəcək aktual problemlərin sistemli tətbiqini tələb edirdi. Bu məsələdə Əhməd Mahmudov çox çətin şəraitdə institutun və digər sahə institutlarının elmi istiqamətlərində real iqtisadiyyatla bağlı problemlərə üstünlük verirdi.

AMEA-nın İqtisadiyyat İnstitutunda iqtisad elmi üzrə Əhməd Mahmudovun başçılıq etdiyi respublika miqyaslı əlaqələndirmə şurası fəaliyyət göstərir, məhsuldar qüvvələrin inkişafı və səmərəli yerləşdirilməsi, əmək ehtiyatları, əsaslı vəsait qoyuluşu, istehsal fondlarından istifadə, səmərəlilik problemləri ətraflı tədqiq olunur və əldə olunan nəticələr mütəmadi olaraq direktiv orqanlara təqdim edirdi.

Akademik Əhməd Mahmudov 70-ci illərdə Azərbaycan iqtisadiyyatının dinamik inkişafına istiqamətlənmiş tövsiyələrin hazırlanması işində bilavasitə iştirak edirdi. Onun rəhbərliyi ilə respublikanın müxtəlif şəhər və rayonlarında elmi konfranslar, seminarlar keçirilir, sosial-iqtisadi problemlərin elmi tədqiqi sahəsində əməli addımlar atılırdı. Bir sözlə, akademik Əhməd Mahmudovun Azərbaycan elmi qarşısında ən böyük xidmətlərindən biri də onun bütünlükdə respublikanın iqtisadçı alimlərini yaradıcı işə cəlb etməsi, iqtisad elmini real həyata, gələcək inkişafa yönəltməsi idi.



Ə. Mahmudov bütün elmi fəaliyyətini əsasən aqrar sahənin iqtisadiyyatına – torpaq fondundan, su və əmək ehtiyatlarından səmərəli istifadə, istehsalın intensivləşdirilməsi, ixtisaslaşdırılması, əmək məhsuldarlığının və iqtisadi səmərəliliyini yüksəldilməsi, gəlirlərin artırılması və istehlakın yaxşılaşdırılması kimi problemlərin həllinə həsr etmişdir. Bunu müəllifin əsərlərinin xrolonogiyası daha aydın göstərir: Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişaf məsələləri; Azərbaycan kənd təsərrüfatında əmək məhsuldarlığı və onun yüksəldilməsi yolları; Dağ kolxozlarının iqtisadiyyatının yüksəldilməsi problemləri; İqtisadi inkişafda intensiv amillər problemi; Kənd Təsərrüfatının intensivləşdirilməsinin iqtisadi səmərəliliyi; Torpaq kənd təsərrüfatında başlıca istehsal vasitəsidir; Əhalinin istehlakının yaxşılaşdırılması məsələləri; Elm və istehsalatın vəhdəti; İqtisad elminin inkişafının aktual məsələləri.

Onun digər tədqiqatçılardan fərqli cəhətlərindən biri əldə olunan elmi nəticələrinin istehsalata tətbiq edilməsinə məsuliyyətli münasibəti idi. Məhs bu prinsipiallıq onun bütün elmi tövsiyələrinin istehsalatda tətbiq tapmasmda əks olunmuşdur.

Təsadüfi deyildir ki, məhz Əhməd Mahmudovun əsərlərində ilk dəfə olaraq kənd təsərrüfatının intensivləşdirilməsinin zəruriliyi əsaslandırılmış, onun metodoloji aspektləri tədqiq edilmişdir. O çox zəngin statistik və konkret materiallara əsaslanaraq Azərbaycan kənd təsərrüfatında intensivləşdirmənin faktorlarını, səviyyəsini təhlil etmiş, aqrar sektorun dinamik inkişafındakı rolunu elmi cəhətdən əsaslandırmışdı.

Dünyanın bütün sivil və inkişaf etmiş ölkələrində aqrar elmi yüksək inkişaf edən bir sahədir. Akademik Əhməd Mahmudov bunun nə dərəcədə böyük əhəmiyyət kəsb etdiyini cəsarətlə qeyd edir, böyük potensial imkanlara malik olan respublikamızda da bu elmin inkişafı üçün böyük əmək sərf edirdi. Əhməd Mahmudov sözün əsl mənasında Azərbaycan torpağının imkanları haqqında geniş informasiyaya, biliyə malik idi. O, tədqiqatlarında inandırıcı faktlarla sübut edirdi ki, respublikanın kənd təsərrüfatının strukturu təkmilləşdirilməlidir, onun maddi-texniki bazasının yenidən qurulması üçün sərf ediləcək maddi-maliyyə resursları yüksək səmərə ilə nəticələnəcəkdir. Ə. Mahmudov aqrar sahəyə dövlət himayəsinin gücləndirilməsini təklif edir və bu zaman dünya təcrübəsinə əsaslanmağı tövsiyə edirdi.

Əhməd Mahmudov kənd təsərrüfatının intensivləşdirilməsi problemləri, eyni torpaq sahəsinə əlavə vəsait qoyuluşu və əmək sərfi nəticəsində ikinci diferensial rentanın yaranması sahəsində geniş tədqiqat işləri aparan görkəmli sovet alimlərindən biri hesab olunur. Geniş təkrar istehsalın bir forması kimi çıxış edən istehsalın intensivləşdirilməsi, məhsul istehsalını artırmaq məqsədilə vahid torpaq sahəsinə əlavə vəsait qoyuluşu və əmək sərfini nəzərdə tuturdu. Heç təsadüfi deyildir ki, Ə.Mahmudov öz tədqiqatlarında torpaqdan istifadə, onun iqtisadi münbitliyi, kənd təsərrüfatında torpağın başlıca istehsal vasitəsi kimi malik olduğu spesifik xüsusiyyətləri məsələlərinə hərtərəfli və dərindən yanaşır və sübut edirdi ki, torpağın malik olduğu bu xüsusiyyətlər kənd təsərrüfatının intensivləşdirilməsinin kökündə durur, əlavə vəsait qoyuluşu nəticəsində istifadə



edilən torpaq sahəsinin hər hektarından məhsul istehsalının artırılması zəruridir, mümkündür.

Eyni torpaq sahəsinə səmərəli investisiya qoyuluşunun nəticəsində onun təbii münbitliyi daima bərpa olunur və yeni iqtisadi münbitlik yaranır. Bu sahədə müəllifin tədqiqatlarında intensivləşmənin amilləri müəyyənləşdirilərək sistemləşdirilmişdir. Bu amillər onun tərəfindən iki qrupda birləşdirilmişdir:

- təbii amillər istehsalın təbii-zəruri əsasını və fərqlərini yaradır, istehsalda yüksək intensiv texnologiyaların tətbiqi, onun ixtisaslaşdırılması və təmərküzləşdirilməsinin optimallaşdırılması yolu ilə intensivləşdirilməsinə imkan verir;
- təsərrüfatın intensivləşdirilməsinin texniki-iqtisadi amilləri təsərrüfatın iqtisadi vəziyyətindən və onun lazımi əlavə material məsrəflərini sərf edilməsi imkanlarından asılıdır.

Müəllif öz tədqiqatlarında intensivləşdirmənin bu iki qrup amilləri arasında yaranmış qeyri-mütənasibliyi aşkar etmiş və aradan qaldırılmasının konkret yol və metodlarını vermişdir. Onun bir sıra elmi əsərlərində kənd təsərrüfatının intensivləşdirilməsinin ümumi xarakteristikası, torpaq və əkin sahələrinin quruluşu, istehsalın və əməyin texnika ilə silahlanması, kənd təsərrüfatının enerji resurslarına tələbatı və respublika iqtisadiyyatının intensivləşdirilməsinin xüsusiyyətləri təhlil edilir.

Ə.Ə.Mahmudovun əsərlərində texniki tərəqqi ilə əlaqədar olaraq istehsalın intensivləşdirilməsi mənbələrinə,

amillərinə və stimullaşdırılmasının tədqiqinə xeyli yer verilir.

Ə.Ə.Mahmudovun elmi axtarışlarında aqrar-sənaye inteqrasiyası, ictimai istehsalın intensivləşdirilməsi, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi, əmək məhsuldarlığının yüksəldilməsi, təsərrüfat hesabı kimi problemlərin tədqiqi əsas yer tutur. O, kənd təsərrüfatının hərtərəfli intensivləşdirilməsinin aqrar-sənaye kompleksinə daxil olan bütün sahələrə təsir edəcəyini tutarlı elmi nəticələri ilə sübut edirdi. Bununla əlaqədar olaraq Əhməd Mahmudov həmçinin aqrar-sənaye kompleksinin formalaşması, onun iqtisadi və sosial inkişaf yolu, müttəfiq respublika şəraitində aqrar sənaye kompleksində elmi-texniki tərəqqinin kompleks proqramının işlənib hazırlanması və həyata keçirilməsi məsələlərini öyrənilməsinə geniş yer verirdi. Zəngin materiallar əsasında təsərrüfatlararası kooperasiya və aqrar-sənaye inteqrasiyası zəminində kənd təsərrüfatının ixtisaslaşdırılması və təmərküzləşdirilməsi, aqrar-sənaye birliklərinin və müəssisələrinin yaradılması sahəsində Azərbaycanın təcrübəsini ümumiləşdirir və müvafiq qanunauyğunluqlar müəyyən edirdi. Sonra o, məhsulların daşınması, tədarük, kənd təsərrüfatı və yeyinti məhsullarının emalı və saxlanması da daxil olmaqla ASK-nın bir müstəqil planlaşdırma obyekti kimi öyrənilməsinin zəruriliyini irəli sürürdü.

Əhməd müəllimin ciddi seçimi, tələbkarlığı və birbaşa rəhbərliyi altında fəaliyyət göstərən tədqiqatçılar sonralar respublikada aqrar iqtisadi məktəbin yaranmasını və müstəqil bir elmi istiqamətin, məktəbin əsası qoyuldu. Heç də təsadüfi deyildir ki, respublikada bu potensial əsasında



1962-ci ilin may ayında Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı İnstitutu fəaliyyətə başladı.

Əhməd Mahmudov səmərəli aqrar siyasətin formalaşdırılması və həyata keçirilməsini ASK-da səmərəliliyin yüksəldilməsi, onun sənaye əsaslarında qurulmasını, istehsal vasitələrinin və iş qüvvəsinin keyfiyyətcə köklü surətdə dəyişdirilməsinin, yeni peşə və ixtisasların yaranması ilə qarşılıqlı əlaqədə tədqiq edirdi.

Müəllifin əsərlərində ASK-nın sferalarının balanslaşdırılması, proporsional inkişafı və təkrar istehsal prosesinin fazaları məsələlərinə də xüsusi fikir verilərək qeyd olunur ki, bu nisbətlərin pozulması istehsalın səmərəliliyini aşağı salır. O ilk dəfə kompleks hesablamalar nəticəsində ASK-nın ayrı-ayrı sferaları və təkrar istehsal prosesi fazaları arasında olan disproporsiyaları müəyyənləşdirir. Əhməd Mahmudov haqlı olaraq göstərirdi ki, bu disproporsiyalar ASK-nın üç sferası arasında, yəni kənd təsərrüfatı üçün istehsal vasitələri istehsal edən sahələr, kənd təsərrüfatı məhsulları istehsalı və bu xammal emal edən istehsal gücləri, məhsulların daşınması, saxlanması, kənd təsərrüfatı texnikasının təmirə olan tələbatı ilə onun keyfiyyətli surətdə həyata keçirilməsinin mövcud imkanları arasında təzahür edir. Bu disproporsiyaların əsaslı vəsait qoyuluşu, onun quruluşunun dəyişdirilməsi, əlavə investisiya qoyuluşunun məqsədəuyğun olaraq yenidən bölüşdürülməsi yolu ilə aradan qaldırılması təklifini irəli sürürdü.

Qeyd etmək lazımdır ki, daha sonralar müəllif istehsalın intensivləşdirilməsi sahəsində tədqiqatlarını genişləndirərək, bütünlükdə ictimai istehsalı əhatə edir. Bu baxımdan onun

çap olunmuş elmi əsərlərində problemin sosial-iqtisadi aspektləri geniş təhlil edilmişdir. Buna misal olaraq, alim geniş təkrar istehsalın intensiv formasının mahiyyətini və ilkin şərtlərini müəyyənləşdirmiş və geniş təkrar istehsalın bu tipinin iqtisadi qanunlarla qarşılıqlı əlaqəsini göstərmişdir. O, müasir şəraitdə intensivləşdirmənin iqtisadi qanunların fəaliyyət mexanizminə təsirini aşkar etmiş, istehsal vasitələrinə yığım fondunun səmərəli istifadə edilməsinin milli gəlirdə istehlak fondunun xüsusi çəkisinin artmasına səbəb olduğunu qeyd etmişdir. Sonra o, belə bir nəticəyə gəlmişdir ki, istehsalın intensivləşdirilməsi ilə əlaqədar olaraq daha məhsuldar və effektli əmək vasitələrinin, material və texnoloji proseslərin tətbiqini, işçi qüvvəsinin ixtisasının yüksəldilməsini, xüsusilə yeni iş yerlərinin yarandığı şəraitdə istehsalın maddi və şəxsi amillərinin proporsional və balanslı qaydada inkişafını təmin edir. Nəticədə istehsahn daxili imkanlarından maksimum istifadə edilməsi əmək məhsuldarlığının yüksəldilməsinə geniş şərait yaradır.

Əhməd Mahmudov dərin elmi axtarışlar əsasında belə bir qənaətə gəlmişdir ki, istehsalın intensivləşdirilməsi xammal və materialların emalının dərinləşdirilməsini, sadə məhsul istehsalından daha dərin istehsala keçirilməsini və onların emal texnologiyalarmın müasirləşdirilməsini tələb edir. Təbii ki, bu da yeni sahə və istehsalın meydana gəlməsinə, yeni texnikanın tətbiqi imkanlarının dərinləşməsinə və miqyasının genişlənməsinə, ÜDM-in tərkibində xammalın xüsusi çəkisinin azalmasına səbəb olur. Daha sonra o, əsərlərində göstərmişdir ki, geniş təkrar istehsalın



intensiv tipi kapital qoyuluşunu modernləşdirməyə, yenidənqurmaya və fəaliyyətdə olan müəssisələrin texniki səviyyəsinin yüksəldilməsinə yönəldilən, xüsusi çəkisinin artırılması xeyrinə onun quruluşunun təkmilləşdirilməsini tələb edir. Alimin bu fikirlərinin icrası bu gün Azərbaycan Respublikasının dünya iqtisadi sisteminə inteqrasiya etdiyi bir zamanda daha qiymətli və aktualdır.

Əhməd Mahmudov 70-ci illərdə qlobal iqtisadi inkişaf məsələlərinə, xüsusilə iqtisadi inkişaf, struktur, səmərəlilik problemlərinə dair geniş tədqiqatlar aparır, bu elmi istiqamətlərin gələcəkdə də vacib olduğunu xüsusilə vurğulayırdı. Əhməd Mahmudovun ötən əsrin 70-80-ci illərdə apardığı tədqiqatların mühüm istiqamətlərindən biri də iqtisadi mexanizmlərdən istifadə, həvəsləndirmə sisteminin təkmilləşməsi ilə bağlı idi.

O dövrün ideologiyasını, idarəetmə sistemini real qiymətləndirən hər bir şəxs bilirdi ki, qeyd edilən istiqamətlərdə elmi fikir söyləmək qeyd olunan illərdə asan məsələ deyildi. O, çox ustalıqla rəhbərlik etdiyi elmi kollektivi, eləcə də respublikanın iqtisadçılarını bu sahədə tədqiqatları genişləndirməyə çağırırdı. Çünki bu problemlərin tədqiqinin arxasında respublikanın maraqlarının qorunması dururdu. Bu baxımdan onun kənd təsərrüfatında qiymət sisteminin təkmilləşməsi, ictimai əmək bölgüsündə respublikanın rolu, mərkəz tərəfindən kənd təsərrüfatına ayrılan kapital qoyuluşu, iqtisadi və maddi həvəsləndirmə metodlarının təkmilləşdirilməsi barədə fikirləri çox aktual və əməli əhəmiyyət kəsb edirdi.

Akademik Əhməd Mahmudovun respublikanın gələcək inkişafı ilə bağlı fikirləri elmi cəhətdən əsaslı idi. 80-ci illərin ortalarında, daha doğrusu, 1987-1988-ci illərdə respublikamızın iqtisadi müstəqillik konsepsiyasının hazırlanması üçün gərgin iş aparılır respublika üçün taleyüklü problemlərin həllinə öz müsbət münasibətini bildirməklə yanaşı, konkret təkliflərlə respublikanın böyük imkanlara malik olduğunu sübut edirdi.

Akademik Əhməd Mahmudov Azərbaycanın gələcəyini düşünən bir vətəndaş, görkəmli ziyalı idi. O, Qarabağ münaqişəsinin ilk günlərindən ürək ağrısı ilə erməni millətçilərinin mənfur siyasətinə öz nifrətini bildirən, xalqla bağlı olan bir vətənpərvər alim, şəxsiyyət kimi çıxış edirdi.

O, elmi ictimaiyyət və xalq arasında öz sanballı və faydalı əsərləri ilə elmin mahir təşkilatçısı, əlaqələndiricisi olmaqla yanaşı, həm də gözəl insan kimi gələcək nəslin yetişməsində mühüm rol oynayırdı. Təsadüfən demirlər ki, "alim olmaq asandır, insan olma çətin". Əhməd müəllim əsl insan və əsl alim idi. Bu sahədə də Əhməd müəllimdə xüsusi səriştə və vətəndaşlıq məsuliyyəti var idi. O, elmi istiqamətlər üzrə tədqiqatçılara mövzu verilməsində, rəhbər seçilməsində müqayisəolunmaz təşəbbüskarlıq və prinsipiallıq göstərməklə yanaşı, gənc alimlərin işlədiyi təşkilatdan asılı olmayaraq dissertasiyalarının müzakirəsinə, müdafiəsinə və hətta təsdiqinə belə ciddi qayğı ilə yanaşardı.

Onun SSRİ Elmlər Akademiyası İqtisadiyyat İnstitutunda, digər mühüm elmi mərkəzlərlə əməkdaşlığın formalaşması və inkişafında müstəsna rolu indiki nəslin də inkişafında öz müsbət nəticələrini verir.



## Nadirov Asəf Abbasqulu oğlu



Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının həqiqi üzvü, tanınmış iqtisadçı alim, iqtisad elmləri doktoru, professor, əməkdar elm xadimi Asəf Abbasqulu oğlu Nadirov 1930-cu il mart ayının 13-də Azərbaycanın qədim mədəniyyət və elm mərkəzlərindən biri sayılan Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Cəlilabad kəndində anadan olmuşdur.

Asəf Nadirov 1936-cı ildə doğma kəndində məktəbə getmiş və 1946-cı ildə həmin rayonda Yengicə kənd orta məktəbini bitirmişdir. Elə həmin il Azərbaycan Dövlət Universitetinin "geoloji-coğrafiya" fakültəsinə daxil olmuş və 1951-ci ildə Universiteti əla qiymətlərlə bitirərək universitetin coğrafiya kafedrasında assistent vəzifəsində saxlamışlar. Az sonra o, gənc mütəxəssis kimi diqqəti cəlb etmiş və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti yanında Respublika inzibati-ərazi bölgüsü üzrə məsləhətçi kimi məsul vəzifəyə irəli çəkilmişdir. O, iki ilə yaxın bu vəzifədə çalışmışdır.

Asəf Nadirov 1952-ci ildə Azərbaycan SSR Elmlər Akademiyası Coğrafiya İnstitutunun aspiranturasına daxil olmuş və təhsilini davam etdirmək üçün 1953-cü ildə Moskva şəhərinə - SSRİ Elmlər Akademiyasına ezam olunmuşdur. Dünya şöhrətli alimlərin çalışdığı bu elm ocağında Asəf Nadirov böyük elmi məktəb keçmiş və 1956-cı ildə SSRİ EA Coğrafiya İnstitutunda "Naxçıvan MSSR:

İqtisadi-coğrafi səciyyəsi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

Gənc alim elə həmin il Bakı şəhərinə qayıtmış və Azərbaycan SSR Elmlər Akademiyası Coğrafiya İnstitutunda kiçik elmi işçi vəzifəsində işlədikdən sonra 1957-ci ilin əvvəlindən öz taleyini iqtisad elmilə bağlamışdır. Akademiyanın iqtisadiyyat bölməsinə (1958-ci ilin may ayından İqtisadiyyat İnstitutuna çevrilmişdir) kiçik elmi işçi vəzifəsinə işə keçmiş, burada elmi fəaliyyətini davam etdirmiş və bu günədək, bu institutla əlaqəsini kəsməmiş "Regional iqtisadiyyat" şöbəsində yerinə yetirilən elmi tədqiqat işlərinə bilavasitə elmi rəhbərlik edir və burada fəal elmi tədqiqat işlərinə rəhbərlik edir.

Onun keçdiyi bu paralel həyat yolu da, elmi yaradıcılığı da, respublika iqtisadiyyatının inkişafı problemlərinin tədqiqinə qeyri-standart yanaşma metodlarının tədqiqi də öz orijinallığı ilə fərqlənir. Məhz orijinal elmi-tədqiqat metodu, respublika iqtisadiyyatının problemlərinə dərindən bələd olmaq, onların həllinə qeyri-standart yanaşmaq və zəhmətsevərlik A.A.Nadirovu respublika iqtisadiyyatının ən kəskin və aktual problemlərindən biri olan məhsuldar qüvvələrin yerləşdirilməsinin tədqiqatçısı kimi nəinki Azərbaycanda, həm də onun hüdudlarından çox-çox kənarlarda tanıtmışdır.

Asəf Nadirovun tədqiqatlarını nəzərdən keçirdikdə onun elmi maraq və fəaliyyət dairəsinin olduqca geniş və çoxcəhətli olduğu dərhal gözə çarpır. Onun əsərləri Azərbaycan iqtisadiyyatının inkişafının aktual problemlərinə və xüsusilə də məhsuldar qüvvələrin yerləşdirilməsi, şəhərlərin və regionların inkişafı, sənaye qovşaqları və ərazi-



istehsal komplekslərinin səmərəli formalaşması, ərazi planlaşdırma və iqtisadi rayonlaşdırma, sənayenin inkişafı və səmərəli yerləşdirilməsi kimi respublikamız üçün həmişə aktuallıq kəsb edən problemlərə həsr olunmuşdur. Məhz bu istiqamətdə respublikamızda ilkin olaraq apardığı tədqiqatlar A.A.Nadirovu ölkəmizdə və onun hüdudlarından kənarda görkəmli iqtisadçı alimlərdən və elmin təşkilatçılarından biri, regional iqtisadiyyatın tədqiqi sahəsində Azərbaycan məktəbinin banisi kimi tanıtdırmışdır.

A.A.Nadirov aspirant olduğu vaxtlarda, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatına dair nəşr etdirdiyi məqalələrilə özünün regional iqtisadiyyat üzrə bacarıqlı tədqiqatçı olduğunu sübut etmişdir. Namizədlik dissertasiyasının müdafiəsindən sonrakı ilk illərdə o, İttifaq alimləri ilə birlikdə bir sıra müştərək məqalələr nəşr etdirmiş və həmin vaxtdan keçmiş İttifaqda regional tədqiqatçı, iqtisadçı alim kimi diqqət çəkmişdir.

Qeyd edildiyi kimi, A.A.Nadirov hansı vəzifədə işləməsindən asılı olmayaraq, öz elmi taleyini İqtisadiyyat İnstitutuna bağlamış və burada özünün geniş və çoxcəhətli elmi axtarışlarını dərinləşdirmiş, iqtisadiyyat sahəsində sanballı əsərləri ilə tədqiqatçıların və dövlət strukturlarının maraq dairəsində olmuşdur.

Respublika iqtisadçıları arasında ilk dəfə olaraq A.A.Nadirov ötən əsrin 60-cı illərində şəhər iqtisadiyyatının tədqiqinə önəm vermiş, xırda və orta şəhərləri müəyyənləşdirmiş və onların ən perspektivlilərinin regional mədəni-iqtisadi mərkəz kimi formalaşmasının zəruriliyini elmi cəhətdən əsaslandırmışdır. Bu ideyalar sonrakı illərdə

respublikada düzgün regional siyasət yeridilməsində, xırda və orta şəhərlərin inkişafında müsbət rol oynamışdır. Onun perspektivli xırda və orta şəhərlərin elə səviyyədə inkişaf etdirilməsi ideyasını irəli sürürdü ki, onlar regionların yerli ehtiyat və imkanlarından tam və səmərəli istifadəyə xidmət edə bilsin.

Respublikadaxili iqtisadi rayonlaşdırma və ərazi planlaşdırmanın təkmilləşdirilməsi məsələlərinin kompleks şəkildə tədqiqi də A.A.Nadirovun elmi yaradıcılığında mühüm yer tutur. Hələ 1958-ci ildə apardığı tədqiqatı ümumiləşdirərək A.A.Nadirov B.Əbdürəhmanov və başqaları ilə birlikdə Azərbaycanın iqtisadi rayonlaşmasının təkmilləşməsi ideyasını irəli sürmüşdür. O, işləyib hazırladığı müvafiq elmi prinsipləri əldə rəhbər tutaraq ilk olaraq yeni iqtisadi rayonlar şəbəkəsinin yaradılmasını təklif etmişdir.

A.A.Nadirov sonralar bu problemə öz yaradıcılığında dəfələrlə müraciət etmiş və 60-cı illərdə ərazi-istehsal komplekslərini tədqiq edərək ilk dəfə olaraq DQMV-nin iqtisadi rayon tələblərinə cavab vermədiyini sübut etmiş və onun Ağdam-Stepanakert (Xankəndi) iqtisadi rayonunun tərkibinə daxil edilməsi fikrini irəli sürmüşdür. Lakin çox təəssüflər olsun ki, bu fikir lazımi dairələrdə düzgün anlaşılmamış və reallaşmamışdır.

90-cı illərin əvvəllərində A.A.Nadirovun yaxından iştirakı ilə respublikanın iqtisadi rayonlaşmasının təkmilləşdirilməsi məsələsi Azərbaycan EA İqtisadiyyat və Coğrafiya institutlarının, İqtisadiyyat Nazirliyinin, İqtisadi İslahatlar Mərkəzinin və başqa müvafiq elm və tədris müəssisələrinin



yüksək ixtisaslı mütəxəssislərinin iştirakı ilə müzakirə olunmuşdur. Son nəticədə onun bir sıra mütəxəssislərlə (B.Ə. Budaqov, Ə. X. Nuriyev, K. S. Hüseynov, T. Q. Həsənov və i a.) birlikdə hazırladığı yeni iqtisadi rayonlaşma şəbəkəsi təklif olunmuşdur. Təklif olunan yeni iqtisadi rayonlaşma şəbəkəsi 1996-cı ildən başlayaraq Təhsil Nazirliyinin sərəncamı ilə orta məktəblərdə coğrafiyanın tədrisində, habelə elmi-tədqiqat işlərində istifadə olunur.

Bütün elmi fəaliyyəti dövründə A.A.Nadirovun yaradıcılığının ana xəttini sənayenin-inkişafı, onun quruluşunun təkmilləşdirilməsi və səmərəli yerləşdirilməsi problemləri təşkil etmişdir və indi də təşkil edir. Akademik A. Nadirov hələ özünün ilk tədqiqatlarında ipəkçiliyin və ipək sənayesinin səmərəli inkişafı üçün respublikada geniş təbii imkanların, əhalinin böyük istehsal təcrübəsi və tarixi ənənələrinin mövcud olduğunu əsaslandırmışdır.

60-cı illərin əvvəllərində A.A.Nadirovun rəhbərliyi və fəal iştirakı ilə Azərbaycanın yeyinti sənayesinin inkişafı və yerləşdirilməsi problemləri tədqiq olunmuşdu. Kollektiv monoqrafiya kimi nəşr edilən bu iş (Azərbaycanın yeyinti sənayesi. Elm, 1963,437 s.) həmin dövrdə iqtisad elmində mühüm nailiyyət kimi qeyd edilmişdir. Sonrakı illərdə bu monoqrafiyanın materiallarından Azərbaycanda yeyinti sənayesinin inkişaf proqnozları işlənib hazırlanarkən istifadə olunmuş və həmin monoqrafiyanın materialları əsasında Bakıda keçmiş SSRİ-nin tanınmış alimlərinin iştirakı ilə böyük elmi-praktik konfrans keçirilmişdir.

A.A.Nadirov 1968-ci ildə "Azərbaycanda sənayenin səmərəli yerləşdirilməsinin iqtisadi problemləri" mövzusun-

da doktorluq dissertasiyası müdafiə etmişdir. Dissertasiyada irəli sürülmüş və əsaslandırılmış elmi müddəalar, təklif, fikir və ideyaların bir çoxu sonrakı illər ərzində öz tətbiqini tapmış və bir çox elmi fikirlər bu gün də öz aktuallığını saxlayır.

Azərbaycan dövlətinin məhsuldar qüvvələrin daha səmərəli yerləşdirilməsi, sənayenin sahə quruluşunun mütərəqqi istiqamətdə təkmilləşdirilməsi üçün gördüyü tədbirləri əldə rəhbər tutaraq A.A.Nadirov 70-ci illərdə öz tədqiqatlarını daha da dərinləşdirmiş və 1976-cı ildə nəşr etdirdiyi "Azərbaycanda sənayenin səmərəli yerləşdirilməsinin iqtisadi problemləri" adlı böyük həcmli monoqrafiyasında (Bakı, Elm, 1976, 15,9 ç.v.) ümumiləşdirmişdir. Bu kitab o zaman elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmiş və SSRİ EA-nın hesabatına daxil edilmişdir. Kitabda respublikadaxili iqtisadi rayonlarda sənayenin inkişaf etdirilməsinin obyektiv əsaslarına aid zəngin materiallar təhlil edilib ümumiləşdirilməklə həmin dövr üçün çox aktual olan belə bir düzgün nəticə çıxarılmışdır ki, respublikamızın iqtisadi rayonlarında sənayenin sonrakı kompleks və səmərəli inkişafı üçün əlverişli zəmin artıq yaranmışdır. Müəllif həmçinin respublikadaxili iqtisadi rayonlarda sənayenin inkişaf səviyyəsinin müəyyən edilməsi metodikasını, sənaye sahələrinin iqtisadi təyinatına görə qruplaşdırılması və inkişaf səviyyəsinin müəyyən edilməsi üsulunu nəzəri-metodoloji əsaslarını tədqiq etmiş, iqtisadi rayonlarda sənayenin gələcək səmərəli inkişafına dair praktiki əhəmiyyət kəsb edən bir sıra mühüm müddəa və fikirlər irəli sürmüşdür.



A.A.Nadirovun sənayeyə həsr olunmuş bu və ya digər əsərlərində respublikada sənayenin tarixi inkişaf mərhələləri müəyyən edilmiş və müxtəlif xarakterli zəngin materialları sistem halında təhlil etmək əsasında hər mərhələdə onun ərazi üzrə yerləşməsi və inkişafı vəziyyəti qiymətləndirilmişdir. Müəllif haqlı olaraq belə bir həqiqəti sübut etmişdir ki, Azərbaycan sənayesinin iqtisadi rayonlarda inkişafında əsas irəliləyiş Böyük Vətən müharibəsindən sonrakı dövrdə və xüsusilə də Ulu öndər H.Əliyevin Azərbaycan KPMK-nin birinci katibi olduğu 70-80-ci illərdə baş vermişdir.

A.A.Nadirovun əsərlərində Azərbaycan sənayesinin inkişafı və ərazi üzrə yerləşdirilməsinin vəziyyəti ətraflı təhlil edilmiş, onun mövcud inkişaf səviyyəsi, ümumi iqtisadi səmərəlilik, mütərəqqi sahə quruluşu və yerli xammaldan kompleks istifadə edilməsi baxımından qiymətləndirilməsi ilə diqqəti çəkmişdir.

A.A.Nadirovun əsərlərində respublika sənayesinin yaxın və uzaq gələcəkdə iqtisadi rayonlar üzrə dərin ixtisaslaşması, kompleks və səmərəli inkişafı, istehsalın daha optimal yerləşdirilməsi istiqamətləri müəyyən edilmişdir. Bu baxımdan o, 70-80-ci illərdə dərc olunmuş əsərlərində respublika sənayesinin yerli xammalın hasilatı ilə bağlılığının imkan daxilində məhdudlaşdırılmasının, əməktutumlu sahələrin üstün inkişafının, eyni zamanda respublikada istifadə olunan bir çox yerli xammal ehtiyatlarının kompleks halda emalının həyata keçirilməsinin, ümumiyyətlə sənayenin həm iqtisadi rayonlarda, həm də respublikada bütövlükdə kompleks inkişaf səviyyəsini yüksəltməyin və

ixtisaslaşdırılmasının dərinləşməsinin zəruriliyini və yollarını inandırıcı şəkildə əsaslandırmışdır. İndi Azərbaycanda bazar münasibətləri yenicə inkişafa başladığı bir vaxtda A.A.Nadirovun həllini zəruri hesab etdiyi məsələlər daha böyük aktuallıq kəsb edir.

1981-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

A.A.Nadirov öz tədqiqatlarında həmçinin sənayedə elmi-texniki və texnoloji tərəqqi problemlərinə həmişə böyük diqqət yetirmişdir. O, 80-ci illərdə "Azərbaycan SSR-in elmi-texniki tərəqqisinin kompleks proqramı"nın işlənib hazırlanmasının əsas rəhbərlərindən və icraçılarından biri olmuşdur. Bu sahədə görülmüş işlər keçmiş SSRİ EA, SSRİ Dövlət Plan Komitəsi və Dövlət Tikinti Komitəsi tərəfindən müsbət qiymətləndirilmiş və respublikanın bir çox alimlərilə birlikdə ona təşəkkür elan edilmişdir. A.A.Nadirovun sənaye sahəsində apardığı tədqiqatların bu və ya digər nəticələri Azərbaycan Respublikasında ayrı-ayrı dövrlərdə məhsuldar qüvvələrin inkişafı və sənayenin ərazi təşkili, plan və proqnozlarının işlənib hazırlanmasının əsasını qoymuşdur.

1989-cu ildə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. 90-cı illərdə A.A.Nadirovun elmi-tədqiqat fəaliyyəti daha da genişlənmiş və çoxcəhətli olmuşdur. Bu illərdə onun yaradıcılığının əsas istiqamətini müstəqillik qazanmış Azərbaycan Respublikasının bazar münasibətlərinə keçməsi xüsusiyyətləri və mərhələləri, iqtisadi müstəqilliyinin qorunub saxlanması və möhkəmləndirilməsi ilə əlaqədar vacib məsələlər təşkil etmişdir. O, Azərbaycan iqtisadiyyatının düşdüyü dərin böhranın təhlilinə, onun



səbəbləri və xarakterinin açılmasına özünün bir sıra əsərlərində xüsusi diqqət yetirmişdir.

Son üç-dörd ildə onun apardığı elmi-tədqiqat işlərində və dövri mətbuatda çap olunmuş elmi əsərlərində Azərbaycanın gələcək iqtisadi inkişafına bir baxış, iqtisadi islahatların Çin yolu, mülkiyyət münasibətlərinin formalaşması, Azərbaycanın bazar iqtisadiyyatına keçməsi və dünya iqtisadiyyatına inteqrasiyası, bu istiqamətdə neft kontraktlarının mahiyyətinin və əhəmiyyətinin açılması, iqtisadiyyatın gələcək inkişaf yollarının müəyyənləşdirilməsi, iqtisadi islahatlar sahəsində qabaqcıl ölkələrin təcrübəsinin təhlili və yayılması kimi aktual məsələlər mühüm yer tutur.

Akademik A.A.Nadirov həmişə respublikamızda gedən iqtisadi hadisə və prosesləri dərindən duymuş, iqtisadiyyatın səmərəli inkişafı mənafeyinin iqtisad elmi qarşısında qoyduğu problemləri vaxtında dərk etmiş və onların həlli yollarını öz əsərlərində aydın göstərə bilmişdir.

Asəf müəllim uzun illərdir ki, həm respublikamızda, həm də onun hüdudlarından xeyli kənarlarda, Yaxın və Uzaq xarici ölkələrdə Azərbaycan elminin, xüsusilə iqtisad elminin nailiyyətlərini nümayiş etdirir və bu işin əsas təşkilatçılarından və təbliğatçılarından biri kimi səmərəli fəaliyyət göstərir.

O, 1958-1992-ci illərdə (34 il) Azərbaycan EA İqtisadiyyat İnstitutunda şöbə müdiri, eyni zamanda 1964-1981-ci illərdə həmin institutda elmi hissə üzrə direktor müavini, 1981-ci ildən 1990-cı ilədək Azərbaycan EA Rəyasət Heyətində baş elmi katib, 1990-1998-ci illərdə Akademiyanın akademik-katibi vəzifələrində işləməklə

böyük elmi təşkilatçılıq qabiliyyətinə malik olduğunu sübut etmişdir.

Bütün bunlarla yanaşı, A.A.Nadirov uzun illər bir sıra məsul vəzifələri ictimai əsaslarla icra etmiş və indi də edir. O, EA İqtisadiyyat İnstitutu nəzdində yaradılmış, iqtisad elmləri doktoru elmi dərəcəsi verən vaxtilə respublikada yeganə ixtisaslaşmış müdafiə şurasının 1980-1989-cu illərdə sədr müavini, 1990-1998-ci illərdə isə sədri olmuşdur. Bütün bu vəzifələrdə işləyərkən A.A.Nadirov geniş ictimai-siyasi və təşkilati iş aparmış, elmin inkişafında, elmi kadrların seçilməsi və hazırlanmasında, dissertasiyaların obyektiv müzakirəsi və müdafiəsinin keçirilməsində müstəsna rol oynamışdır. Akademik A. A. Nadirovun bilavasitə rəhbərliyi ilə 50 elmlər namizədi və 5 elmlər doktoru hazırlanmışdır. Hazırda o, 5 aspiranta müvəffəqiyyətlə rəhbərlik edir.

A.A.Nadirov keçmiş İttifaq məkanında, xüsusilə Azərbaycanda iqtisad elminin aktual nəzəri-metodoloji və təcrübi problemlərinin tədqiqinə həsr olunmuş 800-dən çox elmi əsərin, o cümlədən monoqrafiya, kitab və kitabçanın müəllifidir. Bu əsərlərin bir hissəsi sabiq ittifaqda və başqa xarici ölkələrdə nəşr olunmuşdur. Respublikanın iqtisadi ədəbiyyatında onun ilk dəfə 1965-ci ildə çap olunmuş "Sosialist istehsalının yerləşdirilməsi" (rus dilində) və 1966-cı ildə nəşr edilmiş "Azərbaycan şəhərlərinin iqtisadi inkişaf məsələləri" (rus dilində) adlı fundamental əsərlərində ərazi-istehsal kompleksinin istehsalın ərazi təşkilinin səmərəli forması olması ilə bağlı bir sıra prinsipial nəzəri-metodoloji məsələlər tədqiq olunmuş, respublikada formalaşan ərazi-



istehsal kompleksləri və onların formalaşması səviyyəsi müəyyən edilmişdir.

A.A.Nadirov 1966-1981-ci illərdə "Azərbaycan SSR Elmlər Akademiyası Xəbərləri "İqtisadiyyat" seriyasının baş redaktor müavini, 1981-ci ildən hazırkı dövrədək həmin jurnalın baş redaktoru vəzifəsində işləyir. Bütün bu müddət ərzində o, elmi məqalələrin dövrün aktual problemlərinə uyğun olaraq seçilməsinə, vaxtında və keyfiyyətlə çap olunmasına, gənc alimlərin, aspirantların məqalələrinin qəbul olunmasına və çap edilməsinə ciddi diqqət yetirir. O, bir çox qəzet və jurnalların, o cümlədən beynəlxalq "*Общество и экономика*" jurnalının redaksiya heyətinin üzvüdür.

A. Nadirov yuxarıda qeyd edildiyi kimi görkəmli tədqiqatçı alim olmaqla bərabər, həm də elmi işləri tədrislə sıx əlaqələndirməyi bacaran gözəl müəllimdir. O, 40 ilə yaxındır ki, Azərbaycan Dövlət Universitetində (hazırda Bakı Dövlət Universiteti), son illərdə habelə başqa ali məktəblərdə müxtəlif iqtisadi fənlərdən mühazirələr oxuyur. Ali məktəblər üçün bir sıra dərsliklərin yazılmasında müvafiq bölmələrin müəllifi kimi iştirak etmiş və elmi redaktoru olmuşdur.

Asəf Nadirov uzun illər həm keçmiş İttifaq respublikalarında, həm də bir çox xarici ölkələrdə (Fransa, Hindistan, Türkiyə, İran, Almaniya, Yunanıstan, Macarıstan, Belçika və s.) keçirilən beynəlxalq simpozium və elmi konfranslarda Azərbaycan iqtisad elmini layiqincə təmsil etmişdir. Bundan başqa o, Azərbaycanda keçirilən çoxsaylı beynəlxalq, regional və respublika elmi forum, simpozium

və konfranslarının əsas təşkilatçılarından biri kimi əsas məruzələrlə çıxış etmişdir.

A.Nadirovun əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. O, bir çox orden və medallara, fəxri fərmanlara layiq görülmüşdür.





## Ələsgərov Ağasəlim Kərim oğlu

A.K.Ələsgərov 1928-ci ildə fəhlə ailəsində anadan olmuşdur. 1946-cı ildə K.Marks adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutuna daxil olmuş və 1950-ci ildə oranı müvəffəqiyyətlə bitirərək, kənd təsərrüfatının iqtisadiyyatı üzrə ixtisasa yiyələnmişdir.

Həmin il o, dövlət bölgüsünə əsasən Bakı şəhəri Xalq Deputatları Sovetinin plan komissiyasında işə göndərilmiş və 1953-cü ilədək burada iqtisadçı, baş iqtisadçı, mənzil-kommunal, əsaslı tikinti şöbələrinin müdiri və Bakı şəhəri uçot-inventarizasiya idarəsinin rəhbəri vəzifələrində çalışmışdır. Respublika direktiv orqanlarının təklifi ilə o, SSRİ Nazirlər Sovetinin qərarı ilə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində yaradılmış siyasi iqtisad, fəlsəfə, marksizm-leninizm müəllimləri hazırlayan xüsusi məktəbi bitirmiş və SSRİ ali məktəblərində həmin fəndən dərs demək hüququ qazanmışdır.

A.K.Ələsgərov sonra M.Ə.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun "Siyasi iqtisad" kafedrasında müəllimlik etməklə yanaşı, Bakı Şəhər Soveti İcraiyyə Komitəsində də çalışır. Elmə olan böyük arzusunu nəzərə alaraq, Azərbaycan EA Rəyasət heyəti onu yenidən Moskva şəhərinə SSRİ EA-nın İqtisadiyyat İnstitutunun aspiranturasına göndərir. 1958-ci ildə A.K.Ələsgərov ilk dəfə SSRİ-də "Pambığın maya dəyəri və onun aşağı salınması yolları" (kolxozların

timsalında) mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edir və ona iqtisad elmləri namizədi, elmi dərəcəsi verilir. Bu zaman A.K.Ələsgərov SSRİ-də iqtisad elminin flaqmanı olan bu institutun aparıcı aqrar alimlərinin diqqətini cəlb edir. SSRİ dağılana kimi o, həmin institutun kollektivi ilə fəal əməkdaşlıq etmiş. SSRİ EA-nın aqrar münasibətlər, dünya sosialist sistemi elmi şuralarına üzv seçilmişdir.

Azərbaycan EA-nın iqtisadiyyat bölməsində kiçik elmi işçi vəzifəsinə təyin edilən Ağasəlim müəllim 1958-1967-ci illərdə Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda elmi katib işləyir. 1967-74-cü illərdə isə A.K.Ələsgərov həmin institutun "Siyasi iqtisadın ümumi problemləri" şöbəsinə rəhbərlik etmişdir. 1961-ci ildə ona SSRİ Ali Attestasiya Komissiyası tərəfindən böyük elmi işçi adı verilir. 1968-ci ildə "Kənd təsərrüfatının ixtisaslaşması və onun iqtisadi effektliyi" mövzusunda dissertasiya müdafiə edərək iqtisad elmləri doktoru elmi adına yiyələnir 1989-cu ildən isə professor A.K.Ələsgərov Azərbaycan EA-nın müxbir üzvüdür.

Onun elmi marağı və elmi-tədqiqat miqyası çox geniş və rəngarəngdir. Belə ki, son 25 il ərzində A.K.Ələsgərov "Nəqliyyat iqtisadi əlaqələrinin səmərəliliyi", "Xalq təsərrüfatı komplekslərinin optimallaşdırılması", "Şəhər və kənd arasında sosial-iqtisadi fərqlərin aradan götürülməsi", "Aqrar problemlər" şöbələrinə rəhbərlik etmişdir. 1981-ci ildə institutun direktor müavini vəzifəsinə irəli çəkilir. 1989-cu ildən 1998-ci ilədək həmin institutun direktoru, "Xarici ölkələrlə iqtisadi əlaqələr" şöbəsinə rəhbərlik edərək intensiv



elmi-tədqiqat işlərini davam etdirir. Eyni zamanda ölkəmiz müstəqillik qazanan ilk günlərdən o, bazar iqtisadiyyatı münasibətlərinə keçid və iqtisadi islahatların aparılması ilə də məşğul olur.

A.K.Ələsgərov yuxarıda göstərilən şöbələrdə çalışarkən bir sıra prioritet əhəmiyyətli problemləri kompleks tədqiq etmişdir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, o, direktiv orqanların təklifi ilə 1974-1978-ci illərdə D.Bünyadzadə adına Xalq Təsərrüfatı İnstitutunda elmi işlər üzrə prorektor və "Siyasi iqtisad" kafedrasının müdiri vəzifələrində işləyərək, institutda elmi-tədqiqat işlərinin təşkili və yüksək ixtisaslı kadrların - ali təhsilli iqtisadçıların, elmlər namizədlərin və elmlər doktorlarının hazırlanması ilə məşğul olur. Bu işdə özünü yalnız müsbət cəhətdən göstərdiyi üçün direktiv təşkilatlar onun bilavasitə elmi-tədqiqat işləri ilə məşğul olmaq arzusunu nəzərə alaraq, müsabiqə yolu ilə Azərbaycan SSR EA-nın İqtisadiyyat İnstitutuna keçməsinə icazə vermiş və o, ötən dövr ərzində bu sahədə müvəffəqiyyətlə çalışmaqdadır.

Ağasəlim Ələsgərovun iqtisad elminin tədqiqi və respublikanın sosial-iqtisadi inkişafı sahəsində maraq dairəsi rəngarəng olmaqla çox genişdir. O, elmi fəaliyyətinin başlanğıcından SSRİ-də aqrar sahənin ən kəskin və aktual problemlərindən biri olan kolxozlarda maya dəyərinin hesablanması metodikasının ilk dəfə ölkədə işlənilməsi, istehsal edilən kənd təsərrüfatı məhsullarınm xərclərinin aşağı salınması yolları, istehsal vahidlərinin daxili təsərrüfat hesabına keçirilməsinə dair nümunəvi əsasnamənin işlənməsi, maddi maraq prinsipinin tətbiqi, əmək məhsul-

darlığının yüksəldilməsi, kənd təsərrüfatı işlərinin normaları, onların qiymətləri, əsas və əlavə əmək haqları verilməsi qaydaları və digər vacib məsələlərin tədqiqi ilə intensiv məşğul olmuşdur.

1955-1956-cı illərdə A.K.Ələsgərov SSRİ EA-nın İqtisadiyyat İnstitutunda ölkənin ən məşhur nəzəriyyəçi və aqrarçı alimləri ilə birlikdə ilk dəfə iqtisadiyyat elmində kolxozlarda maya dəyəri kateqoriyasının obyektiv olaraq, zəruriliyini və hesablanması üsulunun işlənməsinin mümkünlüyünü isbat etmişdir. O, 1957-ci ildə nəşr etdirdiyi "Kolxozlarda pambığın və taxılın maya dəyərinin hesablanması məsələləri" əsərində maya dəyərinin hesablanmasının elmi baxımdan iqtisadi əsasını və prinsiplərini göstərmişdir. Sonra problemin ən ağır və mürəkkəb məsələsi olan əmək haqqı xərclərinin müəyyənləşdirilməsi üçün əmək günlərinin sistemlə dəqiq hesablanması və onların qiymətləndirilməsini işləmişdir. Müəllif problemin həllinə nail olmaq üçün istehlak edilmiş istehsal vasitələrinə çəkilən xərcləri müəyyənləşdirmək məqsədilə təsərrüfatın özünün istehsal etdiyi məhsullardan sərf edilən hissənin qiymətləndirilməsi üsulunu tədqiq edərək, maşın-traktor stansiyalarının gördüyü işlər üçün sərf edilən xərcləri aydınlaşdırmış, toxum, iş heyvanlarına yem xərcləri, pul məsrəfləri, amortizasiya fondunun hesablanması və yaradılması yollarını göstərməklə yanaşı, təsərrüfatlarda başa çatdırılmış istehsalı müəyyənləşdirdikdən sonra kolxozlarda maya dəyərinin hesablanması metodikasının respublikada ilk dəfə işlənməsini başa çatdıraraq, bu vacib iqtisadi kateqoriyanın (göstəricinin) tərkibi və kalkulyasiyasını vermişdir.



1960-cı ildə onun "Kolxozlarda pambığın maya dəyərinin aşağı salınması yolları", 1963-cü ildə "Kənd təsərrüfatı məhsullarının maya dəyəri və onun aşağı salınması yolları" və başqa kitabları nəşr edilmişdir.

A.K.Ələsgərov respublikada ilk dəfə kolxozlarda istehsal vahidlərinə (briqadalarda, fermalarda, yardımçı müəssisələrdə və digər təsərrüfat bölmələrində) daxili təsərrüfat hesabının tətbiqi üçün göstərilən sahədə tədqiqat işləri aparır və bir sıra elmi əsərlər çap etdirir. Onlardan "Kolxozlarda təsərrüfat hesabının tətbiq edilməsi və maddi maraq prinsipinin bəzi məsələləri", "Azərbaycan SSR kolxozlarında daxili təsərrüfat hesabına dair nümunəvi əsasnamə və onun tətbiq edilməsi üzrə metodiki göstərişlər" və başqalarını göstərmək olar.

Müəllif müəssisədaxili təsərrüfat hesabının konkret vəzifələrini müəyyənləşdirmiş, təsərrüfat hesablı bölmələrin tərkibini vermiş, təsərrüfat hesablı istehsal vahidlərinin qarşılıqlı münasibət qaydaları və kolxozun idarə heyəti ilə onların əlaqəsi, məhsul çıxımının artırılması üzrə əsas təşkilat-texniki tədbirlər planının tərtibi qaydalarını və istehsalat vahidlərinə məsariflərin limitinə dair təsərrüfat hesabı tapşırıqlarının verilməsi metodikasını işləmişdir.

İstehsal vahidlərində daxili təsərrüfat hesabının konkret olaraq tədqiq edilməsinin tam təmin edilməsi məqsədilə A.K.Ələsgərov respublikanın bir sıra aqrar sahədə çalışan alimləri ilə birlikdə "Azərbaycan SSR kolxozlarında əsas kənd təsərrüfatı işlərinin təxmini normaları, onların qiymətləri, əsas və əlavə əmək haqqı verilməsi qaydaları"nı işləyib təsərrüfatlarda tətbiq etmişlər. (Bu əsər Azərbaycan

KP MK-nın kənd təsərrüfatı istehsalına rəhbərlik üzrə bürosunun 1963-cü il fevralın 25-də keçirilmiş iclasında bəyənilmiş və 1963-cü ildən tətbiq olunması kolxozlara tövsiyə edilmişdir).

Müəllifin bu problemə həsr etmiş olduğu "Kolxozlarda təsərrüfat hesabının tətbiq edilməsi və maddi maraq prinsipinin bəzi məsələləri" adlı digər kitabında isə problemin elmi tərəfləri ətraflı açıqlanmışdır. A.K.Ələsgərovun 60-70-ci illərdə diqqətini cəlb edən məsələlərdən biri də respublikamızda pambıqçılığın iqtisadi səmərəliliyinin yüksəldilməsi idi. Belə ki, "Azərbaycan SSR-də pambığın tədarük qiymətinin yaxşılaşdırılması məsələləri" adlı elmi əsaslandırılmış tövsiyə 1962-ci ildə Azərbaycan KP MK və Nazirlər Sovetinə təqdim edilmişdir. Həmin il Daşkənd şəhərində pambığın dövlət tədarükü qiymətlərinə həsr edilmiş Ümumittifaq müşavirəsində bu məsələ müəllif tərəfindən yenidən əsaslandırılmış və SSRİ hökuməti tərəfindən nəzərə alınmışdır. 1963-cü ildə ilk dəfə respublikada nəşr edilmiş "Azərbaycan SSR-in pambıqçılıq təsərrüfatlarında əmək məhsuldarlığı və onun yüksəldilməsi yolları"na həsr edilmiş kollektiv monoqrafiyada "Canlı və əşyalaşmış əməyə qənaət və əmək məhsuldarlığı" adlı mürəkkəb fəsildə istehsal xərclərinin formalaşmasının anatomiyasını tədqiq edərək, ayrı-ayrı maddələr üzrə zəruri proporsiyaları göstərməklə onların səmərəli aşağı salınması yolları və bu prosesin əmək məhsuldarlığının yüksəldilməsinə təsiri səviyyəsinin mexanizmi verilmişdir.

1965-ci ildə Azərbaycanda A.Ə.Ələsgərovun iştirakı ilə ilk dəfə müəlliflər kollektivi tərəfindən "Kolxoz və sovxoz



iqtisadçısının məlumat kitabı"nın nəşr edilməsi mühüm əhəmiyyət kəsb etmişdir.

İqtisadi biliyin və qabaqcıl təcrübənin yayılması üçün A.K.Ələsgərov Azərbaycanın görkəmli iqtisadçı alimləri ilə birlikdə bir sıra mühüm əhəmiyyətə malik əsərlər hazırlayıb nəşr etdirmişdir. Bunların arasında "İqtisadi bilik sosialist təsərrüfatçılığında mühüm vasitədir", "Qabaqcıl təcrübə bol və ucuz məhsulun mənbəyidir" və başqalarını göstərmək olar.

"Azərbaycan SSR iqtisadiyyatının çiçəklənməsi" monoqrafiyasında kənd təsərrüfatı bölməsini işləyərək, müəllif ən vacib sahədə baş vermiş müsbət kəmiyyət və keyfiyyət dəyişikliklərinin dinamikasını kompleks təhlil edərək göstərməklə yanaşı, həll edilməsinə çox böyük ehtiyac olan təxirəsalınmaz problemlərə də diqqəti cəlb edir. Həmin illərdə məsələlərin bu formada qoyulmasına rəhbərlik tərəfindən heç də müsbət münasibət bəslənilmədiyi bir şəraitdə A.K.Ələsgərov obyektivliyi ön plana çəkir.

Onun elmi rəhbərliyi və bilavasitə iştirakı ilə çap edilmiş "Müasir dövrdə Azərbaycan sovet kəndində ictimai-iqtisadi irəliləmələr" monoqrafiyası respublikada bu problem üzrə ilk əsər idi. Əsərdə şəhərlə kənd arasındakı əkslik və fərqlərin mahiyyəti, onların aradan qaldırılması yolları tədqiq edilmişdir.

"Kənd təsərrüfatı istehsalının səmərəli ixtisaslaşdırılması məsələləri", "Azərbaycan SSR-nin Qərb zonasında kənd təsərrüfatının ixtisaslaşdırılması" və 1969-cu ildə nəşr edilmiş "Kənd təsərrüfatının ixtisaslaşması və onun iqtisadi effektivliyi" əsərlərində bu problemin metodoloji, metodik və konkret məsələlərini kompleks işləmişdir.

Müəllif kənd təsərrüfatı istehsalının və eləcə də üzümçülük aqrar-sənaye kompleksinin kəmiyyət və keyfiyyət baxımından inkişafını təhlil edərək, onun iqtisadi səmərəliliyini və perspektivini işləmişdir. Bu baxımdan "Azərbaycan SSR-in üzümçülük xalq təsərrüfatı kompleksi" kitabının nəşr edilməsi maraqlıdır. Əsərdə ilk dəfə olaraq respublikada üzümçülük xalq təsərrüfatı kompleksinin formalaşmasınm zəruriliyi, onun müasir vəziyyəti tədqiq edilir, iqtisadi cəhətdən qiymətləndirilir və gələcək istiqamətləri elmi baxımdan əsaslandırılır.

"Ərzaq proqramı və onun həyata keçirilməsi yolları" adlı əsərində respublikada ərzaq məhsullarına tələbatı müəyyənləşdirərək, ərzaq proqramının həyata keçirilməsi yollarını və istiqamətlərini tədqiq etmiş, aqrar-sənaye kompleksinin maddi-texniki bazasının inkişaf yollarını və kəndin sosial-məişət həyat şəraitinin yaxşılaşdırılması istiqamətlərini müəyyənləşdirmişdir.

Ağasəlim müəllimin birbaşa rəhbərliyi və bilavasitə iştirakı ilə hazırlanıb nəşr edilmiş "Azərbaycan SSR-in respublikalararası nəqliyyat-iqtisadi əlaqələrinin təkmilləşdirilməsinin bəzi məsələləri" adlı kollektiv monoqrafiyada ictimai istehsalın inkişaf sürətinin artırılması və onun səmərəliliyinin yüksəldilməsinin nəqliyyat-iqtisadi əlaqələrin qarşısında duran kompleks vəzifələrin tam yerinə yetirilməsi ilə əlaqədar olduğunu müəyyənləşdirərək, müəllif bu vəzifələrin həlli istiqamətləri aydınlaşdırılır.

Respublikada regional iqtisadiyyatın aqrar bölmələri sahəsində müəllifin elmi-tədqiqat işlərinin nəticələri müvafiq



direktiv orqanlar tərəfindən yüksək qiymətləndirilərək tətbiq üçün qəbul edilmişdir.

Azərbaycan SSR-in elmi-texniki tərəqqisinin 1986-2005-ci illər üçün kompleks proqramının mühüm hissəsi olan respublikanın xalq təsərrüfatının əsas istiqamətlərinin işlənməsində aparıcı müəlliflərdən biri kimi, A.K.Ələsgərov perspektivdə Azərbaycanın sosial-iqtisadi inkişafının sürətləndirilməsi, mülahizə və konsepsiyanın işlənməsinə də ciddi diqqət vermiş və böyük əmək sərf etmişdir. O, eyni zamanda respublikanın görkəmli iqtisadçı alimləri ilə birlikdə Azərbaycanın iqtisadi suverenliyi haqqında konstitusiya qanununun, eləcə də Azərbaycan Respublikasının iqtisadi müstəqilliyi, özünümaliyyələşdirmə və təsərrüfat hesabına keçirilməsi proqramlarının hazırlanmasında iştirak edir.

90-cı illərdə müstəqillik qazanmış Azərbaycan Respublikasının bazar iqtisadiyyatı münasibətlərinə keçməsi ilə əlaqədar olaraq müxtəlif məsələlərinə dair bir sıra elmi, nəzəri və praktiki əhəmiyyətli məqalələr yazıb çap etdirmişdir. Onlardan "Bazar iqtisadiyyatına keçidin aktual problemləri: nəzəri-metodoloji və sosial-iqtisadi aspektlər", "Bazar münasibətlərinə keçid və Azərbaycanın iqtisadi inkişafının bəzi problemləri", "Bazar münasibətlərinə keçid problemləri", "Keçid dövrünün iqtisadiyyatı: inkişaf yolu", "Müstəqil Azərbaycan Respublikası bazar iqtisadiyyatına keçid yollarında", "Azərbaycan Respublikasının köklü milli iqtisadi inkişaf problemlərinin həlli yolları" və digər əsərləri göstərmək olar.

Hazırda o, Azərbaycan Respublikasının İran İslam Respublikası ilə iqtisadi əlaqələrinin təkmilləşdirilməsi üzrə intensiv elmi-tədqiqat işi aparır. Müəllif xarici iqtisadi əlaqələrin elmi əsaslarını, istiqamətlərini, amillərini, prinsiplərini, meyar və göstəricilər sistemini öyrənməklə, yaxşılaşdırılması yollarını da müəyyənləşdirir. Onun Azərbaycan Respublikasının İranla xarici iqtisadi əlaqələrinə həsr edilmiş monoqrafiyası çapa hazırdır.

A.K.Ələsgərov Azərbaycan Respublikası, keçmiş İttifaq və habelə xarici ölkələrdə çap olunmuş bir neçə monoqrafiya, kitabça, 165 elmi məqalələnin, elmi tezislərin müəllifidir. Onların ümumi həcmi isə 300 çap vərəqindən çoxdur.

Azərbaycan Milli EA-nın müxbir üzvü A.K.Ələsgərovun əsərləri elmi ictimaiyyətə yaxşı tanışdır, onlar ABŞ, İngiltərə, Almaniya, Çexiya, Slovakiya, İran və digər ölkələrin nəşriyyatlarında çap olunmuşdur. Keçmiş İttifaqın və respublikanın mətbuat səhifələrində onun elmi əsərləri haqqında bir sıra müsbət rəylər dərc edilmişdir.

A.K.Ələsgərov iqtisadiyyat elminin daim inkişafını və onun prioritet təşkil edən problemlərinin gələcək istiqamətlərini dərk etməyi bacaran, gənclərə qarşı daim qayğıkeş olan şəxsiyyət kimi onların hazırlanmasında və ixtisaslarının artırılmasında böyük qüvvə və vaxt sərf edir. On illərdir ki, emi fəaliyyətini Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Neft Akademiyası, Bakı Dövlət Universiteti və digər ali məktəblərdə müəllimlik fəaliyyəti ilə əlaqələndirmişdir.

A.K.Ələsgərovun elmi rəhbərliyi ilə onlarla namizədlik və 2 doktorluq dissertasiyası müdafiə edilmişdir. Hazırda



namizədlik işi üzərində çalışan 3 aspirantın elmi rəhbəridir. Keçən dövr ərzində 16 doktorluq və 43 namizədlik dissertasiyasının müdafiəsi ilə əlaqədar respublika və digər MDB ölkələrində rəsmi opponent olmuşdur. A.K.Ələsgərov Moskva, Sankt Peterburq, Aşqabad, Tbilisi, Daşkənd, Bişkek, Minsk, Bakı şəhərlərində keçirilən Ümumittifaq konfrans və sessiyaların fəal iştirakçısı olmuşdur. Bundan başqa, o, Almaniya, Bolqarıstan, Çexoslovakiya, Macarıstan, Türkiyə, İran və digər ölkələrdə keçirilən beynəlxalq elmi forumlarda məruzələr və çıxışlar etmişdir.

A.K.Ələsgərov 1995-ci ildə Azərbaycan Respublikası Prezidentinin "Dövlət aqrar islahatı komissiyasının yaradılması haqqında" fərmanına əsasən həmin komissiyanın üzvü kimi, bir sıra əsaslı tədbirlərin hazırlanıb tətbiqində bilavasitə fəal iştirak etməkdədir. Bundan başqa Respublika Nazirlər Kabinetinin yaratmış olduğu "Statistikanın yeni sistemə keçirilməsi" hökumət komissiyasının üzvü kimi də daim fəaliyyət göstərməkdədir.

Azərbaycan Respublikası Milli Məclisində baxılmaq üçün onlarla qanun layihəsinin hazırlanması, Milli Məclisin iqtisadi siyasət daimi komissiyası və həmçinin büdcə məsələləri daimi komissiyalarının müzakirələrində müntəzəm olaraq yaxından iştirak edir.

A.K.Ələsgərov iqtisadiyyat elminin fəal təbliğatçısıdır. O, ölkəmizin müxtəlif bölgələrində onlarla elmi-nəzəri, elmi-praktik konfransın təşkilatçısı olmuşdur. O, keçmiş Ümumittifaq "Bilik" cəmiyyətinin, eləcə də Zaqafqaziya respublikalarının "Bilik" cəmiyyətlərinin Fəxri Fərmanları ilə təltif edilmişdir.

## Muradov Şahbaz Musa oğlu



Şahbaz Musa oğlu Muradov 10 avqust 1940-cı ildə Azərbaycan Respublikasının Laçın rayonunun Xumarta kəndində anadan olmuşdur. 1953-cü ildə Köhnəkənd 7 illik məktəbini bitirdikdən sonra, təhsilini Bakı Kooperativ texnikumunda davam etdirmiş və 1956-cı ildə həmin texnikumunu fərqlənmə diplomu ilə bitirərək Azərittifaq idarə heyətinin qərarı ilə K.Marks adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutuna göndərilmişdir. O, bu təhsil ocağına da imtahansız qəbul edilən Şahbaz Muradov 1959-cu ildə həmin institut ləğv edildiyindən Azərbaycan Dövlət Universitetinin iqtisadiyyat fakültəsində təhsilini davam etdirmişdir.

O, Bakı Kooperativ Texnikumunda təhsil aldığı vaxtdan «siyasi iqtisad» elminə böyük maraq göstərən Şahbaz Muradov hələ Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun 1-ci kursunda oxuyarkən İnstitutun tələbə elmi cəmiyyətinin üzvü olmuş, Azərbaycan Dövlət Universitetinin 3-cü kursunda oxuduğu vaxtda isə Universitetin «siyasi iqtisad» kafedrasının müdiri, məşhur iqtisadçı alim, professor Həsən Dadaşovla yaxından tanış olmuş və onun bilavasitə rəhbərliyi və köməkliyi ilə K.Marksın «Kapital» əsərini dərindən öyrənməyə və onu mənimsəməyə nail olmuşdur. Şahbaz Muradovun «siyasi iqtisad» elminə böyük maraq göstərməsini müsbət qiymətləndirən prof. Həsən Dadaşov onun bu elmin sirlərinə dərindən yiyələnməsinə



köməklik göstərmək məqsədilə o zaman «siyasi iqtisad» kafedrasının ən yaxşı siyasi-iqtisad müəllimlərindən hesab edilən Fəsli Əmikişiyevə və Həbib Şirinova Şahbaz Muradovla məşğul olmaq və hər ayın sonunda bu barədə ona məlumat vermələrini xahiş etmiş və eyni zamanda Şahbaz Muradovu həmin vaxt «siyasi iqtisad» kafedrasının nəzdində yaradılmış «siyasi iqtisad» dərnəyinə rəhbər təyin etmişdir. Şahbaz Muradov 1959-1961-ci illərdə həmin dərnəyə rəhbərlik etmiş və Universitetin iqtisadiyyat, tarix və hüquq fakültələrində oxuyan ən yaxşı tələbələri bu dərnəyin işinə fəal iştirak etməyə cəlb etmişdir. Heç, şübhəsiz ki, bütün bunlar Şahbazın gələcəkdə yaxşı bir iqtisadçı alim kimi yetişməsində az rol oynamamışdır. Təsadüfi deyildir ki, Şahbaz Muradov 1961-ci ildə Azərbaycan Dövlət Universitetinin İqtisadiyyat fakültəsini əla qiymətlər və Fərqlənmə diplomu ilə bitirdikdən sonra prof. Həsən Dadaşovun təşəbbüsü və bilavasitə köməkliyi ilə elmi işə olan sonsuz həvəsi və marağı nəzərə alınaraq Azərbaycan Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda elmi işə göndərilmiş və indiyədək burada çalışır. Şahbaz Muradov öz taleyini həmişəlik olaraq Azərbaycanın elm məbədgahı sayılan Elmlər Akademiyası ilə və onun aparıcı elmi mərkəzlərindən biri olan İqtisadiyyat İnstitutu ilə bağlamışdır. Nəzərə alsaq ki, İqtisadiyyat İnstitutu 1945-ci ildən Azərbaycan Elmlər Akademiyasında fəaliyyət göstərmiş İqtisadiyyat sektorunun bazası əsasında 1958-ci il aprel ayının 14-də yaradılmış və Şahbaz Muradov cəmi iki il üç ay sonra, 1961-ci il iyul ayının 16-dan burada işləyir.

Öz taleyini Azərbaycanın elm məbədgahı olan Azərbaycan Elmlər Akademiyası və onun İqtisadiyyat İnstitutu ilə bağlayan Şahbaz Muradov bütün şüurlu həyatını bu İnstitutun divarları arasında böyük elmi yaradıcılıqla, yüksək ixtisaslı elmi kadrlar hazırlamaqla məşğul olmağa, öz xalqına, vətəninə ləyaqətlə xidmət etməyə həsr etmiş, yüzlərlə elmi əsərlər yazmağa, onlarca elmlər doktorları və elmlər namizədləri hazırlamağa nail olmuşdur.

Prof. Ş.M.Muradov İqtisadiyyat İnstitutunun ilk əməkdaşlarından biri olaraq onun qabaqcıl elm mərkəzi kimi formalaşması və inkişafında, habelə keçmiş SSRİ-də və dünyanın bir çox ölkələrində tanınmasında böyük əməyi və əvəzolunmaz xidmətləri vardır.

Prof. Ş.M.Muradov keçmiş SSRİ məkanında iqtisad elmi sahəsində ən gənc yaşında doktorluq dissertasiyası müdafiə etmiş 3-4 nəfərdən və Azərbaycanda iqtisad elmləri doktoru alimlik dərəcəsi almış ilk 10-12 nəfərdən biri olaraq, çox gənc ikən öz elmi məktəbini yaratmış istedadlı alimlər nəslinə mənsub olan görkəmli iqtisadçı alimdir. Onun rəhbərliyi və bilavasitəköməkliyi ilə 70 nəfərdən çox namizədlik, 15 nəfərdən çox isə doktorluq dissertasiyası işi yazılıb müdafiə edilmişdir.

O, Azərbaycanda, MDB ölkələrində və başqa xarici dövlətlərdə yaşayan 35 nəfərdən çox adamın namizədlik və doktorluq dissertasiya işlərinə rəsmi opponentlik etmiş, onlarla fundamental tədqiqat əsərlərinin, monoqrafiya və kitabların, dərsliklərin iqtisadiyyat üzrə terminlər lüğətlərinin elmi redaktoru və rəyçisi olmuşdur. Onun apardığı başlıca tədqiqat işlərinin nəticələri 700 çap vərəqi həcmindən çox



olan 300-dən artıq nəşr edilmiş monoqrafiya, kitab, dərslik və jurnal məqalələrində öz əksini tapmışdır. Bu əsərlərin 30-u iri həcmli monoqrafiya, kitab və dərs vəsaitlərindən ibarətdir. Bu monoqrafiyalar arasında "Azərbaycan Kənd təsərrüfatında qadın əməyi və ondan səmərəli istifadə edilməsi məsələləri" Azərbaycan SSR Elmlər Akademiyasının nəşriyyatı. Bakı, 1969, (227 səh.); "Azərbaycan SSR-də əmək ehtiyatlarından istifadənin ictimai-iqtisadi problemləri"; Bakı, "Elm", 1978. (309 səh.); Azərbaycan SSR-də qadın əmək ehtiyatlarından istifadənin ictimai-iqtisadi problemləri" Bakı, "Elm" 1974-cü il (190 səh.); "Azərbaycan SSR də kəndin ictimai-iqtisadi və demoqrafik inkişaf məsələləri" Bakı, "Elm", 1978, (F.Abbasovla şərikli), 195 səh.; "Müasir mərhələdə demoqrafiya siyasəti". Bakı, "Elm" 1986. (F.Abbasovla birlikdə). 180 səh.; «Развития экономики советского Азербайджана на современном этапе» (Kollektiv). Bakı, "Elm" 1980 kollektiv, (299 səh.); "Azərbaycan SSR-nin əmək ehtiyatları (nəzəri-metodoloji və sosial-iqtisadi aspektlər). Bakı, "Elm" 1987-ci il (258 səh.); "Azərbaycan iqtisadiyyatı (xarici yaşayan Azərbaycanlılar üçün)" kollektiv, Bakı, "Elm" 2003-cü il, (341 səh.); "İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər". Bakı, "Elm" 2004, (656 səh.); «Глобализация демографическое развитие в Азербайджане». Bakı, "Elm" 2007. 259 səh. (A.Gözəlova və R.Efendiyevlə birlikdə); "Azərbaycan Respublikası əhalisinin dinamikası və quruluşu: əsas demoqrafik və etno-demoqrafik dəyişikliklər (1897-2007-ci illər); (azərbaycan, ingilis və rus dillərində) Bakı, "Elm" 2008. (235 səh.) və sair göstərmək olar. Prof.

Ş.M.Muradovun 50-ə yaxın əsəri xarici ölkələrdə, o cümlədən ABŞ-da, Rusiyada, Ukraynada, Belorusiyada, Gürcüstanda, Baltikyanı ölkələrdə və Orta Asiya respublikalarında çap edilmişdir. Onların bəziləri ingilis dilində çap edilib dünyanın bir çox ölkələrinə yayılmışdır. Prof. Ş.M.Muradov xarici ölkələrin görkəmli iqtisadçı, demoqraf və sosioloq alimləri ilə birlikdə yazılıb 1971-2001-ci illərdə Moskva şəhərində nəşr edilmiş 15-dən artıq fundamental tədqiqat əsərlərinin müəlliflərindən biridir. Bunların arasında «Воспроизводство рабочей силы и повышение эффективности использования трудовых ресурсов». M. MQU, 1971, 279 səh.; «Населеиие союзных республик» M. «Статистика», 1977, 326 səh.; «Особеиности миграции население в союзных республнках». M., 1978, 215 səh; «Проблемы народонаселения и демографической политики», M., 1981, 216 səh; «демографическая политики социалистического общества», M., «Наука», 1986, 192 səh; «Региоиальные особеиности воспроизводства и миграцин населения в СССР». M., «Наука», 1981, 267 səh; «Социально-демографическое развитие трудообеспеченных районов СССР». M., «Наука», 1989, 205 səh; «Социальная политика в постсоциалистическом обществе: задачи, противоречия, механизм». M., «Наука», 2001, 647 səh. Onun «Рацнональная занятость населения в Регноне» adlı məqalə Moskvada «Вопросы экономики» jurnalının 1988-ci il 6-cı nömrəsində (səh. 104-113); «Демографнческое развития Азербайджана на пороге XXI века: основные тенденции и проблемы»



məqaləsi Moskvada «Обшество и экоиомика» jurnalının, 2000-ci il 5-ci nömrəsində (səh. 88-89)-da və ABŞ-ı Nyu-York şəhərinin “Sosioloji tədqiqatlar məcmuəsinin 2001-ci il may-iyun №3-də çap edilib (ingilis dilində). (səh. 34-43) və sair. Bunlardan əlavə prof. Ş.M.Muradov Moskva şəhərində SSRİ EA-sı tərəfindən hazırlanmış ETT-nin Kompleks Proqramının yekun sənədinin və həmin proqramın nəticələri üzrə 1979, 1983 və 1987-ci illərdə çap olunmuş 50,0 ç.v. həcmində üç cildliyin müəllifindən biridir. Prof. Ş.M.Muradovun apardığı tədqiqatların səciyyəvi cəhəti ondan ibarətdir ki, onların hamısı real həqiqətləri özündə əks etdirən konkret faktlara, geniş statistik bazaya söykənir, nəzəri dərinliyi və kifayət qədər elmi cəhətdən əsaslandırılmış olması ilə fərqlənir. Onun tədqiqat obyektini Azərbaycanın yaxın və uzaq gələcəyə sosial-iqtisadi inkişaf strategiyası və taktikasının müəyyənləşdirilməsi və proqnozlaşdırılması ilə bilavasitə bağlı olan demoqrafiya və əhalisakinliyinin inkişafı, iş qüvvəsinin təkrar istehsalı və əmək ehtiyatlarından istifadə edilməsi, insan potensialı, məşğulluq, işsizlik və məşğulluq sahəsində gender problemləri təşkil edir. Prof. Ş.M.Muradovun həmin problemlərin nəzəri-metodoloji, sosial-demoqrafik və regional aspektləri ilə bağlı yazıb nəşr etdirdiyi ümumiləşdirici xarakter daşıyan əsərləri ilə nəinki respublikanın iqtisad elminin, bir çox hallarda isə müəyyən mənada, həm də bütünlükdə MDB məkanında iqtisad elminin zənginləşməsinə sanballı töhfələr vermişdir.

Professor Ş.M.Muradovun rəhbərliyi və şəxsi iştirakı ilə keçmiş ittifaq və respublika hökumətinin, SSRİ, Ukrayna

SSR və Azərbaycan SSR Elmlər Akademiyalarının Rəyasət Heyətlərinin tapşırığı ilə SSRİ EA-nın İqtisadiyyat və Sosioloji tədqiqatlar, Mərkəzi İqtisadi-Riyaziyyat və ETT-nin Proqnozlaşdırılması İnstitutları, Ukrayna SSR EA-nın İqtisadiyyat, SSRİ və Azərbaycan SSR Dövlət Plan Komitələri nəzdindəki Elmi-Tədqiqat İqtisadiyyat İnstitutları, habelə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdindəki Elmi-Tədqiqat Əmək İnstitutu ilə birlikdə bir sıra tədqiqatlar aparılmış və onların nəticələri Azərbaycan SSR EA-na, Azərbaycan KP MK, Azərbaycan SSR Nazirlər Sovetinin Dövlət Plan Komitəsi və Əmək Komitələri, SSRİ EA-na, SSRİ Dövlət Plan Komitəsinə, Sov. İKP MK-ya və SSRİ Nazirlər Sovetinə təqdim edilmiş və müsbət qiymətləndirməklə «1981-1985-ci illərdə və 1990-cı ilədək olan dövrdə SSRİ-nin və Azərbaycan SSR-nin iqtisadi və sosial inkişafının əsas istiqamətlərində» istifadə olunmuşdur. Bu tədqiqatlara: «Uzaq gələcəyə əmək ehtiyatlarının proqnozlaşdırılması və onlardan səmərəli istifadə edilməsi», «Şəhər və kənd yerlərində əhalinin səmərəli məşğulluğunun təmin edilməsi tədbirlərinin işlənməsi», «1990-cı ilədək olan dövrdə Azərbaycanda demoqrafik inkişaf və əmək ehtiyatlarından səmərəli istifadə edilməsi», «Mütləq Respublikalarda miqrasiya prosesləri və onların nizamlanması», «Azərbaycanda demoqrafik vəziyyətin qiymətləndirilməsi və 2000-ci ilədək olan dövrdə onun inkişaf istiqamətləri», «Azərbaycanda əhalinin təkrar istehsal xüsusiyyətləri və onun optimallaşdırılması məsələləri», «Qadınların ictimai istehsaldakı məşğulluğu ilə analıq funksiyasının səmərəli



əlaqələndirilməsi» (Azərbaycan materialları üzrə); «2000-ci ilədək olan dövrdə SSRİ-də və Azərbaycan SSR-də demoqrafik inkişaf, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi»; «1986-2000-ci illərdə SSRİ-də və Azərbaycan SSR-də əhalinin təkrar istehsalının əsas inkişaf meylləri»; Ukrayna SSR EA-sı ilə koordinasiya da yerinə yetirilmiş «Azərbaycan SSR-də və Ukrayna SSR-də əhali sakinliyinin sosial-iqtisadi problemləri» və sair bu kimi dövlət əhəmiyyətli elmi araşdırmalar aiddir.

Ş.M. Muradova 1965-ci ildə iqtisad elmləri namizədi, 1972-ci ildə iqtisad elmləri doktoru alimlik dərəcəsi, 1977-ci ildə isə professor elmi adları verilmişdir. O, 1961-1966-cı illərdə kiçik elmi işçi, 1966-1968-ci illərdə baş elmi işçi vəzifələrində işləmiş, 1968-ci ildən isə İnstitutun "Demoqrafiya və iş qüvvəsinin təkrar istehsalı" şöbəsinin müdiri 1991-ci ildən isə institutun elmi işlər üzrə direktor müavini vəzifələrində çalışmış və 1999-cu ilin əvvəlindən İnstitutun direktoru seçilmişdir.

Onun rəhbərliyi və bilavasitə köməkliyilə 45 nəfərdən çox namizədlik və 4 nəfər doktorluq dissertasiyası müdafiə etmişdir ki, onların böyük əksəriyyəti başqa MDB ölkələrində yaşayan müxtəlif millətlərin nümayəndələri olmuşdur.

Professor Ş.M.Muradov eyni zamanda bacarıqlı, təşəbbüskar və prinsipial elmi təşkilatçıdır. 32 ildən artıq Azərbaycan EA İqtisadiyyat İnstitutunda müxtəlif vəzifələrdə çalışdığı dövrlərdə iqtisad elminin inkişafı və yüksək ixtisaslı elmi kadrların hazırlanması sahəsində məqsədyönlü işlər aparmaqla, respublika iqtisadçıları və elmi ictimaiyyət arasında böyük nüfuz qazanmışdır. O, 40 ildən artıqdır ki,

elmi yaradıcılıqla yanaşı, həm də respublikanın bir sıra ali təhsil müəssisələrində gənc kadrların hazırlanmasında fəal iştirak etmişdir.

Professor Ş.M.Muradov 1995-ci ildən 1998-ci ilədək Azərbaycan Respublikası Milli Məclisinə Seçkilər üzrə Mərkəzi Seçki Komissiyasının üzvü kimi ümumxalq referendumu yolu ilə Müstəqil Dövlətimizin ilk Konstitusiyasının qəbul edilməsi və ilk demokratik parlament seçkilərinin keçirilməsində fəal iştirak etmişdir.

Prof. Ş.M.Muradovun rəhbərliyi ilə İnstitutun alimləri 2001-2007-ci illərdə «Azərbaycanm milli iqtisadiyyatının formalaşdırılmasının sosial-iqtisadi və demoqrafik problemləri» istiqamətində ölkəmizdə və xarici dövlətlərdə 3,0 min çap vərəqi həcmindən çox 2500 monoqrafiya, kitab, dərslik, proqram, məqalə və tezislər çap etdirmiş, 70-ə yaxın Beynəlxalq və Regional xarakterli elmi simpozium, konqres, konfrans və seminarlarda məruzə və çıxışlar etmiş; dövlət və hökumət orqanlarına 70-dən artıq təhriri-məruzə, təklif və tövsiyələr təqdim etmişlər. Bu dövrdə prof. Ş.M.Muradovun rəhbərliyi ilə İnstitutun elmi-tədqiqat plan işlərindən əlavə 60-dan çox dövlət və hökumət tapşırıqları yerinə yetirilmişdir. Bunların arasında «1998-2007-ci illərdə Azərbaycanda rəsmi statistikanın təkmilləşdirilməsinə dair Dövlət Proqramı», «Azərbaycanın demoqrafik inkişaf konsepsiyası», «Azərbaycan Respublikasında demoqrafiya və əhalisakinliyinin inkişafı sahəsində Dövlət Proqramı» və s. vardır.

Azərbaycan EA İqtisadiyyat İnstitutunun tarixində ilk dəfə olaraq prof. Ş.M.Muradovun rəhbərliyi və iştirakı ilə



yazılmış «Azərbaycan iqtisadiyyatının dünəni və bu günü» adlı iri həcmli tədqiqat əsərinin əlyazması Beynəlxalq İslam Xeyriyyə Təşkilatı Asiya Müsəlmanları Komitəsinin 2000-ci ildə keçirdiyi müsabiqədə I dərəcəli mükafata layiq görülmüşdür.

Hal-hazırda O, AMEA İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən Doktorluq və Namizədlik Dissertasiya Şurasının üzvü; Respublika Elmi-Tədqiqatlar Təşkili və Əlaqələndirilməsi Şurasının İqtisadiyyat üzrə problem Şurasının sədri; YUNESKO-nun Azərbaycan Respublikasında «Bioetika, elmi biliklərin və texnologiyaların etikası» üzrə Milli Komitənin üzvü, AMEA Humanitar və İctimai Elmlər seriyası «Xəbərlər» jurnalının Redaksiya Heyətinin üzvü və «İqtisad» seriyasının baş redaktoru və s. kimi də səmərəli ictimai fəaliyyət göstərir.

Prof. Ş.M.Muradovun 2001-ci ilin iyun ayında Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Onun xidmətləri dövlət və hökumət tərəfindən yüksək qiymətləndirilmişdir. O, Keçmiş Sov. İKP MK, SSRİ Nazirlər Soveti, ÜİHİŞ və ÜLKİ MK-nın, Azərbaycan LKKİ-nin fəxri fərmanları, V.İ.Leninin anadan olmasının 100 illiyinə həsr edilmiş «Fədakar əməyə görə» Yubiley medalı «Əmək veteranı» medalı, AMEA-nın Fəxri Fərmanları və «Şöhrət» ordeni ilə təltif edilmişdir. Ailəlidir, iki oğlu, bir qızı və 6 nəvəsi vardır. Nəvələrinin 3-ü oğlan, 3-ü qızdır.



## Musayev Akif Fərhad oğlu

Akif Fərhad oğlu Musayev 18 iyul 1947-ci ildə Füzuli rayonunun Qorqan kəndində anadan olmuşdur. 1965-ci ildə həmin rayonun Yuxarı Seyidəhmədli kənd orta məktəbini qızıl medalla bitirərək Azərbaycan Dövlət Universitetinin "Mexanika riyaziyyat" fakültəsinə daxil olmuş və həmin fakültəni 1971-ci ildə riyaziyyat ixtisası üzrə bitirmişdir.

1977-ci ildə Moskva şəhərində SSRİ Elmlər Akademiyasının Mərkəzi İqtisadiyyat-Riyaziyyat İnstitutunun ixtisaslaşmış elmi şurasında 05.00.13 – "İqtisadi-riyazi üsullar" ixtisası üzrə "Avtomobil nəqliyyatında növbəli gündəlik tapşırıqların effektivliyinin operativ planlaşdırma üsulları ilə yaxşılaşdırılması" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

1992-ci ildə 05.00.08 - "Xalq təsərrüfatı və onun sahələrinin (sənaye) iqtisadiyyatı, planlaşdırılması və idarə edilməsinin təşkili" ixtisası üzrə "Yeni təsərrüfatçılıq şəraitində neft maşınqayırma sənayesinin inkişafının idarə edilməsinin iqtisadi problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş və iqtisad elmləri doktoru alimlik dərəcəsi almışdır. 1993-cü ildən professor, 30 iyun 2001-ci il tarixdən Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvüdür.

A.Musayev 7 monoqrafiya, 17 dərslik və dərs vəsaiti, 12 fənn proqramı, 330-dan artıq elmi məqalə, metodik



göstərişin və s. müəllifidir. Onlardan 24-ü xarici ölkələrdə o cümlədən Almaniyada, Rusiyada, İranda, Macarıstanda, İtaliyada, Latviyada və s. nəşr edilmişdir.

AMEA-nın müxbir üzvü, professor A.F.Musayevin elmi-tədqiqat işləri və əldə etdiyi elmi nəticələr "Avtomobil nəqliyyatı işinin təşkili və planlaşdırılması sahəsində riyazi planlaşdırma məsələləri", "Neft maşınqayırmasının inkişafının idarə edilməsinin, neft-qaz sənayesi ilə qarşılıqh əlaqələrinin iqtisadi problemlərinin elmi həlli" və "Azərbaycanda vergi siyasəti və vergilərin iqtisadi problemlərinin elmi tədqiqi istiqamətinin öyrənilməsi və təşkili" kimi üç sahənin iqtisadi problemlərinin həllini əhatə edir.

2001-ci ildə respublikanın təhsil sistemində ilk dəfə olaraq Azərbaycan Dövlət İqtisad Universitetində "Vergi və vergiqoyma" kafedrasını yaratmış və 2007-ci ilin sentyabr ayına qədər ona rəhbərlik etmişdir.

A.F.Musayevin rəhbərliyi altında 27 elmlər namizədi, 5 doktorluq dissertasiyaları müdafiə edilmişdir.

Müəllifi olduğu aşağıda adları qeyd olunan kitab və monoqrafiyalar elmə verdiyi çox dəyərli töhfələrdir:

Методы оперативного планирования маятниковых грузовых автомобильных перевозок. Монография, Баку 1996, А.Ф.Мусаев

Нефтедобыча и нефтяное машиностроение: анализ взаимодействия, Монография, Изд.Университет Азербайджан, Баку 1997, А.Ф.Мусаев

Тенденции развития экономики машиностроения в Азербайджане. Монография, Баку 1999, А.Ф.Мусаев , Ахмедов А.Н. , Джанахмедов А.А.

Qiymətli kağızlar bazarı. Monoqrafiya, Bakı 1999, A.F.Musayev, N.N.Vəliyev, A.S.Quliyev.

Vergi mədəniyyəti. Monoqrafiya, Bakı 2010, A.F.Musayev, A.Qəhrəmanov.

Vergi siyasətinin iqtisadi problemləri. Monoqrafiya, Bakı 2004, A.F.Musayev.

A Revenue Estimating Manual for The Republic of Azerbaijan. Monoqrafiya, Offset paper № 1, 2004. A.F.Musayev, Laird Eraeser, M.M.Sadıqov, A.Amiraslanov.

Bazar iqtisadiyyatının əsasları (mikroiqtisadiyyat), Dərs vəsaiti, Bakı 1994, Musayev A. F., Abbasov H.M., Qasımov N.B., Məmmədov Ş.A.

Riyazi iqtisadiyyat. Dərslik, Bakı, 1997, A.F. Musayev, Osmanov Y.

Vergi sistemi. Dərs vəsaiti, Bakı 1998, Musayev A.F., Rzayev Z.H., Süleymanov Q.S.

Vergilərin əhəmiyyəti və ya yeddi nağıl axşamı. Dərslik, Bakı 2000, A.Musayev , A.Qəhrəmanov

Azərbaycan Respublikasının vergi xidməti: islahatlar və nəticələr, Dərs vəsaiti, Bakı-Təfəkkür-2002, A.F.Musayev, A.A.Hüseynov

İnsan və cəmiyyət. IX siniflər üçün dərslik, Bakı-2006, A.Musayev, U.Ələkbərov və b.

Yerli özünüidarəetmə (Bələdiyyə) orqanlarının vergi sistemi. Dərs vəsaiti, Bakı-2008, A.F.Musayev, H.İ.Məmmədov.

İqtisadiyyatda riyazi modelləşdirmə və proqnozlaşdırma. Dərslik, Bakı 1999, A.F.Musayev, A.Q.Qəhrəmanov.

Vergitutmanın nəzəri və metodoloji əsasları. Dərslik, Bakı 2001, A.F.Musayev, F.Məmmədov və b.



Tax service of the Azerbaijan Republic: reforms and results. Baku 2002, A.F.Musayev, M.M.Sadıqov, A.A.Musayeva.

Налоги и налогообложение в Азербайджане. Dərslik, Баку 2005, А.Ф.Мусаев, М.М.Садыгов, Р.Б.Магеррамов, Р.А.Салаев

Vergilər (Orta məktəblərin IX-XI sinifləri üçün dərs vəsaiti), Bakı 2007, A.F.Musayev

Yerli özünüidarəetmə (Bələdiyyə) orqanlarının vergi sistemi. Dərs vəsaiti, Bakı 2008, A.F.Musayev

Vergilər və Vergitutma. Dərslik, Bakı 2010, F.Ə.Məmmədov, A.F.Musayev və b.

Ekonometrikaya giriş. Dərslik, Bakı 2011, A. F.Musayev.

Professor Akif Fərhad oğlu Musayev Avrasiya Platformu, Türk Dünyası Riyaziyyatçıları birliyi və "Türk Bilim" elmi jurnalının redaksiya heyətinin üzvüdür.

Professor Akif Musayev «За доблестиую службу» Георгиевская медаль IV степени - ilə təltif olunmuş və 1993-2005-ci illər XII International Academic Rating "Golden Fortune" jurnalına daxil edilmişdir (səh. 77).

Britaniyanın Kembric Beynəlxalq Bioqrafiya Mərkəzi və Amerikanın Şimali Karolina Bioqrafiya İnstitutunun idarə heyəti tərəfindən professor Akif Musayev Dünya elm və təhsilinə töhfələrinə görə Beynəlxalq Şərəf Diplomuna və Görkəmli Lider Mükafatına layiq görülmüş və onun adı Beynəlxalq Görkəmli Şəxsiyyətlər kitabının 10-cu nəşrinə daxil edilmişdir (səh. 283).

Azərbaycan Respublikası Prezidentinin 9 fevral 2007-ci il tarixli 1960 saylı sərəncamı ilə Musayev Akif Fərhad oğlu

Azərbaycan Respublikasının vergi orqanlarında qulluq vəzifəsinin yerinə yetirilməsində fərqləndiyinə, ölkəmizin iqtisadi mənafeyinin qorunmasında xidmətinə görə «Dövlət qulluğunda fərqlənməyə görə» medalı ilə təltif edilmişdir.

1967-ci ildən Azərbaycan Elmlər Akademiyasının Kibernetika İnstitutunun "İqtisadi-riyazi modellər" laboratoriyasında işləmişdir. 1971-1972-ci illərdə hərbi xidmətdə olmuş, 1972-1975-ci illərdə Moskvada SSRİ Elmlər Akademiyasının Mərkəzi İqtisadiyyat İnstitutunun aspiranturasında təhsilini davam etdirmişdir. 1976-1980-ci illərdə Azərbaycan Elmlər Akademiyası Kibernetika İnstitutunda kiçik, sonra baş elmi işçi, 1980-1984-cü illərdə Azərbaycan Neft Kimya İnstitutunun Tətbiqi Riyaziyyat kafedrasının baş müəllimi, 1984-1991-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunda Tətbiqi Riyaziyyat kafedrasının dosenti olmuş, 1991-ci ildə Azərbaycan Dövlət Neft Aakademiyasının "Sənayenin iqtisadiyyatı" fakültəsinin nəzdində "Maşınqayırma sənayesinin iqtisadiyyatı və Menecment" kafedrasını yaratmış və 1991-1999-cu illərdə ona rəhbərlik etmiş, 1999-2000-ci illərdə Baş Dövlət Vergi Müfəttişliyinin Analitik İnformasiya idarəsinin rəisi, 2000-2007-ci illərdə Vergilər Nazirliyinin Vergi Siyasəti və Strateji Araşdırmalar Baş İdarəsinin rəisi, 2007-2011-ci illərdə Azərbaycan Universitetinin rektoru olmuşdur. Hazırda 2011-ci ildən Vergilər Nazirliyinin Vergi Siyasəti və Strateji Araşdırmalar Baş İdarəsinin rəisidir. Eyni zamanda Azərbaycan Milli Elmlər Akademiyasının Kibernetika İnstitutunun "Fiskal strategiyasının modelləşdirilməsi" laboratoriyasına rəhbərlik edir.





## Məmmədov Aydın İsrafil oğlu

Məmmədov Aydın İsrafil oğlu 1941-ci ildə Goranboy rayonunun Dəlməmmədli kəndində anadan olmuşdur.

Orta məktəbi bitirdikdən sonra o, iki il istehsalatda - Dəlməmmədli Pambıqtəmizləmə zavodunda fəhlə işləmiş və 1960-cı ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun (AKTİ) "Kənd təsərrüfatının iqtisadiyyatı" fakültəsinə daxil olmuşdur. A.Məmmədov 1965-ci ildə AKTİ-ni fərqlənmə diplomu ilə bitirib, kafedrada assistent işləmiş və 1967-ci ildə istehsalatdan ayrılmaqla K.A.Timiryazev adına Moskva Kənd Təsərrüfatı Akademiyasının aspiranturasına qəbul olunmuşdur. Nəzərdə tutulan müddətdə (1970-ci il) aspiranturanı bitirən A.Məmmədov "Azərbaycan SSR-də pambığın məhsuldarlığının iqtisadi - statistik təhlili və uzunmüddətli proqnozlaşdırılması" mövzusunda dissertasiya müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır.

O, 1985-ci ildə AKTİ-nin kənd təsərrüfatının iqtisadiyyatı kafedrasının müdiri kimi 15 ilə yaxın apardığı tədqiqat işini ümumiləşdirərək "Regional aqrar-sənaye komplekslərində qarşılıqlı iqtisadi əlaqələrin təkmilləşdirilməsi" (Azərbaycan SSR-in materialları əsasında) mövzusunda doktorluq dissertasiyasını müdafiə etmiş, iqtisad elmləri doktoru alimlik dərəcəsi almış, 1986-cı ildə professor elmi adına layiq görülmüşdür.

Rusiya Kənd Təsərrüfatı Elmlər Akademiyasının müxbir üzvü (1991-ci il), AKTİ-nin Kənd Təsərrüfatının İqtisadiyyatı kafedrasının müdiri, fakültə dekanı, Azərbaycan Respublikasının Milli Məclisinin eksperti Aydın İsrafil oğlu Məmmədov aqrar-sənaye kompleksinin iqtisadiyyatı və idarə edilməsinin nəzəri və metodoloji istiqamətində yerinə yetirdiyi geniş əhatəli və dəyərli tədqiqat işləri ilə ölkəmizdə və onun hüdudlarından kənarda da aparıcı iqtisadçı alim kimi tanınmışdır. O, aqrar-sənaye kompleksində sahələrarası qarşılıqlı iqtisadi əlaqələrin təkmilləşdirilməsi, müxtəlif məhsullar istehsalı və satışı üzrə inteqrasiya olunan iqtisadi sistemlərin funksional və sahə strukturlarının formalaşması, iqtisadi islahatlar şəraitində kənddə mülkiyyət münasibətlərinin mexanizminin yaradılması və onun idarə edilməsi istiqamətində sanballı tədqiqatlar aparmışdır.

A.İ.Məmmədovun kənd təsərrüfatının iqtisadiyyatı fənnindən dərslik hazırlanması, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının idarə edilməsinin iqtisadi-riyazi modelini tərtib etməsi, aqrar islahatın əsas istiqamətləri konsepsiyasını yüksək elmi-praktik səviyyədə hazırlaması və sair işləri mühüm elmi nailiyyətlərdir.

A.İ.Məmmədov 150 çap vərəqi həcmində 100-dək elmi və elmi-metodik əsərlərin müəllif olmuşdur. Onun ölkəmizdə və xaricdə nüfuzlu elmi nəşrlərdə dərc edilmiş əsərlərindən "Pambığın məhsuldarlığına təsir edən amillərin iqtisadi cəhətdən qiymətləndirilməsi" (Bakı, "Azərnəşr", 1976, 80 səh.), "Regional aqrar-sənaye komplekslərində qarşılıqlı iqtisadi münasibətlər" (Monoqrafiya, Moskva, "Aqropromizdat", 1985, 207 səh.), "Tərəvəz bitkiləri



toxumunun iqtisadiyyatı və təşkili" (Moskva, "Aqropromizdat", 1986, 307 səh., digər müəlliflərlə birlikdə), "Kənd təsərrüfatının iqtisadiyyatı" (Ali məktəblər üçün dərslik, Bakı, "Maarif', 1992, 373 səh.), "Torpaq bazarının formalaşması və mülkiyyət münasibətləri" və s. özünün sanballılığı və orijinallığı ilə fərqlənir.

A.İ.Məmmədovun elmi işlərinin əksəriyyətinin istehsalatda tətbiq edilməsi onların əhəmiyyətini daha da artırır. O, on ildən artıq müddətdə keçmiş İttifaq Tərəvəz Toxumçuluğu Birliyinin sifarişilə aparılan elmi işlərə rəhbərlik etmiş, elmi-tədqiqat laboratoriyası yaratmış və tədqiqatdan alınan nəticələri istehsalata tətbiq etmişdir.

A.İ.Məmmədov Milli Məclisin Aqrar məsələlər üzrə daimi komissiyasında ekspert-işçi qrupunun rəhbər olmuşdur. A.İ.Məmmədovun rəhbərlik etdiyi ekspert-işçi qrupu "Aqrar islahatın əsasları haqqında", "Sovxoz və kolxozların islahatı haqqında" və digər qanun layihələrinin ilkin variantlarının hazırlanmasında iştirak etmişdir. Bu işlərin müvəffəqiyyətlə aparılmasına görə A.İ.Məmmədov dəfələrlə mükafatlandırılmışdır. Milli Məclisin eksperti kimi "Torpaq islahatı haqqında", "Kooperasiya haqqında" və digər qanun layihələrinin hazırlanması işində yaxından iştirak etməklə aqrar bölmənin qanunvericilik bazasının elmi təminatının yaradılmasında bilavasitə iştirak etmişdir.

Onun bilavasitə rəhbərliyi altında 10 nəfər elmi işçi namizədlik dissertasiyası müdafiə etmişdir, hazırda isə 6 nəfər aspirant və dissertant müvəffəqiyyətlə tədqiqat işlərini davam etdirir.

Ölkə səviyyəsində aqrar sahənin problemlərinə həsr olunan müşavirələrin əksəriyyətinin iştirakçısı olan A. İ. Məmmədov bir çox xarici dövlətlərdə də aqrar iqtisad elmini layiqincə təmsil etmişdir. (AFR, Böyük Britaniya, İran, Rumıniya və s.)

2001-ci ilin iyun ayında Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.





## Mirzəyev Soltan Abbas oğlu

Soltan Abbas oğlu Mirzəyev 1912-ci ildə Bakının Nardaran kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra mühasibat uçotu kursunda oxumuşdur. Bir müddət Kürdəmir rayonunda mühasib işləyən S.Mirzəyev Politexnik İnstitutunun "Kənd təsərrüfatı" şöbəsinə daxil olmuş, Kənd təsərrüfatı institutunun yaranması ilə əlaqədar təhsilini Kirovobad şəhərində fərqlənmə diplomu ilə başa vurmuşdur. İnstitutu qurtardığı ildə S.A.Mirzəyev Kənd təsərrüfatı institutuna direktor təyin edilmişdir. Həmin institutda müvəffəqiyyətlə işləyən S.Mirzəyev bacarığı, təşkilatçılıq qabiliyyəti, prinsipiallığı nəzərə alınaraq respublikanın mühüm idarə orqanlarında pillə-pillə yüksəlmiş, Torpaq Nazirliyində idarə rəisi, nazir müavini, nazir, sovxozlar naziri və s. vəzifələrdə böyük müvəffəqiyyətlə işləmişdir.

Soltan Mirzəyev Böyük Vətən müharibəsində iştirak etmiş, həmin dövrdə göstərdiyi şücaətə görə bir sıra orden və medallarla təltif olunmuşdur.

Soltan Mirzəyev Moskvada Timiryazev adına Kənd Təsərrüfatı Akademiyasının aspirantı olmuş və orada dissertasiya müdafiə edərək respublikamızda ilk iqtisad elmləri namizədi alimlik dərəcəsi alanlardan biri olmuşdur.

Soltan Mirzəyev 1950-1962-ci illərdə sovxozlar naziri, Azərbaycan KP MK şöbə müdiri və Azərbaycan KP MK

katibi vəzifələrində çalışmışdır. Həmin dövr iki çağırış Azərbaycan SSR Ali Sovetinin və bir çağırış SSRİ Ali Sovetinin deputatı seçilmişdir.

Soltan Mirzəyev yüksək dövlət və partiya vəzifələrində işləyərkən həmişə aqrar iqtisad elminin inkişafı yollarını müəyyənləşdirməyə çalışmış, aqrar iqtisad elminin inkişafı üçün ciddi əmək sərf etmişdir.

Soltan Mirzəyev Azərbaycan KP MK katibi işləyərkən öz nüfuzundan və səlahiyyətindən istifadə edərək, Kənd Təsərrüfatı Nazirliyinin iqtisad bazasında 1962-ci ilin may ayında xüsusi qərarla Az. ETKTİ və Tİ-nin yaranmasına nail olmuşdur.

1963-cü ildə Azərbaycan KP MK katibi vəzifəsindən azad edilən S.A.Mirzəyev Az. ETKTİ və Tİ-yə direktor təyin edilmiş və 10 il həmin vəzifədə çalışmışdır. O, institutun inkişafı üçün çox zəhmət çəkmişdir. Moskvanın nüfuzlu elmi-tədqiqat mərkəzləri ilə işgüzar əlaqələr yaradan S.Mirzəyev gənc alimlərin yetişdirilməsinə böyük diqqət yetirirdi.

Az.ETKTİ və Tİ-də direktor işlədiyi 10 ildə S.A. Mirzəyevin gərgin əməyi nəticəsində 100 nəfərə qədər yüksək ixtisaslı elmi kadrların yetişdirilməsini təmin etmişdir.

S.Mirzəyev 1964-cü ildə iqtisad elmləri doktoru alimlik dərəcəsi alır. Onun çoxsaylı elmi məqalələri, kitablarında kənd təsərrüfatı istehsalının aktual problemlərinin tədqiqi öz əksini tapmışdır.

S.Mirzəyev Azərbaycanın kənd təsərrüfatının ixtisaslaşmasının nəzəri-metodoloji problemlərini öyrənən ilk



iqtisadçı alimlərdəndir. Onu həmçinin Azərbaycanın kənd təsərrüfatının aparılması sisteminin hazırlanmasında aparıcı müəlliflərindən saymaq olar.

S.Mirzəyev 1993-cü ildə vəfat etmişdir.

## Məmmədov Rasim Fəti oğlu



Məmmədov Rasim Fəti oğlu 1940-cı ildə İmişli rayonunda dünyaya göz açmışdır. O, 1957-ci ildə İmişli şəhər orta məktəbini bitirib, K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olmuşdur. Təhsil illərində özünün iti zəkası, bacarığı, təşkilatçılığı, tələbə elmi cəmiyyətində və institutun ictimai işlərində fəal iştirakı ilə fərqlənmiş, hörmət qazanmışdır.

R.Məmmədov institutu yüksək qiymətlərlə bitirib, doğma rayonunda müxtəlif vəzifələrdə işləmişdir. O, 1963-cü ildə Azərbaycan Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun aspiranturasına daxil olmuş, sonralar təhsilini Moskva şəhərində davam etdirmişdir. Orada 1967-ci ildə "Region ASK-da kənd təsərrüfatının ixtisaslaşdırılması və sahə quruluşunun təkmilləşdirilməsi problemləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Bakıya qayıdan R.Məmmədov 1970-ci ilədək keçmiş Dövlət Plan Komitəsinin Kənd təsərrüfatı şöbəsində işləmişdir. Əmək fəaliyyətinin sonrakı 15 ildən çoxu Az.ETKTİ və Tİ ilə bağlı olmuşdur. Həmin institutda şöbə müdiri, elmi işlər üzrə direktor müavini, 1977-1981-ci illərdə isə direktor əvəzi işləmişdir.

R.Məmmədov 1987-ci ildə "Region ASK-da kənd təsərrüfatının inkişafı və ixtisaslaşdırılması problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.



R.Məmmədov uzun illər boyu qazandığı zəngin biliyi və təcrübəsini gənc nəslə aşılamaq, yüksək ixtisaslı mütəxəssislər hazırlamaq işində fəal iştirak etmişdir. Azərbaycan Dövlət İqtisad İnstitutu yaradıldıqdan sonra orada "İqtisadiyyatın tənzimlənməsi" fakültəsinin dekanı işləmişdir. Professor R. Məmmədovun rəhbərliyi və qayğısı ilə onlarca aspirant və dissertant alimlik dərəcəsi almışdır. Alim aqrar iqtisadiyyatın aktual məsələlərinə dair 150-yə yaxın elmi əsərin müəllifidir.

Professor R. Məmmədov keçmiş Ümumittifaq Kənd Təsərrüfatı EA Zaqafqaziya filialının Kənd təsərrüfatının iqtisadiyyatı və təşkili bölməsinin sədr müavini, respublikada ASK-nın elmi təminatı Mərkəzindəki iqtisadiyyat və idarəetmə bölməsinin üzvü, Elmlər Akademiyası yanında iqtisadi problemlər üzrə Elmi Şuranın Aqrosənaye inteqrasiyası problemləri bölməsinin sədri və bir sıra respublika jurnalları redaksiya heyətinin üzvü kimi səmərəli fəaliyyət göstərmişdir.

Professor R.Məmmədov təkcə Azərbaycanda deyil, həm də MDB respublikalarında kənd təsərrüfatının iqtisadiyyatı, inkişafının proqnozlaşdırılması və məhsuldar qüvvələrin yerləşdirilməsi sahəsində görkəmli alim kimi tanınırdı.

2000-ci ildə vəfat etmişdir.

## Hacıyev Əhməd Hafiz oğlu



Əhməd Hafiz oğlu Hacıyev 1937-ci ildə Gürcüstan Respublikasının Qardabani rayonunun Qaracalar kəndində anadan olmuşdur. Orta məktəbi doğma Qaracalar kəndində bitirdikdən sonra Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna (indiki ADİU) daxil olaraq təhsilini davam etdirmişdir. Əhməd Hacıyev təyinatla Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda kiçik elmi işçi kimi işə başlamış və iki ildən sonra Moskvaya aspiranturaya göndərilmişdir.

1967- ci ildə Moskvada Ümumittifaq Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı İnstitutunda namizədlik dissertasiyası müdafiə etmişdir. Bakıya qayıdan Əhməd Hacıyev doğma institutda əvvəlcə kiçik elmi işçi, 1971-ci ildən isə şöbə müdiri vəzifəsində işləmişdir. 1980-ci ildə həmin instituta direktor təyin olunmuşdur. Əhməd Hacıyev 1990-1992-ci illərdə Elmi - Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda şöbə müdiri işləmiş, 1992-ci ildən hal-hazıra kimi Azərbaycan Dövlət İqtisad İnstitutunun dosentidir.

Əhməd Hacıyev Ümumittifaq miqyaslı, Zaqafqaziya və Respublika konfranslarında müvəffəqiyyətlə çıxışlar etmişdir. 14 nəfər elmlər namizədinə elmi rəhbər olmuşdur. Onun 200-ə yaxın elmi əsəri, 20 kitabı çap edilmişdir (2006-cı ildə «Aqrar-sənaye kompleksinin iqtisadiyyatı», 2011-ci ildə «Aqrar sferanın iqtisadiyyatı və idarəedilməsi»



(müştərək) dərslikləri və s.). Ə. Hacıyevin bir çox elmi əsəri respublikadan kənarda – Moskvada, Kiyevdə, Leninqradda, Rostovda və s. dərc olunmuşdur. Ə. Hacıyev elmi-tədqiqat işlərinin təbliği sahəsində də ciddi işlər yerinə yetirmişdir. O, keçmiş SSRİ-də, respublikada 100-dən çox beynəlxalq konfrans və seminarda iştirak etmiş, radio-televiziya vasitəsi ilə geniş təbliğat işi aparmışdır. Əhməd Hacıyev dəfələrlə SSRİ Xalq Təsərrüfatı nailiyyətləri sərgisinin iştirakçısı olmuş və sərgilərin gümüş və qızıl medallarına layiq görülmüşdür. Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin və Dövlət Plan Komitəsinin Kollegiya üzvü olmuşdur.

O, keçmiş ittifaq və respublika səviyyəsində dərc edilən jurnalların, Moskvada çıxan «Экономика сельского хозяйства» və «Хлопководство», habelə Ümumittifaq Kənd Təsərrüfatının İqtisadiyyatı İnstitutunun elmi əsərləri, Azərbaycan Elmlər Akademiyasının «İqtisadiyyat bölməsi» redkollegiyasınm üzvü seçilmiş, Az.ETKTİ və Tİ-nin elmi əsərlərinin baş redaktoru, «Azərbaycan Kənd Təsərrüfatının aparılma sistemi» (5 kitab) baş redaktorunun müavini olmuşdur.

Eyni zamanda bir sıra müdafiə şuralarının (Azərbaycan Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu, Azərbaycan Xalq Təsərrüfatı İnstitutu, Moskva İqtisadiyyat İnstitutunun) üzvü olmuşdur.

Ə.Hacıyev pedaqoji sahədə də ciddi işlər yerinə yetirmiş, aqrar-sənaye kompleksinin tədrisi üzrə müxtəlif proqramlar hazırlamış, bir çox bakalavr və magistr işlərinə rəhbərlik etmiş və hazırda bu istiqamətdə fəaliyyətini davam etdirir. Ə. Hacıyev Az.ETKTİ və Tİ-na rəhbərlik etdiyi dövrdə institut

respublikada fəaliyyət göstərən kənd təsərrüfatı təmayüllü elmi-tədqiqat müəssisələrinin və ali məktəblərin müvafiq kafedralarının fəaliyyətini koordinasiya edən mərkəzə çevrilmişdir. İnstitut həmçinin ümumittifaq institutları və ümumittifaq Kənd Təsərrüfatı Akademiyasının iqtisadiyyat bölməsi ilə işgüzar əlaqələr qurmuşdur. Bütün bunlar öz səmərəsini vermişdir. Belə ki, institut həm ölkə miqyasında tanınmış, həm də respublikanın aqrar sahəsinin intensiv inkişafı baxımından bir sıra müvəffəqiyyətlərə nail olmuşdur.

Ə. Hacıyevin instituta rəhbərliyi dövründə Az.ETKTİ və Tİ dəfələrlə SSRİ xalq təsərrüfatı nailiyyətləri sərgisinin iştirakçısı olmuş və o, sərginin bürünc medalı ilə təltif olunmuşdur. Həmin dövrdə institutun fəaliyyəti dövlət səviyyəsində yüksək qiymətləndirilmişdir. İnstitut elmi-tədqiqat işlərinin nəticələrinə görə dəfələrlə yarışların qalibi olmuş, bir çox fəxri fərmanlar almışdır. 1980-1982-ci illərdə institutun 5 əməkdaşı müxtəlif orden və medallarla, o cümlədən Ə. Hacıyev «Şərəf nişanı» ordeni ilə təltif edilmişdir.

Ə. Hacıyev tərəfindən kadr hazırlığına ciddi diqqət verilmiş, hər il institutun aspiranturasına 5-8 nəfər qəbul edilmiş, onların əksəriyyəti müdafiyə etmişdir. H Qasımov, R. Məmmədov, R. Əliyev, Ə. Verdiyev, İ. Qarayev, M. Fərzəliyev doktorluq dissertasiyalarını məhz bu institutda hazırlamış və uğurla müdafiə etmişlər.





## Qasımov Həsən Allahyar oğlu

Qasımov Həsən Allahyar oğlu 1940-cı il yanvar ayının 14-də Naxçıvan MR-in Babək rayonunun Qaraçuxur kəndində (hazırda Araz su qovşağının su anbarının altında qalmışdır) anadan olmuşdur. 1946-1956-cı illərdə Qaraçuxur kəndinin məktəbində orta təhsil almış, 1956-cı ildə K.Marks adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutuna daxil olmuş və 1961-ci ildə keçmiş S.M.Kirov adına ADU-nu "Mühasibat uçotu" ixtisası üzrə bitirmişdir. 1961-1986-cı illərdə Azərbaycan SSR Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda laborant, baş laborant, kiçik elmi işçi, baş elmi işçi və şöbə müdiri vəzifələrində çalışmışdır. 1968-cı ildən iqtisad elmləri namizədi, 1985-ci ildən isə iqtisad elmləri doktoru olmuşdur. 1987-ci ildə professor adına layiq görülmüşdür.

1987-1992-ci illərdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi nəzdində Elmi-Tədqiqat Kənd Təsər-rüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun direktoru olmuşdur. O, bu elmi-tədqiqat müəssisəsində rəhbərlik etdiyi müddətdə institutun elmi potensialı məhsuldar işləmiş, kooperativlərin yaranması, təsərrüfat hesablı müəssisələr və briqada podryadının kənd təsərrüfatına dair elmi praktiki təkliflər hazırlamışdır. 1992-ci ilin sentyabrından ömrünün sonuna qədər (1994-cü il yanvarın 13-ü) Az.DİI-nin rektoru işləmişdir. Professor H. A. Qasımovun Azərbaycanda aqrar-sənaye kompleksinin maddi-texniki bazasının formalaşması və

inkişafı sahəsində çoxsaylı elmi məqalə və monoqrafiyaların müəllifidir, aparılan elmi tədqiqatlarda əvəzedilməz rolu olmuşdur. Bir neçə monoqrafiyanın, 200-dən artıq elmi məqalə və tezislərin müəllifidir. Başlıca əsərləri: "Azərbaycan SSR kənd təsərrüfatının inkişafının mühüm problemləri". Bakı: "Elm", 1972 (A.K.Ələsgərovla birgə); "Təsərrüfatlararası kooperasiya və onun problemləri". Bakı: "Elm", 1979 (bir qrup müəlliflə birlikdə); "ASK-nın maddi-texniki bazasının səmərəliliyinin yüksəldilməsi" (rus dilində). Bakı: "Elm",1982 və s.

Professor Həsən Qasımovun elmi axtarışları bir mənalı şəkildə APK-nın iqtisadi səmərəliliyini şərtləndirən problemlərin həllinə istiqamətlənmişdir. Bu əsasda müəllif APK-nın maddi-texniki bazasının gücləndirilməsi məsələlərinin elmi əsaslarını işləmiş və tətbiqinə nail olmuşdur.

Bu problem mövzulardan APK-nın maddi-texniki bazasının metodologiyası və metodikasını, aqrar sahə strukturlarının inkişaf qanunauyğunluqlarını, sahədaxili struktur yerdəyişmələrinin dinamikasını, material-texniki təminatın sənaye əsasına keçirilməsini, APK-nın regional xüsusiyyətləri nəzərə alınmaqla, alt sahələrdə səmərəliliyin müəyyən edilməsi kimi tədqiqat materialları o zaman üçün ən aktual mövzulardan sayıla bilər.

Professor H.A.Qasımov tələbkar alim, qayğıkeş insan, vətənpərvər bir ziyalı idi. Onun instituta rəhbərliyi dövründə çoxsaylı gənc kadrların elmə cəlb edilməsi elmi potensialı gəncləşdirmişdir.

A.H.Qasımov 30-dan çox elmlər namizədinə elmi rəhbər, 2 elmlər doktoruna elmi məsləhətçi, çoxsaylı kitab və monoqrafiyaların redaktoru və məsləhətçisi olmuşdur.





## Verdiyev Əhməd Çoban oğlu

Əhməd Çoban oğlu Verdiyev 1940-cı ildə Tovuz rayonunun İsakənd kəndində kolxozçu ailəsində anadan olmuşdur. Ali təhsilini S. Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda almışdır. 1970-ci ildə "İqtisadiyyat" fakültəsini fərqlənmə diplomu ilə bitirib, təyinatla Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutuna işə göndərilmişdir. O, burada aspiranturanın əyani şöbəsini bitirdikdən sonra kiçik elmi işçi, baş elmi işçi, şöbə müdiri, elmi işlər üzrə direktor müavini işləmişdir. 1993-cü ildən 2001-ci ilin mart ayınadək həmin institutun direktoru vəzifəsində çalışmışdır. Ə. Verdiyev 1974-cü ildə elmlər namizədi, 1989-cu ildə elmlər doktoru və 1992-ci ildə professor adına layiq görülmüş, 1999-cu ildə Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq İnformatizasiya Akademiyasının akademiki seçilmişdir.

Professor Ə.Verdiyevin elmi-tədqiqat miqyası geniş və rəngarəngdir. Azərbaycan milli aqrar iqtisad elminin nəzəri-metodoloji məsələlərinin öyrənilməsi, kənd təsərrüfatının inkişaf konsepsiyası, sahə strukturunun formalaşdırılması, məhsulun kapital, fond və material tutumunun müəyyənləşdirilməsi, təsərrüfatçılığın iqtisadi mexanizminin yaradılması, sahələrarası kooperasiya və inteqrasiya əlaqələri, sahibkarlığın inkişafı, rəqabət qabiliyyətli təsərrüfatların inkişaf parametrlərinin müəyyənləşdirilməsi, aqrar bazarın

formalaşdırılmasının iqtisadi mexanizmi və sairə Ə.Verdiyevin elmi araşdırmalarının başlıca istiqamətləri olmuşdur.

Professor Ə.Verdiyevin rəhbərliyi və bilavasitə iştirakı ilə "Bazar iqtisadiyyatı şəraitində aqrar-sənaye kompleksi sistemində təsərrüfatçılığın iqtisadi mexanizminin formalaşdırılmasının elmi əsasları" işlənib başa çatdırılmışdır. Tədqiqat nəticəsində kənd təsərrüfatı məhsulları istehsalının stimullaşdırılmasına, kənddə sahibkarlığın inkişafına, aqrar-sənaye kompleksinin idarə edilməsinin təşkilati quruluşunun təkmilləşdirilməsinə, maliyyə-kredit münasibətləri və investisiya siyasətinə, müəssisələrarası yeni kooperasiya və inteqrasiya əlaqələrinin formalaşdırılmasına, yeni torpaq münasibətlərinə və maddi-texniki resurslar bazarı və aqroservis xidmətinin təşkilinə dair elmi cəhətdən əsaslandırılmış təkliflər və tövsiyələr hazırlanmışdır.

Həmin təklif və tövsiyələrdən aqrar-sənaye kompleksinin inkişafını tənzimləyən qanunçuluq bazasının yaradılmasında, hökumət tərəfindən müvafiq normativ-hüquqi aktların qəbulunda və Kənd Təsərrüfatı Nazirliyinin müvafiq struktur bölmələrinin idarəçilik fəaliyyətində istifadə edilmiş və edilir.

Professor Ə.Verdiyevin beynəlxalq layihələrlə birgə apardığı tədqiqatlar onun elmi fəaliyyətinin əsas istiqamətlərindən biri olmuşdur, O, Avropa Birliyi Şurasının TASİS proqramı üzrə "Müstəqil Dövlətlər Birliyi ölkələrində ümumi aqrar bazarın yaradılması" layihəsinin Azərbaycan Respublikası üzrə məsləhətçi qrupuna rəhbərlik etmişdir. Onun rəhbərliyi altında "Müstəqil Dövlətlər Birliyi



ölkələrində kənd təsərrüfatı və ərzaq məhsulları ticarətinin möhkəmləndirilməsi prosesinin müdafiəsi" mövzusunda elmi-tədqiqat işi aparılmış, hazırlanmış təkliflər həmin layihənin rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmişdir.

Ə.Verdiyev Almaniyanın Texniki Yardım Cəmiyyətinin "Kənd təsərrüfatında özəl təşəbbüslərin dəstəklənməsi" beynəlxalq layihəsi ilə birgə tədqiqat aparmışdır. Layihə Zaqatalada aqrar islahatın aparılmasına texniki yardım göstərir. Aparılan aqrar islahatın nəticələri professor Ə.Verdiyevin rəhbərliyi altında araşdırılmış, sahibkarların fəaliyyətləri təhlil edilmiş, qiymətləndirilmiş və təkliflər hazırlanmışdır. Həmin təkliflərin Şəki-Zaqatala zonasının digər rayonlarında istifadəsi məqsədəuyğun hesab edilmişdir.

Professor Ə.Verdiyev elmi fəaliyyəti dövründə Azərbaycan Respublikası Dövlət Elm və Texnika Komitəsi, müvafiq elmi-tədqiqat müəssisələri ilə də sıx əməkdaşlıq etmişdir. O, respublikanın aparıcı iqtisadçı alimləri ilə birgə həmin komitənin sədri görkəmli alim, akademik Azad Mirzəcanzadənin tapşırığı ilə "Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı və iqtisadi islahatların dərinləşdirilməsinin əsas istiqamətləri", "Günəş aktivliyi dövrlərinin kənd təsərrüfatı bitkilərinin məhsuldarlığına təsirinin öyrənilməsi, torpağın məhsuldarlığının dövriliyinin araşdırılması" mövzularında elmi-tədqiqat işlərini yerinə yetirmişdir.

Azərbaycan Respublikası Dövlət Aqrar İslahat Komissiyasının üzvü kimi professor Ə.Verdiyevin elmi fəaliyyəti də diqqətə layiqdir. Onun bilavasitə iştirakı ilə

"Azərbaycan Respublikası Dövlət Aqrar İslahatı Komissiyasının, Naxçıvan Muxtar Respublikası, rayon və yerli aqrar islahatı komissiyalarının əsasnamələrinin layihələri" və "Kənd təsərrüfatı müəssisələrində əmlakın bölünməsi və onun bir hissəsinin bələdiyyə mülkiyyətinə verilməsi qaydaları" hazırlanmış, bu çox mühüm sənədlərdən aqrar islahat prosesində respublikanın bütün kənd təsərrüfatı müəssisələrində istifadə edilmiş və edilir. Professor Ə.Verdiyevin hazırladığı "Ölkənin təbii-iqlim şəraiti nəzərə alınmaqla ayrı-ayrı bölgələrdə aqrar sahənin inkişaf perspektivlərinə dair elmi tövsiyələr"i Azərbaycan Respublikası Dövlət Aqrar İslahatı Komissiyasının iclasında müzakirə edilərək bəyənilmişdir.

Professor Ə.Verdiyev "1999-2000-ci illərdə Azərbaycan Respublikasında aqrar islahatların dərinləşdirilməsi və kənd təsərrüfatında sahibkarlığın inkişafına kömək göstərilməsinə dair" və "Azərbaycan Respublikasının Ərzaq təhlükəsizliyinə dair" Dövlət proqramlarının layihələrini hazırlayan hökumət işçi qrupunun üzvü kimi həmin layihələrin icraçı müəlliflərindən biri olmuşdur.

Ə.Verdiyev 130-dan çox elmi əsərin müəllifidir. Onun ölkədə və xaricdə nüfuzlu elmi nəşrlərdə əsas fondlardan istifadənin səmərəliliyinin yüksəldilməsi, kənd təsərrüfatı təyinatlı əsas fondlar üzrə normativlər, bazar iqtisadiyyatı və qiymət, aqrar-sənaye kompleksi sistemində bazar münasibətlərinin formalaşması, mülkiyyət və yeni təsərrüfatçılıq formalarının inkişafı, qiymətlərin yaranması və kənddə sahibkarlıq fəaliyyətinin tənzimlənməsi barədə əsərləri dərc edilmişdir. Ə.Verdiyevin nüfuzlu elmi nəşrlərdə dərc edilmiş



əsərlərinə ölkənin iqtisadçı alimləri, aspirantlar, dissertantlar və başqaları öz tədqiqatlarında istinad edirlər.

Professor Ə.Verdiyev yüksək elmi təşkilatçılıq qabiliyyətinə malik idi. O, 30 illik elmi-pedaqoji fəaliyyəti dövründə, sözün həqiqi mənasında, ölkədə aqrar iqtisadçılar məktəbi yaratmışdır. Ə. Verdiyevin elmi kadrlar hazırlanması sahəsində də xidmətləri böyükdür. Onun rəhbərliyi altında 28 nəfər elmlər namizədi adını almışdır. O, pedaqoji sahədə də az əmək sərf etməmişdir. 1993-cü ildən Azərbaycan Dövlət İqtisad Universitetində "Dünya bazar qiymətləri" fənnindən mühazirələr oxumuşdur. Bir neçə xarici dövlətlərdə, o cümlədən, Almaniyada, Belçikada, Hollandiyada və Albaniyada xidməti ezamiyyətlərdə olmuş və qabaqcıl təcrübəni öyrənmişdir.

Professor Ə.Verdiyev həmçinin respublikanın ictimai həyatında fəal iştirak etmişdir. O, Azərbaycan Respublikası Dövlət Aqrar islahatı Komissiyasının və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının üzvü olmuşdur. Müstəqil Dövlətlər Birliyi ölkələri üzrə ümumi aqrar bazarın yaradılması işçi qrupunda ekspert kimi respublikanı təmsil etmişdir. Eləcə də o, institutun nəzdində fəaliyyət göstərən elmlər namizədi elmi dərəcəsi verən ixtisaslaşdırılmış müdafiə şurasının sədri olmuşdur. Professor Ə.Verdiyev Rusiya Akademiyasının "Cəmiyyət və iqtisadiyyat" beynəlxalq jurnalının redaksiya kollegiyasının, Azərbaycan Elmlər Akademiyasının "İqtisadiyyat-xəbərlər" jurnalının və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "Aqrar elm" jurnalının, "Azərbaycan Respublikası nümunəvi özəl kənd təsərrüfatı müəssisələrinin

fermerləri üçün məlumat bülleteni"nin və "Fermerin kitabçası" seriyasının redaksiya heyətinin üzvü olmuşdur.

Professor Ə.Verdiyev təşəbbüskar, yenilikçi, yüksək elmi təşkilatçılıq qabiliyyətinə malik, səmimi, obyektiv, prinsipial insan kimi respublika və yaxın xarici ölkələrin iqtisadçıları arasında hörmət qazanmışdır. O, 30 illik elmi və pedaqoji fəaliyyəti müddətində həmişə radio və televiziyada, həmçinin respublika dövri mətbuatında dövlətin aqrar siyasətini təbliğ etmişdir.

2001-ci ilin mart ayında vəfat etmişdir.



## Salahov Sadıq Vəli oğlu



S.V.Salahov 1946-cı ildə Naxçıvan MR Şərur rayonunda anadan olmuşdur. Həmin rayonda orta məktəbi bitirdikdən sonra 1963-cü ildə Politexnik İnstitutunun "Texnologiya" fakültəsinə daxil olmuş və 1968-ci ildə həmin institutu bitirərək mühəndis-texnoloq ixtisasına yiyələnmişdir.

1968-1970-ci illərdə respublika Pambıqtəmizləmə Sənayesi Nazirliyi müəssisələrində çalışmış və "Rəşadətli əməyə görə" yubiley medalı ilə təltif olunmuşdur.

1970-1971-ci illərdə Politexnik İnstitutunda müəllim işləmiş və 1971-1972-ci illərdə hərbi xidmətdə olmuşdur.1972- 1977-ci illərdə əmək fəaliyyətini Dövlət Plan Komitəsi Elmi Tədqiqat İqtisadiyyat İnstitutunda əvvəlcə elmi işçi, sonra bölmə müdiri vəzifələrində davam etdirmişdir.

1977-1983-cü illərdə Respublikada Yüngül Sənaye Nazirliyi «Azərpambıqsənaye» İstehsalat Birliyində «İstehsalat» şöbəsində mühəndis, şöbə müdiri vəzifələrində işləmiş, həmin ilin sentyabr ayından isə Respublika Nazirlər Sovetinə işə göndərilmişdir. 1984-cü ilin sentyabr ayına kimi Nazirlər Soveti işlər idarəsinin Yüngül Sənaye şöbəsində böyük referent vəzifəsində çalışmışdır.

1984-cü ilin sentyabrından 1988-ci ilin mart ayınadək Respublika Pambıqtəmizləmə Sənayesi Nazirinin müavini,

nazirlik istehsalat Birliyinə çevrildikdən sonra isə Birliyin Baş direktorunun müavini vəzifələrində işləmişdir.

S.V.Salahov 1988-ci ilin martında Kənd Təsərrüfatı Nazirliyi, Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutuna (Az.ETKTİ və Tİ) köçürülmüş və 1992-ci ilin oktyabrınadək burada elmi işçi, şöbə müdiri vəzifələrində işləmişdir.

Həmin illərdə dövrü mətbuatda respublikada pambıqçılığın və üzümçülüyün perspektiv inkişafına dair geniş məqalələrlə çıxış etmiş və pambıqçılığın inkişaf problemlərinə dair 4 elmi məqalə, 2 məcmuə çap etdirmişdir. Onun elmi təklifləri 80-ci illərdə respublikada Pambıqçılıq Kompleksinin inkişaf proqramlarında öz əksini tapmışdır. Məhz bu səbəbdən o, 1992-ci ildə yenidən Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinə işə dəvət edilmiş və burada 1992-1998-ci illər ərzində Pambıq Emalı idarəsinin rəisi və sonralar isə Xarici İqtisadi Əlaqələr Birliyinin Baş direktoru vəzifələrində çalışmışdır. Burada işlədiyi müddətdə o, Fransanın Toxuculuq Sənayesinin Elmi Araşdırmalar Mərkəzi sayılan (CFDT) Toxuculuq və yüngül sənaye üzrə yarım dövlət təşkilatı ilə birlikdə bazar iqtisadiyyatı şəraitində, Azərbaycanda pambıqçılığın inkişafına dair elmi araşdırmalar aparmış, alınmış nəticələr əsasında birgə hazırlanmış proqram layihəsi Respublika hökumətinə təqdim edilmişdir.

Aqrar islahatla əlaqədar Birlik 1998-ci ildə ləğv olunduğundan 1998-2001-ci illərdə S.V.Salahov qeyri - dövlət müəssisəsində iqtisadi müşavir vəzifəsində işləmişdir.



2001-ci ilin fevralından-may ayınadək Az.Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda elmi işlər üzrə direktor müavini işləmiş, may ayından hal-hazıra kimi isə həmin institutun direktoru vəzifəsində çalışır.

Onun rəhbərliyi dövründə institutun elmi istiqaməti müasirləşmiş, tədqiqat işləri üzrə tematik planlar aqrar sahənin müasir problemlərinə istiqamətləndirilmiş, bununla əlaqədar olaraq institutda struktur dəyişiklikləri həyata keçirilmişdir. Ölkənin ərzaq təhlükəsizliyi, aqrar sahənin dövlət tənzimlənməsi, maliyyə kredit və investisiya məsələləri, sahibkarlığın inkişafı, işçi qüvvəsinin təkrar istehsalı, kənd əhalisinin sosial məsələləri, sosial və istehsal infrastrukturunun inkişafı, struktur siyasəti, kooperasiya və inteqrasiya problemlərinin öyrənilməsi və s. kimi aktual mövzular institutun tematikasının özəyini təşkil etmişdir. Bu illərdə aqrar sahənin aktual problemlərinə həsr olunmuş 5 respublika və 4 beynəxalq elmi praktiki konfranslar keçirilmişdir. İnstitut həmçinin aqrar sahənin qanunvericilik fəaliyyətinin təkmilləşdirilməsi üzrə Milli Məclisin Aqrar Siyasət Komissiyası ilə də ciddi iş birliyində olmaqla respublikada aqrar iqtisadiyyat üzrə elmi mərkəzə çevrilmişdir.

İnstitutun elmi fəaliyyəti bu illərdə Beynəlxalq elmi əlaqələrinin davamlılığı ilə də yadda qalandır. Belə ki institutda TASİS proqramları çərçivəsində aparılan elmi araşdırmalar, Almaniya Federativ Respublikasının QTZ təşkilatı ilə birgə Azərbaycanın Qax, Zaqatala, Xızı rayonlarında kənd təsərrüfatı istehsalı üzrə aparılan tədqiqatlar sonrakı illərdə də daha geniş müstəvidə institutun

aparıcı istiqaməti olmuşdur. Xüsusən aqrar islahatın dərinləşdirilməsi fonunda istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi üçün informasiya monitorinq sisteminin yaradılması üzrə institutda 2006-cı ildən başlayaraq FAO ilə qarşılıqlı əməkdaşlıq əsasında ölkənin ərzaq təhlükəsizliyinin qiymətləndirilməsi məqsədilə aparılan tədqiqatlar bu gün öz real nəticələrini verməkdədir. Aqrar sahənin gələcək inkişaf konsepsiyasının hazırlanmasında, aqrar siyasətin təkmilləşdirilməsində və beynəlxalq qurumlara dərin inteqrasiya mərhələlərində bu tədqiqat nəticələrinə böyük ehtiyac vardır. Hazırda respublikanın 3 pilot regionunda qurulmuş bu sistem 2015-ci ilədək bütün kənd regionlarını əhatə etməklə mərkəzi tətbiq xarakterli elmi tədqiqat müəssisəsi kimi Az.ETKTİ və Tİ olacaq bu sistem stasionar vəziyyətdə işləyəcək və dövlət strukturlarına müvafiq elmi praktiki təkliflər hazırlayacaqdır.

İnstitutda elmi kadrların hazırlanması istiqamətində də ciddi dönüşə nail olunmuşdur. Belə ki, 2003-2011-ci illərdə kənd təsərrüfatının iqtisadiyyatı üzrə 80-dən artıq yüksək ixtisaslı elmi kadr (elmlər doktoru, elmlər namizədi) yetişdirilmişdir. Hazırda institutda 40-dan çox gənc elmi tədqiqatçı araşdırmalar aparır. İnstitutun elmi kadr potensialının 40% gənclərdən ibarətdir.

S.V.Salahov 1990-cı ildən iqtisad elmləri namizədi, 2006-cı ildən isə iqtisad elmləri doktorudur. 7 kitab və monoqrafiyanın, çoxsaylı elmi və elmi-publisistik məqalələrin müəllifidir. O öz tədqiqatlarmı aqrar sahənin müasir makro və mikro səviyyəsi problemlərinə, o cümlədən istehsalın stimullaşdırılmasına, sahənin regional inkişafına,



ərzaq təhlükəsizliyinə, dövlət dəstəyinə, aqrar sahənin idarə edilməsinə istiqamətləndirmiş, respublikada aqrar sahənin dövlət tənzimlənməsi elmi istiqamətin ilk tədqiqatçısıdır. Onun 2005-ci ildə dərc etdirdiyi "Aqrar sahənin dövlət tənzimlənməsi problemləri" monoqrafiyası dövlət strukturları, elmi ictimaiyyət və tədris müəssisələri tərəfindən maraqla qarşılanmışdır. Aqrar iqtisadiyyatın nəzəri-metodoloji və praktiki aspektlərinin müasir tələblər baxımından təhlili, aqrar siyasətin formalaşdırılması və bu siyasətin reallaşdırılma strategiyasınm təkmilləşdirilməsinə dair məsələlər onun son elmi araşdırmalarınm əsas mövzusudur. Aqrar sahənin dövlət tənzimlənməsi problemlərinin tətqiqatçıları həmin mənbələrdən geniş istifadə edirlər. Demək olar ki, artıq bu istiqamətdə məktəb formalaşır.

S.V.Salahovun rəhbərliyi dövründə institutun elmi fəaliyyəti genişləndirilmiş, beynəxalq elmi əlaqələrin inkişaf etdirilməsində ciddi nailiyyətlər əldə olunmuşdur. Belə ki, bu gün institut Rusiya Federasiyasının aqrar təmayüllü 5 elmi tədqiqat və tədris institutları, Qazaxıstan Aqrar Tədqiqatlar Elmlər Akademiyası, Özbəkistan Kənd Təsərrüfatı Elmi İslahat Mərkəzi, Belorus, Moldova, Dağıstan respublikalarındakı aqrar tədqiqat və tədris mərkəzləri, BMT-nin FAO təşkilatı, digər beynəlxalq qurumlarla elmi əməkdaşlıq əlaqələrini yüksək səviyyədə qurmuş və müştərək elmi tədqiqat işlərinin yerinə yetirilməsinə başlanmışdır.

O, aqrar sahə üzrə Beynəlxalq Konfrans, Simpozium və sərgilərdə (İngiltərə, Çin Xalq Respublikası, Almaniya,

Qazaxıstan, Rusiya Federasiyası, Türkiyə Cümhuriyyəti, Ukrayna Respublikası) iştirakı ilə Respublikamızı layiqincə təmsil etmişdir.

S.V.Salahovun rəhbərliyi altında aqrar sahə iqtisadiyyatı üzrə 12 nəfər dissertasiya müdafiə edərək iqtisad elmləri namizədi və iqtisad üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almışdır. O, 11 elmlər namizədinin müdafiəsində apponent, 5 elmi məcmuənin baş redaktoru və elmi məsləhətçisi olmuşdur.

İqtisad elmləri doktoru, professor S.V.Salahov respublika ictimai-siyasi mühitində də fəallığı ilə seçilirməklə kütləvi informasiya vasitələrində aparılan elmi diskusiyaların fəal iştirakçısıdır.

Ailəlidir, iki övladı var.





## Allahverdiyev Həsən Bəkir oğlu

Allahverdiyev Həsən Bəkir oğlu 1935-ci il aprel ayınm 15-də Qərbi Azərbaycanda Krasnoselo rayonunun Gölkənd kəndində kolxozçu ailəsində anadan olmuşdur. O dövr üçün müstəsna hal olaraq o, 6 yaşmdan öz doğma kəndində orta məktəbin birinci sinfinə daxil olmuş, iki sinfi bir il ərzində bitirərək 1949-cu ildə (14 yaşında) Gəncə şəhərində Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna (indiki Aqrar Universitetə) daxil olmuş və oranı 1954-cü ildə müvəffəqiyyətlə bitirmişdir.

1954-1957-ci illərdə İrəvanda Azərbaycan kənd Təsərrüfatı Texnikumunda müəllimlik etməklə, 1956-cı ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində birillik pedaqoji məktəbi bitirmişdir. Elmi işə marağı olan Həsən müəllim 1957-ci ildə Xarkov şəhərində V.V.Dokuçayev adına Kənd Təsərrüfatı İnstitutunda istehsaldan ayrılmaq şərti ilə aspiranturaya daxil olmuş və 1960-cı ildə həmin ali məktəbin ixtisaslaşdırılmış elmi şurasında namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək iqtisad elmləri namizədi elmi dərəcəsinə layiq görülmüşdür.

Həmin ildən etibarən Bakı şəhərində Azərbaycan Kənd Təsərrüfatı Elmlər Akademiyasının nəzdində «İqtisadiyyat» bölməsində baş elmi işçi vəzifəsində çalışmaqla bərabər, Akademiyanın həmkarlar Təşkilatına rəhbərlik etmişdir. 1962-ci ildə Kənd Təsərrüfatı Elmlər Akademiyası

tərkibindəki «Kənd təsərrüfatının iqtisadiyyatı» bölməsi əsasında Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu təşkil olunmuş və H.Allahverdiyev 1968-ci ilədək bu institutda baş elmi işçi və şöbə müdiri vəzifələrində çalışmışdır.

1968-ci ildə müsabiqə yolu ilə D.Bünyadzadə adına Xalq Təsərrüfatı İnstitutunda SSRİ xalq təsərrüfatının iqtisadiyyatı və planlaşdırılması kafedrasına dosent vəzifəsinə seçilmişdir. O, 1972-ci ildə həmin institutun elmi şurasında doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək iqtisad elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdür. 1973-cü ildən etibarən o institutda SSRİ "Xalq təsərrüfatının iqtisadiyyatı və planlaşdırılması" kafedrasının müdiri vəzifəsinə seçilmişdir. 1977-ci ildə professor vəzifəsinə layiq görülmüşdür.

SSRİ-nin süqutu ilə SSRİ xalq təsərrüfatının iqtisadiyyatı və planlaşdırılması kafedrası iqtisadiyyatın dövlət tənzimlənməsi kafedrası ilə əvəz edilmiş və 2006-cı ilədək həmin kafedraya professor H.B.Allahverdiyev rəhbərlik etmişdir. Professor H.Allahverdiyev elmi-pedaqoji və ictimai fəaliyyəti səmərəli və geniş şaxəlidir. Onun fəaliyyətinin ən məhsuldar dövrü respublikada aqrar istehsalın inkişafına və xüsusilə onun hərtərəfli intensivləşdirilməsi probleminə həsr edilmişdir. Aqrar islahatların həyata keçirilməsində və bütövlükdə respublikada bazar iqtisadiyyatının formalaşdırılması, inkişafı və tənzimlənməsi sahəsində çalışan ən məhsuldar alimlərdən biri hesab edilir. İndiyədək 450 çap vərəqindən çox nəşr edilmiş elmi əsərlərin, o cümlədən 25 adda monoqrafiya, dərslik və dərs vəsaitlərinin müəllifidir.



Professor H.Allahverdiyevin rəhbərliyi və iştirakı ilə respublikamızda ilk dəfə olaraq Azərbaycan dilində «SSRİ xalq təsərrüfatının iqtisadiyyatı və planlaşdırılması», «Qiymət və qiymətlərin əmələ gəlməsi», «İqtisadi və sosial proqnozlaşdırılmanın əsasları», «Sosial inkişafın planlaşdırılması, «Azərbaycan kəndinin sosial inkişafı» və s. dərslik və dərs vəsaitləri hazırlanaraq nəşr edilmişdir. Onun bir sıra elmi əsərləri və monoqrafiyaları Moskva, Sankt-Peterburq, Kiyev, Xarkov. Minsk və s. şəhərlərdə dərc edilmişdir.

H.Allahverdiyev müxtəlif illərdə Moskvada, Sankt-Peterburqda, Kiyevdə, Minskdə, Daşkənddə, Tbilisidə, Yerevanda və digər mərkəzi şəhərlərdə konfranslarda iştirak etməklə yanaşı, respublikada iqtisadiyyatın aktual probleminə dair məruzə və çıxışlar etmişdir. Respublikada yüksək ixtisaslı iqtisadçı kadrların hazırlanmasında da uğurlu məktəb yaratmağa nail ola bilmişdir. Onun elmi rəhbərliyi altında 60-dan çox azərbaycan və xarici ölkə vətəndaşları iqtisad elmləri namizədi elmi dərəcəsi almışdır. 4 nəfər iqtisad elmləri doktorluq dissertasiya işinə məsləhətçi olmuş, 70-dən çox namizədlik. 12-dək doktorluq dissertasiyasına rəsmi opponentlik etmişdir. H. Allahverdiyev 2008 – ci ilədək Azərbaycan Dövlət İqtisad Universitetində Böyük Elmi Şuranın namizədlik və doktorluq dissertasiyasının müdafiəsi üzrə üzvü olmuşdur.

Həsən müəllim, sözün əsl mənasında, ən fəal, səmimi ictimaiyyətçilərdəndir. O, YAP-ın ən fəal iştirakçılarından biridir. O, YAP Səbail rayonu siyasi şurasının üzvüdür. 1993-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetində YAP-ın ilk ərazi təşkilatını yaratmış və ona 2006-cı ilədək

şərəflə rəhbərlik etmişdir. O, 2010-cu il mart ayının 10-da Yeni Azərbaycan Partiyası Səbail Rayon Təşkilatı tərəfindən partiyanın həyatındakı fəaliyyəti və anadan olmasının 75 illiyi münasibətilə təltif edilmişdir. YAP-ın I, II və III qurultaylarına nümayəndə seçilmişdir.

Hazırda Azərbaycan Dövlət İqtisad Universitetində iqtisadiyyatın tənzimlənməsi kafedrasında professor vəzifəsində çalışır. «İqtisad elmləri: nəzəriyyə və praktika», «İqtisadiyyat və audit» elmi-praktik aylıq jurnalında redaksiya heyətinin ən fəal üzvlərindən biridir. Mərkəzi və dövri mətbuatda bazar iqtisadiyyatının aktual problemlərinə dair ardıcıl elmi məqalələrdə çıxışlar edir.

Həsən müəllim öz çıxışında dəfələrlə qeyd edir ki, insan ömrünün dəyəri onun çox yaşamasında deyil, necə yaşamasındadır. Həsən müəllim çox zəngin həyat məktəbi keçmişdir. O, milləti üçün olduqca xeyirxah işlər görən, çox sadə, daim öz üzərində çalışan, axtarışlarda olan faydalı bir şəxsiyyət kimi tanınır. Həsən müəllimin tələbələri, onu yaxından tanıyan həmkarları bu insanın kim olmasına birmənalı cavab verməkdə heç bir çətinlik çəkmədən deyirlər ki, o Azərbaycan iqtisadiyyatına öz töhfəsini verən iqtisadçı alim kimi yüksəkixtisaslı kadrların hazırlanmasında yorulmadan çalışan fədakar müəllim, dövlətinə, xalqına şərəflə xidmət edən əsl vətəndaş kimi tanınır. Professor H.Allahverdiyevə qarşı bu münasibət onun prinsipial olması ilə yanaşı, yüksək tədris intizamına riayət etməsi, tələbələrə və müəllim kollektivinə qarşı yüksək həssaslıq və mehribanlıq göstərilməsi ilə bağlıdır. Respublika Təhsil



Nazirliyi onun bu göstəricilərinə yüksək qiymət vermişdir. O, nazirliyin fəxri fərmanına layiq görülmüşdür.

Həsən müəllim özünəməxsus iş üslubu həm kafedra, həm də fakultə miqyasında özünü daha qabarıq göstərməkdədir. Belə sistemli iş üslubu gələcək mütəxəssislərə göstərilən xeyirxahlığın, vətənə ləyaqətlə xidmətin, nəticədə iqtisadçı kadrların hazırlıq səviyyəsinin yüksəldilməsinə göstərilən qayğının bəhrəsidir. Həsən müəllim iqtisad elmi ilə yanaşı, bədii ədəbiyyatı da çox sevir. O, sözündə və əməlində bütöv, ədalətli bir şəxsdir. Dövlətimiz H.Allahverdiyevin elmi-pedaqoji və ictimai fəaliyyətinə yüksək qiymət vermişdir. O. 1989-cu ildə «Əmək veteranı» medalı, 2002-ci ildə isə «Şöhrət» ordeni ilə təltif edilmişdir.

## Alıyev İsa Hüseyn oğlu



AMEA İqtisadiyyat İnstitutunun direktoru, iqtisad elmləri doktoru, professor Alıyev İsa Hüseyn oğlu 08.10.1953-cü ildə Dərələyəz mahalının (keçmiş Ermənistan SSR Yexeqnadzor rayonunun) Qalaser kəndində anadan olmuşdur. Orta məktəbi 1970-ci ildə bitirmiş, 1970-75-ci illərdə keçmiş D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda "Siyasi iqtisad" ixtisası üzrə əyani təhsil almışdır. 1975-ci ildə əyani aspiranturaya qəbul olmuş, 1976-77-ci illərdə isə ordu sıralarında xidmət etmişdir. 1982-ci ildə Azərbaycan EA İqtisadiyyat İnstitutunda "Aqrar sənaye birliklərində iqtisadi mənafelərin əlaqələndirilməsi" adlı 08.00.01 - siyasi iqtisad ixtisası üzrə namizədlik dissertasiyası müdafiə etmiş, 2005-ci ildə isə "Azərbaycanda aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi" adlı doktorluq dissertasiyasını, 08.00.05 ixtisası üzrə müdafiə etmişdir. "İqtisadi nəzəriyyə" ixtisası üzrə professor elmi adına layiq görülmüşdür.

İsa Hüseyn oğlu Alıyev uzun müddətdir ki, elmi-tədqiqat işlərini yerinə yetirən savadlı və novator kadrlara rəhbərlik etməklə, eləcə də yüksək ixtisaslı elmi kadrların hazırlanması ilə məşğul olmaqla, respublikamızda zəngin təcrübəyə və böyük nüfuza malik olan tanınmış elm adamlarındandır. Onun rəhbərliyi və bilavasitə iştirakı ilə bir sıra elmi tədqiqat işləri, o cümlədən müstəqil respublikamızın milli iqtisadiyyatı və dayanıqlıhğı məntiqini ifadə



edən iqtisadi nəzəriyyə və aqrar sahənin idarə olunması ilə bağlı işlər yerinə yetirilmişdir. O, 1991-95-ci illərdə "Respublikamızın ASK-nın təsərrüfat mexanizminin təkmilləşdirilməsi", 1995-2000-ci illər ərzində isə "Aqrar münasibətlərin bazar tələblərinə uyğun təkmilləşdirilməsi", 2000-2005-ci illərdə "Azərbaycan milli iqtisadiyyatının formalaşması və aqrar münasibətlərin inkişafı", 2006-2010-cu illərdə "Qloballaşma şəraitində Azərbaycanda aqrar iqtisadiyyatın dayanıqlı inkişaf istiqamətlərinin tədqiqi" adlı elmi-tədqiqat işlərinə rəhbərlik etmiş və bir sıra mühüm təsərrüfat əhəmiyyətli nəticələr əldə edilmişdir.

İ.H.Alıyev eyni zamanda bir sıra hökumət və dövlət əhəmiyyətli işlərin yerinə yetirilməsinin bilavasitə iştirakçısı olmuş, bir sıra samballı monoqrafiyaların müəllifi kimi də tanınmışdır. Alim 8 fərdi, 11 kollektiv monoqrafiya, 250-yə ya-xın elmi məqalə, tezis və qəzet yazılarının müəllifidir. Bunlardan aşağıdakıları qeyd etmək olar. "Aqrar - sənaye birliklərində iqtisadi mənafelər". Bakı, "Elm" nəşriyyatı, 1978, 7 ç.v.; "Azərbaycan Respublikasında aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi", Bakı, Elm, 2003, 20 ç.v. (kitab AMEA RH tərəfindən mühüm əhəmiyyətli iş kimi qiymətləndirilmişdir); "Aqrar sahənin inkişafının təkmilləşdirilməsi və regionlarda islahatların keyfiyyətcə aparılması", Bakı, Universiteti nəşriyyatı, 2004, 7 ç.v.; "Milli iqtisadiyyat və aqrar sahənin inkişafı problemləri", Bakı, Elm, 2006, 24 ç.v.; "Qloballaşma şəraitində aqrar sahənin dayanaqlı inkişafının təmin olunmasının sosial-iqtisadi problemləri", Bakı, Elm, 2008, 25 ç.v., "İqtisadiyyat hamı üçün", monoqrafiya, Bakı,

"Avropa" nəşriyyatı, 2010, 25 ç.v. və s. O, həmçinin 40-a yaxın beynəlxalq (Bakı, Minsk, Moskva, Kiyev, Budapeşt, Astana, Daşkənd və s.) və 100-ə yaxın respublika konfrans və simpoziumlarının iştirakçısı olmuşdur.

Hazırda İsa Alıyev AMEA İqtisadiyyat İnstitutu Elmi Şurasının və institutda fəaliyyət göstərən Müdafiə Şurasının sədridir. İnstitutda nəşr olunan "AMEA İqtisadiyyat İnstitutunun Elmi Əsərləri" jurnalının və "Modernləşmə xətti" bülleten jurnalının baş redaktoru, həmçinin respublikada nəşr olunan "İqtisadiyyat və həyat", "Kooperasiya" və digər çoxsaylı jurnalların redaksiya heyətinin üzvüdür.

Onun redaktorluğu ilə bir sıra sanballı kitablar çap olunmuşdur. O cümlədən:

"Azərbaycan iqtisadiyyatı", 1998, "Ağrıdağ" nəşriyyatı, 400 səh., "Modernləşmə və sosial-iqtisadi inkişafın regional problemləri mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları", Bakı, 2009, 492 səh., "Qloballaşma mühitində milli iqtisadi inkişaf modelinin formalaşması problemləri", Bakı, 2010, 186 səh., "İqtisadi nəzəriyyə", Bakı, 2010, 750 səh., "Aqrar sahə modernləşmə dönəmində: (problemlər və onun həlli yolları), Bakı, 2009 və s.

O, 1980-ci ildən həmçinin pedaqoji fəaliyyətlə də məşğuldur. Rəhbərliyi ilə 1 elmlər doktoru, 15 iqtisad üzrə fəlsəfə doktoru, müdafiə etmiş, 2 nəfər isə müda-fiə ərəfəsindədir. "Mən də beləyəm", 2005, 331 səh. şer kitabının müəllifidir.

- 2003-cü ildə VEKTOR Beynəlxalq Elm Mərkəzi tərəfindən "XXI əsr Azərbaycan ziyalıları" Beynəlxalq



layihəsinin qalibi olmuş və "XXI əsr Azərbaycan ziyalıları" Beynəlxalq ensiklopedik kitabına adı salınmışdır.

- 2004-cü ildə "V.S.B – Simurq" Fundamental Araşdırmalar Bürosu tərəfindən "Məsuliyyətli və mübariz Azərbaycan vətəndaşı" diplomuna layiq görülmüşdür. "Qızıl Qələm" mükafatçısıdır.

- 2011-ci ildə Avropanın və Böyük Britaniyanın nüfuzlu mükafatlarından olan "Kraliça Viktoriya xatirə medalı" ilə təltif edilməsi üçün namizədliyi irəli sürülmüş və Böyük Britaniyanın Oksford şəhərində, Liderlərin Oksford Sammiti çərçivəsin-də mükafat təqdim olunmuşdur.

2011-ci ildə "Avropa Nəşr Mətbu Evi" mükafat komissiyasınm qərarı ilə milli-mənəvi dəyərlərimizin qorunmasında, istedadlı gənc alimlərin hazırlanmasında səmərəli fəaliyyətinə, cəmiyyətdəki fəal ziyalı mövqeyinə, kollektivə göstərdiyi xüsusi qayğıya, dəyərli elmi kitablarına, müasir ölkə iqtisadiyyatının aktual problemlərinə dair yaradıcı elmi təkliflərinə görə "Ən yaxşı vətənpərvər tədqiqatçı alim" qızıl medalı ilə təltif olunmuşdur.

2012-ci ildə Beynəlxalq Sokrat Komitəsi, Avropa Açıq Elm Forumu, Avropa Biznes Assambleyası və Avropa rektorlar klubu tərəfindən təsis edilmiş "Elmdə Ad" (the Name of Science) fəxri mükafatına layiq görülmüşdür.



## Ataşov Bəyalı Xanalı oğlu

Ataşov Bəyalı Xanalı oğlu 1946 - cı ildə İmişli şəhərində anadan olmuş, 1964 - cü ildə 34 saylı İmişli dəmir yolu orta məktəbi, 1970 - ci ildə D. Bünyadzadə ad. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (indiki Azərbaycan Dövlət İqtisad Universitetinin) "Uçot – iqtisad" fakültəsini bitirmişdir.

1970 - 1974 - cü illərdə (hərbi xidmətdə olduğu 1 il istisna olmaqla) yaşadığı İmişli rayonunun Həzi Aslanov ad. kolxozunda baş mühasib işləmişdir. 1975 - 1987- ci illərdə respublikanın Ət və Süd Nazirliyinin qabaqcıl sənaye müəssisələrində rəhbər vəzifələrdə: İmişli ət kombinatında baş mühasib; İmişli yağ - pendir kombinatında direktor; "Qırmızı Əmək Bayrağı ordenli Bakı ət kombinatında iqtisadi məsələlər üzrə direktor müavini; Bakı süd istehsalat birliyində baş direktor; Bakı ət kombinatında plan - istehsalat şöbəsinin rəisi vəzifələrində çalışmışdr.

1987 - ci ilin mart ayından hal - hazıra kimi Azərbaycan Mərkəzi Kooperativlər İttifaqı ("Azərittifaq") sistemində işləyir. Burada Ət tədarükü və satışı üzrə respublika kontorunda direktor, mərkəzi aparatın kənd təsərrüfatı məhsullarının tədarükü, emalı və satışı üzrə birlikdə baş direktor, xarici ticarət birliyində baş direktor, maliyyə - iqtisad idarəsində rəis vəzifələrində bacarıqla çalışmışdır. 2011 - ci ilin avqust ayında Azərbaycan Kooperasiya



Universitetinin elmi işlər üzrə prorektoru vəzifəsinə keçirilmişdir.

Zəngin maliyyə - uçot, istehsalat və təşkilati - idarəetmə təcrübəsinə malik olan, elmi axtarışlara daim böyük maraq göstərən praktik - tədqiqatçı B. X. Ataşov 1989 - cu ildə "Azərbaycan Respublikasında ot - süd sənayesinin inkişafı" mövzusunda namizədlik, 2002 - ci ildə isə "Azərbaycan Respublikası ərzaq kompleksinin formalaşmasının və inkişafının təşkilati - idarəetmə problemləri" mövzusunda doktorluq dissertasiyaları müdafiə etmişdir.

Müstəqil Azərbaycanda ərzaq kompleksinin inkişafı və ərzaq təhlükəsizliyi problemlərini araşdıran ilk tədqiqat-çılardandır. Doktorluq dissertasiyasında irəli sürülmüş təklif və tövsiyələri vaxtilə beynəlxalq təşkilatların iştirakı ilə həyata keçirilmiş "Kənd təsərrüfatında regional islahatlar", "Özəlləşdirilmiş kənd təsərrüfatı müəssisələrinin təşkili", "Kənd təsərrüfatının inkişafı və kreditləşdirilməsi" kimi pilot layihələrdə qismən istifadə edilmişdir.

"Azərittifaq"ın idarə heyətinin üzvü olan və uzun müddət elmi - pedaqoji fəaliyyətini Azərbaycan Kooperasiya Universitetində, bir sıra digər elm ocaqlarında, o cümlədən Azərbaycan Elmi - Tədqiqat Kənd Təsərrüfatının İqtisadiy-yatı və Təşkili İnstitutunda davam etdirən B.X.Ataşov 5 monoqrafiyanın ("Ərzaq təhlükəsizliyinin aktual problem-ləri" adlanan monoqrafiya, 2005- ci il), ali məktəblər üçün bir neçə dərslik və dərs vəsaitlərinin ("Müəssisələrin maliyyəsi" Dərslik, 2009 - cu il), çoxsaylı tədris proqramları, metodik göstərişlər və tövsiyələrin, 100 – dən artıq elmi məqalələrin müəllifidir, 2011 - ci ildə nəşr edilmiş elmi -

təcrübi tezislər toplusu olan "İdarəetmə elmi və rəhbər əməyi" adlanan kitabı mütəxəssislər arasında böyük marağa səbəb olmuşdur.

Gənc iqtisadçı alimlərin yetişdirilməsində və hazırlanmada fəal iştirak edən B.X.Ataşov Azərbaycan İqtisadçılar İttifaqının, Azərbaycan Kooperasiya Universitetinin Elmi Şurasının və Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş şuranın üzvüdür.

2007 - 2012 - ci illərdə Azərbaycan Elmi - Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu nəzdində fəlsəfə və elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən ixtisaslaşdırılmış Şuranın üzvü olmuşdur.

Müdafiə edilmiş xeyli sayda namizədlik və doktorluq dissertasiyalarının elmi rəhbəri, məsləhətçisi və rəsmi opponenti olmuş, bir sıra monoqrafiya, dərslik və dərs vəsaitlərinin hazırlanıb nəşr edilməsində elmi redaktor və rəyçi kimi iştirak etmişdir.

Hazırda 1 nəfər elmlər doktoru elmi dərəcəsi iddiasında olan dissertantın elmi məsləhətçisi, 6 nəfər fəlsəfə doktoru elmi dərəcəsi iddiasında olan doktorant və dissertantların elmi rəhbəridir.

Dövri mətbuatda, eləcə də müxtəlif səviyyələrdə keçirilən respublika və beynəlxalq elmi - praktik konfranslarda, simpoziumlarda, seminarlarda ölkəmizin iqtisadiyyatının aktual problemlərinə dair müntəzəm olaraq maraqlı ideya və təkliflərlə çıxış edir.



1970 - ci ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə "Əmək rəşadətinə görə" yubiley medalı ilə, 2006 - cı ildə İyirminci çağırış "Azərittifaq" Şurasının dördüncü yığıncağının qərarı ilə "Azərbaycan Respublikasının Kooperasiya əlaçısı" adı ilə təltif edilmişdir.

1982 - 1986 - cı illərdə İmişli şəhər və Bakı şəhəri Nərimanov rayon xalq deputatları sovetlərinin deputatı olmuşdur. "Qızıl qələm" mükafatı laureatıdır.

Ailəlidir, iki oğlu və dörd nəvəsi var.

**B.X.Ataşovun çap olumuş monoqrafiya və dərslikləri**

1. Yeni təsərrüfatçılıq şəraitində Azərbaycan Respublikası rayon aqrar - sənaye komplekslərinin struktur dəyişikliklərinin idarə olunmasının iqtisadi - riyazi modelləri, Monoqrafiya. Bakı, "Azərnəşr", 1993, 12,0 ç.v.
2. Bazar iqtisadiyyatına keçid şəraitində Azərbaycan Respublikası aqrar - sənaye kompleksinin idarə olunmasının iqtisadi mexanizmi. Monoqrafiya (Ş.Ə.Cəbrayılovla həmmüəllif). Bakı, "Azərnəşr", 1993, 15,5 ç.v.
3. Azərbaycanın ərzaq kompleksi. Monoqrafiya. Bakı, "Azərnəşr", 1995, 12,5 ç.v.
4. Ərzaq təhlükəsizliyinin aktual problemləri, Monoqrafiya. Bakı, "Elm", 2005, 21,0 ç.v.
5. Müəssisələrin maliyyəsi. Ali məktəblər üçün dərslik. Bakı, "Kooperasiya", 2009,21,0 ç.v.
6. İdarəetmə elmi və rəhbər əməyi. Elmi - təcrübi tezislər toplusu. Bakı, "Elm", 2011, 11,2 ç.v.

## Balayev Rəsul Ənvər oğlu



Rəsul Ənvər oğlu Balayev 1956-cı ildə İsmayıllı rayonunun Lahıc qəsəbəsində müəllim ailəsində anadan olmuş, 1978-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu "İqtisadi məlumatların mexaniki üsulla işlənməsinin təşkili" ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmiş, 1978-1981-ci illərdə Ümumittifaq Elmi-Tədqiqat Layihə-Texnoloji İnstitutunun Azərbaycan filialında işləmiş və ordu sıralarında xidmət etmişdir.

1981-1984-cü illərdə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun əyani aspiranturasında təhsil almış, 1987-ci ildə Azərbaycan EA Kibernetika İnstitutunun İxtisaslaşdırılmış Şurasında "Şəhərətrafı aqrar-sənaye kompleksinin istehsal strukturunun optimallaşdırılması" mövzusunda 08.00.13- "İqtisadi tədqiqatlarda, xalq təsərrüfatı və onun sahələrinin planlaşdırılması və idarə edilməsində riyazi üsulların və hesablama texnikasının tətbiqi" ixtisası üzrə dissertasiya müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır.

1985-1989-cu illərdə D.Bünyadzadə adına AzXTİ-də elmi işçi, həmin institut Leninqrad Maliyyə-İqtisad İnstitutunun Bakı filialına çevrildikdən sonra (1989-cu il) bu filialda, daha sonra Azərbaycan Dövlət İqtisad Universitetində müəllim, baş müəllim, dosent, professor və "İnformatika" kafedrasınm müdiri vəzifəsində çalışmışdır.



Hazırda pedaqoji fəaliyyətini davam etdirir və əvəzçiliklə həmin universitetin professorudur.

2001-ci ildə Bakı Dövlət Universitetinin İxtisaslaşdırılmış Şurasında "Urbanizasiya zonalarının ərzaq problemi" mövzusunda 08.00.05- "Xalq təsərrüfatı və onun sahələrinin iqtisadiyyatı, planlaşdırılması və idarə edilməsinin təşkili" ixtisası üzrə dissertasiya müdafiə edərək iqtisad elmləri doktoru elmi dərəcəsi almışdır. Elmi tədqiqatları aqrar iqtisadiyyat və urbanizasiya, iqtisadi-riyazi üsullar və müasir informasiya texnologiyalarının tətbiqi problemlərinə həsr olunmuşdur.

2011-ci ilin may ayından Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatınm İqtisadiyatı və Təşkili İnstitutunun Beynəlxalq elmi əlaqələr və informasiya texnologiyaları üzrə direktor müavinidir. Rəhbərliyi və bilavasitə iştirakı ilə ölkə ərazisini əhatə edəcək fermer təsərrüfatları məlumatlarının monitorinqi sistemi qurulur.

Beynəlxalq və respublika səviyyəsində keçirilmiş simpozium, konfrans və seminarlarda məruzələr etmişdir. Ölkədə və xaricdə nəşr olunmuş 100-ə yaxın elmi əsərin, o cümlədən 4 monoqrafiyanın müəllifidir. Əsas əsərləri: "Urbanizasiya şəraitində ərzaq problemi və aqrar-sənaye istehsalının modelləşdirilməsi". Bakı, ADİİ, 1996, 150 s., "Urbanizasiya zonalarının ərzaq problemi" Bakı, "Azərnəşr", 1998, 167 s., "Müasir mərhələdə Azərbaycanda yeni iqtisadi sistemə keçidin qanunauyğunluqları və problemləri (kollektiv monoqrafiya). Bakı, "Elm", 1998, "Urbanizasiya: şəhər iqtisadiyyatı və ərzaq problemi."Bakı, "Elm", 2007, 295 s.

Professor R.Balayevin rəhbərliyi ilə 7 namizədlik və 1 doktorluq dissertasiyası müdafiə olunmuşdur 10 – dan artıq namizədlik və doktorluq dissertasiyasına opponentlik etmişdir. Elmi jurnalların redaksiya heyətinin, Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. Elmi axtarışları barədə dövri mətbuatda, radio və televiziyada müntəzəm məlumat verir. Azərbaycan, ingilis və rus dillərində onlarla qəzet məqaləsində aktual sosial-iqtisadi problemlərə münasibət bildirmişdir.





## Cahangirov Əli Dadaş oğlu

Əli Dadaş oğlu Cahangirov 1934-cü ildə Saatlı rayonunun Əlisoltanlı kəndində anadan olmuşdur.

1950-ci ildə Əlisoltanlı kənd orta məktəbini, dörd il sonra isə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir. Azərbaycan SSR Elmlər Akademiyasının iqtisadiyyat bölməsində aspirant olduğu vaxt Muğan-Salyan zonasında kənd təsərrüfatı istehsalının əsas inkişaf problemlərini tədqiq etmiş, 1959-cu ildə namizədlik, 1972-ci ildə isə Tbilisi şəhərində doktorluq dissertasiyasını böyük müvəffəqiyyətlə müdafiə etmişdir.

Elmi dairələrdə Əli Cahangirovun imzası yaxşı məlumdur. İqtisad elmləri doktoru, professor Ə.D.Cahangirov 1962-1968-ci illərdə Azərbaycan SSR Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda Elmi işlər üzrə direktor müavini, 1968-1972-ci illərdə Azərbaycan Kommunist Partiyası MK-da məsul vəzifələrdə çalışmış, 1972-1977-ci illərdə Azərbaycan Dövlət Plan Komitəsinin İqtisadiyyat İnstitutunda baş elmi işçi işləmişdir.

1977-ci ildən isə Moskvada Ümumittifaq Elmi Tədqiqat Kənd Təsərrüfatı İnstitutunda şöbə müdiri vəzifəsinə təyin edilmişdir. 1984-cü ildən isə elmi işlər üzrə direktor müavini seçilmişdir. 1981-ci ildən institut partiya təşkilatına rəhbərlik etmişdir.

Əli Cahangirov Moskvada işlədiyi dövrdə Azərbaycan xalqının müstəqilliyi və firavanlığı üçün həmişə səylə çalışmışdır. O, xalqını və millətini sevən bir insan idi.

Azərbaycanda işlədiyi illərdə respublika üçün 31 nəfər iqtisad elmləri namizədi hazırlamışdır.

Ümumilikdə 31 nəfər elmlər namizədi, 4 nəfər elmlər doktoru hazırlamışdır.

Moskvada işlədiyi dövrdə təkcə keçmiş SSR-də deyil, həmçinin Çexoslovakiyada, Bolqarıstanda, Polşada bir sıra kitabları, elmi məqalələri və metodik tövsiyələri çapdan çıxmışdır. Çexoslovakiyada, Macarıstanda, Monqolustanda, Bolqarıstanda, ADR-də, Polşada, Rumıniyada, Yuqoslaviyada aqrar siyasətin əsas istiqamətləri mövzusunda ardıcıl mühazirələr oxumuşdur.

Ə.D.Cahangirov 1991-ci ildə yenidən Azərbaycana qayıtmışdır. Ə.D.Cahangirov 1991-1992-ci illərdə Azərbaycan Respublikası Prezident Aparatında İqtisadiyyat məsələləri üzrə Dövlət Müşaviri vəzifəsində çalışmışdır. İqtisadiyyat üzrə görkəmli alim, gözəl insan, iqtisad elmlər doktoru, professor Əli Cahangirovun rəhbərliyi altında 35 nəfər iqtisad elmləri namizədi və elmlər doktoru hazırlamışdır.

Böyük alim, qayğıkeş insan, elmlər doktoru, professor Əli Cahangirov uzun sürən xəstəlikdən sonra 27 dekabr 1996-cı ildə ömrünün 62-ci ilində vəfat etmişdir. Onun qəbri Bakı şəhərindədir.

O, gözəl ailə başçısı idi. 3 övladı, 4 nəvəsi vardır. Allah Əli müəllimə rəhmət eləsin, qəbri nurla dolsun.





## Cəbrayılov Şakir Əbiş oğlu

Cəbrayılov Şakir Əbiş oğlu 1941-ci ildə Bakı şəhərində anadan olmuşdur.

1960-cı ildə Bakı şəhərinin 220 №-li orta məktəbini bitirmişdir. Həmin il Azərbaycan Dövlət Universitetinin "Mexanika-riyaziyyat" fakültəsinin axşam şöbəsinə daxil olmuşdur. Əmək fəaliyyətinə 1960-cı ilin sentyabr ayında Bakı Tökmə-Qablaşdırma zavodunda çilingər şagirdi vəzifəsində işləməklə başlamışdır. Azərbaycan Dövlət Universitetini 1968-ci ildə bitirdikdən sonra bir müddət Bakı şəhərinin 234 №-li orta məktəbində fizika-riyaziyyat müəllimi işləmişdir. Ş. Ə. Cəbrayılov öz elmi fəaliyyətinə 1969-cu ilin aprel ayında Az.ETKTİ və Tİ-də kiçik elmi işçi vəzifəsində işləməklə başlamışdır. 1970-ci ildə institutun əyani aspiranturasına daxil olub Moskva şəhərinə ezam olunmuşdur. 1973-cü ildə Ümumittifaq Elmi Tədqiqat Kibernetika İnstitutunda öz elmi işini başa çatdırıb həmin ildə M.L.Lomonosov adına Moskva Dövlət Universitetində "Kənd təsərrüfatı məhsulları istehsalının zonadaxili inkişafı və yerləşdirilməsinin iqtisadi-riyazi modelləşməsi" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. Namizədlik dissertasiyası müdafiə etdikdən sonra bir müddət Az.ETKTİ və Tİ-də kiçik elmi işçi və böyük elmi işçi vəzifələrində çalışmışdır. 1975-ci ildə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında ETİİ-də bölmə rəisi vəzifəsinə təyin edilmişdir. Həmin institutda işlədiyi zaman

Ş.Ə.Cəbrayılov planlaşdırmada hesablama işlərinin avtomatlaşdırılması sisteminin tətbiqi, keçmiş İttifaq səviyyəsində bir sıra mühüm planlaşdırma məsələlərinin riyazi modellərinin ilk quruluşunu vermiş, həmin modellərin işlənməsində zəruri hesab edilən alqoritm və proqramların tərtibində, onların İttifaq səviyyəsində tətbiqində xüsusi fəallıq göstərmişdir. 0, 1982-ci ildə Az.ETKTI və Tİ-yə qayıtmış və orada ASK-da planlaşdırma və idarəetmə şöbəsinə başçılıq etmişdir.

Yüksək elmi nailiyyətlərinə görə Ş.Ə.Cəbrayılov on birinci beşilliyin qalibi medalı ilə təltif edilmişdir. 1990-cı ildə Moskvada Ümumittifaq Xalq Təsərrüfatı Sərgisinin ASK pavilyonunda "İdarəetmənin mütərəqqi formaları" mövzusunda keçirilmiş beynəlxalq seminar-müşavirəyə dəvət olunmuş və orada geniş məruzə etmişdir.

Uzun illər elmi fəaliyyəti və praktiki iş təcrübəsinin nəticəsi kimi "Bazar iqtisadiyyatına keçid şəraitində Azərbaycan Respublikası aqrar-sənaye kompleksinin idarə edilməsinin təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsi" mövzusunda doktorluq dissertasiyasını başa çatdırmış, 1995-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetində müdafiə etmişdir. Ş.Ə.Cəbrayılov bir neçə monoqrafiya, kitab, tövsiyə, təklif və 100-dən artıq məqalələrin müəllifidir. Onun xaricdə 23 tövsiyə, təklif və məqalələri çap olunmuşdur.

Ş.Ə.Cəbrayılov tərəfindən çap olunmuş əsərlərdən "İttifaq və respublika səviyyəsində kənd təsərrüfatının idarə edilməsinin təşkili" (1985, Moskva, 2,5 ç.v.); "ASK sistemində planlaşdırmanın təkmilləşdirilməsinə dair



metodiki tövsiyələr" (1987, Moskva, 5,25 ç.v.); "Azərbaycan SSR-in ASK-nın inkişafinm elmi təminatı" (1987, Bakı, II ç.v.); "Bazar iqtisadiyyatına keçid şəraitində Azərbaycan Respublikasınm ASK-nın idarə edilməsinin iqtisadi mexanizmi" (1993, Bakı, 19,75 ç.v.); "Yeni təsərrüfatçılıq şəraitində Azərbaycan Respublikasının rayon ASK-da struktur yenidənqurmanın iqtisadi-riyazi modelləri" (1993, Bakı, 15,2 ç.v.); "Bazar iqtisadiyyatı şəraitində Azərbaycan Respublikasının ASK-nın inkişafının təhlili, proqnozlaşdırılması və optimallaşdırılması və optimallaşdırılmasının iqtisadi-riyazi modelləri" (1994, Bakı, 10 ç.v.); "Aqrar-sənaye kompleksinin idarə edilməsinin bazar strukturları" (1999, Bakı, 9,6 ç.v.) və başqalarını qeyd etmək olar. Uzun müddət AMEA-nın Kibernetika İnstitutunda fəaliyyət göstərmiş İxtisaslaşdırılmış Müdafiə Şurasının üzvü olmuşdur.

Rəhbərliyi ilə bir neçə tədqiqatçı dissertasiya müdafiə edərək, iqtisad elmləri namizədi elmi dərəcəsi almışdır.

## İbrahimov Eldar Rza oğlu



İbrahimov Eldar Rza oğlu 12 mart 1945-ci ildə Naxçıvan Muxtar Respublikasının - Naxçıvan rayonunun (indiki Babək rayonu) Cəhri kəndində anadan olmuşdur. 1970-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu, sonra isə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu bitirib. 1980-1985-ci illərdə Azərbaycan Kommunist Partiyası Naxçıvan Vilayət Partiya Komitəsində təlimatçı, Naxçıvan MSSR Dövlət Kənd Təsərrüfatı İstehsal-Texniki Təminat Komitəsinin sədri vəzifələrində işləmişdir. 1986-1988-ci illərdə Naxçıvan MSSR Dövlət Aqrar-Sənaye Komitəsinin sədr müavini, 1988-1991-ci illərdə isə Naxçıvan MSSR Nazirlər Soveti sədrinin birinci müavini - Dövlət Aqrar-Sənaye Komitəsinin sədri, Vilayət Partiya Komitəsinin büro üzvü olmuşdur. 1993-1995-ci illərdə Naxçıvan MR Baş nazirinin birinci müavini, Dövlət İqtisadiyyat və Planlaşdırma Komitəsinin sədri vəzifələrində çalışıb.

1985-1990-cı illərdə Naxçıvan MSSR Ali Sovetinin deputatı, 1990-1995 illərdə Azərbaycanın xalq deputatı və müstəqil Azərbaycan Respublikasının 1995, 2000, 2005-ci illərdə üç çağırış Milli Məclisinin deputatı seçilmiş və Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədridir.

Respublika Prezidentinin başçılığı ilə nümayəndə heyətinin tərkibində 1994-cü ildə Çin Xalq Respublikasında, 1996 və 2005-ci illərdə isə Pakistan İslam Respublikasında səfərdə olub. Parlament nümayəndə heyətinin üzvü kimi müxtəlif ölkələrdə və beynəlxalq qurumlarda respublikanı layiqincə təmsil edib.



ATƏT-in Parlament Assambleyasının üzvü, Azərbaycan-Pakistan parlament qrupunun rəhbəri, Azərbaycan-İran və Azərbaycan-Özbəkistan parlament qruplarının üzvü, həm də Azərbaycan-Özbəkistan Dostluq Cəmiyyətinin sədridir.

1970-1982-ci illərdə Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedoqoji İnstitutunun müəllimi və 1997-2002-ci illərdə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasmm dosenti olub, hal-hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin professoru vəzifəsində işləyir.

1997-ci ildə iqtisad elmləri namizədi (iqtisad üzrə fəlsəfə doktoru), 2011- ci ildə iqtisad elmləri doktoru elmi dərəcəsi almışdır. Beynəlxalq və respublika səviyyəsində keçirilmiş simpozium, konfrans və seminarlarda məruzələr etmişdir. Ölkədə və xaricdə nəşr olunmuş çoxsaylı elmi məqalələrin, bir neçə kitabın müəllifidir.

2005-ci ildə Respublika Prezidentinin sərəncamı ilə aqrar sahədə xüsusi xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif olunub.

Ailəlidir. Üç övladı və altı nəvəsi var.

## Niftullayev Vaqif Məmmədqulu oğlu



Niftullayev Vaqif Məmmədqulu oğlu 1944-cü ildə Cəlilabad rayonunda anadan olmuşdur. V.Niftullayev 1960-cı ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin "İqtisadiyyat" fakültəsinə daxil olub, 1966-cı ildə həmin fakültəni bitirərək iqtisadçı ixtisasına yiyələnmişdir.

1967-ci il fevral ayından 1969-cu il iyul ayınadək Az.ETKTİ və Tİ-da elmi işçi işləmişdir. 1969-cu ilin sentyabr ayından 1972-ci ilin iyul ayınadək Moskva şəhərində Ümumittifaq Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda əyani aspiranturada oxumuşdur.1972-ci ilin avqust ayında aspiranturanı bitirərək namizədlik dissertasiyası müdafiə etmiş və iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır. 1972-ci ilin fevral aymdan 1975-ci ilin yanvar ayınadək Az.ETKTİ və Tİ-da çalışmışdır.

1975-1978-ci illərdə Cəlilabad və Ağdam rayonlarında kənd təsərrüfatınm müxtəlif sahələrində işləmişdir. 1979 - 1986-cı illərdə Az.ETKTİ və Tİ-da elmi işçi və baş elmi işçi, 1986 -cı ildən ömrünün sonunadək şöbə müdiri vəzifəsində çalışmışdır. 1992-ci ildə «Yeni təsərrüfatçılıq şəraitində pambıqçılıqda əmək məhsuldarlığının yüksəldilməsi" mövzusunda doktorluq dissertasiyasım müdafiə etmişdir. 1993-cü ildə Ali Attestasiya Komissiyasının qərarı ilə ona iqtisad elmləri doktoru diplomu verilmişdir.



Əsərləri respublika və Moskva şəhərində çap edilmişdir. Elmi işinin bir qismi kənd təsərrüfatında iqtisadi islahatların həyata keçirilməsinə həsr edilmişdir. Ümumilikdə 300-dən artıq əsərin (kitab, monoqrafiya, elmi məqalə və publisist yazıların) müəllifidir. İqtisadi sistemdə baş verən dəyişikliklərlə əlaqədar radio və televiziyada mütəmadi çıxışlar etmişdir.16 fevral 1988-ci il tarixdə Respublika Həmkarlar İttifaqları kurslarmda kadrların hazırlığına göstərdiyi xidmətlərə görə həmkarlar kursunun sədri Ş.Z.Sanatulov tərəfindən institutun adına təşəkkür məktubu göndərilmiş, V.Niftullayev döş nişanı və pul mükafatı ilə mükafatlanmışdır.

Aqrar sahənin inkişafı ilə bağlı V.Niftullayevin elmi və praktiki əhəmiyyət kəsb edən aşağıdakı əsərləri dərc edilmişdir:

1. Şəxsi və yardımçı təsərrüfatların inkişafı. Bakı,1987-ci il, 4,5 ç.v.
2. Kənd təsərrüfatı istehsalınm və onun bölmələrinin təsərrüfatdaxili planlaşdırılmasında istehsal məsarif normativlərinin tətbiqi. Bakı, 1988-ci il, 6,5 ç.v.
3. Kənd təsərrüfatında planlaşdırmanın təkmilləşdirilməsi. Bakı, 1988-ci il, 3,0 ç.v.
4. Yeni təsərrüfatçılıq mexanizminin tətbiqi. Bakı, 1988-ci il, 5,0 ç.v.
5. Pambıqçılıqda əmək məhsuldarlığının hesablanmasının təkmilləşdirilməsi və məsariflərin uçotuna nəzarət. Bakı, 1989-cu il, 1,5 ç.v.

6. Pambıq əkən kolxozlarda kənd təsərrüfatı istehsalının ixtisaslaşdırılması və təmərküzləşdirilməsinin təkmilləşdirilməsi. Bakı, 1989-cu il, 2.0 ç.v.
7. Azərbaycan Respublikasının kolxoz, sovxoz və dövlət müəssisələrində 1991 -1995-ci illərə əsas istehsal fondlarınm və sərmayə qoyuluşunun normativləri. Bakı, 1989-cu il, 6,8 ç.v.
8. Pambıqçılıqda əmək məhsuldarlığının yüksəldilməsi problemləri. Bakı, 1991-ci il, 15,0 ç.v.
9. Pambıqçılıqda əmək məhsuldarlığının yüksəldilməsində elmi-texniki tərəqqinin rolu. Bakı, 1992-ci il, 2,05 ç.v.
10. Sahibkarlığın əsasları. Bakı, 2002-ci il, 45 ç.v.
11. Kənd təsərrüfatınm iqtisadiyyatı. Bakı, 1996-cı il, 24 ç.v.

Vaqif Niftullayevin rəhbərliyi altında 6 nəfər namizədlik dissertasiyası müdafiə etmişdir.

Yeni iqtisadi sistemə keçidlə əlaqədar, islahatların uğurla başa çatmasına əhəmiyyətli dərəcədə kömək edə biləcək yeni kitablar, tövsiyələr və elmi məqalələr yazmağı və təsərrüfatlarda istifadə edilməsi üçün yerlərə göndərilməsi vəzifələri onun iş planmda xüsusi yer tuturdu.

Vaqif Niftullayev 24 noyabr 2007-ci ildə dünyasını dəyişmişdir.





## İbrahimov İslam Hacı oğlu

İbrahimov İslam Hacı oğlu 1948-ci ilin yanvar ayının 17-də Tovuz rayonunun Əlibəyli kəndində koxozçu ailəsində anadan olmuşdur. 1955-ci ildə Əlibəyli kənd orta məktəbinə daxil olmuş və həmin məktəbin XI sinfini 1966-cı ildə bitirmişdir. Həmin ildə D. Bunyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (indi Dövlət İqtisad Universiteti) maliyyə-statistika fakültəsinə daxil olmuş və həmin institutu 1970-ci ildə bitirmişdir. Ali məktəb illəri tələbə İslamın elmə yiyələnməsi ilə yanaşı, onun dünyagörüşünün formalaşmasına böyük təsir göstərir. İnstitutda dərs əlaçısı olmuşdur. İntizamlı olmasına, yaxşı oxuduğuna və fəal tələbə olduğuna görə institutun rəhbərliyi onun oxuduğu orta məktəbə və valideynlərinə təşəkkür məktubları göndərmişdir.

İnstitutun təyinatına müvafiq iyul 1970-ci ildə Mərkəzi Statistika İdarəsinin Respublika Hesablama Mərkəzində iqtisadçı vəzifəsində çalışmışdır. 1970-ci ilin noyabrından 1971-ci ilin noyabrına qədər hərbi xidmətdə olmuşdur. Hərbi xidməti başa vurduqdan sonra yenidən Respublika Hesablama Mərkəzində iqtisadçı vəzifəsində işləmişdir.

İslam müəllimin elmə həvəsi və marağı onu yenidən təhsil aldığı instituta gətirmişdir. O, 1972-ci ilin sentyabrında istehsaldan ayrılmaqla D. Bunyadzadə adına Az.XTİ-nin aspiranturasına daxil olmuş və oranı 1975-ci ildə bitirmişdir. 1976-cı ilin may ayında dissertasiya müdafiə edərək, xalq

təsərrüfatının iqtisadiyyatı (kənd təsərrüfatı), təşkili və planlaşdırılması ixtisası üzrə iqtisad elmləri namizədi elmi dərəcəsi almışdır.

Aspiranturanı qutardıqdan sonra Ədliyyə Nazirliyinin tələbi ilə Elmi-Tədqiqat Məhkəmə Ekspertizası İnstitutunda sentyabr 1975-ci ildən noyabr 1980-ci illədək baş elmi işçi vəzifəsində işləmişdir.

Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun elanlarına müvafiq 1981-ci ilin mart ayından iyun ayınadək həmin institutda baş elmi işçi işləmişdir. İyun 1981-ci ildən köçürmə yolu ilə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyində əmək haqqı idarəsinin rəisi, oktyabr 1981-ci ildən yanvar 1986-cı ilədək Baş Plan İqtisad İdarəsinin rəisi vəzifəsində işləmişdir.

1983-2004-cü illərdə Kənd Təsərrüfatı Nazirliyinin kollegiya üzvü olmuşdur.

1986-cı ildən Dövlət Aqrar Sənaye Komitəsində Plan iqtisad idarəsinin rəisinin müavini, şöbə rəisi, 1989-cu ilin fevralından isə Baş Plan İqtisad İdarəsində planlaşdırma idarəsinin rəisi, Baş idarənin rəisinin müavini vəzifəsində işləmişdir. 1994-cü ilin avqustundan 1995-ci ilin sentyabrınadək Kənd Təsərrüfatı Nazirinin müavini, 1995-ci ilin sentyabr ayından isə Baş Aqrar İslahatlar idarəsində rəis, 2005-ci ildən Aqrar islahatlar, kənd ərazilərinin və sahibkarlığın inkişafı şöbəsinin müdiri vəzifəsində işləyir, vicdanla xalqına, elinə xidmət edir.

2004-cü ildən YAP-ın üzvüdür.



İ. H. İbrahimov bazar münasibətləri şəraitində kənd təsərrüfatının iqtisadiyyatı, idarə olunması və təşkili problemləri ilə əlaqədar materiallar hazırlanmasında bilavasitə iştirak etmiş, 25-dən çox müxtəlif səviyyələrdə təşkil olunmuş beynəlxalq və respublika yığıncaqlarında, elmi-praktiki konfranslarda və seminarlarda məruzələrlə çıxışlar etmişdir.

İslam İbrahimov kənd təsərrüfatının iqtisadiyyatının aktual problemləri ilə əlaqədar tez-tez mətbuatda, radio və televiziya ilə çıxışlar edir. O, aqrar bölmənin bazar münasibətlərinə keçirilməsi və fəaliyyətinin tənzimlənməsi, istehsalın keyfiyyətinin və səmərəlililiyinin yüksəldilməsi yolları, forma və üsullarına dair praktiki əhəmiyyətə malik təkliflər və tövsiyələr hazırlanmasında xüsusi təşəbbüskarlıq göstərir. Onun yeni təsərrüfatçılıq şəraitində iqtisadi münasibətlərin formalaşdırılması və sahibkarlığın inkişafına dair hazırladığı çoxsaylı təkliflərə Nazirliyin Kollegiyasında baxılmış, bəyənilərək istifadə üçün müvafiq təşkilatlara göndərilmişdir.

İslam İbrahimov bazar münasibətləri şəraitində iqtisadi mexanizmin formalaşdırılması, xüsusən aqrar bölmədə islahatların həyata keçirilməsi ilə əlaqədar sahibkarlığın problemləri və iqtisadi məsələlərə dair normativ sənədlərin və proqramların hazırlanmasında fəal iştirak etmişdir. O, «Aqrar islahatının əsasları haqqında», «Sovxoz və kolxozların islahatı haqqında», «Kooperasiya haqqında», «Ailə kəndli təsərrüfatı haqqında» qanun layihələrinin, bir sıra əsasnamə və qaydaların, «1999-2000-ci illərdə Azərbaycan Respublikasında aqrar islahatların dərinləşdirilməsi

və kənd təsərrüfatında sahibkarlığın inkişafına kömək göstərilməsinə dair Dövlət Proqramı»nın (1999), «Azərbaycan Respublikasının Ərzaq Təhlükəsizliyi Proqramı»nın (2001), «2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı»nın (2003), «2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı»nın (2008) və digər sənədlərin hazırlanmasında bilavasitə iştirak etmişdir.

O, aqrar islahat və dövlət mülkiyyətinin özəlləşdirilməsi ilə əlaqədar dəyərli təkliflər hazırlamış, direktiv orqanlarla müzakirəsində fəal iştirak etmişdir və bu istiqamətdə öz fəaliyyətini indi də davam etdirir.

Öz taleyini elmlə bağlayan İslam İbrahimov müntəzəm olaraq elmi axtarışlarını davam etdirmiş, tələbkar və təcrübəli mütəxəssis kimi aqrar iqtisadiyyatın elmi-nəzəri məsələləri ilə məşğul olmuşdur. O, 1996-cı ildə doktorluq dissertasiyası müdafiə etmişdir. Doktorluq dissertasiyası aqrar bölmənin ən vacib probleminə, kənd təsərrüfatı məhsulları istehsalının artırılması və keyfiyyətinin yüksəldilməsinin iqtisadi problemlərinə həsr edilmişdir. Tədqiqat işində mülkiyyətin və təsərrüfatçılığın müxtəlif formalarının inkişafı, kənddə yeni istehsal-iqtisadi münasibətlərin formalaşdırılması zəruriliyi nəzərə alınmaqla maldarlıq məhsulları istehsalının artırılmasının, keyfiyyətinin və səmərəliliyinin yüksəldilməsinin kompleks məsələləri araşdırılmış, dəyərli təkliflər hazırlanmışdır.

Mənalı ömrünü Azərbaycanın aqrar iqtisadiyyatına həsr edən İslam İbrahimov 2004-cü ildən professordur. Professor



İ. İbrahimov BMT-nin Beynəlxalq İnformasiya Akademiyasının həqiqi üzvüdür. 2009-cu ildə «Dövlət qulluğunda fərqlənməyə görə» medalı ilə, 2012-ildə "Əməkdar Kənd Təsərrüfatı işçisi" fəxri adı ilə təltif edilmişdir.

İqtisad elmləri doktoru, professor İ. İbrahimovun 260-dan çox əsəri, o cümlədən 15-dən çox kitab və monoqrafiyası dərc olunmuşdur. O, «Əmək və məhsulun keyfiyyətinin yaxşılaşdırılması yolları» (1982); «Heyvandarlıqda keyfiyyət» (1985); «Bazar iqtisadiyyatı və qiymət» (1992); «Bazar iqtisadiyyatı şəraitində keyfiyyət və səmərəlilik» (1994)»; Aqrar islahatın təşkilati-iqtisadi mexanizmi» (1998); «Aqrar iqtisadiyyatın aktual problemləri» (2002); «Aqrar iqtisadiyyatın əsasları» (2003); «Kənd təsərrüfatının mövcud inkişaf meyilləri və milli sahibkarlığın problemləri» (2003); «Sahibkarlıq fəaliyyətinin iqtisadi-hüquqi mexanizmi» (2004); «Kənd təsərrüfatınm inkişafı və sahibkarlığın formalaşması problemləri» (2005); «Aqrar islahatlar və sahibkarlığın inkişafı» (2005); «Regionlarda sahibkarlığın inkişaf meyilləri və xüsusiyyətləri» (2007); «Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi məsələləri» (2010) kitabların müəllifidir.

Professor 1995-2011-ci illərdə Yunanıstanda, Fransada, İtaliyada, Türkiyədə, Böyük Britaniyada, Almaniyada, ABŞ-da, Hollandiyada, İsraildə və Macarıstanda ezamiyyətdə olmuş, aqrar iqtisadiyyat məsələləri ilə əlaqədar beynəlxalq seminar və görüşlərdə çıxışlar etmişdir.

İ.İbrahimov elmi kadrların hazırlanmasında fəal iştirak edir. Onun rəhbərliyi ilə 12 nəfər elmlər namizədi müdafiə etmişdir, o, 30-dan çox elmlər namizədi və elmlər doktoru-

nun rəsmi opponenti olmuş və hazırda 5 nəfər dissertantın elmi rəhbəridir. İ. İbrahimov 1993-cü ildən Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun, 2011-ci ildən isə Azərbaycan Dövlət Aqrar Universitetinin ixtisaslaşdırılmış müdafiə şurasının üzvüdür.

İslam İbrahimov sözə, şeirə bağlı insandır. O, doğulub boya-başa çatdığı Tovuzun Əlibəyli kəndinin adını özünə təxəllüs götürmüşdür. İ.İbrahimov (Əlibəyli) Azərbaycan Yurnalistlər Birliyinin və Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Nəcib poetik duyğuları, hissləri nəğmələşib, misralara çevrilib və onun «Sevirəm de. . .» (2000), «Unuda bilmirəm . . .» (2004), «Duyğulu anlarım . . .» (2011) şeirlər kitabı nəşr olunmuşdur. «Araz» Ali Ədəbi mükafatı, «İlin vətənpərvər adamı», «Şərəf» və «Qızıl Qələm» mükafatı laureatıdır. Şerlərinə bəstələnmiş mahnılar tanınmış müğənnilər tərəfindən oxunur.

İslam İbrahimov həm də publisist məqalələri ilə tanınır. Onun «Nizami poeziyasında kənd təsərrüfatı», «Səməd ürəklərdə yaşayır», «Zirvələr oğluyam deyən şair . . .» və s. məqalələri maraqla qarşılanmışdır.

Maraqlı, mənalı həyat yolu keçən, zəngin elmi axtarışları ilə seçilən, çoxşaxəli fəaliyyəti ilə vətənə, xalqa iqtisadiyyat elminin incilərini bəxş edən təcrübəli mütəxəssis, görkəmli alim, xeyirxahlığı və sadəliyi ilə insanların qəlbinə yol açan gözəl insan İslam İbrahimov həyatının müdriklik dövrünü yaşayır.





## Əhmədov İsa Vəli oğlu

Əhmədov İsa Vəli oğlu 1941-ci il iyulun 1-də Qazax rayonunun Qaymaqlı kəndində anadan olmuşdur.

1959-cu ildə Qaymaqlı kənd orta məktəbini qurtarmışdır. Elə həmin il Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun "İqtisadiyyat" fakültəsinə daxil olaraq, 1964-cü ildə oranı bitirmişdir.

İnstitutu bitirdikdən sonra təyinatla Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutuna işə göndərilmişdir. 1967-ci ilə kimi həmin institutda kiçik elmi işçi və mühəndis-proqramlaşdırıcı vəzifəsində çalışmışdır. Elə həmin ildə Ümumittifaq Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı İnstitutunda İqtisadi hesablamalarda riyazi üsulların və elektron hesablayıcı maşınların tətbiqi ixtisası üzrə aspiranturaya daxil olaraq, 1971-ci ildə göstərilən ixtisas üzrə namizədlik dissertasiyasını müdafiə etmişdir. Aspiranturanı qurtardıqdan sonra SSRİ Kənd Təsərrüfatı Nazirliyinin Baş Hesablama Mərkəzinə təyinatla işə göndərilmişdir.

1972-ci ildən 1979-cu ilə kimi Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda "İqtisadi tədqiqatlarda riyazi üsullar" şöbəsinin müdiri işləmişdir.

1979-cu ildən 2000-ci ilə kimi Azərbaycan Dövlət Kənd Təsərrüfatı Akademiyasında İdarəetmə və hüquq kafedra-

sının müdiri və elmi işlər üzrə prorektor vəzifəsində işləmişdir.

2000-ci ilin iyunundan Dünya Bankının Kənd Təsərrüfatının inkişafına Yardım Agentliyində informasiya xidməti qrupunun başçısı vəzifəsində işləmişdir.

Aqrar-sənaye kompleksinin idarəetmə problemlərinə dair 200-dən yuxarı elmi əsərin, o cümlədən, 8 monoqrafiyanın, 28 kitabçanın, 2 dərsliyin, 6 dərs vəsaitinin müəllifidir.

Onun rəhbərliyilə 19 nəfər iqtisad elmləri namizədi hazırlanmışdır.

Əsas tədqiqatları aqrar-sənaye kompleksinin idarə edilməsi problemlərinə həsr edilmişdir.

1995-ci ildə Birləşmiş Millətlər Təşkilatının sosial-iqtisadi şurasının məsləhətçi üzvü, Beynəlxalq İnformasiologiya Akademiyasının həqiqi üzvü seçilmişdir. O, Akademiya xəttilə keçirilən "Dünya informasioloqları" müsabiqəsinin qalibi olmaqla xüsusi diploma layiq görülmüşdür.

Dövlət Aqrar İslahat Komissiyasının üzvü olmuşdur.

Aqrar islahatların qanunçuluq əsaslarının və hüquqi-normativ bazasının hazırlanmasında fəal iştirak etmişdir.

Keçmiş SSRİ məkanında idarəetmə sistemi və idarəetmə sisteminin hüquqi təminatı üzrə keçirilən seminarlarda, elmi konfrans və simpoziumlarda respublikamızı layiqincə təmsil etmişdir.

Bolqarıstan, Macarıstan, İspaniya, Çexiya, Kanada və Amerika Birləşmiş Ştatlarında, Birləşmiş Millətlər



Təşkilatının, Kənd Təsərrüfatı və Ərzaq Təşkilatının keçirdiyi elmi seminar və simpoziumlarda iştirak etmişdir.

Aqrar islahatların qanunvericilik və hüquqi-normativ əsaslarını öyrənmək məqsədilə Türkiyə, Fransa, Albaniya, Almaniya, Hollandiya, İtaliya və Yunanıstanda ezamiyyətlərdə olmuşdur.

## Əhmədov Afət Tərlan oğlu



A.T.Əhmədov 1938-ci il iyunun 15-də Biləsuvar rayonunda anadan olmuşdur. O, 1962-ci ildə S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun "Kənd təsərrüfatının iqtisadiyyatı" fakültəsini bitirmiş və Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutuna təyinatla işə göndərilmişdir. O, burada kiçik elmi işçi vəzifəsində fəaliyyətə başlamışdır. 1965-1968-ci illərdə institutun əyani aspirantı olmuş və 1969-cu ildə iqtisad elmləri namizədi elmi dərəcəsi almışdır. 1971-ci ildə baş elmi işçi, 1973-cü ildə institutun elmi katibi, 1975-ci ildə şöbə müdiri vəzifələrində çalışmışdır. 1980-ci ildə köçürmə yolu ilə Azərbaycan Kənd Təsərrüfatı Nazirliyində "Kənd təsərrüfatı elm və təbliğatı baş idarəsinin" rəis müavini vəzifəsinə irəli çəkilmişdir. 1982-ci ildə doktorluq dissertasiya işi ilə əlaqədər olaraq, yenidən Az.ETKTİ və Tİ-yə qayıdaraq şöbə müdiri vəzifəsində çalışmışdır.

A.T.Əhmədov 1996-cı ildə iqtisad elmləri doktoru, 2000-ci ildə isə professor adına layiq görülmüşdür. 1997-2003-cü illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komiyassiyasında ekspert Şurasının Üzvü və elmi katibi olmuşdur.

Kənd təsərrüfatında əmək ehtiyatlarından istifadə; əməkqabiliyyətli əhalinin məşğulluq problemi; əməyin elmi təşkili; əməyin stimullaşdırılmasının; mütərəqqi formala-



rının sınaqdan keçirilməsi, mütəxəssis və fəhlə kadrların hazırlanması; aşağı, orta və yüksək səviyyələr üçün rəhbər işçilərin hazırlanması; elmi-texniki tərəqqinin inkişafı şəraitində mütəxəssislərdən istifadə; kənd təsərrüfatında əmək məhsuldarlığının yüksəldilməsi; əmək məhsuldarlığının artım sürəti ilə əmək haqqının artım sürəti arasında nisbətin optimallaşdırılması; kənd təsərrüfatında icarə üsulunun tətbiqi; kənd təsərrüfatında icarə podratının sınaqdan keçirilməsi; intensiv texnologiyaların tətbiqi yolu ilə məhsul vahidinə əmək sərfinin azadılması və s. problemlər Afət müəllimin elmi yaradıcılığın başlıca istiqamətləri olmuşdur. O, 1997-2006-cı illərdə ADİU-də əməyin iqtisadiyyatına dair mühazirələr oxumuşdur.

Afət Əhmədov özünün elmi yaradıcılıq dövründə bir sıra dövlət əhəmiyyətli proqramların hazırlanmasında iştirak edib. Kənd təsərrüfatında əməyin elmi təşkilinə aid təkliflər hazırlayıb, istehsalata tətbiq etdiyinə görə A.T.Əhmədov 1972-ci ildə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin Diplomu, bürünc medalı və 1984-ci ildə şəxsi yaradıcılıq və öhdəçilik planlarının yüksək nəticələrinə görə SSRİ Kənd Təsərrüfatı Elmi-Texniki Cəmiyyətinin Mərkəzi Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif edilmişdir. Afət müəllim öz əsərləri və elmi məqalələri ilə aqrar iqtisad elmini dolğunlaşdırmış, yeniləşdirmiş, 200-ə qədər monoqrafiya, kitab və elmi məqalələr dərc etdirmişdir.

Onun rəhbərliyi ilə 15 nəfər elmlər namizədi alimlik dərəcəsi adını almışdır. Bir nəfər doktorantı isə işini müdafiəyə təqdim etmişdir.

A.T.Əhmədov 2011-ci ildən Bakı Biznes Universitetinin "İqtisadi nəzəriyyə" kafedrasının müdiri vəzifəsində çalışır. O, "Dünya iqtisadiyyatı", "Beynəlxalq iqtisadi münasibətlər", "Dünya iqtisadiyyatının tarixi" və s. fənlərdən mühazirələr oxuyur.



## Əliyev Ramil Bəylər oğlu



Əliyev Ramil Bəylər oğlu 1940-cı il fevral ayının 5-də Füzuli rayonunun Saracıq kəndində anadan olmuşdur. O, 1958-ci ildə Qaradağlı kənd orta məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin Uçot-iqtisad fakültəsinə daxil olmuş və 1963-cü ildə həmin institutu fərqlənmə diplomu ilə bitirmişdir. İnstitutu bitirdikdən sonra o, təyinatla Azərbaycan Elmlər Akademiyasının İqtisadiyyat İnstitutuna göndərilmişdir. Orada kiçik elmi işçi vəzifəsində işləməyə başlamış və elə həmin il ordu sıralarına çağırılmışdır. Hərbi hissədə qulluq etdiyi iki il müddətində (1963-1965-ci illər) ali hərbi partiya məktəbində müəllim işləmişdir.

Hərbi xidmətdən qayıtdıqdan sonra 1965-ci ildə Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda (Azərbaycan ETKTİ və Tİ) kiçik elmi işçi vəzifəsində işə başlamışdır. Həmin institutda 1967-1970-ci illərdə baş elmi işçi, 1970- 1972-ci illərdə institutun elmi katibi, 1972-ci ildən 1985-ci ilə qədər şöbə müdiri işləmişdir. 1985-ci ilin yanvarından 1987-ci ilin sentyabrına qədər Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda dosent, 1987-ci ilin sentyabr ayından 2001-ci ilin mart ayına qədər Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadi təhlil" kafedrasının müdiri işləmişdir. Hazırda "İqtisadi təhlil və audit" kafedrasmın professorudur.

R.Əliyev 1970-ci ildə namizədlik 1978-ci ildə isə doktorluq dissertasiyası müdafıə edərək iqtisad elmləri doktoru adına layiq görülmüşdür.

Professor R.Əliyev postsovet məkanında tanınmış iqtisadçıdır, ittifaq üzrə kapital qo\uluşu üzrə məşğul olan tanınmış dörd elmlər doktorundan biridir. 1972-ci ildən 1995-ci ilə qədər Timiryazev adına Kənd Təsərrüfatı Elmlər Akademiyasının iqtisadiyyat bölməsinin, Zaqafqaziya və Orta Asiya, Şimali Qafqaz regional doktorluq ixtisaslaşmış şuralarının, respublikada - Azərbaycan Elmlər Akademiyasında, son illərdə isə Azərbaycan Dövlət İqtisad Universitetində, Azərbaycan ETKTİ və Tİ-də doktorluq və namizədlik ixtisaslaşmış müdafıə şuralarının üzvü olmuşdur. 2006-2012-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komisiyasının Ekspert Şurasının üzvü olmuşdur.

R.Əliyev son 40 ildə investisiya qovuluşunun və əsas fondlardan istifadənin səmərəliliyi üzrə ümumilikdə və ayrı-ayrı sahələr üzrə hazırlanmış metodikaların, metodik göstərişlərin, tövsiyələrin, normativlərin ya müəllifı, ya da müəlliflərindən biridir (keçmiş ittifaq səviyyəsində). Azərbaycanda bırinci dəfə investisiya qoyuluşu və əsas vəsaitlərdən istifadənin səmərəliliyi, onların hər ikisi üzrə normativlər, elmi-texniki tərəqqinin səmərəliliyi üzrə iri həcmli tədqiqat əsərləri professor R.Əliyevə məxsusdur. Onun yaxından iştirakı ilə həmçinin (əsas müəlliflərdən biri kimi) respublikada 70-ci illərdə iki cildlik (90 çap vərəqi həcmində) kənd təsərrüfatının aparılma sistemi nəşr edilmişdir.



1970-1990-cı illərdə R.B.Əliyev tərəfindən hazırlanmış respublikanın aqrar sənaye kompleksi üzrə ümumilikdə və onun ayrı-ayrı sahələrində (meliorasiya, tikinti, çoxillik əkmələr, bitkiçilik, heyvandarlıq, emal sənayesi və s.) beşilliklər üzrə investisiya qoyuluşuna və əsas fondlara tələbat və onların normativləri Timiryazev adına Kənd Təsərrüfatı Elmlər Akademivası tərəfından bəyənilib, hər beşillik üzrə ayrılıqda Moskvada beş dəfə iri həcmli monoqrafıya halında dərc edilərək, SSRİ-nin Dövlət Plan Komitəsi tərəfından İttifaqın və Azərbaycan Respublikasının perspektiv inkişaf planlarına daxil edilmişdir. Məhz bu işlərə görə o, Moskva şəhərində təşkil olunmuş Elmi-texniki Nailiyyətlər sərgisinin üç dəfə medalına və iki dəfə birinci və ikinci dərəcəli diplomlarına layiq görülmüşdür.

Ümumiyyətlə, R.Əliyevin 350-dən çox elmi əsəri (790 çap vərəqi həcmində) dərc edilmişdir. Onlardan 12-si monoqrafıya, 8-i dərslik və dərs vəsaiti, 18-i kitabça və 34-ü broşuradır. Bütün qeyd olunan əsərlərin 40%-dən çoxu respublika hüdudlarından kənarda «Экономика сельского хозяйства», «Учёт и фииансы», «Овощеводство», «Птицеводство», «Скотоводство», «Бухгалтерский учёт», «Вопросы экономики» jurnallarında nəşr edilmişdir. İqtisadiyyat üzrə 80-dən çox iri həcmli monoqrafıyaların redaktoru və ya elmi redaktoru olmuşdur.

R.Əliyev 1985-ci ildən hal-hazıra kimi Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadi təhlil və audit" kafedrasında işlədiyi müddətdə tələbələrin stolüstü kitablarına çevrilmiş iqtisadi təhlilə aid onlarca dərslik, dərs vəsaiti, metodik göstərişlər, proqramlar nəşr etdirmişdir.

R.Əliyev postsovet məkanında və indi də Moskvada, Kiyevdə, Tbilisidə və Bakıda nəşr edilən bir çox jurnalların, qəzetlərin, elmi şuraların üzvüdür. Onun rəhbərliyi altında 27 namizədlik, 6 doktorluq dissertasiyası müdafiə olunmuşdur. Hazırda 8 nəfər aspirant və dissertanta rəhbərlik edir. O, 250 nəfərdən çox iqtisad elmləri namizədinin və iqtisad elmləri doktorunun rəsmi opponenti olmuşdur. O, 1996-cı ildən Beynəlxalq Energetika Akademiyasının müxbir üzvü, 2000-ci ildən isə həmin Akademiyanın akademiki, Respublika Milli Məclisinin qəbul etdiyi mühasibat uçotu, audit, aqrar sənaye kompleksi, torpaq haqqında qanunların müəlliflərindən biridir.

O, son 40 ildə respublikada və xüsusən respublikadan kənarda 120-dən çox (1 dəfə Polşada, 1 dəfə Çexoslovakiyada, 25 dəfə Moskvada.6 dəfə Pribaltika respublikalarında, 2 dəfə Kiyevdə, 2 dəfə Minskdə, 3 dəfə Alma-Atada, 2 dəfə Daşkənddə, 6 dəfə Tbilisidə, 4 dəfə Rostovda, Yerevanda, Novosibirskdə, İrkutskda, Kişinyovda - hərəsində 2 dəfə) elmi konfrans və simpoziumlarda iştirak çıxışlar etmişdir.

R.B.Əliyev harada işləməsindən və çalışmasından asılı olmayaraq özünü mənən həmişə Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun yetişdirməsi və üzvü kimi hesab edib və edir.





## Adigözəlov Fikrət Salam oğlu

Adıgözəlov Fikrət Salam oğlu 1944-cü ildə Qubadlı rayonunun Qubadlı qəsəbəsində qulluqçu ailəsində anadan olmuşdur. 1961-ci ildə Qubadlı qəsəbə orta məktəbini gümüş medalla bitirdikdən sonra, Azərbaycan Politexnik İnstitutuna daxil olub, oranı 1966-cı ildə Çay qurğularının tikintisi və HES ixtisası üzrə bitirmişdir. Ordu sıralarında xidmət etdikdən sonra bir müddət öz ixtisası üzrə istehsalatda işləmiş, 1968-ci ildən isə Azərbaycan Dövlət Plan Komitəsinin Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda kiçik elmi işçi, baş elmi işçi işləmiş və 1976-cı ildən "Su resursları və su təsərrüfatı tikintiləri" bölməsinə rəhbərlik etmişdir. Hələ tələbəlikdən elmi-tədqiqat işləri ilə məşğul olan və tələbə elmi cəmiyyətlərində elmi məruzələrlə çıxış edən F.S.Adıgözəlovu işlədiyi institutda məhsuldar qüvvələrin inkişafı ilə əlaqədar respublikanın su ilə təmin edilməsi, sudan istifadənin effektivliyi problemlərinin tədqiqi maraqlandırmışdır. İstər ittifaq miqyasında, istərsə respublikamızda sudan istifadənin iqtisadi problemlərinə aid olduqca az tədqiqat işləri aparılmışdı. Odur ki, F.S.Adıgözəlov su təminatının yaxşılaşdırılması üçün respublikada su anbarları tikməklə çay axınlarının tənzimlənməsinin səmərəli variantlarını, sənayedə dövrəvi və təkrar su təchizatı sisteminin tətbiq edilməsinin iqtisadi effektivliyini və istehsalın su

tutumluğunun azalmasına təsir göstərən digər aktual problemlər sahəsində tədqiqatlar aparmışdır. Alimin tədqiqatlarında istehsalda istifadə olunan suyun maya dəyərinin aşağı salınması, bu sahədə təsərrüfat mexanizminin təkmilləşməsi, su ehtiyatlarının regionlar və sahələr üzrə optimal paylanması ilə əlaqədar su təsərrüfatı tikintilərinin səmərəli variantlarla həyata keçirilməsinə aid problemlərin elmi cəhətdən əsaslandırılmış həlli öz geniş əksini tapmışdır. O, tikinti və istismar təşkilatlarının təsərrüfat fəaliyyətini qiymətləndirmək üçün yeni sistem göstəriciləri işləyib hazırlamış, ərazinin təbii iqlim şəraitindən, su təsərrüfatı sistemlərinin istismar xərclərinin səviyyəsindən, relyef şəraitindən, sistemin texniki vəziyyətindən və bir kubmetr suyun maya dəyərindən asılı olaraq, suya elmi cəhətdən diferensial qiymətlərin qoyulmasının metodikasını işləyib hazırlamışdır.

Professor F.S.Adıgözəlov Azərbaycan Dövlət Plan Komitəsi Elmi- Tədqiqat İqtisadiyyat İnstitutunda işlədiyi dövr ərzində onun tərəfindən "Azərbaycan SSR-də su resurslarından kompleks istifadə edilməsi və onun effektivliyinin yüksəldilməsi", "Kənd təsərrüfatında sudan istifadənin iqtisadi problemləri", "1981-1985 və 1990-cı ilə qədər olan dövrdə Azərbaycan SSR-də təbiətin mühafizəsinin kompleks proqramı və təbii resurslardan səmərəli istifadə olunması", "2000-ci ilə qədər su hövzələri və beşilliklər üzrə torpaqların meliorasiyası", "1986-1990-cı illər və 2005-ci ilə qədər olan dövrdə regional su ehtiyatları, Azərbaycan SSR-də Abşeron iqtisadi rayonunda su



təminatının yaxşılaşdırılması" kimi mövzularda elmi işlər yerinə yetirilmişdir.

F.S.Adıgözəlov Azərbaycan Dövlət Plan Komitəsinin və Nazirlər Sovetinin tapşırıqlarına əsasən respublikamızda su təsərrüfatı təyinatlı çoxlu obyektlərin tikilib istifadəyə verilməsini elmi cəhətdən əsaslandırmışdır. Bu obyektlərin çox hissəsi tikilib istifadəyə verilmişdir ki, bu da respublikamızda elektrik enerjisi istehsalını artırmış, yeni suvarılan torpaqları istifadəyə verməklə kənd təsərrüfatı istehsalının həcmini və səmərəliliyini yüksəltmişdir.

F.S.Adıgözəlovun tədqiqatları konkret nəzəri, metodoloji və praktiki problemlərin həllinə həsr olunduğundan geniş tətbiq tapmışdır. O, Azərbaycan Dövlət Plan Komitəsinin Elmi-Tədqiqat İqtisadiyyat İnstitutu tərəfindən tərtib olunan "Azərbaycan SSR-də 1970-1990-cı illərdə məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsinin əsas istiqamətləri və 2000-ci ilə qədər dövr üçün Azərbaycan SSR-də məhsuldar qüvvlərin inkişafı və yerləşdirilməsi sxemi"nin əsas müəlliflərindən biridir. Onun tərəfindən keçmiş ittifaqda metodika cəhətdən ilk dəfə olaraq müxtəlif su ehtiyatlarına (quraq, mülayim quraq keçən, orta sulu keçən) malik olan iqtisadi rayonlar üzrə aylıq su təsərrüfatı balansları illər üzrə yerinə yetirilmişdir.

F.S.Adıgözəlov apardığı tədqiqatlar əsasında 1976-cı ildə Azərbaycan EA İqtisadiyyat İnstitutunun ixtisaslaşdırılmış Elmi Şurasında "Sudan səmərəli istifadə olunmasının və mühafizəsinin Naxçıvan MSSR-də məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsinə təsiri" mövzusunda

dissertasiya müdafiə edib, iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır.

1983-cü ildən Azərbaycan İnşaat Mühəndisləri Uniiversitetinə dosent vəzifəsinə qəbul olunmuş, elmi tədqiqat işləri ilə yanaşı, tədris metodiki işlərlə də məşğul olmuşdur. O, yüksək elmi - metodiki səviyyədə Sahənin iqtisadiyyatı, Su təsərrüfatı və hidrotexniki tikintilərin iqtisadiyyatı fənlərindən mühazirə və məşğələ dərslərini aparmış, tədrisin bir sıra digər məsələlərilə əlaqədar işlər yerinə yetirmişdir.

Azərbaycan Memarlıq və İnşaat Universitetində professor F.S.Adıgözolov elmi tədqiqat işləri ilə tədris işlərini əlaqələndirməklə dərs vəsaitləri və metodik göstərişlər hazırlamışdır, vermişdir.

F.S.Adıgözəlov Memarlıq və İnşaat Mühəndisləri Universitctində işlədiyi müddət ərzində tələbələr üçün iki dərs vəsaiti, həmçinin diplom və buraxılış işləri üzrə layihələrin iqtisadi cəhətdən əsaslandırılmasına, məşğələ dərslərinin aparılmasına dair çoxlu metodiki göstərişlər çap etdirmiş, tədris etdiyi fənlərin əsas proqramlarını işləyib hazırlamışdır.

F.S.Adıgözəlovun 1990-cı ildə Azərnəşr tərəfindən çap etdirdiyi digər əsəri "Sudan istifadənin sosial-iqtisadi səmərəliliyi problemlərinə həsr olunmuşdur. İqtisad elmləri doktoru Nəbi Nəbiyevin "Azərbaycan xalq təsərrüfatı" jurnalının 1990-cı il 10-cu nömrəsində "Su həyat və istehsalın inkişafı deməkdir" başlıqlı rəyində müəllif tərəfindən xalq təsərrüfatının müxtəlif sahələrində suya iqtisadi bir kateqoriya kimi baxıldığı və onun səmərəlilik



göstəricilərinin elmi cəhətdən işləyib hazırladığı təsərrüfat mexanizminin təkmilləşdirilməsinə dair verdiyi təkliflər əsasında su itkisinin qarşısının alınması, sudan səmərəli istifadənin əsaslandırılması göstərilir.

F.S.Adıgözəlov respublikamızda bir sıra institutların ixtisaslaşdırılmış müdafiə və elmi şuralarının üzvü kimi də fəaliyyət göstərmişdir. 1994-ci ildən Azərbaycan EA Coğrafiya institutunun ixtisaslaşdırılmış doktorluq dissertasiyası üzrə Müdafiə Şurasının, 1995-ci ildən isə Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda namizədlik dissertasiyaları üzrə ixtisaslaşdırılmış elmi şuraların üzvü olmuşdur.

F.S.Adıgözəlov həmçinin 1991-1997-ci illərdə Elmi-Tədqiqat Su Problemləri institutunun, 1994-cü ildən (ömrünün sonuna) kimi isə Azərbaycan Elmi- Tədqiqat Hidrotexnika və Meliorasiya İnstitutunun elmi şurasının üzvü kimi su təsərrüfatı sahəsində bir çox elmi problemlərin müzakirəsində yaxından iştirak etmişdir.

1995-1998-ci illərdə Respublika Təhsil Nazirliyinin Tikinti və Memarlıq sahəsində Metodik Şuranın, 1994-1997-ci illərdə isə Respublika Elm və Texnika Komitəsinin Tikinti və Memarlıq sahəsində Ekspert Şurasının üzvü kimi də tikinti işlərinə aid bir sıra problemlərə öz fikrini bildirmişdir.

F.S.Adıgözəlov uzun müddət apardığı tədqiqat işlərini yekunlaşdıraraq, "Aqrar sənaye istehsalında su resurslarından istifadənin effektivliyi" mövzusunda doktorluq dissertasiya işini başa çatdırıb, onu 1990-cı ildə Azərbaycan EA İqtisadiyyat İnstitutunun Elmi Şurasında müvəffəqiyyətlə müdafiə etmişdir. SSRİ Ali Attestasiya Komissiyasının

ekspert şurası F.S.Adıgözəlovun doktorluq dissertasiyasına yüksək qiymət vermiş və ona iqtisad elmləri doktoru elmi dərəcəsi verilmişdir. F.S.Adıgözəlov V.K.Papisov, E.İ.Uşakovdan sonra keçmiş ittifaqda su problemlərinin iqtisadiyyatı sahəsində iqtisad elmləri doktoru dərəcəsi alan üçüncü alim idi.

Məlum olduğu kimi, Milli Məclisin "Su Məcəlləsi haqqında" qəbul etdiyi qanununda yeni istehsal münasibətləri şəraitində bütün regional əhəmiyyətli yeraltı və yerüstü su obyektlərində sudan istifadənin pullu həyata keçirilməsi göstərilir. Ancaq hazırkı şəraitdə su istehlakçılarının, xüsusilə fermerlərin kənd təsərrüfatı bitkilərinin suvarılması üçün işlətdikləri suya haqq vermək imkanları məhdud olduğundan, hazırda bu sahədə böyük çətinliklər yaranmışdır. Bu çətinliyi nəzərə alaraq, professor F.S.Adıgözəlov əkin suyuna qiymətlərin hesablanmasına dair metodika işləyib hazırlamış, həmçinin şoran torpaqların yuyulmasında, su təchizatında və ayrı-ayrı bitkiçilik sahələrində istitadə olunan suya qiymətlərin diferensiallaşmasının riyazi modelini işləyib hazırlamışdır.

F.S.Adıgözəlov iqtisad elminin bir sıra digər problemləri ilə də məşğul olmuşdur. Onun respublikamızın torpaqlarından səmərəli istifadə olunması ilə əlaqədar apardığı tədqiqatları, ayrı-ayrı iqtisadi rayonlar üzrə torpaq balanslarının tərtibi, perspektiv dövr üçün müxtəlif kateqoriyadan olan torpaq istifadəçiləri arasında torpaq sahələrinin transformasiyası, torpaqların münbitliyindən asılı olaraq bu torpaqların iqtisadi qiymətləndirilməsi, həmçinin suvarılan



torpaqlarda istehsalın intensivləşməsinə dair apardığı tədqiqatlar mühüm elmi-praktiki əhəmiyyətə malikdir.

Professor F.S.Adıgözəlovun tədqiqatları onun çap olunmuş əsərlərində, o cümlədən monoqrafiyasında, çoxlu dərs vəsaiti, metodiki göstərişləri və məqalələrində əks olunmuşdur. Alimin respublikadan kənarlarda - xarici ölkə jurnallarında məqalələri çap olunmuşdur. O, dəfələrlə respublika, ittifaq və beynəlxalq konfranslarda məruzələrlə çıxış etmişdir.

F.S.Adıgözəlovun əkin suyuna diferensial qiymətlər qoyulması, su təsərrüfatı təşkilatlarının təsərrüfat fəaliyyətini əks etdirən sistem göstəriciləri, investisiya qoyuluşlarının effektivliyini təyin etmək məqsədilə mənimsəmə müddətinin hesablanması metodikası üzrə tədqiqatlarından irəli gələn digər təklif və tövsiyələri Azərbaycan Su Qurğularını Layihələşdirmə İnstitutunda, Meliorasiya və Su Təsərrüfatı Komitəsində, su təsərrüfatının tikintisi və istismarı təşkilatlarının təsərrüfat fəaliyyətlərində, həmçinin müəllifin tədris etdiyi fənlərin əsas və işçi proqramlarında da öz əksini tapmışdır.

2000 – ci ildə dünyasını dəyişmişdir.

## Əlirzayev Əli Qənbərəli oğlu



1945-ci il təvəllüdlü, iqtisad elmləri doktoru, professor, Azərbaycan Dövlət İqtisad Universitetinin "Sosial sahələrin iqtisadiyyatı və idarə olunması" kafedrasının müdiri, Əlirzayev Əli Qənbərəli oğlu 1968-ci ildə Azərbaycan Politexnik İnstitutunu bitirmişdir.

Ə.Əlirzayev 1970-1973-cü illərdə Azərbaycan SSR EA-nın İqtisadiyyat İnstitutunun Moskva şəhərində SSRİ EA-nın Mərkəzi İqtisadi Riyaziyyat İnstitutunun (MİRİ) məqsədli aspirantı olmuşdur. 1973-cü ildə həmin institutda iqtisad elmləri namizədi elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. 1973-1986-cı illərdə Azərbaycan SSR EA-nın İqtisadiyyat İnstitutunda kiçik elmi işçi, baş elmi işçi, 1980-ci ildən isə yeni şöbə yaradaraq onun müdiri işləmişdir.

1978-1980-ci illərdə Moskva şəhərində doktorluq dissertasiyası müdafiəsi üçün Mərkəzi İqtisadi Riyaziyyat İnstitutunda elmi iş aparmış və nəticələrini 1985-ci ildə həmin institutda iqtisad elmləri doktoru elmi dərəcəsi almaq üçün müdafiə etmişdir.

1986-1989-cu ildən Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun elmi işlər üzrə prorektoru olmuşdur.

1991-1993-cü illərdə Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat və idarəetmə kafedrasının müdiri işləmişdir.

Ə. Əlirzayev Moskva EA-nın elmi məktəbini keçmiş, Mərkəzi-İqtisadi Riyaziyyat İnstitutunda 10 ilə yaxın



müştərək elmi işlər apararaq, həm namizədlik, həm də doktorluq dissertasiyasını müdafiə etmiş, ilk dəfə olaraq gəlir və istehlak balanslarının region üzrə metodologiyasını yaratmış və elmi işlərinin nəticələri Moskvanın "Nauka" nəşriyyatında "Дифференцированный баланс доходов и потребления" nəşr olunan monoqrafiyasında və dörd metodik vəsaitdə çap olunmuşdur. Onun elmi nəticələri 1980-1985-ci illər ərzində SSRİ EA-nın elmi katibinin məruzəsinə daxil olmuşdur.

1986-2005-ci illərdə Sosial-iqtisadi inkişaf proqramının tərtibində iştirak etmiş, Sosial inkişaf və həyat səviyyəsi bölməsinin həmsədri və əsas tədqiqatçısı olmuşdur.

Respublikanın sosial inkişafı, həyat səviyyəsi, bazar münasibətləri şəraitində islahatların nəzəri-metodoloji problemləri, riyazi-iqtisadi metodlar, bazar iqtisadiyyatında dövlət tənzimlənməsi sahəsində Ə. Əlirzayevin əsaslı tədqiqatları vardır. Sosial tədqiqatların regional cəhətləri, metodları və mexanizmləri sahəsində konkret təkliflər respublikanın qanunverici bazasının yaradılmasında, konseptual inkişaf istiqamətlərinin hazırlanmasında istifadə olunur. Onun rəhbərliyi ilə dövlət planında olan elmi-tədqiqat istiqamətləri, mövzuları işlənmiş, monoqrafik kitablar nəşr olunmuşdur.

Ə.Əlirzayev 300-ə yaxın elmi əsərin, o cümlədən bir neçə monoqrafiyanın, elmi məqalə və tezislərin, 150 qəzet məqaləsinin müəllifidir. 20 aspiranta rəhbərlik etmiş, 2 elmlər doktoru yetişdirmiş, 30-a qədər dissertasiyanın opponenti olmuşdur. Respublikada iqtisadiyyat sahəsində müdafiə elmi şuralarının üzvüdür. Ali Attestasiya

Komissiyasının (AAK) İqtisadiyyat və hüquq komissiyasının üzvü olmuşdur.

Ə. Əlirzayevin əsərlərindən 2 monoqrafiya, 4 metodik vəsait Moskva alimləri ilə Mərkəzi İqtisadi Riyaziyyat İnstitutunda hazırlanmış və nəşr olunmuşdur. Son illərdə nəşr etdiyi "İqtisadi və sosial idarəetmə", "Bazar iqtisadiyyatı: metodoloji prinsiplər və qanunauyğunluqlar", "İqtisadiyyatın dövlət tənzimlənməsinin normativ əsasları və metodologiyası", "H. Əliyev və Azərbaycan iqtisadiyyatı", "Взаимосвязь социальных и экономических процессов: методология моделирования и прогнозирования", "Социально-экономические проблемы развития азербайджанского села", "İqtisadi artım və maddi rifah" monoqrafiyaları respublikada elmin inkişafında, tədris prosesində mühüm rol oynayır.

Ə.Əlirzayev 1-ci və 2-ci çağırış Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmiş Milli Məclisin iqtisadiyyat üzrə daimi komissiyanın sədr müavini kimi fəaliyyət göstərmiş və iqtisadi qanunların işlənməsində, müzakirəsində və təsdiqində fəal iştirak etmişdir. Onun yüksək elmi potensialı, idarəetmə təcrübəsi və praqmatik fikirləri iqtisadi qanunların elmi əsasını daha da möhkəmləndirmiş. Respublikanın iqtisadi inkişaf meyillərini elmi əsaslarla qiymətləndirmək və aparılan islahatların hüquqi-təşkilati mexanizmlərini təkmilləşdirmək üçün təkliflər vermişdir. Dövlət qarşısında xidmətləri nəzərə alınaraq ona 2002 - ci ildə "Əməkdar elm xadimi" fəxri adı verilmişdir.



1999-cu ildə o, 7,0 ç.v. həcmində Azərbaycan iqtisadiyyatının inkişaf konsepsiyası və proqramını işləyib monoqrafiya formasında tətbiq üçün müvafiq orqanlara təqdim etmişdir. Ə.Əlirzayev bir sıra beynəlxalq səviyyəli konfranslarda Azərbaycan iqtisadiyyatının keçid şəraitində mövcud durumu və perspektivləri, problemləri haqqında çıxışlar etmişdir.

O, Moskvada nəşr olunan beynəlxalq iqtisadi elmi jurnalın -"Экономика и общество" redaksiya heyətinin üzvüdür. Azərbaycan Respublikasında elm, təhsil və iqtisadi təşkilati idarəetmə strukturlarının elmi məsləhətçisidir. "Audit" jurnalının, "Odlar Yurdu" Universitetinin xəbərlər məcmuəsinin redaksiya heyətinin üzvüdür. Azərbaycan Sahibkarlar Assosiasiyasının elmi məsləhətçisi, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət heyətində iqtisadi problemlərin müzakirəsinin iştirakçısı, özəl təhsilin təşkilinin məsləhətçisidir.

"Nehrəm" və "Nehrəm uşaqları" tarixi-publisistik kitablarının müəllifi Ə.Əlirzayev 40-a yaxın xarici ölkədə olmuşdur. Yeni Azərbaycan Partiyası Siyasi Şuranın üzvüdür. 2002-ci ildə "Uğur" mükafatına layiq görülmüş, bir sıra beynəlxalq konfransların sertifikatları ilə təltif olunmuş və Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlamentlərarası Assembleyasının 8 il üzvü olmuşdur.

Evlidir. Üç övladı və dörd nəvəsi vardır.

# Qarayev İslam Şamil oğlu



İslam Şamil oğlu Qarayev 1940-cı ildə anadan olmuşdur. 1961-ci ildə Azərbaycan Dövlət Universitetinin "İqtisadiyyat" fakültəsini bitirmişdir. 1962-63-cü illərdə Azərbaycan SSR EA-nın İqtisadiyyat İnstitutunda kiçik elmi işçi işləmiş və 1963-1966-cı illərdə Moskvada SSRİ EA-nın İqtisadiyyat İnstitutunda aspirant olmuşdur. 1966-cı ildə namizədlik, 1983-cü ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. 1985-ci ildən professordur. 1968-1977-ci illərdə Azərbaycan Dövlət Plan Komitəsinin İqtisadiyyat İnstitutunda bölmə və şöbə müdiri, 1977-1987-ci illərdə isə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda dosent, professor vəzifələrində çalışmışdır. 1987-1992-ci illərdə Azərbaycan Dövlət Xarici Dillər İnstitutunda "Siyasi iqtisad" kafedrasının müdiri olmuşdur.

1992-1994-cü illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin prorektoru olmuş, 1994-cü ildən 2000-ci ilin mayınadək həmin institutun rektoru vəzifəsini icra etmişdir.

Professor İ.Qarayev 280 ç. v. həcmində 170-dən çox elmi əsərin, o cümlədən, 10 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin müəllifidir. "İctimai istehsalın ixtisaslaşdırılması və kompleks inkişafının iqtisadi problemləri", "Azərbaycanda aqrar sənaye inteqrasiyasının inkişaf problemləri", "Azərbaycanın dağ və dağətəyi rayonlarında ictimai istehsalın ixtisaslaşdırılması məsələləri", "Bazar



iqtisadiyyatı şəraitində qiymətlərin formalaşmasının elmi əsasları", "Ümumi iqtisadi nəzəriyyə", "İqtisadi nəzəriyyə" (dərsliklər müəlliflər kollektivi tərəfindən birgə hazırlanmışdır), "Milli iqtisadiyyatımızın formalaşma istiqamətləri", "Milli iqtisadiyyatımız necə formalaşmalıdır?", "Milli iqtisadiyyat: problemlər, mülahizələr", "Dünya bazar qiymətləri", "Qiymətin əmələ gəlməsi", "Qiymət və qiymətqoyma", "Aqrar bazarın formalaşdırılmasının iqtisadi problemləri" (müştərək) kitabları və əsərləri məhz bu qəbildəndir. Professor İ.Qarayev Moskva və Azərbaycan akademik iqtisadi məktəbinin yetirməsi olub, müasir Azərbaycan iqtisad elminin inkişafında xüsusi yeri olan iqtisadçı alimlərdəndir. O, Azərbaycan milli iqtisadiyyatının formalaşma prinsipləri və istiqamətləri, onun nəzəri, metodoloji və praktiki məsələlərinin tədqiqi sahəsində geniş elmi araşdırmalar aparmış və xalq təsərrüfatı əhəmiyyətli konkret elmi tövsiyə və təkliflər vermişdir. O bu istiqamətdə işlərini bu gün də davam etdirir.

Professor İ. Qarayev Azərbaycan iqtisadiyyatının bazar iqtisadiyyatının şərtləri əsasında yenidən formalaşmasının elmi əsaslandırılmış modelini işləyib hazırlayan, iqtisadi islahatların hazırlanması və həyata keçirilməsində xüsusi yeri olan iqtisadçı alimlərdən biridir. Milli dəyərlər və geniş miqyasda beynəlxalq iqtisadi inteqrasiyaya qoşulmaq tələbləri əsasında müstəqil iqtisadiyyatımızın inkişaf proqramının işlənib hazırlanması, onun yeni strukturunun müəyyənləşdirilməsi və məhsuldar qüvvələrin ölkədaxili kompleks inkişafının tədqiqi sahəsində İ.Qarayevin xidmətləri böyükdür. O, ölkədə məhsuldar qüvvələrin

inkişafı və yerləşdirilməsi üzrə perspektiv proqnozlaşdırma sahəsində aparılan fundamental tədqiqatların müəlliflərindən biridir. Bundan əlavə, silsilə xarakterli elmi-publisistik məqalələri ilə o, Azərbaycanın müstəqilliyi və dövlətçiliyi yolunda bir iqtisadçı alim kimi çox iş görmüşdür.

O, neçə-neçə beynəlxalq və respublika səviyyəli simpoziumlarda, konfranslarda, elmi məclislərdə iştirak edərək, xalqımızı, Azərbaycan iqtisad elmini məruzə və çıxışları ilə layiqincə təmsil etmiş və bu sahədə fəaliyyətini davam etdirir. Azərbaycan Dövlət İqtisad Universitetində fəaliyyət göstərən İxtisaslaşdırılmış Elmi Şuranın həmsədri olan İ.Qarayev bir neçə doktorluq dissertasiyası üzrə xüsusi İxtisaslaşdırılmış Elmi Şuranın sədri olmuşdur. Onun elmi rəhbərliyi altında onlarca elmlər namizədi hazırlanmış və hazırlanmaqdadır. 20-dən çox namizədlik və doktorluq dissertasiyaları üzrə istər ölkə daxilində, istərsə də MDB ölkələrində rəsmi opponent olmuşdur. Professor İ.Qarayev 6 ildən yuxarı Azərbaycan iqtisad məktəbinin mərkəzi və böyük ali təhsil ocağı olan Azərbaycan Dövlət İqtisad İnstitutuna rəhbərlik etmiş və beynəlxalq standartlara cavab verən yüksək səviyyəli iqtisadçı kadr hazırlığı sahəsində səmərəli fəaliyyət göstərmişdir.

İ.Qarayevin elmi fəaliyyəti təkcə respublikada deyil, onun hüdudlarından kənarda, beynəlxalq səviyyədə tanınmış və yüksək qiymətləndirilmişdir. 0,1998-ci ilin iyul ayında ABŞ-ın Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Professor İ.Qarayevin rəhbərliyi altında Azərbaycan Dövlət İqtisad İnstitutu xarici əlaqələrini genişləndirmiş və



beynəlxalq proqramlarda (TASİS, TEMPUS) iştirak etmişdir və bu gün də edir. Avropa Birliyinin TASİS proqramı çərçivəsində Amsterdam Universitetinin köməyilə institutda MVA (biznesdə idarəetmə) ixtisası üzrə magistratura yaradılmış və bu sahə üzrə magistrlərin ilk buraxılışı olmuşdur, TEMPUS proqramı çərçivəsində institutun Fransanın, İspaniyanın, Almaniyanın universitetləri ilə əlaqələri yaradılmışdır. Bu universitetlərin köməyilə institutda tədris prosesinin təkmilləşdirilməsi, onun beynəlxalq standartlar səviyyəsinə çatdırılması, maddi-texniki bazanın möhkəmləndirilməsi, elmi-pedaqoji kadrların hazırlanması və s. sahələrdə işlər görülür.

Onun rəhbərliyi altında institutun kollektivi 1998-ci ildə marketinq sahəsindəki tədqiqatlarına görə ABŞ-ın Milli Marketinq institutu tərəfindən ən yüksək mükafata - "Qranpri" mükafatına layiq görülmüşdür.

## Hüseynov Məcid Əli oğlu

Hüseynov Məcid Əli oğlu 1912-ci il noyabr ayının 19-da Tovuz rayonunun Aşağı Quşçu kəndində anadan olmuşdur. 1927-ci ildə orta məktəbi bitirmiş, 1929-cu ildə Ucar rayonunun pambıqtəmizləmə zavoduna hesabdar vəzifəsinə işə qəbul edilmiş və zavodun kollektivinin rəyi ilə 1930-cu ildə Bakı şəhərinə oxumağa göndərilmişdir.

1934-cü ildə Gürcüstan Kənd Təsərrüfatı İnstitutunun meşəçilik fakültəsinə daxil olmuşdur. İnstitutu 1939-cu ildə bitirmiş və Azərbaycan Meşə Təsərrüfatı Nazirliyində öz ixtisası üzrə işə qəbul olunmuşdur. 1940-cı ilin oktyabr ayında hərbi qulluğa çağırılmış və 1947-ci ilə kimi Almaniyanın ayrı-ayrı şəhərlərində hərbi xidmətdə olmuş, mayor rütbəsinə qədər yüksəlmişdir. Hərbi xidmətdə olduğu müddətdə göstərdiyi igidliyə görə 2 "Qırmızı əmək bayrağı ordeni", "Stalinqrad uğrunda vuruşda xidmətinə görə", "Varşavanın azad edilməsi uğrunda", "Berlinin alınması", "Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif olunmuşdur. 1947-ci ildə hərbi hissədən tərxis olunmuş və əvvəllər işlədiyi Meşə Təsərrüfatı Nazirliyində İstehsalat-texniki şöbəyə rəis təyin olunmuşdur.

Elmi araşdırmalara həvəsi olduğuna görə o, 1949-cu ildə Leninqrad Meşə Təsərrüfatı Elmlər Akademiyasında qiyabi aspiranturaya daxil olmuş, apardığı tədqiqat işi üzrə dissertasiya müdafiə edib elmlər namizədi adına layiq görülmüşdür. O, 1952-ci ildən 1956-cı ilə kimi Azərbaycan Elmi-Tədqiqat Meşə Təsərrüfatı İnstitutunda elmi işçi, şöbə müdiri vəzifələrində çalışmışdır.



1956-cı ildən 1960-cı ilə kimi Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda kafedra müdiri, müdir müavini vəzifələrində işləmişdir.

O, 1960-cı ildə respublika rəhbərliyinin təqdimatına əsasən kənd təsərrüfatı nazirinin müavini, tədarük naziri və idarəetmənin yenidən təşkil olunması ilə əlaqədar olaraq Kənd Təsərrüfatı Məhsulları İstehsalı və Tədarükü Nazirliyində nazir müavini vəzifələrində işləmişdir.

1963-cü ildən ömrünün axırına kimi Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun baş elmi işçisi, şöbə müdiri vəzifələrində çalışmışdır.

Məcid Hüseynov respublikanın aqrar bölməsinin inkişaf etdirilməsi problemlərinə müxtəlif aspektlərdən yanaşmış, hələ 1959-cu ildə dağ kolxozlarının inkişaf etdirilməsinə dair verdiyi təkliflərdə onlara müstəqillik verilməsi ideyasını irəli sürmüşdür.

M. Hüseynov respublikanın iqtisadiyyatının inkişaf etdirilməsinə həsr edilmiş bir neçə monoqrafiyanın, kitabın, broşürun müəllifidir. Bundan əlavə, respublikada və keçmiş SSRİ-yə daxil olan respublikaların jurnallarında 30-dan yuxarı məqalənin müəllifidir.

M. Hüseynov iqtisadiyyat elminin fəal təbliğatçısı olmuşdur. O, ümumittifaq "Bilik" cəmiyyətinin idarə heyətinin üzvü olmuşdur. M.Hüseynov bir sıra ümumittifaq və respublika elmi-praktik konfransların, simpozium və sessiyaların çağırılması və keçirilməsinin təşəbbüsçüsü və iştirakçısı olmuşdur.

Məcid Hüseynov işlədiyi müddətdə gənc elmi kadrların hazırlanmasına və ixtisasların artırılmasına böyük qüvvə və enerji sərf etmişdir.

Məcid Əli oğlu Hüseynov 1974-cu ildə vəfat etmişdir.



## Xəlilov Həmzə Ağakişi oğlu



Xəlilov Həmzə Ağakişi oğlu 1949-cu ildə anadan olub. 1970-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirdikdən sonra 1971-1975-ci illərdə Azərbaycan SSR EA İqtisadiyyat İnstitutunun aspiranturasında təhsil alıb.

1976-cı ildə iqtisad elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir.

1975-1978-ci illərdə Azərbaycan EA iqtisadiyyat İnstitutunda kiçik elmi işçi, 1979-83-cü illərdə baş elmi işçi vəzifəsində çalışmışdır.

1983-1992-ci illərdə Azərbaycan Texniki Universitetində Siyasi İqtisad kafedrasının dosenti vəzifəsində işləyib.

1992-ci ildə aqrar problemlərin tədqiqi ilə bağlı iqtisad elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir.1993-1997-ci illərdə Özəl Azərbaycan Universitetinin "İqtisadiyyat" kafedrasına rəhbərlik etmişdir.

1997-ci ildən 2001-ci ilin may ayınadək Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi sədrinin iqtisadi məsələlər üzrə müşaviri olmuşdur. Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Marketinq və menecment" kafedrasının professoru vəzifəsində çalışır.

80-dən çox elmi və elmi-metodiki əsərin müəllifidir.



## İsayev Veysəl İlyas oğlu

İsayev Veysəl İlyas oğlu 1933-cü il fevral ayının 12-də Gürcüstan SSR-in Bolnisi rayonunun Arıxlı kəndində anadan olmuşdur. 1948-ci ildə həmin kənddə orta məktəbi bitirmişdir. 1948-ci ilin avqust ayından 1949-cu ilin avqust ayına qədər Gürcüstan SSR-in Bolnisi rayonunun Faxralı Kənd İstehlak Cəmiyyətində baş hesabdar işləmişdir. Elə həmin ildə K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı institutuna daxil olmuş və 1953-cü ildə həmin institutun “Uçot-iqtisad” fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1954-cü ildə C.A.Timiryazev adına Moskva Kənd Təsərrüfatı Akademiyasının aspiranturasına daxil olmuş, 1958-ci ildə həmin akademiyada “Azərbaycan SSR-in pambıqçılıq kolxozlarında gəlirlərin artırılması ehtiyatları” mövzusunda dissertasiya müdafiə edərək iqtisad elmləri namizədi elmi dərəcəsini almışdır. 1957-58-ci illərdə Moskva Ümumittifaq Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunda kiçik elmi işçi vəzifəsində çalışmışdır. 1958-ci ildən 1962-ci ilə qədər Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun "Mühasibat uçotu və təsərrüfat fəaliyyətinin təhlili" kafedrasında baş müəllim işləmişdir. 1962-ci ildən 1975-ci ilə qədər Azərbaycan Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunda “Uçot və maliyyə təsərrüfatı” şöbəsinə rəhbərlik etmişdir.



Bu dövrdə V.İsayevin iqtisadçı alim kimi apardığı tədqiqatlar Azərbaycan iqtisadiyyatının aparıcı kənd təsərrüfatı sahəsi olan pambıqçılıqda səmərəliliyin artırılması ehtiyatlarının aşkar olunması, bu sahədə mütərəqqi təsərrüfatçılıq metodlarının tətbiqi zamanı mühasibat uçotunun qurulması məsələlərini əhatə etmişdir. 1958-1965-ci illərdə göstərilən mövzular üzrə görkəmli iqtisadçı tərəfindən 3 monoqrafiya buraxılmış, 30-dan artıq məqalə ilə elmi nəşrlərdə çıxışlar etmişdir. Bütün bunların yekunu kimi kollektiv təsərrüfatlarda mühasibat uçotunun vahid sistemi hazırlanmış və Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyinin kollegiyasında bəyənildikdən sonra kütləvi şəkildə tətbiq olunmuşdur. Eyni zamanda təsərrüfat hesabının tətbiqi üzrə tövsiyələr və əmək ödənişlərinin fəaliyyətin son nəticələri ilə əlaqəsinin metodikası işlənib hazırlanmışdır. Bu tövsiyələrin həyata keçirilməsi və məhsulun uçotunun yalnız miqdar ifadəsində deyil, həm də keyfiyyət əlamətləri üzrə aparılması barədə təklifin tətbiqi istehsalın səmərəliliyinin artırılmasında mühüm rol oynamışdır. Həmin dövrdə V.İsayevin mühasibat hesabları planının təkmilləşdirilməsi üzrə təklifləri təcrübədə öz tətbiqini tapmış və uzun müddət istifadə olunmuşdur.

1972-ci ildə V.İsayev D. Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda "Gəlirlərin təhlili və yeni şəraitdə onların səmərəli istifadəsinin iqtisadi əsasları" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək iqtisad elmləri doktoru elmi dərəcəsini almışdır.

1977-ci ildə Moskvada onun "Kolxozlarda gəlirlərin bərabərləşdirilməsi və səmərəli istifadəsi" adlı böyük həcmli

monoqrafiyası çap edilmişdir. Bu, uçot üzrə Moskvada çap edilən ilk azərbaycanlı iqtisadçı alimin monoqrafiyası olmuşdur.

1975-ci ildən ömrünün sonuna qədər Azərbaycan Kooperasiya İnstitutunda müxtəlif vəzifələrdə çalışmış və həmçinin Azərbaycan Dövlət İqtisad İnstitutunun "Mühasibat uçotu və audit" kafedrasının professoru olmuşdur. Bu dövrdə onun "Birgə müəssisələrdə mühasibat uçotu" və "Mühasibat uçotunun nəzəriyyəsi" adlı dərslikləri çapdan çıxmış və həmin dərsliklər tələbələr üçün Azərbaycan dilində bu qəbildən ilk tədris vəsaitləri rolunu oynamışdır.

V. İsayevin 1987-ci ildə nəşr olunmuş "Yardımçı təsərrüfatlarda təsərrüfat hesabı və uçot" monoqrafiyası həmin illərdə tam təsərrüfat hesabı və özünümaliyyələşdirmə prinsipinə keçən müəssisələrdə təsərrüfatdaxili əlaqələrin düzgün qurulması və bu zaman uçotun rolu üzrə praktik cəhətdən səmərəli təkliflərlə zəngin olmuşdur ki, bu təkliflərin də əksəriyyəti özünün tam tətbiqini tapmışdır.

V. İsayev mühasibat uçotu və təsərrüfat fəaliyyətinin təhlili ixtisası üzrə Zaqafqaziyada ilk elmlər doktoru olmuşdur. Keçmiş Sovetlər ittifaqının bütün respublikalarında öz ixtisası üzrə görkəmli mütəxəssis kimi tanınmışdır. V. İsayev 100-dən çox elmi əsərin müəllifidir ki, bundan da 20-si xarici ölkələrdə dərc edilmişdir. Bundan əlavə, o, rus dilindən Azərbaycan dilinə ümumi həcmi 400 çap vərəqindən çox olan elmi əsərləri tərcümə edib nəşr etdirmişdir. Professor V. İsayev 28 nəfər elmlər namizədi, 2 nəfər elmlər doktoru yetişdirmişdir, Moskva və Azərbaycan ali məktəblərində namizədlik və doktorluq



dissertasiyaları üzrə opponent kimi çıxış etmişdir. Keçmiş İttifaqın Ali Attestasiya Komissiyasının rəyçilərindən olmuşdur. O, respublika Maliyyə Nazirliyinin Mühasibat Uçotunun Metodologiyası idarəsinin baş məsləhətçisi, "Maliyyə və uçot" jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Azərbaycan Respublikasının "Mühasibat uçotu haqqında" Qanununun hazırlanmasında, mühasibat uçotunun hesablar planının beynəlxalq standartlara uyğunlaşdırılmasında iştirak etmişdir.

Bu gün professor V. İsayevin yetirmələri respublikamızın ali məktəblərində və elmi-tədqiqat institutlarında, iqtisadiyyatın müxtəlif sahələrində, dövlət idarəetmə sistemində fəaliyyət göstərirlər. Onlar özlərini qürurla "İsayev məktəbi"nin davamçıları hesab edirlər.

1998-ci ildə vəfat etmişdir.

## İsgəndərov Ramiz Kamal oğlu



1953-cü ildə Bərdə rayonunun Mehdixanlı kəndində anadan olmuşdur. Orta təhsilini Mehdixanlı kənd orta məktəbində almışdır. Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun «Kənd təsərrüfatının mexanikləşdirilməsi» fakültəsini, Moskva Əmək və Sosial Münasibətlər Akademiyasının «İqtisadiyyat» fakültəsini, Moskva Elmi-Tədqiqat Texnologiya İnstitutunun aspiranturasını bitirmişdir.

Ramiz Kamal oğlu İsgəndərov 1988-ci ildən texnika elmləri namizədi, 2006-cı ildən iqtisad elmləri doktorudur (08.00.05 – «Xalq təsərrüfatının iqtisadiyyatı və idarə edilməsi (kənd təsərrüfatı)» və 08.00.13 – «İqtisadiyyatın riyazi və instrumental üsulları» ixtisasları üzrə), 2010-cu ildən professordur.

Elmi-texniki tərəqqinin sosial-iqtisadi məsələləri, eləcə də əmək bazarı və əhalinin sosial müdafiəsi ilə bağlı problemlərin tədqiqi ilə məşğuldur.

Ölkəmizdə və bir sıra xarici ölkələrdə nəşr olunmuş 200 çap vərəqindən artıq həcmi olan 100-dən çox elmi məqalənin, 4 dərsliyin, 7 dərs vəsaitinin, 2 monoqrafiyanın və 5 tədris proqramının müəllifidir. Müəllifi olduğu «Əmək bazarı və əhalinin sosial müdafiəsi» və «Elmi-texniki tərəqqi: sosial-iqtisadi aspektlər» adlı kitabları Respublika



Təhsil Nazirliyinin qərarı ilə iqtisad yönümlü ali məktəblər üçün dərslik kimi tövsiyə olunaraq nəşr edilmişdir.

R.K.İsgəndərovun respublikamızdan kənarda aşağıdakı elmi əsərləri dərc olunmuşdur:

1. Формирование стратегии и инновационной деятельности предприятия. Труд и социальные отношения.- Труд и социальные отнощения, Москва, АТ и СО, 2002, №1 (16)
2. Технологическое прогнозирование и эффективность научио-технического прогресса. Ученые записки (сборник статей).-Якутск, 2002, вып. 6
3. Устойчивость рынка труда. Синергетический подход. Труд и социальные отношения.- Москва: Труд и социальные отношения, АТ и СО.-2002.-№2 (17)
4. Статистическое моделирование уровня региональной безработицы. Научный вестник Севастопольского филиала АТ и СО.- Севастополь, 2002.-№5
5. Функционально-стоимостной анализ при решении проблемы повышения качества продукции. Труд и социальные отношения.- Москва, 2002, №4
6. Экономическая свобода общество и социальные установки экономических реформ развития научн. обр. потенциала Сибири. Материалы всероссийского научно-методического семинара. Томский Государственный Университет. Томск, 2002 г.
7. Проблемы создания новой экономической системы. Труд и социальные отнощения, -Москва: АТ и СО-2003, -№2

8. Оцеика платежеспособного спроса населения Труд и социальные отнощения, -Москва: АТ и СО-2003, -№3

9. Прннципы социальной справедливости и пути ее регулироваиия Сборник материалов научно-практической конференции посвящен. 100-летию профсоюзов России. Оренбург, 2005

10. Социальная рыночная экономика и проблема выбора социально-экономической модели Сборник научных трудов Башкирского института социальных технологий. Уфа, 2008

11. Основные задачи реформы социальной сферы Материалы научно-практической конференции. Алматы, 2009

R.K.İsgəndərovun hazırladığı aşağıdakı dərsliklər Rusiya Federasiyasının iqtisad yönümlü ali məktəblərində əsas ədəbiyyat kimi istifadə edilir.

1. Научно-технический прогресс и рынок иововведений. Москва, АТ и СО, 2000, 356 с.

2. Технология производства и прогнозирование технологического развития. Москва, АТ и СО, 2002, 364 с.

Ramiz Kamal oğlu İsgəndərov Beynəlxalq İnformasiya Akademiyasının, Rusiya Federasiyasının Pedaqoji və Sosial Elmlər Akademiyasının, Gürcüstanın Biznes Elmləri Akademiyasının həqiqi üzvü seçilmişdir. BMT yanında Ümumdünya Sülh Federasiyasının Sülh Səfiridir.

O, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının I, II və III qurultaylarının nümayəndəsi olmuşdur. Hal-hazırda Konfederasiyanın Məclis üzvüdür.



R.K.İsgəndərov 1999-2011-ci illərdə Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının tədris və elmi işlər üzrə prorektoru olmuşdur. Hal-hazırda Azərbaycan Texniki Universitetinin «Sənaye iqtisadiyyatı və menecment» kafedrasının müdiridir.

## Qasımov Əbülfəz Cəbrayıl oğlu



Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor, Azərbaycan Yazıçılar Birliyinin üzvü Qasımov Əbülfəz (Bərəkət) Cəbrayıl oğlu 1931-ci ildə Ordubad şəhərində fəhlə ailəsində anadan olmuşdur. Ə.Qasımov 1937-ci ildə Ordubad natamam orta məktəbinə daxil olmuş, 1942-ci ildə buranı bitirdikdən sonra Ordubad pedaqoji texnikumunda təhsilini davam etdirmişdir. 1946-cı ildə texnikumu bitirib Ordubad Rayon Kənd Təsərrüfatı Şöbəsində və Rayon İcraiyyə Komitəsində çalışmışdır.

1949-cu ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun plan-iqtisad fakültəsinə daxil olmuş, 1953-cü ildə oranı bitirib, institutun Elmi Şurasının qərarı ilə SSRİ EA-nın İqtisad İnstitutunun aspiranturasına göndərilmişdir.

1957-ci ildə həmin institutun Elmi Şurasında namizədlik dissertasiyasını müdafiə edib, Azərbaycan EA-nın İqtisadiyyat İnstitutunda kiçik elmi işçi vəzifəsində çalışmışdır.

1959-cu ildən 1992-ci ilədək, yəni 33 il ərzində Bakı Ali Partiya Məktəbində dosent, professor, kafedra müdiri vəzifələrində çalışmışdır. 1970-ci ildə Azərbaycan SSR EA-nın İqtisadiyyat İnstitutunun Elmi Şurasında doktorluq dissertasiyasını müdafiə etmişdir.

1986-cı ildə Azərbaycan Ali Soveti Rəyasət heyətinin qərarı ilə Azərbaycan SSR-in Əməkdar təbliğatçısı fəxri adına, 1991-ci ildə isə Azərbaycan SSR-nin Əməkdar elm



xadimi fəxri adına layiq görülmüşdür. Dəfələrlə Azərbaycan SSR Ali Sovetinin və digər dövlət orqanlarının mükafatları ilə təltif olunmuşdur.

1992-ci ildən Azərbaycan Dövlət İqtisad Universitetində "Aqrar-sənaye kompleksinin iqtisadiyyatı və idarə edilməsi" kafedrasında professor, 1995-ci ildən isə həmin kafedranın müdiri vəzifəsində işləmişdir.

O, bir-birini tamamlayan üç cildli aqrar iqtisadiyyat üzrə ilk dərsliklərin müəllifi olmuşdur.

Bundan başqa, onun "Azərbaycan heyvandarlığının iqtisadiyyatı", "Azərnəşr", 1967; "İqtisadçının məlumat kitabı", "Azərnəşr", 1968; "Heyvandarlığın iqtisadiyyatı" (dərs vəsaiti), "Maarif", 1978; "Ərzaq proqramının aktual problemləri" (monoqrafiya), "Azərnəşr", 1992; "Azərbaycanın sosial-iqtisadi inkişafında islahatların rolu", 1998; "İpək Yolu"nun bərpası bəşəriyyətin tərəqqi yoludur" (monoqrafiya), 2000; "Naxçıvan qədim diyardır", Bakı, 1999 (şərikli) əsərlərini göstərmək olar.

Əbülfəz Qasımovu fərqləndirən cəhət bu olmuşdur ki, o, milli iqtisadiyyatımızın sosial-iqtisadi problemlərini tədqiq etməklə yanaşı, bədii-publisistik əsərləri ilə də oxucuların hüsn-rəğbətini qazanmışdır.

Çörək mövzusu onun bədii yaradıcılığının şah damarı olmuşdur. Onun "Mənim çörəkli dünyam" kitabı bir neçə dildə nəşr edilmişdir. Həmin kitabın motivləri üzrə Moskva, Bakı və Naxçıvanda filmlər çəkilmişdir.

Əbülfəz Bərəkətin "Правда", "Известия", "Комсомолская правда", "Сельская жизнь", "Учительская газета", "Советские женщины", "Нива" və keçmiş

İttifaqın digər qəzet və jurnallarında nəşr etdirdiyi çörəyin iqtisadi-mənəvi problemlərinə dair saysız-hesabsız oçerklər geniş əks-səda doğurmuşdur.

Əbülfəz Bərəkətin son vaxtlar oxuculara təqdim etdiyi "Sevən ürək, isti çörək" əsəri 20 Yanvar hadisələrinə həsr edilmişdir. Əsərdə şəhidlərimizin nakam və saf məhəbbətindən, pak və ülviliyindən söhbət gedir, onların ruhu əzizlənir, xatirələri yad olunur.

"Dəyirmana gedən yollar" bədii-publisistik oçerki dünya şöhrətli müğənni Lyüdmila Zıkinanın müşayiəti ilə radio-kompozisiya vallara yazılaraq *"Русский язык зарубежом"* jurnalının redaksiyasının təşəbbüsü ilə dünyanın səksən ölkəsində səslənir. İndi həmin ölkələrin məktəblərində şagirdlərə Azərbaycanın adət-ənənələri, qonaqpərvərliyi, insanpərvərliyi barədə 13 sinif məşğələsi keçirilir.

Həmin oçerk istedadlı müğənnimiz Rəşid Behbudovun müşayiəti ilə də səsləndirilmiş və geniş əks-səda doğurmuşdur.

Beləliklə, professor Ə.Qasımovun iqtisadi təfəkkürü ilə bədii təfəkkürü arasında yaranmış vəhdət ona elmi axtarışlarında böyük uğurlar qazandırmışdır.



## Qəhrəmanov Rüstəm Cəbrayıl oğlu



Qəhrəmanov Rüstəm Cəbrayıl oğlu 1910-cu ildə Qubadlı rayonunun Kürdçalanlı kəndində anadan olub. 1931-ci ildə orta məktəbi bitirdikdən sonra 1932-1935-ci illərdə Bakı şəhərində Ali Kommunist məktəbinin təşkilatçı aqronom şöbəsini, 1936-37-ci illərdə Moskva şəhərində Sverdlov adına Alt Kommunist Kənd Təsərrüfatı Məktəbinin və ÜİK (b)P MK-nın nəzdindəki Marksizm-Leninizm Məktəbinin dinləyicisi olmuşdur.

1937-ci ildə Moskva şəhərində təhsilini başa vurduqdan sonra Bakı şəhərində Azərbaycan Torpaq Komissarlığında Ali məktəblər və texnikumlar üzrə müfəttiş vəzifəsində işləmişdir. Bir müddətdən sonra isə Naxçıvan MR Kənd Təsərrüfatı naziri vəzifəsinə təyin edilmiş və 1947-ci ilə kimi həmin vəzifədə işləmişdir. Rüstəm müəllim çox çətin müharibə illərində Naxçıvanda kənd təsərrüfatı naziri vəzifəsində işləyərkən Muxtar Respublikanın kənd təsərrüfatının, onun iqtisadiyyatının inkişaf etdirilməsində çox işlər görmüşdür. Ona görə də Muxtar Respublikanın əhalisi, xüsusilə onunla işləyənlər Rüstəm Qəhrəmanovu olduqca ciddi, həm də çox təvazökar bir adam kimi xatırlayırlar.

R.Qəhrəmanov 1948-1949-cu illərdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyində Bağçılıq və üzümçülük idarəsinin rəisi vəzifəsində, 1950-1952-ci illərdə

isə Cəlilabad (o vaxtki Astraxanbazar) rayonunda partiya komitəsinin birinci katibi vəzifəsində işləmişdir. Rayonun abadlaşdırılması və sosial-iqtisadi inkişafı haqqında indi də xatırlanan işlər görmüşdür. 1952-1958-ci illərdə Moskva şəhərində Timiryazev adına Kənd Təsərrüfatı Akademiyasının "Aqronomluq" fakültəsində oxumuşdur. 1956-cı ildə həmin akademiyada dissertasiya müdafiə edərək, iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır. 1972-ci ilin may ayında R.Qəhrəmanov "Naxçıvan MR kənd təsərrüfatının səmərəli yerləşdirilməsi və ixtisaslaşdırılması problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1974-cü ildə ona professor elmi adı verilmişdir. 100-ə qədər elmi məqalənin və dörd monoqrafiyanın müəllifidir. 1957-ci ildən başlayaraq ömrünün axırına qədər elm sahəsində çalışmışdır. 1957-1961-ci illərdə respublika Elmlər Akademiyasında, 1962-ci ildən ömrünün sonuna kimi Az.ETKTİ və Tİ-də şöbə müdiri vəzifəsində işləmişdir.

Kənd təsərrüfatı sahəsi üzrə elmi işlə məşğul olan gənclər, orta yaşlı mütəxəssislər ondan elmi və praktik məsləhətlər alırdılar. R.C.Qəhrəmanov uzun müddət Azərbaycan EA İqtisadiyyat İnstitutunda, həm də Az.ETKTİ və Tİ-də elmi şuranın üzvü olmuşdur.

Respublikada iqtisadçı kadrların hazırlanmasında və formalaşmasında R.Qəhrəmanovun xidməti böyükdür. R.Qəhrəmanovun rəhbərliyi ilə onlarla elmlər namizədi yetişdirilmişdir. Onun həyat fəlsəfəsi xalqa xidmət etmək, insanlaraköməklik etmək idi. R.Qəhrəmanovun əməyi həm xalq, həm də dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. "Qafqazın müdafiəsi", Fədakar əməyə görə medalları,



"Qırmızı əmək bayrağı" ordeni ilə təltif edilmişdir. Respublika Ali Sovetinin I və II çağırış seçkilərində iki dəfə xalq deputatı seçilmişdir.

1979-cu ildə dünyasını dəyişmişdir.

## Rüstəmov Ağarza Ağahəsən oğlu



Rüstəmov Ağarza Ağahəsən oğlu 1952-ci ildə Şərur rayonunun Qıvraq kəndində (indiki Kəngərli rayonunun Qıvraq qəsəbəsində) dünyaya göz açmış. 1969-cu ildə orta məktəbini bitirmiş, həmin kənddə təsərrüfat fəaliyyətinə başlamışdır.

1970 -ci ildə sənədlərini D.Bünyadzadə adına Xalq Təsərrüfatı İnstitutuna (indiki ADİU) vermiş, "Mühasibat uçotu və təsərrüfat fəaliyyətinin təhlili" ixtisasına qəbul olunmuşdur. A.A.Rüstəmovun bir semestr ərzində təhsilə olan marağını və müvəffəqiyyətlə oxuduğunu görən institut rəhbərliyi, onu 1971-ci ilin yanvar ayında "Siyasi iqtisad müəllimliyi" ixtisasına keçirmiş və o 1975-ci ildə institutu həmin ixtisas üzrə bitirmiş, ona yeni yaranmış Naxçıvan Dövlət Pedoqoji İnstitututuna təyinat verilmişdir.

Hərbi xidmətdən sonra, yenidən siyasi iqtisad müəllimliyinə qayıtmış. Bir an da belə elmi fəaliyyəti yadından çıxarmayan A.A.Rüstəmov, onu maraqlandıran məsələlər haqda artıq respublikada keçirilən elmi konfranslarda öz məqalələri ilə çıxış etməyə başlamışdır. Belə ki, o 1981-ci ildə "Texniki tərəqqi və kənd təsərrüfatında əsas istehsal fondlarından istifadənin yaxşılaşdırılması yolları", 1982-ci ildə "Müasir dövrdə kənd təsərrüfatında əsas istehsal fondlarından istifadənin xüsusiyyətləri" və s. məqalələrini nəşr etdirmişdir.



A.A.Rüstəmov 1986-1987- ci illərdə Naxçıvan Pedoqoji İnstitutunda bir çox vəzifələrdə çalışmış və "Ümumi texniki fənnlər" fakültəsinin dekan müavini vəzifəsində işləmişdir. 1987-ci ildə Bakı Dövlət Universitetinin aspiranturasına qəbul olunmuş, aspiranturanı müvəffəqiyyətlə bitirərək, 1990-cı ildə "Elmi-texniki tərəqqi şəraitində əsas istehsal fondlarının təkrar istehsalınm iqtisadi problemləri" mövzusunda dissertasiya müdafiyə etmiş, siyasi iqtisad üzrə-08.00.01 şifri ilə iqtisad elmləri namizədi (iqtisad üzrə fəlsəfə doktoru) alimlik dərəcəsi almışdır. Aspiranturada oxuduğu müddətdə "Naxçıvan MSSR-də kənd təsərrüfatına kapital qoyuluşu və əsas istehsal fondlarının təkrar istehsalı", "Əsas fondların təkrar istehsalında kreditin rolu", "Kənd təsərrüfatında əsas fondların mahiyyəti" və s. sanballı elmi məqalələrini çap etdirmişdir.

1991-ci ildə "Siyasi iqtisad kursunun tədrisində yerli materiallardan istifadənin bəzi məsələləri" və 1992-ci ildə isə "İqtisadi nəzəriyyə kursunun tədrisində Azərbaycan ədəbiyyatından istifadənin bəzi məsələləri" adlı dərs vəsaitlərini çap etdirmişdir.

1994- cü ildə "İqtisad" fakültəsinə dekan seçilmişdir. Sonra həmin fakültə hüquqşünaslıq ixtisası ilə birləşdirilmiş və o 2004 -cü ilədək iqtisad-hüqüq fakültəsinin dekanı vəzifəsində çalışmışdır.

Onun 2001-2003- cü illərdə "Kənd yerlərində aztəminatlı əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətləri", "Əhalinin maddi rifah halının yaxşılaşdırılmasında sosial-iqtisadi inkişafın istiqamətləri", "Respublikada əhalinin maddi rifahının yüksəldilməsinin

iqtisadi problemləri” və “Kənd əhalisinin maddi və mədəni-məişət şəraitinin yaxşılaşdırılması problemləri” adlı kitabları və “Bazar və bazar mexanizmi” adlı dərs vəsaiti capdan çıxmışdır. Bu kitabların adından məlum olduğu kimi Prof. A.A.Rüstəmov onu maraqlandıran əsas məsələləri - bazar iqtisadiyyatı şəraitində az təminatlı əhalinin, şəhər əhalisinə nisbətən daha çox problemlərlə üzləşən, ehtiyacları tələbatlarına nisbətən daha az ödənilən kənd əhalisinin mədəni-məişət şəraitinin yaxşılaşdırılması, onların maddi-rifah halının yüksəldilməsində qiymət, əsaslı vəsait qoyuluşu, vergi və kredit mexanizmlərinin təkmilləşdirilməsinin rolunu, və eləcə də digər sosial-iqtisadi məsələləri tədqiq etmişdir.

2004-cü ildə Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda “Yeni münasibətlər şəraitində əhalinin həyat səviyyəsinin yüksəldilməsinin iqtisadi problemləri” mövzusunda dissertasiya müdafıyə edərək, xalq təsərrüfatmın iqtisadiyyatı və idarə edilməsi-08.00.05 –şifri ilə iqtisad elmləri doktoru elmi dərəcəsi almışdır.

1993-cü ildən dosent və 2009-cu ildən professor vəzifəsində çalışan A.A.Rüstəmov 2004-cü ildən bu günədək “İqtisadiyyat” kafedrasına rəhbərlik edir.

Professor A.A.Rüstəmovun elmi kadrların yetişdirilməsində də əməyi böyükdür. Rəhbərliyi ilə 10-nəfər aspirant və dissertant müvəffəqiyyətlə dissertasiya müdafiə edərək elmi dərəcə almışlar.

Ümumilikdə, 100 -dən çox elmi əsərin, o cümlədən, kitabın, dərs vəsaiti, dərs proqramları, məqalə və tezislərin



müəllifi olan Ağarza müəllimin tədqiqat obyekti genişdir. Alim iqtisadi nəzəriyyənin bir sıra problemlərinin-kənd təsərrüfatında əsas istehsal fondlarından istifadənin yaxşılaşdırılması, müasir dövrdə kənd təsərrüfatında əsas istehsal fondlarından istifadənin xüsusiyyətləri, istehsal fondlarının təkrar istehsalınm iqtisadi problemləri, bazar və bazar mexanizmi, kəndli təsərrüfatlarının səmərəliliyi məsələləri və s. tədqiqi yönümündə elmi-nəzəri və praktiki əhəmiyyətli mövzuların tədrisi ilə bağlı metodik vəsaitlərin müəllifidir.

O, Respublikada və xarici ölkələrdə keçirilən yerli və beynəlxalq elmi-praktik konfranslarda və seminarlarda iştirak etmiş, dəyərli elmi məqalələri ilə çıxış etmişdir. Bir sıra nüfuzlu komissiyaların və elmi qurumların, o cümlədən, AMEA Naxçıvan bölməsində fəaliyyət göstərən Dissertasiya Şurasının sədr müavini, NDU - Elmi Şurasının, universitetdə nəşr olunan "Elmi əsərlər" jurnalının redaksiya heyətinin, eyni zamanda Rusiyanın Moskva şəhərində çıxan Beynəlxalq elmi jurnalın, Beynəlxalq texniki-iqtisadi jurnalın və Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatmm İqtisadiyyatı və Təşkili İnstitutunun “Xəbərlər” jurnalınm redaksiya heyətinin üzvüdür.

İqtisad elmləri doktoru, professor A.A.Rüstəmovun səmərəli elmi-pedaqoji fəaliyyəti dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmişdir. O, 2007-ci ildə Naxçıvan Dövlət Universitetinin 40-illik yubileyi ilə əlaqədar, universitetin bir qrup əməkdaşları ilə bərabər, hörmətli prezidentimiz cənab İ.Əliyevin sərəncamı ilə “Tərəqqi

medalı" ilə təltif edilmişdir. Medalı şəxsən hörmətli cənab prezidentimiz İ.H.Əliyev professor A.A.Rüstəmova özü təqtim etmişdir.

Ağarza müəllim həm də qayğıkeş ailə başçısıdır. Tanrı ona 2 övlad, 6 nəvə bəxş etmişdir.



## Səbzəliyev Sifariz Mirzəxan oğlu



S.M.Səbzəliyev 1945-ci il yanvar ayının 8-də Azərbaycan Respublikasının Ağsu rayonunun Qaraqoyunlu kəndində ziyalı ailəsində anadan olmuşdur. 1963-cü ildə S.M.Kirov adına Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisad" fakültəsinin əyani şöbəsinə qəbul olunmuş, II kursdan hərbi xidmətə çağırılmışdır. 1963-1967-ci illər ərzində hərbi xidmətini başa vurduqdan sonra təhsilini D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun "Uçot-iqtisad" fakültəsinin əyani şöbəsində davam etdirmişdir. 1970-ci ildə həmin institutu fərqlənmə diplomu ilə bitirmişdir. Təyinatla Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutuna işləməyə göndərilmiş, müxtəlif illərdə həmin institututda kiçik elmi işçi, baş elmi işçi və elmi katib vəzifələrində çalışmışdır. 1973-1977-ci illərdə institutun aspiranturasının əyani şöbəsində təhsilini davam etdirmiş və 1980-ci ildə "Şirvan zonasının təsərrüfatlarında istehsal fondlarının uçotunun və təhlilinin təkmilləşdirilməsi" mövzusunda yazdığı namizədlik dissertasiyasını M.V.Lomonosov adına Moskva Dövlət Universitetində müdafiə edərək çox qısa bir müddətdə iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır.

S.M.Səbzəliyev 1981-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin "Mühasibat uçotu" kafedrasına baş müəllim vəzifəsinə dəvət olunmuş, 1985-ci ildə "Uçot-iqtisad"

fakültəsinə dekan müavini vəzifəsinə təyin olunmuş, 1987-ci ildə "Mühasibat uçotu və audit" kafedrasına müdir vəzifəsinə seçilmiş və 1995-ci ilədək həmin vəzifədə çalışmışdır. 1995-2000-ci illər ərzində həmin kafedrada dosent vəzifəsində qalmaqla, eyni zamanda, "Naxçıvan" Universitetinin "İqtisad elmləri" kafedrasına rəhbərlik etmişdir.

2000-ci ilin iyul ayında S.M.Səbzəliyev yenidən Azərbaycan Dövlət İqtisad Universitetinin "Mühasibat uçotu" kafedrasına müdir vəzifəsinə seçilmiş və hazırda həmin vəzifədə çalışır.

2005-ci ildə "Bazar şəraitində maliyyə hesabatının formalaşmasının konseptual əsasları, onların beynəlxalq standartlara uyğunlaşdırılması" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək iqtisad elmləri doktoru adına layiq görülmüşdür. Elə həmin ildə Universitetin Elmi Şurası onu professor vəzifəsinə seçmişdir.

Professor S.M.Səbzəliyev Universitetin Elmi Şurasının, Respublika Maliyyə Nazirliyi Elmi-metodik Şurasının, Respublika Auditorlar Palatası Rəyasət Heyətinin, "Maliyyə və uçot", "İqtisadiyyat və audit", "Audit", " İqtisad elmləri: nəzəriyyə və praktika" jurnallarının redaksiya heyətlərinin üzvüdür.

1991-ci ildə tədrisin səmərəli təşkilindəki xidmətlərinə görə Respublika Təhsil Nazirliyinin Fəxri Fərmanlarına layiq görülmüşdür.

2011-çi il sentyabr ayının 26-da Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə prof. S.M.Səbzəliyevə



"Azərbaycan Respublikasının əməkdar müəllimi" fəxri adı verilmişdir.

Professor S.M.Səbzəliyev 150-dən çox dərsliyin, dərs vəsaitinin, monoqrafiyanın, proqramın, elmi məqalənin və digər tədris metodik vəsaitin müəllifidir. Həmin əsərlərin əksəriyyəti, xüsusən də, "Mühasibat (maliyyə) uçotu" (dərslik), "Auditin əsasları" (dərslik), "Mühasibat uçotuna dair məsələlər məcmuəsi"(dərslik),"Mühasibat (maliyyə) hesabatı" (dərslik), "Maliyyə hesabatı: formalaşması və təkmilləşdirilməsi problemləri" (monoqrafiya), "Beynəlxalq və Milli uçot terminlərinin izahlı lüğəti" (monoqrafiya) və s. respublika iqtisadçıları tərəfindən yüksək qiymətləndirilmiş və iqtisadiyyat təmayüllü ali məktəblərdə tədris olunur.

Professor S.M.Səbzəliyev müxtəlif illərdə Moskva, Sankt-Peterburq, Odessa, Daşkənd, Tbilisi, Kiyev, Kutaisi və s. şəhərlərdə beynəlxalq konfrans və simpoziumlarda maraqlı məruzələrlə çıxış etmişdir.

Hazırda 20-dən çox aspirant və dissertantın elmi rəhbəridir.

Evlidir, üç övladı var.

## Şirəliyev Asif İsmayıl oğlu



Şirəliyev Asif İsmayıl oğlu, 1939-cu ilin dekabr ayının 19-da Şərur rayonunun (keçmiş Noraşen) Düdəngə kəndində anadan olmuş, Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) 1968-ci ildə Bakı Ali Partiya məktəbini fərqlənmə diplomları ilə bitirmiş, 1975-ci ildə "Siyasi iqtisad" üzrə aspiranturanı qurtarmışdır. İqtisad elmləri doktoru (2001-ci il), professordur (1990-cı il). Uzun illər Komsomol, partiya və Həmkarlar Təşkilatının rəhbər orqanlarında işləmişdir. O, 1973-cü ildən Naxçıvan Dövlət Universitetində müəllim, baş müəllim, dosent, kafedra müdiri və haliyədə "İqtisad" fakültəsinin dekanı vəzifəsində çalışır. Onun iqtisad elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya mövzusu M.B.Lomonosov adına Moskva Dövlət Universitetinin (1984) elmi şurasında təsdiq edilmişdir.

A.İ.Şirəliyev 230 elmi əsərin, o cümlədən 44 monoqrafiya və kitabın, 147 jurnal məqaləsinin, 47 elmi konfransda oxuduğu məruzələrin müəllifidir.

O, keçmiş ÜİLKG-nın Naxçıvan Muxtar Respublika Ali Soveti Rəyasət Heyətinin və 10-dan artıq respublika dövlət və ictimai təşkilatların fəxri fərmanları ilə təltif edilmişdir. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 16 oktyabr 2007-ci il sərəncamına əsasən "tərəqqi" medalı ilə təltif olunmuşdur.



A.İ.Şirəliyev Naxçıvan Muxtar Respublika aqrar islahatları komissiyasının, AMEA İqtisadiyyat İnstitutunun "İqtisadiyyat" üzrə elmi-tədqiqat işlərinin əlaqələndirilməsi şurasınm, AMEA Naxçıvan bölməsi yanında fəaliyyət göstərən dissertasiya şurasının, Naxçıvan Dövlət Universitetini elmi şurasının üzvü və həmin universitetin "İqtisad" fakültəsi elmi şurasının sədridir.

O, iqtisad elmləri namizədi və doktoru elmi dərəcəsini almaq üçün 15 nəfərin rəsmi opponenti, 8 nəfərin elmi rəhbəri və elmi məsləhətçisi olmuşdur.

A.İ.Şirəliyev AMEA tərəfindən 2002 və 2005-ci illərdə nəşr olunan ikicildlik "Naxçıvan ensklopediyası"na daxil edilmiş əsas məqalələrin müəlliflərindən biridir. O, həmçinin Azərbaycan Respublikası Təhsil Nazirliyinin "İqtisadiyyat" elmi-metodik şurasının üzvüdür.

Əsərləri: Aqrar istehsalının təşkilinin yeni formaları. Bakı.1992. Kəndli təsərrüfatının səmərəliliyi məsələləri. Bakı.1996. İqtisadi nəzəriyyə. Bakı.2004. İqtisad elmlərində işlədilən alınma sözlər. Bakı.2005. Aqrar-sənaye kompleksində iqtisadi mənafelər. Bakı.2008. İqtisadi artım və sosial-tərəqqi. Naxçıvan.2012

## Hüseynov Məhərrəm Cəlal oğlu



Hüseynov Məhərrəm Cəlal oğlu 1960-cı ildə Azərbaycanın Respublikası Kirovabad şəhəri (hazırkı Samux rayonunun) Qarabağlar kəndində anadan olmuşdur. 1982-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun İqtisadiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1982-1988-ci illərdə əvvəlcə Bərdə rayon Aqrar Sənaye Birliyində böyük iqtisadçı vəzifəsində, sonra Bərdə Kənd Təsərrüfatı texnikumunda müəllim işləmişdir. 1984-1985-ci illərdə Moskva K.A.Tmiryazev adına Kənd Təsərrüfatı Akademiyasının pedoqoji fakültəsində oxuyub, iqtisadçı-pedoqoq ixtisası almışdır. 1988-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda qiyabi təhsil fakültəsində baş metodist, dekan müavini işləmişdir. 1990-cı ildən "Statistika və maliyyə" kafedrasında assistent, baş müəllim, dosent əvəzi, dosent işləyir. 1997-ci ildən Aqrar iqtisadiyyat və menecment fakültəsində dekan müavini, 2000-2008-ci illərdə isə fakültənin dekanı vəzifəsində işləmişdir.

Azərbaycan Dövlət İqtisad İnstitutunda namizədlik dissertasiya işini müdafiə edərək 1995-ci ildə iqtisad elmləri namizədi, Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda doktorluq dissertasiya işini müdafiə edərək 2009-cu ildə iqtisad elmləri doktoru adı almışdır.



"Bazar iqtisadiyyatına keçid şəraitində üzümçülüyün intensivləşdirilməsinin səmərəliliyi", "Kəndli (fermer) təsərrüfatları və istehsal kooperativlərində maliyyə-kredit mexanizmi", "Aqrar sahənin dayanıqlı inkişaf problemləri", "Baytarlıq işinin təşkili və iqtisadiyyatı", "Kənd təsərrüfatının maliyyəsi", "Dünya iqtisadiyyatının tarixi", "Mikroiqtisadiyyat" adlı 2 monoqrafiya, 3 dərs vəsaiti və 2 dərslik olmaqla 126 elmi və tədris-metodiki işlərin müəllifidir.

2009-cu ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Təhsilin inkişafındakı xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

2009-cu ildən ADAU-nun Maliyyə və iqtisadi nəzəriyyə kafedrasının müdiri işləyir.

Azərbaycan Milli Elmlər Akademiyasında əlaqələndirmə şurasının üzvü, ADAU-da fəaliyyət göstərən FD.04.013 birləşdirilmiş dissertasiya şurasının üzvü, Milli Məclisdə Aqrar siyasət daimi Komitəsinin ekspertidir.

Ailəlidir, 3 övladı var.

## Məmmədov İbrahim Xəlil oğlu



Məmmədov İbrahim Xəlil oğlu 1930-cu ildə Naxçıvan MR Şərur rayonunun Danzik kəndində anadan olmuşdur.

1936-cı ildə Danzik kənd 7 illik məktəbin birinci sinfinə daxil olub. 1943-cü ildə məktəbin 7-ci sinfini bitirib. Həmin il Ordubad Pedaqoji Texnikumuna daxil olaraq 1947-ci ildə texnikumu bitirmişdir. 1947-ci ildə indiki İqtisad Universitetinə daxil olub, 1952-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir.

1952-ci ildə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsində işə qəbul olmuş və 1957-ci ildə komitə sədrinin müavini təyin edilmişdir.

1961-ci ildən Respublika Dövlət Plan Komitəsində müxtəlif vəzifələrdə çalışmış və 1962-ci ildən Dövlət Plan Komitəsinin sədr müavini vəzifəsinə təyin edilmişdir və bu vəzifədə 1988-ci ilədək işləmişdir. O, 1981-ci ildə SSRİ Xalq Təsərrüfatı Akademiyasını bitirmişdir.

1990-cı ildə Dövlət Aqrar Sənaye Komitəsinin İqtisadiyyat məsələləri üzrə sədr müavini təyin edilmiş və 1993-cü ilədək bu vəzifədə işləmişdir. 12.09.2008-ci ildən hal-hazıra kimi Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda Baş mütəxəssis vəzifəsində çalışır.

Əmək fəaliyyəti müddətində aşağıdakı Dövlət təltiflərinə layiq görülmüşdür:



1966-cı ildə "Şərəf nişanı " ordeni ilə, 1970-ci ildə V.İ.Leninin anadan olmasının 100 illiyi ilə əlaqədar “Yubiley medalı”, 1971-ci ildə Dövlət Plan Orqanlarının 50 illiyi münasibətilə "Tərifnamə", 1973-cü ildə "Qırmızı Əmək Bayrağı" ordeni ilə, 1976-ci ildə "Xalqlar Dostluğu" ordeni və Xalq təsərrüfatında görkəmli nailiyyətlərə görə SSRİ Xalq Təsərrüfatı nailiyyətləri sərgisinin "Qızıl medal" ilə, 1984-cü ildə Bolqar-Sovet dostluğunun təsisi ilə Əlaqədar "Tərifnamə" ilə.

1996-cı ildə Beynəlxalq Energetika Akademiyasının Akademiki seçilmişdir. Professordur.

## Abbasov Anar Fazil oğlu



Anar Fazil oğlu Abbasov 1972-ci ildə Azərbaycan Respublikası Fizuli rayonunun Aşağı Seyidəhmədli kəndində ziyalı ailəsində anadan olmuşdur. 1988-ci ildə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının «Aqrar sənaye sahələrinin iqtisadiyyatı və idarə edilməsi» fakültəsinə daxil olaraq 1993-cü ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirmiş və iqtisadçı təşkilatçı ixtisasına yiyələnmişdir. 1994-cü ilin yanvarın 1-də Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun aspiranturasına daxil olmuş, 1996-cı ildə iqtisad elmləri namizədi alimlik dərəcəsini müdafiə etmişdir. 1994-1999-cu illərdə Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda kiçik elmi işçi, elmi işçi və böyük elmi işçi vəzifələrində işləmişdir. 1999-2002-ci illərdə Azərbaycan Kooperasiya Universitetində müəllim, baş müəllim, kafedra müdiri vəzifələrində çalışmışdır. 2002-ci ildən hal-hazıradək Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda elmi işlər üzrə direktor müavini vəzifəsində işləyir.

1998-ci ildən «Ərzaq təhlükəsizliyinin iqtisadi problemləri» mövzusunda doktorluq dissertasiyası üzərində işləmiş, 2010-cu ilin oktyabrın 29-da Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunda fəaliyyət göstərən dissertasiya şurasında iqtisad elmləri doktoru



**elmi dərəcəsini müdafiə etmişdir. 120-yə qədər elmi məqalənin, «Sosial bazar iqtisadiyyatı» Bakı 1998, 316 səh., «Ərzaq təhlükəsizliyi» Bakı 2007, 602 səhifə həcmində 2 monoqrafiyanın müəllifidir.**

## Vəliyev Akif Həmzə oğlu



Akif Həmzə oğlu Vəliyev 1951-ci ildə anadan olmuşdur. 1967-ci ildə orta təhsil alaraq, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun «Coğrafiya-biologiya» fakültəsinə daxil olmuş, 1972-ci ildə oranı bitirmişdir. Həmin ilin sentyabrında Azərbaycan Dövlət Yer-quruluşu Layihə İnstitutunda mühəndis-torpaqşünas vəzifəsinə işə girmişdir.

1973-1974-ci illərdə hərbi xidmətdə olmuş, qayıtdıqdan sonra öz əvvəlki işinə bərpa olunmuşdur.

1975-ci ilin aprelində Azərbaycan Milli Elmlər Akademiyasının Torpaqşünaslıq və Aqrokimya institutunda kiçik elmi işçi vəzifəsinə işə girmiş, 1976-1979-cu illərdə həmin institutun əyani aspirantı olmuşdur. 1981-ci ildə dissertasiya müdafiə edərək, kənd təsərrüfatı elmləri namizədi alimlik dərəcəsi adı almışdır.

1983-cü ildə torpaq kadastrı üzrə apardığı elmi-tədqiqat işlərinin nəticəsinə görə «Ekotexnika - 82» Ümumittifaq konkursunun laureatı olmuş, «Torpaqların keyfiyyət qiyməti xəritəsi»nin tərtibinə görə Ümumittifaq Xalq Nailiyyətləri sərgisinin bürünc medalına layiq görülmüşdür.

1984-cü ildən institutda baş elmi işçi, 1990-cı ildən 1992-ci ilin sentyabrına kimi qrup rəhbəri işləmişdir.

1991-ci ildə baş elmi işçi dərəcəsi almışdır.

1992-ci ilin sentyabrından Dövlət Torpaq Komitəsində əvvəlcə sədrin müavini, 1993-cü ilin fevralından 1997-ci ilin



iyuluna kimi isə sədrin birinci müavini, eyni zamanda sədr əvəzi işləmişdir. Respublikada torpaq islahatının aparılması üçün qanunvericilik bazasının hazırlanmasına, islahatın həyata keçirilməsinə və yeni torpaq münasibətlərinin tənzimlənməsinə rəhbərlik etmişdir.

1998-ci ilin aprelindən Kənd Təsərrüfatı Nazirliyinin Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda baş elmi işçi, həmin ilin noyabr ayından şöbə müdiri, 2001-ci ilin sentyabr ayından hal-hazıra kimi institutun elmi-katibi vəzifəsində çalışır.

Apardığı elmi-tədqiqat işinin istiqaməti – kənd təsərrüfatında torpaq münasibətlərinin formalaşdırılması, torpaq kadastrı işlərinin təkmilləşdirilməsi və torpaqlardan istifadənin iqtisadi səmərəliliyinin yüksəldilməsi problemlərini əhatə edir.

Akif Həmzə oğlu Vəliyev «Azərbaycanda torpaqdan istifadənin iqtisadi səmərəliliyinin yüksəldilməsi problemləri» mövzusunda doktorluq dissertasiyası yerinə yetirib. Onun ümumilikdə 74 çap vərəqi həcmində (onun 22 çap vərəqi həmmüəlliflərdir) 90-dan çox elmi əsəri nəşr olunmuşdur. Doktorluq dissertasiyası üzrə ümumi həcmi 48 çap vərəqi olan 62 elmi əsər, (10 elmi məqalə xaricdə olmaqla), 2 monoqrafiya («Torpaq-mülkiyyət münasibətlərinin tənzimlənməsinin əsasları» Bakı, Nurlar, 2005, 177 s. və «Torpaq istehsal vasitəsi kimi: əsas müddəalar, nəticələr, tövsiyələr və təkliflər» Bakı, Şərq-Qərb, 2011, 84s.) və 2 bülleten dərc olunmuşdur. Qalanı 1978-1996-cı illər ərzində «Azərbaycan Elmlər Akademiyasının xəbərləri», «Kənd təsərrüfatı xəbərləri» və «Subtropik

bitkilər - Anasuelli-Maxaradze» jurnallarında: torpaq ehtiyatları və onların səmərəli istifadəsi, torpaq xüsusiyyətlərinin kənd təsərrüfatı istehsalına təsiri, torpaqların aqroekoloji xüsusiyyətləri və keyfiyyətcə qiymətləndirilməsi, müxtəlif bitkilər altında torpaqların qiymətləndirilməsinin metodik əsasları məsələlərini əhatə edən 26 çap vərəqi həcmində 40-a qədər elmi əsər digər nəşrlərdə çap olunmuşdur. Onlardan 1-i biblioqrafik monoqrafiya, 2-si metodik göstəriş, 1-i braşuradır.

Akif Vəliyev Azərbaycan Respublikası Milli Məclisinin «Aqrar Siyasət Komissiyasının» işçi qrupunun üzvüdür.



## Əliyev Həsən Musa oğlu



Əliyev Həsən Musa oğlu 16 mart 1924-cü ildə Qax rayonunun İlisu kəndində anadan olmuşdur.

1937-ci ildə İlisu kənd orta məktəbinin 7-ci sinfini bitirdikdən sonra, Zaqatala Pedaqoji Texnikumuna daxil olmuş və 1939-cu ildə texnikumu bitirərək ibtidai məktəb müəllimi ixtisasına yiyələnmişdir.

1940-1941-ci illərdə İlisu kənd orta məktəbində müəllim işləmiş, 1942-1944-cü illərdə İkinci Dünya müharibəsinin iştirakçısı olmuşdur.

Ordudan tərxis olunduqdan sonra, 1944-1945-ci illərdə Qax rayonunun Qoradan kəndində yeddi illik məktəbdə müəllim, 1946-cı ildə Az.LKGİ Komsomol Komitəsinin ikinci katibi vəzifəsinə irəli çəkilmişdir.

1947-1962-ci illərdə H.Əliyev Bakı şəhərində iki illik Partiya məktəbinin müdavimi, Qax rayon Komsomol Komitəsinin İkinci və Birinci katibi, Gəncə vilayət Komsomol Komitəsinin III katibi, Az. LKGİMK-də şöbə müdiri, Zaqatala rayon PK-nin İkinci Katibi və Qax rayonunun İlisu kəndində kolxoz sədri vəzifəsində işləmişdir.

1963-1965-ci illərdə Moskva şəhərində ETKTİ İnstitutunun əyani aspirantı olmuş və namizədlik dissertasiyası müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır.

H.Əliyev 1966-1970-ci illərdə Azərbaycan Respublikası Xalq Nəzarəti Komitəsində şöbə müdiri, 1971-1976-cı illərdə Ağdam rayon PK-nin Birinci Katibi, 1977-1981-ci illərdə Az.ETKTİ və Tİ-da baş elmi işçi, 1982-1987-ci illərdə Qax rayonunun İlisu kəndində kolxoz sədri vəzifəsində çalışmışdır. 1988-ci ildən hal-hazıradək Az.ETKTİ və Tİ-da aparıcı elmi işçi vəzifəsində fəaliyyət göstərir.

Elmi yaradıcılıq fəaliyyətinə Moskvada aspirant olarkən başlamışdır. Kənd təsərrüfatının iqtisadiyyatı, idarə olunması və təşkili ilə bağlı silsilə məqalələrin müəllifidir. Az.ETKTİ və Tİ-da işlədiyi müddətdə 50-dən artıq dissertasiya işinə rəy vermşdir.

H.Əliyevin xidmətləri dövlət tərəfindən layiqincə qiymətləndirilmişdir. O, iki dəfə Qırmızı Əmək Bayrağı ordeni, SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri sərgisinin gümüş medalı, iki dəfə Azərbaycan Respublikası Ali Sovetinin Fəxri Fərmanı və dəfələrlə sosializm yarışının qalibi nişanları ilə, İkinci Dünya müharibəsinin iştirakçısı kimi Qafqazın müdafiəsi, Almaniya üzərində qələbə, qələbənin yubleyi illərinin medalları ilə təltif olunmuş, 1971-1976-cı illərdə Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur.



## Tağıyev Tağı Məsim oğlu



Tağıyev Tağı Məsim oğlu 1930-cu ildə Azərbaycan Respublikasının Gədəbəy rayonunun Arısu kəndində anadan olmuşdur.

1952-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna daxil olmuş, 1957-ci ildə "Zootexnik" fakültəsini bitirdikdən sonra Gədəbəy rayonunda "Qələbə" və "Xanlar" kolxozlarında zootexnik vəzifəsində çalışmışdır.

T.Tağıyev yüksək peşəkarlığı ilə fərqləndiyinə görə, 1958-ci ildə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Mərkəzi Aparatına işə dəvət olunmuş və bir neçə il burada işləmişdir.

1962-ci ildən Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda elmi işçi vəzifəsində fəaliyyətə başlamış, 1964-cü ildə əyani aspiranturaya daxil olmuş və 1969-cu ildə "Azərbaycan SSR dağ kolxozlarında kənd təsərrüfatı istehsalatının səmərəli yerləşdirilməsi və perspektiv inkişafının elmi əsaslandırılması" mövzusunda namizədlik dissertasiyasım müvəffəqiyyətlə müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsini, 1978-ci ildə SSRİ Nazirlər Sovetinin Ali Attestasiya Komissiyasının qərarına əsasən ona baş elmi işçi adı verilmişdir.

O, respublikada və onun dağlıq bölgələrində yerləsən zərərlə işləyən və aşağı rentabelli təsərrüfatların iqtisadi

səmərəliliyinin yüksəldilməsi sahəsində dəyərli təklif və tövsiyələr hazırlamış, aidiyyəti təşkilatlara və müvafiq təsərrüfatlara təqdim etmişdir.

Tağıyev T. 1959-cu ildən Azərbaycan Respublikası "Bilik" cəmiyyətinin üzvü olmaqla, respublikanın bir çox təsərrüfatlarında bitkiçilik və heyvandarlıq məhsulları istehsalının artırılması və maya dəyərinin aşağı salınmasına dair çoxlu sayda elmi mühazirələr oxumuş, təsərrüfatlara yaxından elmi və praktiki köməklik göstərmişdir.

1969-cu ildən 2000-ci ilədək, Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda baş elmi işçi və aparıcı elmi işçi vəzifəsində işləmişdir. 2000-2006-cı illərdə şöbə müdiri vəzifəsində işləmişdir.

İşlədiyi dövrdə aqrar sahədə kənd təsərrüfatı müəssisələrinin iqtisadiyyatı və təşkilinə dair 60 elmi tədqiqat işlərinin, 70-dən çox elmi məqalənin, 4 kitabça şəklində çıxan tövsiyənin; 50-dən çox tövsiyə və təkliflərin müəllifi olmaqla, 40-dan çox aspirant və dissertantların dissertasiya işlərinə rəy və lazımi elmi məsləhətlər vermişdir.

Kənd Təsərrüfatı Nazirliyinin tapşırığına əsasən Ağdam, Yevlax, Şəki, Gədəbəy və Şəmkir rayonlarında bir neçə təsərrüfatın təşkilat-təsərrüfat quruculuğu planını işləyib hazırlamış və təsərrüfatlara təqdim etmişdir. Gədəbəy rayonunda kartofçuluq üzrə 4 iri toxumçuluq təsərrüfatının təşkil edilməsində fəal iştirak etmişdir.

Azərbaycan Respublikasının ən ucqar dağ rayonu olan Lerik və Yardımlı rayonlarının zərərlə işləyən aşağı rentabelli təsərrüfatlarında istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi üzrə hazırladığı təkliflər və tövsiyələr



Azərbaycan SSRİ Dövlət Aqrar Sənaye Komitəsinin Elmi-Texniki Şurasının, Sosial İqtisadi İnkişaf və İdarəetmənin təkmilləşdirilməsi seksiyası tərəfindən müzakirə edilərək bəyənilmiş və tətbiq olunmaq üçün təsərrüfatlara təqdim edilmişdir.

T.Tağıyev Kənd Təsərrüfatı Nazirliyinin tapşırığı əsasında Şəki-Zaqatala regionunun təsərrüfatlarında bitkiçilik və heyvandarlıq məhsulları istehsalının mövcud vəziyyətini araşdırmış, aşağı rentabelli və zərərlə işləyən təsərrüfatların iqtisadiyyatının qaldırılmasına dair hazırladığı tövsiyə nazirlik tərəfindən yüksək qiymətləndirilərək respublikanın bütün zərərlə işləyən təsərrüfatlarında tətbiq olunması məqsədəmüvafiq hesab edilərək yerlərə göndərilmişdir.

Gədəbəy rayonunun Şınıx zonasında Ermənistanın torpaq iddiası ilə əlaqədar olaraq oranın sosial-iqtisadi inkişafını möhkəmləndirmək üçün Kənd Təsərrüfatı Nazirliyinin komissiyasına daxil edilərək, həmin zonaya ezam olunmuş, oranın sosial-iqtisadi vəziyyətini daha da möhkəmləndirilməsi üçün tələb olunan əsaslı təkliflər hazırlayıb rəhbərliyə təqdim etmişdir.

T.M.Tağıyev 50 ildir ki, Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda fasiləsiz olaraq tədqiqatlar aparır.

Tağı Tağıyevin aşağıdakı məqalələri xüsusi əhəmiyyətə malikdir. "Respublikada taxılçılığın inkişafı"; "Aqrar bölmədə sahibkarlıq fəaliyyətinin inkişafının əsas istiqamətləri"; "Bazar iqtisadiyyatı şəraitində müxtəlif növ təsərrüfatçılıq formalarının inkişafı"; "Çoxukladlı təsərrüfatçılıq

şəraitində aqroservis xidmətinin inkişaf məsələləri"; Gədəbəy rayonunda sahibkarlıq fəaliyyətinin müasir vəziyyəti və inkişaf perspektivləri"; "Bazar iqtisadiyyatı şəraitində müxtəlif təsərrüfatçılıq formalarında məhsul istehsalının artırılması və iqtisadi səmərəliliyinin yüksəldilməsi problemləri"; "Bazar iqtisadiyyatı şəraitində kənd təsərrüfatı istehsalı infrastrukturunun formalaşmasında başlıca problemlər"; "Kartofçuluq təsərrüfatlarının iqtisadi səmərəliliyinin yüksəldilməsi"; "Dağ təsərrüfatlarında maldarlıq məhsulları istehsalının artırılması"; "Bitkiçilik və heyvandarlıqda məhsul istehsalının artırılmasında və iqtisadi səmərəliliyinin yüksəldilməsində sahə quruluşunun rolu"; "Azərbaycanda heyvandarlıq sahələrinin inkişaf səviyyəsi və məhsul istehsalının artırılması ehtiyatları"; "Heyvandarlığın yemə olan tələbatı və yem istehsalının möhkəmləndirilməsi ehtiyatları"; "Dağ təsərrüfatlarında qoyunçuluğun inkişaf ehtiyatları" və s.

Tağıyev Tağı Məsim oğlu rəhbərlik tərəfindən aşağıdakı təltifərə layiq görülmüşdür:

1. 1974-cü ildə Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının və Həmkarlar Komitəsinin birgə Qərarı ilə "Sosializm Yarışının Qalibi" nişanı.

2. 1985-ci ildə Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının və Həmkarlar Komitəsinin birgə Qərarı ilə "XI Beşilliyin Qalibi" nişanı və pul mükafatı.

3. 1986cı ildə uzun müddət qüsursuz və fasiləsiz işlədiyinə görə "Əmək Veteranı" medalı.



4. 1990-cı ildə Azərbaycan aqrar-iqtisadi elminin inkişafında uzun illər səmərəli fəaliyyətinə görə Az.ETKTİ və Tİ-nun "Fəxri Fərmanı".

5. 1996-cı ildə Kənd Təsərrüfatı Nazirliyinin əmri ilə Azərbaycan Respublikasının "Əmək Veteranı".

6. 2001-ci ildə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi, Aqrar Elm Mərkəzi və Həmkarlar Komitəsinin respublikamızın dağ rayonlarının iqtisadiyyatının yüksəldilməsi və elmi fəaliyyətinə görə təbriki.

7. 2006-cı ildə aqrar elmin inkişafındakı xidmətlərinə və elmi-istehsalat fəaliyyətinə görə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin "Fəxri Fərmanı" və pul mükafatı.

8. 6 yanvar 2011-ci ildə çoxillik səmərəli əmək fəaliyyəti və 80 illik yubileyi münasibəti ilə Azərbaycan Elm-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun və Həmkarlar İttifaqı Komitəsinin "Fəxri Fərmanı".

9. 01 noyabr 2011-ci ildə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı və Qida Sənayesi işçiləri Həmkarlar İttifaqı Federasiyasının Fəxri Fərmanı və pul mükafatı.

T.M.Tağıyev öz elmi fəaliyyətini bu gün də böyük həvəslə davam etdirir.

Hazırda "İstehsalın iqtisadi səmərəliliyinin artırılması və sahibkarlığın inkişaf problemləri" şöbəsində aparıcı elmi işçi vəzifəsində işləyir.

## Süleymanov İsmayıl Kazım oğlu



Süleymanov İsmayıl Kazım oğlu 29 may 1938-ci ildə Azərbaycan Respublikasının Tovuz rayonunun Çataq kəndində anadan olmuşdur. 1945-ci ildə həmin kənddə ibtidai məktəbin 1-ci sinfinə daxil olmuş və 1954-55-ci tədris ilində Böyükqışlaq kənd orta məktəbinin 10-cu sinfini bitirərək orta təhsil almışdır.

1955-ci ildə Bakı şəhərində 2 №li Tibb texnikumuna daxil olmuş, 1957-ci ildə həmin texnikumu bitirərək "feldşer" ixtisasına yiyələnmişdir.

1957-ci ildə Bakı şəhərində K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olmuşdur. 1958-ci ildə institutun bağlanması ilə əlaqədar olaraq təhsil aldığı "Kənd təsərrüfatının iqtisadiyyatı və təşkili" fakültəsi Kirovabad şəhərində yerləşən Kənd Təsərrüfatı İnstitutuna verilmişdir. 1962-ci ildə həmin institutu bitirərək kənd təsərrüfatı üzrə iqtisadçı ixtisasına yiyələnmişdir.

Əmək fəaliyyətinə 1962-ci ildə Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda kiçik elmi işçi kimi başlamışdır.

1965-ci ildə həmin institutda aspiranturaya daxil olmuş və həmin ildə Moskva şəhərində fəaliyyət göstərən Ümumittifaq Kənd Təsərrüfatının İqtisadiyyatı İnstitutunda öz təhsilini davam etdirmişdir. 1969-cu ildə "kənd təsərrüfatı istehsalının ixtisaslaşması və yerləşdirilməsi" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək



iqtisad elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

1969-cu ildə Az. ETKTİ və Tİ-da baş elmi işçi vəzifəsində çalışmışdır.

1971-ci ilin yanvar ayından etibarən Azərbaycan Dövlət Plan Komitəsinin Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda bölmə müdiri, 1985-ci ildən şöbə müdiri vəzifəsində çalışmışdır.

1994-cü ildə həmin institutun ləğv edilməsi ilə əlaqədar olaraq işdən azad edilmiş, həmin ilin may ayından 1996-cı ilədək "Kometa" Dövlət Zavodunun nəzdində "Kometa" kiçik müəssisəsində direktor vəzifəsində işləmişdir.

1999-cu ildən Az. ETKTİ və Tİ-da baş elmi işçi vəzifəsində çalışmışdır. 2003-cü ildən "Sahibkarlığın inkişafının iqtisadi problemləri" şöbəsinə müdir vəzifəsinə təyin edilmişdir.

İsmayıl müəllim öz elmi fəaliyyətini bu gün də davam etdirir. Onun aqrar sahənin inkişafına və digər sahələrə həsr edilmiş 170-dən çox elmi əsərləri respublika daxilində və xarici ölkələrdə dərc edilmişdir.

Hazırda "Aqrar sahədə kooperasiya və inteqrasiya əlaqələrinin inkişafı" şöbəsinin müdiridir.

## Abbasov Vahid Hacıbəy oğlu



Vahid Hacıbəy oğlu Abbasov 1956-cı ildə dekabrın 7-də Qərbi Azərbaycanın Amasiya rayonunun Düzkənd kəndində müəllim ailəsində anadan olmuş, 1973-cü ildə Amasiya rayonu orta məktəbini bitirmişdir. 1974-cü ildə Azərbaycan Dövlət Universitetinə daxil olmuş, hərbi xidmətdə və istehsalatda çalışmaqla 1982-ci ildə Azərbaycan Dövlət Universitetini (indiki Bakı Dövlət Universiteti) bitirərək, həmin ildən Azərbaycan Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun "Planlaşmada və idarəetmədə riyazi üsulların tətbiqi" şöbəsində baş laborant vəzifəsində elmi fəaliyyətə başlamışdır.

1985-1986-cı illərdə Moskva Kənd Təsərrüfatı Akademiyasını bitirərək, "Kənd təsərrüfatı istehsalı proseslərində riyazi modelləşmə və hesablama texnikasının tətbiqi" ixtisası üzrə ikinci ali ixtisas təhsili almışdır. 1984-cü ildə institutun aspirantura şöbəsinə daxil olmuş, 1990-cı ildə Kiyev şəhərində, Ukrayna Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda "Məhsul yarımkomplekslərinin uzunmüddətli proqnozlaşmasının optimallaşdırılması" mövzusunda dissertasiya işini müdafiə edərək, 08.00.05 – "Xalq təsərrüfatı və onun sahələrinin (kənd təsərrüfatı) iqtisadiyyatı, planlaşdırılması və idarə edilməsinin təşkili" və 08.00.13 – "İqtisadi-riyazi üsullar" ixtisasları üzrə iqtisad



elmləri namizədi alimlik dərəcəsini, 1994-cü ildə baş elmi işçi, 2003-cü ildə isə dosent elmi adlarını almışdır.

1982-1992-ci illərdə kiçik elmi işçi, elmi işçi, baş və aparıcı elmi işçi vəzifələrində çalışmışdır. 1993-2000-ci illərdə "Aqrar sənaye kompleksində iqtisadi inteqrasiya və kooperasiya" şöbəsinin müdiri, 2000-2008-ci illərdə "Emal sənayesinin inkişaf problemləri" şöbəsinin müdiri vəzifələrində çalışmış, hal-hazırda həmin şöbədə 0,5 ştat vahidi üzrə baş elmi işçi vəzifəsində çalışır.

Elmi fəaliyyətini davam etdirməklə, 1993-cü ildən etibarən Bakı Dövlət Universitetinin "İqtisadi nəzəriyyə" kafedrasında pedaqoji fəaliyyətə başlamış, hal-hazırda " İqtisadiyyat və idarəetmə" kafedrasının dosentidir. Otuz illik elmi-pedaqoji fəaliyyəti dövründə ümumi həcmi 61 ç.v. olan, 110-a qədər elmi əsərin, o cümlədən 2 monoqrafiyanın, dərs vəsaitinin, tədris proqramlarının, məqalə və tezislərin müəllifidir. 20-yə qədər elmi məqalə və tezisləri yaxın xarici ölkələrdə keçirilən elmi-praktiki konfranslarda, forumlarda məruzə edilmiş və dərc etdirilmişdir.

Aqrar-sənaye kompleksi sistemində sahələrarası kooperasiya və inteqrasiya əlaqələrinin təkmilləşdirilməsinə və emal sənayesinin inkişaf problemlərinə dair elmi-tədqiqat işlərinin nəticələri aqrar islahatlara dair bəzi qanunların hazırlanmasında, aqrar sahənin iqtisadiyyatının tədrisində və bazar iqtisadiyyatı şəraitində aqrar sahənin inkişaf perspektivlərinə dair təkliflərin və tövsiyələrin hazırlanmasında istifadə olunmuşdur. Kənd təsərrüfatında yığımdan sonrakı texnologiyaların vəziyyəti və inkişaf perspektivlərinə dair elmi və praktiki nəticələr Birləşmiş Millətlər

Təşkilatının FAO və GRAF – Qlobal Ərzaq və Kənd Təsərrüfatı Tədqiqatlarının "İstehlakda və ərzaq təhlükəsizliyində yığımdan sonrakı texnologiyaların inkişaf tendensiyaları və rolu" mövzusunda keçirilən regional seminarında məruzə edilmiş, Qlobal Ərzaq Təhlükəsizliyi Proqramının hazırlanmasında istifadə olunmuşdur.

Elmi fəaliyyətlə yanaşı "İqtisadiyyat", "Aqrar sahənin iqtisadiyyatı", "İqtisadiyyatın dövlət tənzimlənməsi", "Beynəlxalq iqtisadiyyat" və s. fənlər üzrə mühazirə və seminar dərsləri aparır, bakalavr və magistratura təhsil pilləsində oxuyan tələbələrin buraxılış və diplom işlərinə rəhbərlik edir.1995-2002-ci illərdə iqtisad elmləri namizədi elmi dərəcəsi verən İxtisaslaşdırılmış Müdafiə Şurasının elmi katibi olmuş, hal-hazırda Dissertasiya Şuraları nəzdində fəaliyyət göstərən elmi seminarların üzvüdür. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş 11 dissertasiya işinə rəsmi opponentlik etmiş, onlarla dissertasiya işlərinə və avtoreferatlara rəylər vermişdir.

İqtisad elmləri doktoru elmi dərəcəsi almaq üçün , "Aqrar-sənaye kompleksi sistemində sahələrarası əlaqələrin tənzimlənməsinin iqtisadi problemləri" mövzusunda 08.00.05-Xalq təsərrüfatının (kənd təsərrüfatı) iqtisadiyyatı və idarə edilməsi ixtisası üzrə dissertasiya işini 2012- ci ildə AMEA-nın İqtisadiyyat İnstitutunda müdafiə etmişdir.





## Əlibəyov Nemət Vəlibəy oğlu

Nemət Vəlibəy oğlu Əlibəyov 12 noyabr 1942-ci ildə Quba şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1959-cu ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin İqtisadiyyat fakültəsinə daxil olmuş və 1964-cü ildə təhsilini başa vuraraq «İqtisadçı» ixtisasına yiyələnmişdir.

Əmək fəaliyyətinə 1964-cü ildə, Salyan rayon Maliyyə şöbəsində Dövlət gəlirləri üzrə müfəttiş vəzifəsi ilə başlamışdır. Elə həmin il həqiqi hərbi xidmətə çağırılmış və dekabr 1965-ci ildə ordudan tərxis olunmuşdur.

1966-cı ildən başlayaraq 1997-ci ilə kimi N.Əlibəyovun bütün fəaliyyəti bilavasitə kənd təsərrüfatı ilə bağlı olmuşdur. 1966-1975-ci illərdə Quba rayonu «Partiyanın XXII qurultayı» adına meyvəçilik sovxozunda böyük iqtisadçı, Quba sovxoz-texnikumda baş iqtisadçı, Quba rayon kənd təsərrüfatı idarəsində iqtisadçı, SSRİ-nin 50 illiyi adına meyvəçilik sovxozunda baş iqtisadçı vəzifələrində işləmişdir.

Kənd təsərrüfatınm iqtisadiyyatına dair nəzəri məsələlərin təcrübədə tətbiqi qısa bir zaman kəsiyində N.Əlibəyovun yüksək ixtisaslı bir mütəxəssis kimi formalaşmasına səbəb olmuşdur.

İstehsalın təşkili, planlaşdırılması və idarə olunması məsələlərinin operativ həlli N.Əlibəyovun 1975-ci ilin oktyabrında köçürmə yolu ilə Quba rayonunda yeni

yaradılmış Aqrar Sənaye Birliyinin Kadrlar əmək və əmək haqqı şöbəsinin müdiri, 1978-ci ilin fevral ayında «Azmeyvətərəvəzsənaye» respublika Birliyinin Əməyin təşkili normalaşdırılması və əməyin elmi təşkili şöbəsinin rəisi vəzifəsinə, 1981-ci ildə isə Meyvətərəvəz Təsərrüfatı Nazirliyində Əməyin təşkili, əmək haqqı və sosial məsələlər idarəsinin rəisi vəzifəsinə, 1982-ci ilin dekabr ayında köçürmə yolu ilə müvəqqəti olaraq Quba sovxoz-texnikumun direktoru vəzifəsinə irəli çəkilməsini şərtləndirmişdir. N.Əlibəyov 1985-1996-cı illərdə «Azərcinstərəvəztoxum» Respublika birliyində iqtisadçı, təftişçi mühasib, baş iqtisadçı, köçürmə yolu ilə Dövlət Aqrar Komitəsində Təsərrüfat hesabının çəklə nəzarət formalarının və podrat formalarının tətbiqi üzrə yarımşöbənin müdiri, baş iqtisadçı, baş idarənin «İcmal planlaşdırma və iqtisadi təhlil» şöbəsinin müdiri, baş plan iqtisad idarəsinin rəis müavini, köçürmə yolu ilə Quba rayonu kənd təsərrüfatı idarəsinin rəisi-Quba rayon İcra Hakimiyyəti başçısının müavini vəzifələrində, 1994-1996-cı illərdə Dövlət tərəvəz Toxumçuluğu Assosiasiyasında baş mühasib vəzifəsində çalışmışdır.

N. Əlibəyov sırf elmi yaradıcılıq fəaliyyətinə 1997-ci ildə, AzETKTİ və Tİ-nun «ASK-də səmərəlilik və qiymət» şöbəsində baş elmi işçi vəzifəsində başlamışdır. 1998-2002-ci illərdə «Maliyyə-kredit münasibətləri və investisiya» şöbəsinin müdiri, 2003-2010-cu illərdə «Analitik təhlil», «Regionların inkişaf problemləri» şöbələrinə rəhbərlik etmişdir.



N.Əlibəyov tutduğu vəzifədən asılı olmayaraq operativliyi və keyfiyyətli işi ilə fərqlənmişdir. Şöbə müdiri kimi onun rəhbərliyi altında yerinə yetirilmiş elmi tədqiqat işləri həmişə rəhbərlik tərəfindən yüksək qiymətləndirilmişdir.

Elmi tədqiqat işlərinə maraq hələ Quba rayonu sovxozlarında işlədiyi dövrdə formalaşmışdır. O, sovxoz iqtisadiyyatının yüksəldilməsi istiqamətində vaxtaşırı yerli qəzet səhifələrində müxtəlif səpkili məqalələrlə çıxış etmişdir.

Respublikanın təsərrüfatlarında ailə podratı, xərclərə nəzarətin çek formasının tətbiqi, kəndli (fermer) təsərrüfatları və kənd təsərrüfatı istehsalı kooperativlərinin yaradılması sahəsində xidmətləri olmuşdur. Ailə podratı və xərclərə nəzarətin çek formasının tətbiqi ilə əlaqədar Balakən rayonu təsərrüfatlarının respublika müşavirəsinə hazırlanmasını təmin etmiş və bu müşavirədə podratın və çeklə nəzarətin tətbiqi məsələləri barədə müşavirə iştirakçıları qarşısında geniş məruzə ilə çıxış etmişdir.

Respublikada fərdi əmək fəaliyyəti ilə məşğul olan kəndli (fermer) təsərrüfatılarının yaradılması haqqında əsasnamənin və kəndli (fermer) təsərrüfatları haqqında Azərbaycan Respublikası qanununun ilk variantının müəllifidir.

N.Əlibəyovun əsas tədqiqatları bazar təsərrüfatçılıq sistemində fəaliyyət göstərən istehsal subyektləri onların səmərəli fəaliyyətini ləngidən amillərin müəyyənləşdirilməsi və iqtisadi mexanizminin təkmilləşdirilməsi məsələlərinə həsr olunmuşdur.

Apardığı tədqiqatlar əsasında 2004-cü ildə Az.ETKTİ və Tİ-da yaradılmış Birdəfəlik müdafiə Şurasmda «Azərbaycan Respublikasında kəndli (fermer) təsərrüfatlarının formalaşdırılması və inkişaf etdirilməsinin iqtisadi mexanizminin təkmilləşdirilməsi» mövzusunda dissertasiya müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır.

2006-2010-cu illərdə Az.ETKTİ və Tİ-də fəaliyyət göstərmiş müdafiə surasının üzvü olmuşdur. N.Əlibəyov şərikli yerinə yetirilmiş 8,6 çap vərəqi həcmində 5 tövsiyənin, 4,6 çap vərəqi həcmində 1 kitabçanın, fermerlər üçün 8,4 çap vərəqi həcmində tədris proqramı və tədris materiallarının, 2,65 çap vərəqi həcmində 4 elmi məqalənin həmmüəllifi, 6,55 çap vərəqi həcmində 16 məqalə və tezisin müəllifidir.

Hazırda Az.ETKTİ və Tİ-nun «Nəşriyyat və yayım» şöbəsinə rəhbərlik edir.





## Mehdiyev Mehdi Qurban oğlu

Mehdiyev Mehdi Qurban oğlu 1941-ci ildə Naxçıvan MR-nın Şərur rayonunun Püsyan kəndində anadan olmuş, 1959-cu ildə kənd orta məktəbini bitirmiş, 1961-1964-cü illərdə hərbi xidmətdə olmuşdur. 1965-ci ildə S.Ağamalı oğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsinə daxil olub, 1970-ci ildə institutu fərqlənmə diplomu ilə bitirmişdir. Həmin ildə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "Meşə qoruyucu zolaqların salınması layihəsi" idarəsində mühəndis-aqromeliorator vəzifəsində çalışmışdır. 1971-1973-cü illərdə Azərbaycan Elmi-Tədqiqat Əkinçilik İnstitutunun bitki fiziologiyası laboratoriyasında aspirant, sonra isə kiçik elmi işçi vəzifəsində işləməklə yanaşı "İnstitut İlk Partiya Təşkilatı"nın katibi olmuşdur. O, elmi yaradıcılığını davam etdirərək 1977-ci ildə SSRİ-nin Moskva və Leninqradın aparıcı elmi-tədqiqat institutlarının görkəmli alimləri ilə elmi əməkdaşlıq yaratmış, Azərbaycanda ilk dəfə olaraq elektrofarez, xromatoqrafiya və digər metodlarla «Müxtəlif fatosintez məhsuldarlığına malik olan payızlıq buğdaların azot mübadiləsinin xüsusiyyətləri və dənin keyfiyyəti» mövzusu üzrə dissertasiya müdafiə etmiş, biologiya elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür. İnstitut ilk partiya təşkilatında onun təşkilatçılığı və bacarığı nəzərə alınaraq 1979-cu ildə Abşeron rayon partiya komitəsində

təlimatçı vəzifəsinə təyin edilmişdir. Çox keçmədən 1980-ci ildə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyində "Baş əkinçilik"idarəsinin rəis müavini, sonradan rəisi vəzifəsinə təyin edilmiş, kollegiyanın üzvü olmuşdur. O, 1980-1985-ci illərdə respublikada kənd təsərrüfatının inkişaf etdirilməsi, xüsusilə əkinçilik mədəniyyətinin yüksəldilməsi, taxıl, qarğıdalı, soya və digər bitkilərin yeni intensiv texnologiyalar əsasında becərilməsinin ardıcıl təşəbbüskarı olmaqla, regionlarda tətbiq edilməsinə nail olmuş və bu işə görə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin bürünc medalına layiq görülmüşdür.

M.Mehdiyev 1985-ci ildə Babək rayon XDS İcraiyyə Komitəsinin sədri vəzifəsinə seçilmiş, Babək rayon PK-nin büro üzvü olmuşdur. 1985-1990-ci illərdə Naxçıvan MSSR Ali Sovetinin deputatı, Ali Sovetin sədr müavini seçilmiş, Azərbaycan KP XXXI qurultayının nümayəndəsi olmuş, Naxçıvan Vilayət PK-nin büro üzvlüyünə namizəd seçilmişdir. 1990-cı ildə Bakı Ali Partiya Məktəbini bitirmişdir.

O, 1989-1992-ci illər ərzində Kənd Təsərrüfatı Nazirliyinin "Elit" və "Otlaq" Elm-İstehsalat Birliyində baş aqronom, "Azərkəndkimya" Birliyində aparıcı mütəxəssis vəzifəsində çalışmışdır.

1992-1993-cü illərdə Abşeron Rayon İcra Hakimiyyətində şöbə müdiri və İcra Başçısının müavini vəzifəsində işləmişdir.1993-1997-ci illərdə "Azərquşsənaye" Dövlət Şirkətində aparıcı aqronom vəzifəsində çalışmışdır. 1997-ci ildən 2000-ci ilə qədər "Avesta Konserni" də vitse-prezident vəzifəsində fəaliyyət göstərmişdir.



2000-ci ildən başlayaraq 2008-ci ilə qədər Özəl Bölmənin inkişafına yardım Agentliyində, sonradan Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyində Baş Təlimatçı vəzifəsində işləmiş, Dünya Bankının "Kənd Təsərrüfatının İnkişafı və Kreditləşdirilməsi" layihəsində və "Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondun" (İFAD) "Yüksək dağlıq ərazilərin inkişaf etdirilməsi" layihəsində mütəxəssis kimi fəaliyyət göstərmişdir.

O, 2008-ci ildən Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda əvvəlcə aparıcı elmi işçi, sonradan "Ümumi" şöbə müdiri təyin edilmiş, 2011-ci ildən "Təsərrüfatlarda İlkin Uçotun Təşkili"şöbəsinin müdiri vəzifəsinə təyin olunmuşdur. Hazırda Avropa Komissiyası (EC) BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) proqramı çərçivəsində "Azərbaycanda fermer təsərrüfatları məlumat monitorinq sistemi" (FTMMS) proqramı beynəlxalq layihənin həyata keçirilməsində yaxından iştirak edir.

M.Mehdiyev dünya Bankının "Kənd Təsərrüfatının İnkişafı və Kreditləşdirilməsi" layihəsi çərçivəsində respublikada informasiya və məsləhət xidmətinin təşkili və tətbiqində, eyni zamanda 200 nəfərdən çox Özəl Məsləhətçilərin hazırlanmasında çox böyük rolu olmuşdur. Kənd Təsərrüfatının müxtəlif istiqamətləri üzrə təlim kurslarının keçirilməsi üçün bir çox metodiki təlim kursu materiallarının və tövsiyələrin, on beşdən çox elmi əsərin müəllifidir.

## Xeyirxəbərov İsmayıl Mahmud oğlu



1965-ci il mart ayınm 20-də Gürcüstan Respublikasının Saqareco rayonunun Yor-Muğanlı kəndində anadan olmuşdur. O, orta təhsilini anadan olduğu rayonun Ləmbəli kənd məktəbində almışdır. 1983-cü ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun «Ümumi İqtisad» fakültəsinə eksperiment yolu ilə daxil olmuş və institutun 1-ci kursunu bitirdikdən sonra hərbi xidmətə çağırılmışdır. O, Əfqanıstan Respublikasında hərbi xidmətdə olmuş, müharibə veteranıdır. Hərbi xidmətdən sonra təhsilini davam etdirmiş və 1990-cı ildə Sankt-Peterburq Maliyyə-iqtisad İnstitutunun Bakı filialım fərqlənmə diplomu və V.İ.Lenin adına təqaüdlə bitirmişdir.

Xeyirxəbərov İsmayıl Mahmud oğlu 1990-cı ildə Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun aspiranturasının əyani şöbəsinə daxil olmuş və 1995-ci ildə dissertasiya işini müdafiə edərək, iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır. O, aspiranturanı bitirdikdən sonra fasiləsiz olaraq elmi-tədqiqat işləri ilə məşğul olmuş və Az.ETKTİ və Tİ-də elmi işçi, baş elmi işçi və şöbə müdiri vəzifələrində işləmişdir. İ.Xeyirxəbərov iqtisadi qloballaşma şəraitində kənd təsərrüfatı xammalı və ərzaq məhsulları bazarının təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsinə, aqrar sahədə fəaliyyət göstərən müəssisə və təsərrüfatlarda marketinqin tətbiqi məsələlərinə, müəssisə və təsərrüfatlarda marketinq idarəetmə sisteminin formalaşdırılmasına, aqrar sahədə marketinq informasiya sisteminin təşkilinə, kənd təsərrüfatı xammalı və ərzaq bazarının marketinq tədqiqi və onun inkişaf strategiyasının işlənib hazırlanmasına və s. dair çoxsaylı elmi məqalələrin müəllifidir. O, elmi-tədqiqat fəaliyyəti ilə yanaşı, həm də tədrislə məşğul olur və «Marketinq tədqiqatları», «Marketinqin idarə olunması», «Marketinqin əsasları» fənlərini tədris edir və həmin fənlər üzrə çoxsaylı proqramların və metodiki vəsaitin müəllifidir.

Evlidir, iki övladı var.

## Qasımova Elmira İsmayıl qızı



Qasımova Elmira İsmayıl qızı 1950-ci ildə Azərbaycan Respublikasının Quba şəhərində anadan olmuşdur. 1967-ci ildə orta məktəbi bitirdikdən sonra Az.ETKTİ və Tİ-da əmək fəaliyyətinə başlamışdır. 1976-cı ildə Azərbaycan Neft və Kimya İnstitutunun mühəndis-iqtisad fakültəsinə daxil olmuş, 1983-cü ildə institutu bitirmiş, neft və qaz sənayesinin iqtisadiyyatı və təşkili üzrə iqtisadçı-mühəndis ixtisasına yiyələnmişdir. 1983-cü ildən 1991-ci ilədək sənaye müəssisələrində iqtisadçı və baş iqtisadçı vəzifələrində çalışmışdır.

1991-ci ildən Az.ETKTİ və Tİ-da «Kəndin sosial inkişaf problemləri» şöbəsində kiçik elmi işçi vəzifəsində çalışmağa başlamışdır. 1993-cü ildən işlədiyi şöbənin dissertantı olmuş və 2001-ci ildə «Yeni iqtisadi şəraitdə kənd əhalisinin maddi-rifah halının yüksəldilməsi problemləri» mövzusunda dissertasiya müdafiə etmiş, iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır. İşlədiyi şöbədə şöbə müdiri vəzifəsinədək yüksəlmişdir. Elmi fəaliyyəti müddətində 38 elmi əsəri dərc edilmişdir. 2006-2009-cu illərdə institutun nəzdində fəaliyyət göstərən namizədlik dissertasiyaları üzrə Müdafiə Şurasının üzvü olmuşdur.

Uzun illər elmi fəaliyyəti və praktiki iş təcrübəsi, ona verilən tapşırıqları vaxtında yerinə yetirməyə imkan vermiş, institutun ictimai həyatında yaxından iştirak etmişdir. Elmi-tədqiqat işində yüksək səviyyəli, bacarıqlı mütəxəssis kimi



özünü göstərmişdir. Onun tərəfindən aqrar sahədə islahatların həyata keçirilməsinə imkan verən və kəndin sosial-iqtisadi inkişafında əhəmiyyət kəsb edən bir sıra təkliflər və tövsiyələr hazırlanmışdır.

## Əliyev Sahib Bayram oğlu



Əliyev Sahib Bayram oğlu 29 yanvar 1971–ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Axura kəndində anadan olmuşdur.

1988-ci ildə Naxçıvan şəhər 8 saylı internat məktəbini bitirərək, həmin il Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının (hal-hazırda Azərbaycan Aqrar Universiteti) iqtisadiyyat fakültəsinə daxil olmuş, 1993-cü ildə akademiyanı fərqlənmə diplomu ilə bitirmişdir. Təyinatla Az. ETKTİ və Tİ-na göndərilmiş və 1993-cü ilin sentyabrın 1-dən həmin institutda kiçik elmi işçi kimi əmək fəaliyyətinə başlamış, sonralar elmi işçi, aparıcı elmi işçi, şöbə müdiri vəzifələrində çalışmışdır.

1993-cü ildə Az. ETKTİ və Tİ-nun aspiranturasına qəbul olmuşam. "Aqrar sahədə sahələrarası əlqələrin inkişaf problemləri" mövzusu uzərində tədqiqat aparmiş, 2005 –ci ildə həmin mövzu uzrə namizədlik dissertasiyasi müdafiə edərək 08.00.05 –"Xalq təsərrüfatı və onun sahələrinin (kənd təsərrüfatı) iqtisadiyyatı, planlaşdırılması və idarə edilməsinin təşkili" ixtisası üzrə iqtisad elmləri namizədi alimlik dərəcəsini almışam.

Hal-hazırda "Aqrar sahədə kooperasiya və inteqrasiya münasibətlərinin inkişafı" şöbəsində aparıcı elmi işçi vəzifəsində işləyir.



İnstitutda işlədiyi müddətdə aqrar sahənin müxtəlif problemlərinin həlli ilə əlaqədar 30-dan artıq elmi məqalə dərc etdirmişdir.

2009-cu ildən "Aqrar sahədə kooperasiya münasibətlərinin inkişaf problemləri" mövzusunda doktorluq dissertasiyası üzərində işləyir.

## QuliyevEldar Əli oğlu



Quliyev Eldar Əli oğlu 02 avqust 1970-ci ildə Tovuz şəhərində ziyalı ailəsində anadan olub. 1987-ci ildə Tovuz rayonu Yusif Sadıqov adına Bozalqanlı kənd orta məktəbini bitirmişdir. Məktəbdə oxuduğu illərdə (1985-1987) SSRİ-də ilk yaradılmış eksperimental şagird sovxozunun direktoru seçilmiş, Tovuz rayon Komsomol Komitəsinin büro üzvü, Azərbaycan Komsomolunun XXXII və Ümumittifaq Komsomolunun XX qurultayının nümayəndəsi olmuşdur. Həqiqi hərbi xidmətdən (1988-1990) sonra Tovuz rayon Konserv zavodunda fəhlə (1991), Tovuz rayon Bozalqanlı üzümçülük-heyvandarlıq sovxozunda (1992) üzümçülük briqadiri işləmişdir. 1992-ci ildə AKTA-nın «İqtisadiyyat» fakültəsinə qəbul olmuş və 1997-ci ildə akademiyanı bitirərək təşkilatçı-iqtisadçı ixtisasını almış və təyinatla Az.ETKTİ və Tİ –na göndərilmişdir.

Az.ETKTİ və Tİ-da 01.07.1997-ci ildən əmək fəaliyyətinə başlamış kiçik, böyük, aparıcı elmi işçi və şöbə müdiri vəzifələrində işləmişdir. Hal-hazırda «İstehsalın iqtisadi səmərəliliyinin artırılması və sahibkarlığın inkişafı problemləri» şöbəsinin müdiri vəzifəsində çalışır.

İşlədiyi müddət ərzində «Kənd təsərrüfatı məhsulları istehsalının stimullaşdırılmasının təkmilləşdirilməsi istiqamətləri» mövzusunda yerinə yetirdiyi dissertasiya işini 2006-cı ildə müdafiə edərək iqtisad üzrə fəlsəfə doktoru



alimlik dərəcəsinə layiq görülmüdür. E. Quliyevin 5 çap vərəqi həcmində 20-dək elmi məqalələri müxtəlif nəşrlərdə və jurnallarda dərc olunmuşdur.

Ailəlidir, bir övladı var.

## Hacıyev Qalib Bəhram oğlu



Qalib Bəhram oğlu Hacıyev 1976-cı il may ayının 24-də Gürcüstan Respublikasının Marneuli rayonunun Qaçağan kəndində anadan olmuşdur. Orta təhsilini həmin kənddəki məktəbdə almışdır. 1994-1998-ci illərdə Azərbaycan Dövlət İqtisad İnstitutunun uçot-iqtisad fakültəsində mühasibat uçotu və audit ixtisası üzrə bakalavr və 1998-2000-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin həmin ixtisas üzrə magistr ali təhsil mərhələsində təhsil almışdır. 2000-ci ildən Az.ETKTİ və Tİ-da işləyir. 2000-2005-ci illərdə Az.ETKTİ və Tİ-da «İstehsalın və əməyin stimullaşdırılması» şöbəsində baş iqtisadçı, «Dağ rayonlarında istehsalın stimullaşdırılması» şöbəsində baş elmi işçi, «Aqrar sahənin dövlət tənzimlənməsi» şöbəsində böyük elmi işçi, aparıcı elmi işçi, 2006-cı ildən indiyədək «Dövlət tənzimlənməsi və marketinq xidmətinin təşkili» şöbəsinin müdiri vəzifəsində işləyir.

Q.B.Hacıyev elmi işlə yanaşı pedaqoji fəaliyyətlə də məşğuldur və Əmək və Sosial Münasibətlər Akademiyasında, Qərb Universitetində «Uçot və maliyyə hesabatının beynəlxalq standartları», «Mühasibat (idarəetmə) uçotu», «Kommersiya banklarında mühasibat uçotu», «Mühasibat (maliyyə) hesabatı», «Mühasibat uçotu», «Qiymət və qiymətin əmələgəlməsi», «Biznesin təşkili» fənnlərini tədris etmiş və bir çox buraxılış işlərinə rəhbərlik etmişdir. Hazırda Azərbaycan Dövlət İqtisad Universitetində «ASM-nin



iqtisadiyyatı və idarəedilməsi» kafedrasının müəllimidir və 2009-cu ildən Gürcüstanda fəaliyyət göstərən H.Ə.Əliyev adına Gürcüstan - Azərbaycan Tədris Universitetinin professorudur. Televiziyada, beynəlxalq və respublika əhəmiyyətli elmi-nəzəri və praktik konfranslarda məruzələrlə çıxışları olub (Gürcüstan, Ukrayna, Polşa), o cümlədən 41 əsəri elmi-nəzəri jurnallarda, institutun elmi toplularında, konfransların materiallarında dərc edilib. Gürcüstanın Tbilisi şəhərində «Aqrar iqtisadiyyat elmi və texnologiyaları» adlı beynəlxalq elmi – praktik jurnalın redaksiya heyətinin üzvü və həmin jurnalın Azərbaycan bölməsinin rəhbəridir.

2011-ci ildə Qərb Universitetində buraxılış işlərinin müdafiəsi komissiyanın sədri olmuşdur. Eyni zamanda Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının keçirdiyi qəbul və sınaq (test) imtahanlarında imtahan rəhbəri kimi iştirak etmişdir.

Az.ETKTİ və Tİ-da şöbənin elmi hesabatının və digər elmi işlərin yerinə yetirilməsində, o cümlədən yüksək ixtisaslı kadrların, xüsusən də aspirant və dissertantların yetişdirilməsində iştirak etmiş və rəsmi opponent olmuşdur. Alman, rus və gürcü dillərini bilir.

2001-ci ildə Az.ETKTİ və Tİ-nun elmi şurasının qərarı nəticəsində 08.00.05 - «Xalq təsərrüfatının iqtisadiyyatı və idarə edilməsi (kənd təsərrüfatı)» ixtisası üzrə dissertant olmuş, 2006-cı ildə Azərbaycan Dövlət İqtisad Universitetində yaradılmış B/N dissertasiya şurasında «Azərbaycan Respublikasında aqromarketinqin təşkili problemləri» mövzusunda dissertasiya işini müdafiə etmiş, iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır. O, elmi

fəaliyyətini davam etdirməklə yanaşı 2011-ci ildən Az.ETKTİ və Tİ-nun doktorantıdır.

Q.B.Hacıyev 2006-2010-cu illərdə Az.ETKTİ və Tİ – da elmlər namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunan dissertasiya müdafiəsini keçirən № 04.113 Dissertasiya Şurası nəzdində daima fəaliyyət göstərən elmi seminarın üzvü olub. O, institutun ictimai işlərində fəal iştirak edib, 2001-2004-cü illərdə institutun Həmkarlar İttifaqı Komitəsinin büro üzvü olub.





## Hüseyn Ramil Zahid oğlu

Hüseyn Ramil Zahid oğlu 1977-ci ildə anadan olub. 1994-cü ildə orta məktəbi bitirərək Qafqaz Universitetinin «İnzibati idaretmə» fakültəsinin əyani şöbəsinə daxil olmuş və 1999-cu ildə təhsilini başa vuraraq bakalavr dərəcəsi almışdır. 2000-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistraturasına qəbul olmuş, 2002-ci ildə magistraturanı fərqlənmə diplomu ilə bitirmişdir. Həmin ildə də Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda 08.00.05 - «Xalq təsərrüfatının iqtisadiyyatı və idarə edilməsi (kənd təsərrüfatı)» ixtisası üzrə aspiranturaya qəbul olmuş, 2006-cı ildə dissertasiya işini müdafiə edərək, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarına əsasən iqtisad üzrə fəlsəfə doktoru dərəcəsinə layiq görülmüşdür. 2010-cu ildə dosent elmi adını almışdır.

2011-ci ildə Katoloniya Universitetinin ərzaq təhlükəsizliyi üzrə xüsusi kursunu bitirmiş, 2012-ci ildə Çin Xalq Respublikasının Dövlət Qulluqçuları üçün Beynəlxalq Akademiyasında kurs keçmişdir. Hazırda Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda elmlər doktoru proqramı üzrə təhsil alır.

Əmək fəaliyyətinə 2006-cı ildən Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun «İstehsalın maddi-texniki bazası və aqroservis

xidməti» şöbəsində elmi işçi kimi başlamış, daha sonra isə "Ərzaq təhlükəsizliyi" şöbəsində aparıcı elmi işçi vəzifəsində çalışmışdır. 2010-cu ildən - 2012-ci ilə qədər Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun «İstehsalın iqtisadi səmərəliliyinin artırılması və sahibkarlığın inkişaf problemləri» şöbəsinin müdiri vəzifəsində işləmiş, hal-hazırda isə «İnformasiya Təminatı və Monitorinq Sisteminin Təşkili» şöbəsində aparıcı elmi işçi vəzifəsində işləyir. 1 monoqrafiyanın, 35 elmi məqalə və tezislərin müəllifidir.



## Salahov Sənan Sadıq oğlu



Salahov Sənan Sadıq oğlu 1973-cü ildə Bakı şəhərində anadan olmuş və 1990-cı ildə Bakı şəhəri 158 nömrəli orta məktəbi bitirmişdir.

Ali təhsilini 1990-1995-ci illərdə Bakı Dövlət Universitetinin «Tətbiqi riyaziyyat və kibernetika» fakültəsində almışdır.

1995-ci ildə 08.00.13 iqtisadi-riyazi üsullar ixtisası üzrə Bakı Dövlət Universitetinin aspiranturasına daxil olmuş, 2001-ci ildə isə «İkisektorlu neoklassik inkişaf modelində keçid iqtisadiyyatı şərtləri daxilində iqtisadi stabillik» mövzusunda dissertasiya işini müdafiə edərək, iqtisad elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

1995-1998-ci illərdə Bakı Dövlət Universitetinin hüquq fakültəsinin qiyabi şöbəsində təhsil alaraq hüquqşünas ixtisasına yiyələnmişdir.

Əmək fəaliyyətinə 1996-cı ildə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Bakı şəhəri Nərimanov rayonu idarəsinin inspektoru vəzifəsində başlamışdır. Həmin ildə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Ərazi idarəetmə orqanları ilə iş və kadr hazırlığı idarəsinin aparıcı inspektoru vəzifəsində işləmişdir.

1997-2006-cı illərdə Azərbaycan Respublikası Ali Məhkəməsinin aparatında müxtəlif vəzifələrdə işləmişdir. İşlədiyi müddətdə ədliyyə müşaviri ixtisas dərəcəsinə layiq görülmüşdür.

2006-cı ildən Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili institutunda aparıcı elmi işçi işləyir. Həmin institutun doktorantıdır.

Bu müddətdə 12 elmi məqalə dərc etdirmişdir.

Ailəlidir, iki övladı var.



## Şalbuzov Namiq Əlövsət oğlu



Şalbuzov Namiq Əlövsət oğlu 10 aprel 1978-ci ildə İsmayıllı rayonunun Qalacıq kəndində anadan olmuşdur. 1996-cı ildə Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadiyyatın dövlət tənzimlənməsi" fakültəsinin əyani şöbəsinə daxil olmuş, 2000-ci ildə bakalavr pilləsini fərqlənmə ilə bitirərək, həmin universitetin magistraturasına qəbul olmuş, 2002-ci ildə magistraturanı fərqlənmə diplomu ilə bitirmişdir. 2003-cü ildə Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun əyani aspiranturasına qəbul olmuş, 2006-cı ildə Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda yaradılmış N04.013 Dissertasiya Şurasında dissertasiya işini müdafiə etmiş, iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

Əmək fəaliyyətinə 2006-cı ildə Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatınm İqtisadiyyatı və Təşkili İnstitutunun "Aqrar sahədə struktur islahatları və istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi problemləri" şöbəsində iqtisadçı vəzifəsində başlamış və sonradan həmin şöbədə elmi işçi vəzifəsində çalışmışdır. 2008-ci ildən hal-hazıradək "Yeni təsərrüfatçılıq formalarında informasiya təminatı sisteminin, ilkin uçotun təşkili və monitorinqi" şöbəsinin müdiri vəzifəsində işləyir. 10 elmi məqalənin və 1 monoqrafiyanın müəllifidir.

2006-2010-cu illərdə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi ilə birgə müvəffəqiyyətlə həyata keçirdiyi "Fermer təsərrüfatlarının məlumat və monitorinq sisteminin yaradılmasına köməklik" texniki əməkdaşlıq layihəsinin, 2011-ci ildən isə Avropa Qonşuluq Siyasəti Şərq məkanında ərzaq təhlükəsizliyi üzrə qərarların qəbul edilməsinin yaxşılaşdırılması üçün məlumat sistemləri üzrə AB/FAO Proqramının fəal icraçılarından biridir.

Kənd təsərrüfatında struktur dəyişiklikləri, istehsalın tənzimlənməsi, iqlim dəyişikliklərinin kənd təsərrüfatı istehsalına təsiri, aqrar sahədə informasiya təminatı kimi mövzularda 10-dan çox elmi məqalənin müəllifidir.

Ailəlidir, 2 övladı var.



## Məmmədova Müşfiqə Əjdər qızı



Məmmədova Müşfiqə Əjdər qızı 1973-cü ildə iyun ayının 29-da Gəncə şəhərində anadan olmuşdur. Orta təhsilini 1980-1990-cı illərdə Gəncə şəhəri 18 nömrəli dəmir yol məktəbinin rus bölməsində almışdır. 1995-ci ildə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının «İqtisadiyyat» fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1995-ci ildən-2000-ci ilədək «Gəncə Yağ-piy» ATSC-nin iqtisadiyyat şöbəsində iqtisadçı vəzifəsində işləmişdir. 2002-2003-cü ildə Azərbaycan Müəllimlər İnstitutunun Sumqayıt filialında «İbtidai təhsil pedaqoqika və metodikası» ixtisası üzrə tam yenidən hazırlanma kursunu bitirmişdir. 2003-cü ildən Az.ETKTİ və Tİ-nun «Dövlət tənzimlənməsi» şöbəsində baş iqtisadçı, 2004-cü ildən indiyədək həmin şöbədə böyük elmi işçi vəzifəsində işləyir. M.Ə.Məmmədova elmi işlə yanaşı pedaqoji fəaliyyətlə də məşğuldur. Əmək və Sosial Münasibətlər Akademiyasında «Mühasibat (idarəetmə) uçotu», «Mühasibat (maliyyə) hesabatı», «Beynəlxalq iqtisadi münasibətlər», «Sığorta», «Gəlirlər və əmək haqqı siyasəti» fənlərini tədris edir.

Beynəlxalq və respublika əhəmiyyətli elmi-nəzəri və praktik konfranslarda məruzələr və çıxışlar edib, elmi-nəzəri jurnallarda (həmçinin Tbilisi və Moskva şəhərlərində), institutun elmi toplularında, konfrans materiallarında 22 adda elmi əsəri dərc edilib.

2003-cü ildən Az.ETKTİ və Tİ-nun elmi şurasının qərarı ilə 08.00.05 - «Xalq təsərrüfatının iqtisadiyyatı və idarə edilməsi (kənd təsərrüfatı)» ixtisası üzrə dissertant olmuş, 2010-cu ildə «Aqrar sahədə xarici - iqtisadi əlaqələrin dövlət tənzimlənməsi» mövzusunda dissertasiya işini müdafiə etmişdir. 2012-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarına əsasən ona iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilmişdir.

M.Ə.Məmmədova 2006-2010-cu illərdə Az.ETKTİ və Tİ – da elmlər namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D 04.113 Dissertasiya Şurası nəzdində daima fəaliyyət göstərən elmi seminarın üzvü olub.



## Əhmədov Famil Talverdi oğlu



- 04 may 1981- ci ildə Lənkəran rayonunun Viyən kəndində anadan olmuşdur;

- 1998 - ci ildə Lənkəran rayonun Viyən kənd orta məktəbini bitirmişdir;

- 1998 - ci ildə «Odlar Yurdu» Universitetinin «İqtisadiyyat və Menecment» fakültəsinə daxil olmuş və 2002-ci ildə Universitetin «İqtisadiyyat və Menecment» fakültəsinin bakalavr dərəcəsini, 2004 – cü ildə isə həmin Universitetin «İqtisadiyyat və Menecment» fakültəsinin magistraturasını bitirmişdir;

- 2005 - ci ildə Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun 08.00.05 – «Xalq təsərrüfatının iqtisadiyyatı və idarə edilməsi (kənd təsərrüfatı)» ixtisası üzrə əyani aspiranturasına qəbul olmuşdur.

- 2008 - ci ildə aspiranturanı bitirmiş və 2009-cu ildə «Aqrar bazarın formalaşmasında istehsal potensialından səmərəli istifadənin rolu» mövzusunda dissertasiya işini müdafiə edərək, iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülmüşdür.

Famil Talverdi oğlu Əhmədov 1,8 çap vərəqi həcmində 9 məqalə və tezisin müəllifidir.

Hazırda Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun «Ərzaq təhlükəsizliyi» şöbəsində aparıcı elmi işçi vəzifəsində çalışır.

Ailəlidir.

## Tağıyev Albert Həmid oğlu



Tağıyev Albert Həmid oğlu 1940-cı il mart ayının 6-da Azərbaycan Respublikasının Tovuz rayonunun Aşağıquşçu kəndində qulluqçu ailəsində anadan olmuşdur. 1947-ci ildə Tovuz rayonu Aşağıquşçu kənd orta məktəbinə daxil olmuş və 1957-ci ildə həmin məktəbi gümüş medalla bitirmişdir.

1958-ci ildə Azərbaycan Dövlət Universitetinin (hazırda Bakı Dövlət Universiteti) "Mexanika – riyaziyyat " fakültəsinə daxil olmuş və 1965-ci ildə qeyd edilən fakultəni "hesablayıcı - proqramçı" ixtisası ilə bitirmişdir.

Əmək fəaliyyətinə Azərbaycan Elmlər Akademiyasının Kibernetika İnstitutunda başlamışdır.

Hərbi xidmətdən sonra Azərbaycan Dövlət Universitetinin Hesablama Mərkəzində "riyaziyyatçı – proqramçı " kimi işə qəbul olunmuşdur.

1967-ci ildə Azərbaycan Dövlət Plan Komitəsinin nəzdində Elmi Tədqiqat İqtisadiyyat İnstitutunun (ETİİ) aspiranturasına daxil olmuşdur və Moskva şəhərinə ezam olunmuş, 1974-cü ildən "İqtisadiyyatın riyazi və instrumental üsulları " (08.00.13.) ixtisası üzrə iqtisad elmləri namizədidir.

1970–1976-cı illərdə Azərbaycan Dövlət Plan Komitəsi nəzdində ETİİ-də kiçik elmi işçi, baş elmi işçı, müxtəlif sektorların müdiri vəzifələrində çalışmışdır.



Həmin dövrlərdə ilk dəfə olaraq ETİİ-nin yerinə yetirdiyi işlərdən bir istiqamət "Plan hesablamalarının Avtomatlaşdırılmış idarəetmə sistemi (PHAİS)" idi. PHAİS- in alt sistemi olan "ticarət sistemi" ilə məşğul olurmuş və qeyd edilən sistemin işlənilməsi üzrə ümumittifaq işləyicisi seçilmişdir. (Yeri gəlmişkən onu qeyd edək ki, bu sahəyə sabiq SSRİ-dən cəmi beş nəfər mütəxəssis cavabdehlik daşıyırdı ki, onlardan da biri A.H.Tağıyev idi).

1967 – 1976-cı illərdə Sumqayıt Dövlət Universitetində (keçmiş Azərbaycan Sənaye İnstitutu) dərs aparmış və 1976-cı ildən ştata keçərək hazırkı dövrədək S.D.U-də işləməkdədir.

Bu müddət ərzində SDU-da baş müəllim, dosent, iqtisad yönümlü müxtəlif kafedraların müdiri və "İqtisadiyyat və idarəetmə" fakultəsinin ilk dekanı vəzifələrində çalışmışdır. Hal-hazırda "Menecment" kafedrasında dosent vəzifəsində çalışırır.

Ümumi həcmi 180 çap vərəqi olan 140-dan çox elmi, elmi-metodik əsərin, o cümlədən 17 kitabın müəllifidir. Bunlardan "Bazar iqtisadiyyatının əsasları" (Bakı, Maarif 2000, 337 səh.), "İstehsaldaxili ehtiyatlardan istifadə problemi" (Bakı, Elm.1998, 280 səh.), "Biznesin təşkili və idarə edilməsi" (Bakı, "Təknur" MMC , 2007 ,341 səh.) kitabları ölkəmizin müxtəlif Ali məktəblərində dərs vəsaiti kimi istifadə edilir.

Bir sıra monoqrafiyaların və dərsliklərin elmi redaktoru olmuşdur. Buna misal olaraq prof. Ş. Axundov tərəfindən yazılmış "Marketinqin əsasları" (Bakı Əbilov, "Zeynalov oğulları" 572 səh) dərsliyini göstərmək olar.

Bazar münasibətlərinə keçidlə bağlı olaraq Azərbaycanda bu problemlərin açıqlanması və həlli yollarına yaradıcılığında geniş yer vermiş, bu sahədə aşağıdakı əsərləri yaratmışdır:

- "Bazar iqtisadiyyatı haqqında" Bakı "Oğuz eli" 1995, 160 s.
- "Bazar iqtisadiyyatının əsasları" Bakı ," Maarif " 2000, 336 s.
- "Bazar iqtisadiyyatı terminləri" (İ. Abbasovla müştərək), Bakı "Sabah" 1996, 94 s.
- "Bazar iqtisadiyyatı: peşə və ixtisaslar" (Q. Kərimovla müştərək) Bakı "Gənclik" 1996, 35 s.
- "Azad iqtisadi zona" (Q. Kərimovla müştərək) Bakı "Sabah" 1996, 60 s.
- "Biznesin təşkili və idarəedilməsi"(S. Fərzəliyevlə müştərək) Bakı "Sabah" 1996 38 s.
- "Müəssisələrin idarəedilməsi" Bakı "Gənclik" 2003, 70 s.
- "Biznesin təşkili və idarə edilməsi" Baki "Təknur" 2007, 340 s.

SDU-da işlədiyi müddətdə Sumqayıtın bir sıra iri sənaye müəssisələri ilə təsərrüfat hesabı elmi – tədqiqat işləri aparmışdır.

Uzun illərdir ki, Azərbaycanın bir sıra Kütləvi İnformasiya Vasitələrində iqtisad elminin müxtəlif cəhətlərinin təbliği ilə maarifləndirmə işlərini yerinə yetirir. Müxtəlif sahələrin, xüsusilə bazar münasibətlərinə keçidlə bağlı olan problemlərin təbliği ilə məşğuldur. Bunlardan Azərbaycan İqtisad Elminin :



- "Kütləvi xidmət nəzəriyyəsi"-ndən istifadə edilməsi;
- "Funksional dəyər təhlili üsulu"-ndan istifadə edilməsi;
- Azad iqtisadi zonanın yaradılması;
- Texniki parkların və biznes inkubatorlarının yaradılması kimi ideyaların pionerlərindən hesab edilir.

Şəhərin ictimai həyatında da fəal iştirak etmişdir. "Elm" cəmiyyəti xətti ilə Sumqayıt şəhərinin müəssisələrində mühazirələr aparmış, SDU-da müxtəlif ixtisas artırma kursları:

- Keyfiyyətin kompleks idarəetmə sistemləri;
- Müəssisədaxili ehtiyatların səfərbərliyə alınması;
- Müəssələrin marketinqin və menecmentin təşkili və s. kurslar təşkil etmişdir.

Sumqayıt şəhərinin problemləri ilə əlaqədar olaraq keçirilən elmi – praktiki konfransların əksəriyyətində iştirak edərək məruzə ilə çıxış etmişdir.

İndiyədək 30-dan cox magistr dissertasiyasına rəhbərlik etmişdir.

1997-ci ildə Azərbaycan Dövlət Tələbə Qəbulu Komissiyasının iqtisad yönümlü magistraturaya qəbul üzrə hazırlanmış testlərin ekspertlərindən biri olmuşdur.

Müxtəlif kütləvi informasiya vasitələrində milli dilimizdə iqtisad elminin təbliği ilə də ciddi məşğul olur. Xüsusilə, "İqtisadiyyat" qəzetində apardığı aşağıdakı rubrikalar daha uğurlu olmuşdur:

- "Müəssisələrin rəqabətlilik qabiliyyətinin yüksəldilməsi yolları " ;
- "İdarəetmə üzrə qabaqcıl dünya təcrübəsindən" ;
- "Biznes – planın işlənilməsi";

- “Müəssisənin strateji idarəedilməsi”;
- “Biznesdə françayzinq dəstəyi”;
- “İnnovasiya strategiyasının işlənilməsi” və s.

2011-ci ildən başlayaraq indiyə qədər innovasiyanın təbliği üzrə beş kitabça çap etdirmiş və bu işi davam etdirmədədir.

Beynəlxalq təşkilatlar tərəfindən təşkil edilmiş üç kursda iştirak edərək müvafiq təlimçi sertifikatları almışdır.

Beynəlxalq təşkilatlar tərəfindən maliyyələşdirilən beşdən çox treyninq (təlim) layihələrinin həyata keçirilməsində təlimçi kimi iştirak etmişdir.

İşlədiyi müddətdə SDU-nun rəhbərliyi tərəfindən 2 dəfə “Fəxri Fərman”-a layiq görülmüşdür .

İqtisadiyyat fakultəsində 1998-ci ildə aparılan “Ən yaxşı müəllim” müsabiqəsinin qalibi olmuşdur.

Hal hazırda Azərbaycan Azad İqtisadçılar İttifaqının Sumqayıt filialının həmsədridir.

2008-ci ildən Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının professorudur.

Ailəlidir, iki övladı, dörd nəvəsi var.



## Abbasov Teymur Abbas oğlu



Abbasov Teymur Abbas oğlu 1956-cı il noyabr ayının 15-də Naxçıvan (indiki Babək) Cəhri kəndində anadan olumuşdur. 1978 – 1982-ci illərdə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda təhsil almışdır. 1982-ci ildən 1986-cı ilədək Naxçıvan Alt Trikotaj fabrikində baş mühasibin müavini, sonra baş mühasib, 1986-cı ildən 1990-cı ilədək Naxçıvan Sovxoz texnikumunda baş mühasib və müəllim vəzifələrində işləmişdir.

1990-cı ildən Naxçıvan Dövlət Universitetində işləyir. 1997-ci ildən 2004-cü ilədək “İqtisad” fakültəsinin dekan müavini, 2000-ci ildən “Mühasibat uçotu və maliyyə” kafedrasının dosenti, 2004-cü ildən isə “Mühasibat uçotu və maliyyə” kafedrasının müdiridir.

1991-ci ildə Az.ETKTİ və Tİ – nin aspiranturasına daxil olub və 1995-ci ildə oranı bitir-mişdir. 1997-ci ildə həmin institutda namizədlik dissertasiyası müdafiə etmiş və iqtisad elmləri namizədi alimlik dərəcəsini almışdır. Teymur Abbas oğlu Abbasov 2011-ci ildə “Aqrar bazarın formalaşmasının regional problemləri (Naxçıvan Muxtar Respublikasının materialları əsasın-da)” mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

Teymur Abbas oğlu Abbasov gənc nəslin təlim – tərbiyəsi sahəsindəki səmərəli pedaqoji fəaliyyətinə görə 2007-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin

fəxri fərmanı ilə təl-tif edilmiş, 2011-ci ildə elm sahəsindəki nailiyyətlərinə görə ictimai elmlər üzrə İlin Alimi fəxri adına layiq görülmüşdür.

Teymur Abbas oğlu Abbasov Maliyyə Hesabatlarının Beynəlxalq Standartları və Milli Mühasibat Uçotu Standartlarına keçid mövzusunda təlim kurslarında iştirak etmiş və Beynəl-xalq Uçot sertifikatları almışdır.

110 – dan artıq elmi əsərin, 4 monoqrafiyanın, 2 kitab və 3 dərs vəsaitinin müəllifidir. 5 əsəri xarici ölkələrdə çap edilib.

Ailəlidir, 2 oğlu, 1 qızı var.



## Abbasov Fazil Həşim oğlu



Abbasov Fazil Həşim oğlu 7 noyabr 1944-cü ildə Azərbaycan Respublikasının Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndində doğulub. 1962-ci ildə V.İ.Lenin adına APİ-nun "Fizika-riyaziyyat" fakültəsinin "Riyaziyyat fizika" şöbəsinə daxil olub. 1963-1966-cı illərdə Sovet ordusu sıralarında qulluq edib, 1970-ci ildə V.İ.Lenin adına APİ-ni bitirib, 1970-1979-cu illərdə Fizuli rayonunda müəllim, işləmişdir.1979-1995-ci illərdə Füzuli rayonunda partiya, sovet və təsərrüfat orqanlarında məsul vəzifələrdə çalışmışdır.

1989-cu ildə Gəncə Kənd Təsərrüfatı Akademiyasının "Kənd təsərrüfatı iqtisadiyyatı və təşkili" şöbəsini bitirmişdir.

1995-2002-ci illərdə Az.ETKTİ və Tİ-da, elmi işçi, böyük elmi işçi, baş elmi işçi, şöbə müdiri vəzifələrində, "Əmək və sosial münasibətlər Akademiyasında" kafedra müdiri vəzifəsində işləmişdir. 2002-ci ildən, hazıradək Azərbaycan Kooperasiya Universitetində "Biznesin təşkili, dövlət və bələdiyyə idarəetməsi" kafedrasının müdiridir.

Tədqiqat sahəsi "08.00.05- Xalq Təsərrüfatının iqtisadiyyatı və idarəedilməsi (kənd təsərrüfatı)" ixtisası üzrə 4 may 2001-ci il tarixdən iqtisad elmləri namizədi, ona 13 fevral 2008-ci ildən dosent elmi adı verilmişdir.

Dissertasiya işi "Bazar münasibətləri şəraitində kənd təsərrüfatı məhsullarının satışının təşkilinin təkmilləşdirilməsi" mövzusundadır.

"Qloballaşma şəraitində aqrar bazarda dövlət himayəsinin formalaşmasının iqtisadi problemləri" mövzusunda doktorluq dissertasiyası üzərində işləyir və Az.ETKTİ və Tİ-nun doktorantıdır.

F.H.Abbasov 22,3 çap vərəqi həcmində 45 elmi məqalənin və tezisin, 1 monaqrafiyanın, bunlardan əlavə 10 dərs proqramının və 6 istehsalat təcrübəsi vəsaitinin müəllifidir.



## Abbasov Rəşad Vaqif oğlu



Abbasov Rəşad Vaqif oğlu 1978-ci ildə Lənkəran şəhərində anadan olmuşdur. 1984-cü ildə ilk təhsilini orta məktəbdə başlamışdır. 1995-ci ildə orta məktəbi bitirmişdir. Elə həmin ildə Azərbaycan Respublikası Xalq Təsərrüfatı İnstitutunda "İqtisadiyyatın tənzimlənməsi" fakültəsinə daxil olmuşdur. 1999-cu ildə institutu bitirmişdir. 2001-ci ildə Lənkəran Dövlət Universitetində "İstehsal sahələrinin iqtisadiyyatı və idarə edilməsi" fakültəsində magistraturaya qəbul olmuş və 2003-cü ildə magistraturanı bitirərək magistr pilləsinə yiyələnmişdir. 2004-cü ildə Azərbaycan Respublikası "Odlar Yurdu" Universitetində aspiranturaya daxil olmuşdur. 2007-ci ildə aspiranturanı bitirmişdir.

2010-cu ildə "Əhalinin həyat səviyyəsinin yüksəldilməsinin dövlət tənzimlənməsi" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək iqtisad üzrə fəlsəfə doktoru adına yiyələnmişdir. Hal-hazırda "Odlar Yurdu" Universitetində müəllim işləyir.

9 məqaləsi var. 1-i xaricdə çap olunub.

Ailəlidir, 2 övladı var.

## Abasov Nicat Səməndər oğlu



Abasov Nicat Səməndər oğlu 1982 – ci ildə Azərbaycan Respublikasının Quba şəhərində anadan olmuşdur. İbtidai təhsilini Quba rayon A.Məmmədov adına 2 saylı orta məktəbdə alıb. 1999 – cu ildə orta məktəbi bitirərək, Azərbaycan Dövlət İqtisad Universitetinin "Beynəlxalq İqtisadi Münasibətlər" fakültəsinə daxil olmuşdur. 2003 – cü ildə ADİU – nin bakalavr pilləsini fərqlənmə diplomu ilə bitirərək təhsilini davam etdirmək məqsədi ilə eyni ixtisas üzrə magistr pilləsinə daxil olmuşdur. 2005 – ci ildə universitetin magistr pilləsini fərqlənmə diplomu ilə bitirərək, təhsilini daha yüksək pillədə davam etdirmək üçün sənədlərini Azərbaycan Kooperasiya Universitetinin aspirantura şöbəsinə təqdim etmiş və həmin pillə üzrə "Xalq təsərrüfatının iqtisadiyyatı və idarəedilməsi" ixtisasına daxil olmuşdur. 2008 – ci ildə aspirantura şöbəsi üzrə təhsilini başa vuraraq iqtisad üzrə fəlsəfə doktoru elmi adını almışdır.

Bu müddət ərzində 8 elmi məqaləsi dərc edilmişdir, o cümlədən:

- Respublikada aparılan islahatlar şəraitində xarici ticarət əlaqələrinin formalaşdırılması problemləri. Az. ETKTİ və Tİ – nun Elmi əsərləri, Bakı – 2005, № 3. səh 46-51. 0,4 ç.v



- Aqrar sahədə ticarət əlaqələrinin müasir vəziyyəti. AMEA.İU. Milli İqtisadiyyatın Problemləri (məqalələr toplusu). I buraxılış. Bakı. Elm – 2008. s. 273-277. 0,3 ç.v
- Aqrar sahədə xarici ticarət əlaqələrinin inkişaf etdirilməsinin başlıca istiqamətləri. / İqtisadiyyat və həyat. № 10, Bakı – 2008. s.39-41. 0,2 ç.v.
- Xarici ticarət əlaqələrinin formalaşdırılmasının əsas istiqamətləri. /Azərbaycan Aqrar Elmi. Bakı-2007, 1-3. s.270-273. 0,3 ç.v.
- Роль развития торговых связей в аграриой области экономики страны. /«Международная Техника» Экономический журнал. № 4, Москва – 2008.

Hal – hazırda "Rabitəbank" ASC – də "Maliyyə Departamenti" – nin direktor müavini vəzifəsində çalışır.

Ailəlidir, bir övladı var.

## Ansuxskiy Abdulqədir Əli oğlu



Ansuxskiy Abdulqədir Əli oğlu 27 dekabr 1974-cü ildə Balakən rayonunda anadan olmuşdur.

1980-ci ildə Balakən rayonu Nizami adına orta məktəbin 1-ci sinfinə daxil olmuş, 1990-cı ildə həmin məktəbi Qızıl medal ilə bitirmişdir. Həmin ildə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının "AKT sahələrinin iqtisadiyyatı və idarə edilməsi" fakültəsinə daxil olmuş və 1995-ci ildə bitirmişdir.

1992-ci ildən Balakən İstehsalat Birliyində baş iqtisadçı kimi əmək fəaliyyətinə başlamış və müxtəlif vəzifələrdə çalışmışdır. Hal-hazırda "BalaCans" MMC-nin direktoru vəzifəsində çalışır.

Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı olmuş və 2010-cu ildə Az.ETKTİ və Tİ-da "Aqrar sahənin investisiyalaşdırılmasının dövlət tənzimlənməsi" mövzusunda dissertasiya işini müdafiə edərək, iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. 7 elmi məqalənin müəllifidir.

Ailəlidir, 4 övladı var.



## Cavadov Natiq Əli oğlu



Cavadov Natiq Əli oğlu 1958-ci ildə Azərbaycan Respublikasının Ağdam şəhərində anadan olmuşdur. Orta təhsili Ağdam şəhər 3№-li orta məktəbdə almışdır.

1975-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun (hazırkı ADAU-nun) «Kənd təsrrüfatının iqtisadiyyatı və təşkili» fakültəsinə daxil olmuş, 1980 -ci ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirərək "Kənd təsərrüfatı istehsalının təşkilatçı-iqtisadçısı ixtisasına yiyələnmişdir. İnstitutu bitirdikdən sonra həmin institutun «Mühasibat uçotu və statistika» kafedrasında assistent kimi fəaliyyətə başlamışdır.

1985-1990-cı illərdə Moskva İqtisadiyyat-Statistika İnstitutunun (MİSİ-nin) «Riyazi statistika» kafedrasının dissertantı olmuş və "Kənd təsərrüfatı istehsalının intensivləşdirilməsinin statistik tədqiqi mövzusunda namizədlik dissertasiyası yerinə yetirmişdir. 1990-cı ilin mayında MİSİ-da 08.00.11- "Statistika ixtisası üzrə namizədlik dissertasiyası müdafiə etmiş və həmin il SSRİ AAK-nin qərarı ilə iqtisad elmləri namizədi elmi dərəcəsini almışdır.

1990-1995-ci illərdə N.Tusi adına Azərbaycan Dövlət Pedoqoji Universitetində təhsil almış və riyaziyyat müəllimi ixtisasını almışdır.

1996-cı ildə ADAU-nun «Statistika və maliyyə» kafedrasının müdiri seçilmişdir və 2001- ci ilin may ayına

kimi həmin vəzifədə çalışmışdır. 2000-ci il sentyabrın 25-dən 2005-ci ilin sentyabrın 15-ə kimi ADAU-nun tərbiyə işləri üzrə prorektoru vəzifəsində işləmişdir. 22.12.2008-ci ildən 22.05.2009-ci il tarixə kimi «Aqrar iqtisadiyyat və menecment» fakültəsinin dekan əvəzi olmuşdur. Hal-hazırda "Maliyyə və iqtisadi nəzəriyyə kafedrasında dosent vəzifəsində çalışır. 100-dən artıq elmi-metodiki əsərin müəllifidir.

2000-2010-cu illərdə Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatınm İqtisadiyyatı və Təşkili İnstitutunun doktorantı olmuşdur. "Müasir şəraitdə aqrar sahədə struktur dəyişikliklərinin əsas istiqamətləri" mövzusunda yerinə yetirdiyi doktorluq dissertasiya işi müdafiə üçün 2011-ci ilin oktyabr ayında Azərbaycan Respublikası Ali Attestasiya Komissiyası tərəfindən ADAU-nun nəzdində fəaliyyət göstərən FD.04.013 birləşdirilmiş dissertasiya şurasına göndərilmişdir.

1989-cu və 1999-cu illərdə Respublikamızda keçirilən əhalinin siyahıyaalınmasında təlimatçı kimi iştirak etmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Kənd təsərrüfatı siyahıyaalınmasının keçirilməsi haqqında 28 noyabr 2003-cü il tarixli 152 saylı qərarına uyğun olaraq siyahıyaalmanm keçirilməsi üzrə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədr müavini M.H.Hacıyevin sədrliyi ilə təşkil edilən işçi komissiyanın üzvü olmuşdur.

Ailəlidir, 2 övlad atasıdır.



## Daşdəmirov Əlləz İsa oğlu



Daşdəmirov Əlləz İsa oğlu 1963-cü ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin "İqtisad" fakültəsini mühasib-iqtisadçı ixtisası üzrə müvəffəqiyyətlə bitirmiş və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin göndərişi ilə Abşeron rayonundakı Zirə südçülük-tərəvəzçilik sovxozuna baş mühasib təyin edilmişdir. Həmin sovxozda 1972- ci ilə kimi öz fəaliyyətini davam etdirmişdir. 1972-ci ildə Ə.İ.Daşdəmirov istehsalatdan ayrılmaqla Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun aspiranturasına qəbul olunmuşdur. Aspiranturada təhsil aldığı müddətdə "Əsas fondların təkrar istehsalı və onlardan istifadənin iqtisadi faydalıhğının təhlili" mövzusunda namizədlik dissertasiyasını vaxtından əvvəl müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır.

Həmin institutda 10 ildən çox elmi fəaliyyətlə məşğul olmuş və bu müddət ərzində kiçik elmi işçi, baş elmi işçi və şöbə müdiri vəzifələrində işləmişdir. Ona 1982- ci ildə SSRİ Ali Attestasiya Komissiyasının qərarı ilə baş elmi işçi rütbəsi verilmişdir.

Ə.İ.Daşdəmirov 1984-cü ildə müsabiqə yolu ilə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun "Mühasibat uçotu" kafedrasına dosent vəzifəsinə seçilmişdir.

Daşdəmirov Əlləz İsa oğlunun elmi-pedaqoji fəaliyyəti 120-dən çox elmi əsərdə, o cümlədən "Əsas istehsal fondlarınm normtivləri", "İstehsalda itkilərə qarşı mübariz tədbirləri" kitablarında, həmçinin "Xalq təsərrüfatınm əsas sahələrində mühasibat uçotunun xüsusiyyətləri" (iki hisssə) dərs vəsaitlərində, "Mühasibat (maliyyə) uçotu" birgə müəlliflərlə yazdığı dərsliklərdə öz əksini tapmışdır.

Hazırda Ə.İ.Daşdəmirov Azərbaycan Dövlət İqtisad Universitetinin "Mühasibat uçotu" kafedrasında dosent vəzifəsində çalışır.



## Əjdər Qiyaslı



Əskərov Əjdər Xanlar oğlu (Əjdər Qiyaslı) 1935-ci il dekabrın 13-də Azərbaycanın dilbər guşələrindən birində, Ağdam rayonunun Qiyaslı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1955-ci ildə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutuna daxil olub, 1960-cı ildə indiki BDU-nun "İqtisad" fakültəsini iqtisadçı-mühasib ixtisası üzrə bitirmişdir.

1960-cı ildə Kənd Təsərüfatı Elmlər Akademiyasının "İqtisadiyyat" bölməsində, 1962-ci ildən isə onun əsasında yaradılmış Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda kiçik elmi işçi vəzifəsində işləməyə başlamışdır. Həmin institutda 1963-cü ildə aspiranturaya daxil olmuş, "Qarabağ düzü kolxozlarında kənd təsərrüfatı sahələrinin yerləşdirilməsinin iqtisadi qiymətləndirilməsi və məhsul istehsalının artırılması ehtiyatları" mövzusunda dissertasiya müdafiə edərək iqtisad elmləri namizədi, alimlik dərəcəsi almışdır.

1967-ci ilin sentyabrından indiki Azərbaycan Dövlət İqtisad Universitetində müəllim, baş müəllim, dosent vəzifəsində işləyir.

Əjdər Qiyaslı 53 ilə yaxındır ki, elmi-pedoqoji və ədəbi sahədə çalışır. Onun iqtisadiyyatın aktual problemlərinə dair 8 kitabı, 85-dən çox elmi əsəri, 150-dən artıq elmi-publisist məqalələri çap olunmuşdur. Hələ müdafiə etməmişdən əvvəl

"Azərbaycan gəncləri" qəzetində "İqtisadi bilik bolluğun açarıdır" başlığı altında çap olunan çoxsaylı seriya məqalələrin müəllifidir.

İqtisadçı alim, şair Əjdər Qiyaslı 50- çap vərəqi həcmində "İqtisadi nəzəriyyə" və 26 çap vərəqi həcmində "İqtisadi təlimlər tarixi" dərsliklərinin müəlliflərindən biridir. O,"Nizami Gəncəvinin iqtisadi görüşləri" mövzusunda doktorluq dissertasiyası üzərində işləyir. Eyni zamanda, M.F.Axundovun, C.Cabbarlının və S.Vurğunun iqtisadi fikir dünyasına dair yazdığı dəyərli əsərləri "İqtisadiyyat" və "Elm" qəzetlərində çap edilmişdir.

Tanınmış iqtisadçı alim, kamil pedaqoq və istedadlı şair Əjdər Qiyaslının yaradıcılığı qoşa qanadlıdır. O, həm iqtisadiyyat, həm də poeziya sahəsində çalışır. İndi onun "Doğma torpaq", "İnsanlara inanıram", "Günəşli nəğmələr", "Yaxşı adam görəndə", "Ömür karvanı", "Ömrün qoşa qanadı", "Mənim dünyam", "Yaşanan günlər", "Səmalardan gələn səda", "Yaradan yaşayır, yaranan qalır", "Dünyanı yaşadan Günəş" və "İqtisad elminin kəhkəşanında" adlı 12 şerlər kitabı, 8 poeması, qəzet və jurnallarda 450-dən çox şeri çap olunmuşdur. Şerlərinə S.Ələsgərov, R.Mirişli, M.Əhmədova, C.Musayev, C.Quliyev kimi görkəmli bəstəkarlar çoxsaylı populyar mahnılar bəstələmişlər. Bir çox şerləri Türkiyədə, Təbrizdə, Moskvada, Daşkənddə çap olunmuşdur.

Əjdər Qiyaslı poeziya aləmində ilk dəfə olaraq "Dünyanın himni"ni yazmış, onu 3 dildə -azərbaycan, rus və ingilis dillərində çap etdirmişdir; himnin sözlərinə tanınmış bəstəkar Cavanşir Quliyev mahnı bəstələmişdir.



O, yüksək vətənpərvər və fədakar alim-şairdir; 1993-cü ilin mayında Bakı Veteranlar şurasının üzvlərilə Ağdam, Tərtər, Ağdərə rayonlarının cəbhə bölgələrində olmuş, əsgərlər qarşısında onları qələbəyə ruhlandıran şeirlərilə çıxış etmişdir.

Alim-şair Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə, qüsursuz və səmərəli fəaliyyətinə görə "Tərəqqi" medalı və AR Təhsil Nazirliyinin "Fəxri fərmanı" ilə təltif edilmişdir. Azərbaycan Yazıçılar Birliyinin fəal üzvüdür. "Araz" Ali Ədəbi mükafatı və "Qızıl Qələm" mükafatı laureatıdır. 2002-ci və 2004-cü illərdə Məşhəd ziyarətində olmuşdur.

Evlidir. 3 qızı, 1 oğlu və 7 nəvəsi vardır.



## Əliyeva Yasəmən Əli qızı

Əliyeva Yasəmən Əli qızı 12 iyun 1953-cü ildə Ermənistanın Kirovakan (Qara kilsə) rayonunun Arçut kəndində ziyalı ailəsində anadan olmuşdur. 1970-ci ildə Arçut kənd orta məktəbini bitirdikdən sonra Bakı şəhərində yaşayır. 1974-1979-cu illərdə Azərbaycan Dövlər Pedaqoji Xarici Dillər İnstitutunda təhsil alıb. Alman-ingilis dili fakültəsini bitirib. 3 il təyinatı üzrə Şamaxı rayon Meysəri kənd orta məktəbində müəllim işləyib. Sonra Azərittifaqda işə düzəlib. 1980–1990–cı illərdə Azərittifaqda müəyyən vəzifələrdə işləyib. 1985 – 1990 illərdə Moskva Kooperativ İnstitutunun Bakı filialmda "Ticarətin iqtisadiyyatı" fakültəsində, qiyabi şöbədə təhsil alıb. 1990-cı ildə rektorun əmri ilə institutda metodist-müəllim vəzifəsində saxlanılıb. İlk əvvəl alman dilindən, sonra isə menecmentdən dərs deyib. Həmin ildən müəllim, baş müəllim vəzifələrində çalışıb.

1997-ci ildə Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun dissertantı kimi təsdiq edilib və "Kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin stimullaşdırılması" mövzusunda elmi iş üzərində işləyib.

2005-ci ildə Azərbaycan Elmi - Tədqiqat Kənd Təsərrüfatı İnstitutunda dissertasiya işini müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır.



2008-ci ildən hal – hazıra kimi Azərbaycan Kooperasiya Universitetində "İqtisadiyyat və menecment" kafedrasının müdiri vəzifəsində işləyir.

30 elmi məqalənin, 1 monoqrafiyanın, 2 dərs vəsaitinin və 8 fənn proqramının müəllifidir.

Bir övladı (oğlu) var.



## ƏlizadəAsif Həmid oğlu

Əlizadə Asif Həmid oğlu – 29 oktyabr 1978-ci ildə Ermənistan Respublikasının Masis rayonunun Mehmandar kəndində ziyalı ailəsində anadan olmuşdur. 1984-cü ildə doğulduğu Mehmandar kənd orta məktəbinin 1-ci sinfinə. daxil olmuş və orta təhsilini 1995-ci ildə başa vurmuşdur.

1996-2000-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetində ali təhsilin bakalavr pilləsini, 2000-2002-ci illərdə həmin universitetin "Mühasibat uçotu və audit" ixtisası üzrə magistratura pilləsini fərqlənmə ilə bitirmişdir.

2003-cü ildən Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda əyani aspirant kimi elmi araşdırmaya başlamışdır. 2006-cı ildə aspiranturanı bitirmiş və növbəti il "Ərzaq bazarının qorunmasının iqtisadi mexanizminin təkmilləşdirilməsi" mövzusunda dissertasiya işini müdafiə etmişdir. 2008-ci ildə isə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən iqtisad elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür. Həmin vaxtdan Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun müxtəlif şöbələrində baş və aparıcı elmi işçi vəzifələrində çalışmışdır.

Yazdığı elmi məqalələr beynəlxalq elmi konfrans və respublika səviyyəsində keçirilmiş seminarlarda məruzə olunmuş, müzakirə edilərək kitab və elmi jurnallarda nəşr edilmişdir.



15 iyul 2011-ci il tarixdən Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar baş idarəsinin baş dövlət vergi müfəttişi vəzifəsində çalışır.

Ailəlidir, iki övladı var.

## Əliyev Şəmsəddin Camalxan oğlu



Əliyev Şəmsəddin Camalxan oğlu 1962-ci il dekabr ayının 10-da Cəlilabad rayonunun Çinar kəndində anadan olub.

1970-ci ildə Cəlilabad rayonunun Çinar kənd 8-illik məktəbinə 1-ci sinfə getmiş, 1978-ci ildə 8-ci sinfi qurtardıqdan sonra Bakı Baza Energetika texnikumunun (BET) "Sənaye müəssisələrinin və qurğularının elektrik avadanlığı" ixtisası üzrə I kursuna qəbul olunmuşdur. 1982-ci ildə texnikumu qurtarmış və Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin göndərişinə əsasən həmin texnikumda laborant vəzifəsinə işə götürülmüşdür.

1982-1984cü illərdə Moskva vilayətində hərbi xidmətində olub. Hərbi xidmətdə olduğu müddətdə Moskva şəhərində 1 illik qiyabi hərbi jurnalistlər məktəbini bitirmişdir.

Hərbidən tərxis olunduqdan sonra, 1984-1989-cu illərdə BET-də istehsalat təcrübə ustası və ixtisas müəllimi işləmişdir.

1985-ci ildə Novoçerkask Politexnik İnstitutunun (NPİ) "Energetika" fakültəsinə qəbul olunmuşdur. 1987-ci ildə köçürmə yolu ilə NİMİ-nin "İqtisadiyyat" fakültəsinə keçmiş və 1990-ci ildə həmin institutu bitirmişdir.

1990-cı ildə Bakı şəhəri Oktyabr rayonu 30 №-li seçki dairəsindən rayon sovetinə deputat seçilmişdir.



1989-2011-ci illərdə Bakı baza Energetika texnikumunun komsomol komitəsinin katibi, Oktyabr rayon İcraiyyə Komitəsində yeniyetmələrin işləri üzrə müfəttiş, Bakı şəhəri Yasamal rayon İcra Hakimiyyəti Başçısının köməkçisi, Azərbaycan Respublikası Milli Bankının İdarə heyətinin katibi, "Eltexbank" Kommersiya Bankının İdarə heyətinin Sədri, "Rabitəbank" Səhmdar Kommersiya Bankının "Qazanbank" filialının müdiri, ASC-nin "Yasamal" filialının müdiri, "Expressbank" ASC-nin Maliyyə departamentinin direktoru, "Expressbank" ASC-nin "Yasamal" filialının müdiri, "Zaminbank" ASC-nin "Bakı" filialının müdiri vəzifəsində işləmişdir.

1995-ci ildən 1998-ci ilə qədər Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin Elmi-Tədqiqat, Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun disertantı olmuşdur. 1998-ci ildə "Bazar münasibətlərinin formalaşmasının əsas istiqamətləri" mövzusunda disertassiya işini müdafiə etmiş və Azərbaycan Respublikası Ali Attestasiya Komissiyanın qərarı ilə iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır.

1997-ci ildən hal-hazıra qədər Bakı Neft Energetika Kollecində İqtisadiyyat müəllimi və Dövlət Attestasiya Komissiyasının (Dövlət İmtahan Komissiyasının) Sədri vəzifəsində fəaliyyət göstərir.

Evlidir, iki övladı var.

## Əlirzayev Emin Əli oğlu



Əlirzayev Emin Əli oğlu 1983-cü ildə Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 2000-ci ildə 289 saylı "Zəngi" litseyini əla qiymətlərlə bitirərək, Azərbaycan Dövlət İqtisad Universitetinin «Maliyyə-kredit"» fakultəsinə daxil olmuşdur. 2004-cü ildə həmin universitetin bakalavr, 2006-cı ildə isə magistr pilləsini «Maliyyə-Kredit»" ixtisası üzrə fərqlənmə diplomları ilə bitirmişdir. 2006-2009-cu illərdə Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun əyani şöbəsinin aspirantı olmuşdur. 2009-cu ildə i.e.d., professor S.V.Salahovun elmi rəhbərliyi ilə "Azərbaycanın kənd təsərrüfatının inkişafında qeyri-dövlət maliyyə resurslarının formalaşması və idarə olunması" mövzusunda dissertasiyanı müdafiə edərək iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışdır.

Əmək fəaliyyətinə 2009-cu ildə aspirantura təhsilini bitirdikdən sonra başlamış, 2009-2011-ci illərdə Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun (DSMF) Xəzər rayon şöbəsinin Fərdi uçotun təşkili sektorunun aparıcı məsləhətçisi, Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda kiçik elmi işçi, DSMF-nin Xəzər rayon şöbəsinin Gəlirlər sektorunun məsləhətçi-hüquqşünası, DSMF-nin Suraxanı rayon şöbəsinin Fərdi uçotun təşkili sektorunun aparıcı məsləhətçisi vəzifələrində çalışmışdır. 2012-ci ildən



Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondunun mərkəzi aparatında Fərdi uçotun təşkili şöbəsinin Sığorta olunanların məlumatlandırılması və arxivləşdirmə sektorunun məsləhətçisi vəzifəsində çalışır. Dövlət qulluqçusudur.

Alman, ingilis, rus və türk dillərini bilir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

21 adda məqalə və tezisi monoqrafiyada, "İqtisadiyyat və həyat", Odlar Yurdu Universitetinin Ekoloji və Pedaqoji xəbərləri, Az.ETKTİ və Tİ-nin Elmi əsərləri, "İqtisadiyyat və audit", "Maliyyə və uçot", AMEA İqtisadiyyat İnstitutunun "Milli iqtisadiyyatın problemləri", Rusiya EA-nın, «Общество и экономика», İqtisad Universitetinin "İqtisad elmləri: nəzəriyyə və praktika", jurnallarında və konfrans materiallarında dərc olunmuşdur.

Evlidir.

## Əmrahov Vahid Tofiq oğlu



Əmrahov Vahid Tofiq oğlu 1971-ci il dekabr ayının 8-də Goranboy rayonunun Todan kəndində ziyalı ailəsində anadan olmuşdur. 1978-ci ildə Todan kənd orta məktəbində təhsilə başlamış, 1987-1989-cu illərdə Bakı ş., 1 saylı respublika fizika-riyaziyyat təmayüllü orta məktəbdə oxumuş, 1990-1995 - ci illərdə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının (hazırkı Azərbaycan Dövlət Aqrar Universiteti) "Kənd təsərrüfatının iqtisadiyyatı" fakültəsində ali təhsil almışdır. 1995-ci ildə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının "Kənd təsərrüfatının iqtisadiyyatı" kafedrasında assistent vəzifəsində əmək fəaliyyətinə başlamışdır. 1999 - cu ildə namizədlik dissertasiyası müdafiə etmiş, 2003-cü ildə "Aqrar iqtisadiyyat və xarici iqtisadi əlaqələr" kafedrasına müdir seçilmişdir. 2004-cü ildən dosentdir. Hazırda Aqrar menecment və marketinq kafedrasının müdiridir.

2003-cü ildən Az.ETKTİ və Tİ-nun doktorantıdır. 1 dərslik, 1 monoqrafiya, 3 metodiki vəsait, 10 proqram, 50-dən çox elmi məqalənin müəllifidir.

Xarici mətbuatda 7 məqaləsi, o cümlədən 6-sı Moskvada dərc olunmuşdur.



## Fərhadi Püstə Oruc qızı



Fərhadi Püstə Oruc qızı 1966-cı ildə Quba rayonunda anadan olmuşdur. 1986-cı ildə Bakı Sovet Ticarəti Texnikumuna daxil olmuş, 1988-ci ildə həmin texnikumu fərqlənmə diplomu ilə bitirmişdir. 1999-cu ildə Azərbaycan Dövlət İqtisad Universitetinə daxil olmuşdur. 2003 –cü ildə bakalavr pilləsini qutararaq, həmin universitetin magistratura pilləsinə daxil olmuşdur, 2006-cı ildə magistratura pilləsini bitirmişdir. 1993-cü ildə Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda laborant, iqtisadçı, baş iqtisadçı, kiçik elmi işçi, böyük elmi işçi və aparıcı elmi işçi vəzifəsinə qədər yüksəlmişdir. 2001-ci ildən 2010-cu ilə qədər İnstitut Həmkarlar İttifaqı Komitəsinin sədri vəzifəsində çalışmışdır. 2006-cı ildən Aqrar İstehsalçılar İctimai Birliyinin sədri, Qeyri Hökumət Təşkilatları Forumunun və İqtisadçılar İttifaqının üzvüdür. Hal-hazırda Elm-Təhsil Mərkəzi Təfəkkür Universitetində və Bakı Biznes Universitetində baş müəllim vəzifəsində çalışır. Ölkədə və xaricdə çap olunmuş 100-ə yaxın elmi məqalənin müəllifidir. "Kommersiya fəaliyyətinin əsasları," "Marketinqin kommunikasiya sistemi," "Biznes əlaqələri" fənləri üzrə metodik vəsait və 3 proqram Təhsil Nazirliyi tərəfindən qrif alaraq nəşr edilmişdir.

Respublikada regional və Beynəlxalq konfransların, seminarların, aqrar sahənin inkişafı ilə bağlı layihələrin iştirakçısıdır.

2009-cu ildə "Meyvə-tərəvəz yarımkompleksində inteqrasiya əlaqələrinin təkmilləşdirilməsi" mövzusunda dissertasiya müdafiə edərək iqtisadiyyat üzrə fəlsəfə doktoru, 2010-cu ildə isə dosent adını almışdır.





## Hüseynova Məlahət Soltan qızı

Hüseynova Məlahət Soltan qızı 1967-ci il yanvar ayının 1-də Göyçay şəhərində anadan olmuşdur.

1974-cü ildə Göyçay rayonunun Qarabaqqal kəndində orta məktəbin 1-ci sinfinə getmiş və 1984-cü ildə orta təhsilini əla qiymətlərlə bitirmişdir.

1987-ci ildə Sumqayıt Dövlət Universitetinin "Kimya istehsalının maşın və aparatları" fakültəsinə daxil olmuş, 1992-ci ildə universitetin "Kimya istehsalının maşın və aparatları" ixtisası üzrə tam kursu bitirərək "Mühəndis-mexanik" ixtisasına yiyələnmişdir.

M.Hüseynova 1992-2005-ci illərdə Sumqayıt Dövlət Universitetinin "Standartlaşdırma və sertifikatlaşdırma" kafedrasında assistent, 2005-ci ildən isə Sumqayıt Dövlət Universitetinin "Tədris Metodiki" şöbəsində istehsalat təcrübə rəhbəri vəzifəsində çalışmışdır.

2008-ci ildə Az.ETKTİ və Tİ-da "Yeni iqtisadi sistemdə aqroemal bazarının inkişafı və idarə edilməsinin təkmilləşdirilməsi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

2009-cu ilin sentyabr ayının 10-dan hal-hazıra kimi Sumqayıt Dövlət Universitetinin "Biznesin təşkili və idarə edilməsi" kafedrasında baş müəllim vəzifəsində çalışır. 2011-ci ildən etibarən dosentdir.

M.Hüseynovanın tədqiqatları əsasən aqroemal sahələrinin inkişafı, ərzaq məhsullarının ekoloji təhlükəsizliyi, aqroemal sahələrinin idarə olunması və inteqrasiyası məsələlərinə həsr olunmuşdur. 2,9 çap vərəqi həcmində 7 elmi məqalənin müəllifidir.



## Hüseynova Şəhla Akif qızı



Hüseynova Şəhla Akif qızı 1975-ci ildə Göyçay rayonunda anadan olmuşdur. 1981-ci ildə Şəki şəhər 8 saylı rus məktəbinin birinci sinfinə getmişdir. 1991-ci ildə Göyçay rayonu 3 saylı beynəlmiləl məktəbin rus bölməsini bitirmişdir.

1991-ci ildə Azərbaycan Texnologiya İnstitutuna daxil olmuşdur. 1996-cı ildə Azərbaycan Dövlət İqtisad Universitetinin "Qeyri-ərzaq malları əmtəəşünaslığı" ixtisasını fərqlənmə diplomu ilə bitirmişdir.

1996-2001-ci illərdə bitirdiyi institutda laborant, baş laborant, müəllim vəzifəsində işləmişdir. 2001-ci ildən isə «İqtisadi nəzəriyyə II» kafedrasında baş müəllim vəzifəsində çalışır.

2008-ci ildə Az.ETKTİ və Tİ-da 08.00.05 ixtisası üzrə alimlik dərəcəsi almaq üçün "Müxtəlif təsərrüfat formaları şəraitində ixtisaslı kadr hazırlığı və hazırlıq sistemlərinin təkmilləşdirilməsi" mövzusunda dissertasiya işi müdafiə etmişdir. 11.11.2009-cu ildə isə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülmüşdür. Dissertasiya işində əsasən müxtəlif təsərrüfat formaları şəraitində ixtisaslı kadr hazırlığı və hazırlıq sistemlərinin təkmilləşdirilməsi araşdırılmışdır. 41 çap vərəqi həcmində 26 elmi əsərlərin müəllifidir.

Ailəlidir, iki övladı var.

## Hüseynov Ramil Vəkil oğlu



Hüseynov Ramil Vəkil oğlu 1983-cü ildə Bakı şəhərində anadan olmuşdur.

2000-ci ildə Bakı şəhəri 20 saylı məktəb-litseyi fərqlənmə ilə bitirdikdən dərhal sonra, Azərbaycan Dövlət İqtisad Universitetinə daxil olmuş və 2004-cü ildə "Maliyyə-kredit" fakültəsini fərqlənmə diplomu ilə bitirərək bakalavr ali peşə dərəcəsini almışdır.

Elə həmin il Azərbaycan Dövlət İqtisad Universitetinin Magistr Hazırlıq Mərkəzinə daxil olmuş və 2006-cı ildə oranı fərqlənmə ilə bitirmişdir.

2007-cı ildə Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun aspiranturasına daxil olmuşdur.

2009-cu ildə Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun elmi şurasında dissertasiya işini müdafiə edərək iqtisad elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışdır.

2010-cu ildən Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlıq Agentliyində baş məsləhətçi işləyir.

Marketin tədqiqatları üzrə məqalələri Az.ETKTİ və Tİ-nin Elmi əsərləri, "İqtisadiyyat və Audut", "Azərbaycan Aqrar Elmi", AMEA-mı xəbərləri, «Проблемы экономики» və Azərbaycan Texniki Universitetinin Elmi əsərləri jurnallarında dərc olunmuşdur.

Ailəlidir, bir övladı var.



## Hüseynov Möhübbət Musa oğlu



Hüseynov Möhübbət Musa oğlu 26 fevral 1972-ci ildə İmişli rayonunun Ağaməmmədli kəndində anadan olmuşdur. 1979-1989-cu illərdə İmişli rayonu Ağaməmmədli kənd orta məktəbində orta təhsil almışdır. 1990-1992-ci illərdə hərbi xidmətdə olmuşdur. 1993-1998-ci illərdə Azərbaycan Kooperasiya İnstitutunda (indiki Azərbaycan Kooperasiya Universitetində) «Aqrar-sənaye kompleksi sahələrinin iqtisadiyyatı və idarə edilməsi» ixtisası üzrə bakalavr təhsili almışdır. 1998-2000-ci illərdə həmin institutun magistraturasını «İstehsalat və xidmət sahələrinin iqtisadiyyatı və idarə edilməsi» ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir.

2001-2006-cı illərdə Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun dissertantı olmuşdur. 2007-ci idə həmin insti-tutun ixtisaslaşmış Müdafiə Şurasında 08.00.05 – «Xalq təsərrüfatının iqtisadiyyatı və idarə edilməsi (kənd təsərrüfatı)» ixtisası üzrə «Sahibkarlığın inkişafı şəraitində əhalinin maddi rifah halının yaxşılaşdırılmasının iqtisadi mexanizminin təkmilləşdirilməsi» mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsini almışdır.

1989-1998-ci illərdə kənd təsərrüfatında müxtəlif vəzifələrdə çalışmışdır. 2001-2009-cu illərdə Azərbaycan Kooperasiya Universitetində laborant, müəllim və baş

müəllim vəzifələrində işləmişdir. 2010-2011-ci illərdə həmin universitetin «Kommersiya və beynəlxalq ticarət» kafedrasının müdiri vəzifəsində, 2012-ci ildən isə «Ekspertiza və kommersiya» fakültəsinin dekanı vəzifəsində işləyir. Eyni zamanda «Kommersiya və beynəlxalq ticarət» kafedrasında dosent kimi fəaliyyət göstərir. 30 elmi məqalə və tezisin, 5 fəndən tədris proqramının və 22 çap vərəqi həcmində «Azərbaycanda sahibkarlığın inkişafı və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətləri» adlı monoqrafiyanın müəllifidir.

Ailəlidir, bir övladı var.



## Xubanov Ceyhun Xalid-Paşa oğlu



Xubanov Ceyhun Xalid-Paşa oğlu, 1979-cu il may ayının 23-də Bakı şəhərində anadan olmuşdur. 1985-ci ildə Bakı şəhəri, 267 saylı orta məktəbin 1-ci sinfinə getmiş, 1996-cı ildə həmin məktəbi müvəffəqiyyətlə bitirmişdir. 1996-cı ildə Azərbaycan Texniki Universitetinə daxil olmuş, 2000-ci ildə fərqlənmə diplomu ilə «Nəqliyyatın iqtisadiyyatı və idarə edilməsi» ixtisasına yiyələnmişdir. 2000-ci ildə həmin universitetin magistratura şöbəsinə qəbul olmuş, 2002-ci ildə fərqlənmə diplomu ilə «İstehsalat və xidmət sahələrinin iqtisadiyyatı və idarə edilməsi (nəqliyyat üzrə)» ixtisası almışdır. 2003-2006-cı illərdə Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun aspirantı olmuşdur. 2006-cı il sentyabr ayının 21-də Az.ETKTİ və Tİ-da iqtisad elmləri namizədi alimlik dərəcəsi almaq üçün yaradılmış N.04.013 Dissertasiya Şurasında 08.00.05 – «Xalq təsərrüfatının iqtisadiyyatı və idarə edilməsi (kənd təsərrüfatı)» ixtisası üzrə dissertasiya işi müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır.

Əmək fəaliyyətinə 2003-cü ilin avqust ayında Azərbaycan Respublikası Dəmir Yol İdarəsinin «Azərdəmiryolservis» İstehsalat Birliyində başlamışdır. 2004-cü ildə Nəqliyyat Nazirliyi «Yolnəqliyyatservis» Departamenti, «Mülkiqurğularservis» MMC-də iqtisadçı vəzifəsində çalışmışdır. 2005-ci ildən hal-hazıradək Nəqliyyat Nazirliyi, «Azəryolservis» ASC, «Yol

qurğularının istismarı müəssisəsi» MMC-də baş iqtisadçı vəzifəsində çalışır.

Ailəlidir, iki övladı var.



## İbrahimov Mehman Cəfər oğlu



Mehman Cəfər oğlu İbrahimov 18 mart 1954-cü ildə Quba şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1971-ci ildə Quba şəhəri 2№li orta məktəbi bitirdikdən sonra D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun "İqtisadiyyat" fakültəsinə daxil olmuş və 1976-cı ildə təhsilini başa vuraraq iqtisadçı ixtisasına yiyələnmişdir.

1975-1980-cı illərdə Quba Aqrar-sənaye birliyində böyük iqtisadçı, plan-maliyyə şöbəsinin müdiri, 1981-1991-ci illərdə Azərbaycan KPMK-nın Quba rayon komitəsində təlimatçı, şöbə müdiri, 3-cü katib, 2-ci katib vəzifələrində işləmişdir. 1991-1999-cu illərdə köçürmə yolu ilə Quba rayonunun Zərdabi adına meyvəçilik sovxozuna rəhbərlik etmişdir. 1999-cu ildə Quba rayonu İcra hakimiyyəti başçısı vəzifəsinə təyin olunmuş və 2004-cü ilə kimi bu vəzifədə işləmişdir.

Uzun müddət Quba rayonunun kənd təsərrüfatına və doqquz il birbaşa respublikanın ən iri meyvəçilik təsərrüfatına rəhbərliyi sayəsində praktiki iş təcrübəsi onun tərəfindən "Kənd təsərrüfatının inkişaf istiqamətlərinin əsaslandırılması" mövzusunda dissertasiya işi yazmağa və 2007-ci ildə Az.ETKTİ və Tİ-də fəaliyyət göstərmiş müdafiə şurasında müvəffəqiyyətlə müdafiə etməyə imkan vermişdir.

İqtisad üzrə fəlsəfə doktoru M.İbrahimov 2.3 çap vərəqi həcmində beş elmi məqalənin müəllifidir.

Onun Az.ETKTİ və Tİ-nin Elmi əsərlərində çap olunmuş “Mövcud təsərrüfat formaları və onların təsərrüfat fəaliyyətinin səmərəliliyi” və “Kənd təsərrüfatında mülkiyyət tiplərinin nəzəri məsələləri”; Maliyyə və uçot jurnalında dərc olunmuş “Daxili bazar və onun tələbatı”; İqtisadiyyat və həyat jurnalında dərc olunmuş “Aqrar istehsalın aşağı səviyyəsini şərtləndirən amillər”; Azərbaycan Aqrar Elmi jurnalında dərc olunmuş “İstehsal resurslarından istifadə istiqamətlərinin əsaslandırılması” mövzularındakı məqalələri mühüm nəzəri və praktiki əhəmiyyətə malikdir.

M.İbrahimov hal-hazırda özəl bizneslə məşğul olur.





## İsgəndərov Faiq Bayraməli oğlu

İsgəndərov Faiq Bayraməli oğlu 1955-ci il martın 18-də Qazax şəhərində anadan olmuşdur.

1971-ci ildə Qazax şəhər 1 №-li orta məktəbini müvəffəqiyyətlə bitirərək, həmin il Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun (indiki Azərbaycan Dövlət Aqrar Universiteti) iqtisadiyyat fakültəsinə daxil olmuşdur. Fakültənin ilk Lenin təqaüdçüsü adına layiq görülmüş F.İsgəndərov, 1976-cı ildə həmin institutu fərqlənmə diplomu ilə bitirmişdir.

Əmək fəaliyyətinə Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda başlamışdır. 1978-1981-ci illərdə SSRİ KTN-nin Kibernetika İnstitutunda “Xalq təsərrüfatının (kənd təsərrüfatı) iqtisadiyyatı, planlaşdırılması və idarə edilməsinin təşkili” ixtisası üzrə aspiranturada təhsil almış və Ümumittifaq Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi Tədqiqat İnstitutunda dissertasiya müdafiə edərək, ona iqtisad elmləri namizədi elmi dərəcəsi verilmişdir.

Aspiranturanı bitirdikdən sonra 1981-1990-cı illərdə Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı

və Təşkili İnstitutunda kiçik elmi işçi, baş elmi işçi, şöbə müdiri vəzifələrində çalışmışdır.

Faiq İsgəndərovun ötən əsrin 80-ci illərində aqrar-sənaye inteqrasiyasının və təsərrüfatlararası kooperasiyanın inkişafı şəraitdə ixtisaslaşmanın və sahələrarası əlaqələrin təkmilləşdirilməsi istiqamətində təklif və elmi-metodiki tövsiyələri Ümumittifaq və Respublika nəşrlərində və məcmuələrdə öz əksini tapmışdır. Bu dövrdə F.İsgəndərov dəfələrlə keçmiş SSRİ-nin bir sıra şəhərlərində aqrar-sənaye inteqrasiyası və ixtisaslaşmanın aktual problemlərinə həsr olunmuş elmi-metodiki və praktiki konfrans və simpoziumlarda çıxış etmişdir. Göstərilən sahədə onun dəyərli təklifləri respublikanın meyvə-tərəvəzçilik və üzümçülük sahə komplekslərində müvafiq dövlət və rayon orqanları tərəfindən qəbul edilərək, istehsalata tətbiq olunmuşdur.

Faiq İsgəndərovun elmi potensialından təcrübədə daha səmərəli istifadə etmək məqsədilə 1990-cı ildə o, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mərkəzi aparatında məsul vəzifəyə irəli çəkilmişdir. Nazirliyin "Bazar iqtisadiyyatı" şöbəsinin rəisi kimi, onun fəal iştirakı ilə respublikada aqrar sahənin bazar iqtisadiyyatına keçid konsepsiyası hazırlanmış və respublika hökumətinə təqdim edilmişdir.

Aqrar islahatların hüquqi əsaslarının həyata keçirilməsi üzrə qabaqcıl təcrübəni öyrənmək məqsədilə o, Fransada, Kanadada, Almaniyada, İtaliyada, Yunanıstanda, Albaniyada, Belarus Respublikasında və s. ölkələrdə ezamiyyətdə olmuşdur.



F.İsgəndərovun bilavasitə iştirakı ilə respublikada aqrar sahənin islahatına dair ilk hüquqi sənədin - "Kəndli (fermer) təsərrüfatı haqqında" Azərbaycan Respublikası Qanunun layihəsi hazırlanmış və bu qanun ölkə parlamenti tərəfindən qəbul edilmişdir.

Həmin dövrdə respublikada köklü aqrar islahatlar aparılmasının, sovxoz və kolxozların torpaqlarının və əmlakının özəlləşdirilməsi əsasında kənddə sahibkarlığın inkişafının labüdlüyünün təbliğatçısı kimi F.İsgəndərovun təklifi ilə nazirliyin mərkəzi aparatında Aqrar islahatı baş idarəsi yaradılmış və o, həmin idarəyə rəis təyin olunmuşdu. F.İsgəndərovun fəal iştirakı ilə hazırlanan "Aqrar islahatının əsasları" və "Sovxoz və kolxozların islahatı haqqında" qanunların layihələri 1995-ci ildə Milli Məclis tərəfindən qəbul edilmişdir. Bundan əlavə o, «Torpaq islahatı haqqında» qanun layihəsinin, habelə aqrar islahatına dair bir sıra əsasnamə, qayda və digər hüquqi-normativ sənədlərin hazırlanmasında fəal iştirak etmişdir.

F.İsgəndərov uzun müddət Milli Məclisin aqrar siyasət komissiyasının eksperti olmuşdur. Azərbaycanda fermer hərəkatının təşəkkül tapmasında və inkişaf etdirilməsində xidmətlərinə görə F.İsgəndərov yarandığı gündən Azərbaycan Kəndli (fermer) Təsərrüfatları İttifaqının idarə heyətinə üzv seçilmiş və hal-hazırda həmin idarə heyətinin üzvüdür.

Faiq İsgəndərov respublikada həyata keçirilən aqrar islahatının nəticələrinin möhkəmləndirilməsi və dayanıqlı olması, yeni yaranan aqrar sahibkarların nümunəvi təsərrüfatlar kimi formalaşıb inkişaf etməsi məqsədi ilə

Avropa Birliyinin TACİS proqramı, Alman Texniki Əməkdaşlıq Cəmiyyəti (GTZ), BMT İnkişaf Proqramı (UNDP), BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Dünya Bankının Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondu (IFAD), Beynəlxalq İnkişaf Assosiasiyası və s. çərçivəsində beynəlxalq təşkilat və proqramlara Azərbaycanın cəlb edilməsi istiqamətində əvəzsiz xidmət göstərmişdir. Təsadüfi deyildir ki, bu sahədə təşəbbüskarlığını və işgüzarlığını nəzərə alaraq o, 1997-ci ildə KTN-nin mərkəzi aparatında Beynəlxalq əlaqələr idarəsinə rəis təyin olunmuşdur.

F.İsgəndərov Avropa Birliyinin MDB ölkələrinə texniki yardım (TACİS) proqramı üzrə beş layihənin, Alman Texniki Əməkdaşlıq Cəmiyyəti xətti ilə isə iki layihənin koordinatoru kimi məqsədyönlü fəaliyyət göstərmişdir.

Dünyanın inkişaf etmiş ölkələrində aqrar bölmənin bazar iqtisadiyyatı prinsipləri əsasında inkişafı barədə əldə edilmiş qabaqcıl təcrübənin öyrənilməsi üçün F.İsgəndərov respublikanın 200 nəfərdən çox aqrar sahə üzrə rəhbər, mütəxəssis, alim və sahibkarlarının Qərbi və Şərqi Avropa, Şimali Amerika, Yaxın, Orta və Uzaq Şərq ölkələrində konfrans, seminar və simpoziumlarda, müxtəlif kurslarda və sərgilərdə iştirakını təşkil etmişdir. Ən önəmlisi odur ki, bu səfərlərin böyük hissəsi xarici ölkə və beynəlxalq təşkilatların maliyyə vəsaiti hesabına həyata keçirilmişdir.

F.İsgəndərov Azərbaycanın aqrar sahədə əldə etdiyi nailiyyətlərin beynəlxalq aləmdə tanıdılmasında da öz əməyini əsirgəməmişdir. O, nüfuzlu beynəlxalq sərgilərdə



yeni formalaşmış milli aqrar sahibkarların iştirakını təşkil etmişdir.

2000-ci ildə Faiq İsgəndərov aqrar sahədə toplanmış yerli və beynəlxalq təcrübəni praktikada tətbiq etmək məqsədilə Dünya Bankı və Azərbaycan Hökuməti arasında əməkdaşlıq çərçivəsində təsis edilmiş Kənd Təsərrüfatında Özəl Bölmənin İnkişafına Yardım Agentliyinə (indiki Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi) məsul vəzifəyə təyin olunmuşdur.

Agentlikdə həyata keçirilən «Kənd təsərrüfatının inkişafı və kreditləşdirilməsi» layihəsinin icrası məqsədi ilə F.İsgəndərovun təşkilatçılığı ilə ölkə fermerlərinə və digər aqrar sahibkarlara zəruri biliklər verilməsi üzrə onlara məsləhət və informasiya xidməti göstərmək üçün bir sıra rayonlarda regional məsləhət mərkəzləri yaradılmış və bu mərkəzlər bu gün də müvəffəqiyyətlə fəaliyyət göstərirlər. Eyni zamanda fermerlər üçün aktual olan məlumatların onlara operativ qaydada çatdırılması üçün respublikamızda analoqu olmayan informasiya kampaniyaları həyata keçirilmişdir. Daha sonra F.İsgəndərov həmin layihədə Kənd Təsərrüfatı Siyasəti Qrupunun direktoru vəzifəsinə təyin olunmuş və ölkənin aqrar siyasəti və strategiyasının müəyyən edilməsi, həmin strategiyanın investisiya proqramı və maliyyə planı kimi məsul sənədlərin hazırlanmasına rəhbərlik etmişdir. Bu sənədlər respublikanın aidiyyatı nazirlikləri və habelə Dünya Bankı tərəfindən yüksək qiymətləndirilmışdir.

2006-2010-cu illərdə F.İsgəndərov BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Kənd Təsərrüfatı

Nazirliyi ilə birgə müvəffəqiyyətlə həyata keçirdiyi "Fermer təsərrüfatlarının məlumat və monitorinq sisteminin yaradılmasına kömək" texniki əməkdaşlıq layihəsində fəal iştirak etmişdir.

2009-cu ildən Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyində sektor müdiri, baş məsləhətçi vəzifələrində çalışan Faiq İsgəndərov ölkə və regional əhəmiyyətli dövlət proqramlarının və konsepsiyaların hazırlanmasında fəal iştirak edir. İqtisadi İnkişaf Nazirliyin nümayəndəsi kimi F.İsgəndərov, keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının Azərbaycan Respublikası vətəndaşları olan əmanətçilərə fərdi birdəfəlik ödəmələrin verilməsi üzrə Maliyyə Nazirliyinin nəzdində yaradılmış Xüsusi Komissiyanın üzvüdür.

Faiq İsgəndərov Almaniyada, İsraildə, Niderlandda, eləcə də ölkəmizdə bir sıra nazirlik, elmi mərkəzlər və elmi tədqiqat institutları tərəfindən təşkil olunmuş beynəlxalq konfranslarda, simpoziumlarda və seminarlarda aqrar siyasətin formalaşdırılması, ərzaq təhlükəsizliyi, aqrar sahədə sahibkarlıq fəaliyyətinin təşkili, aqromarketinq problemləri, aqrar kredit siyasəti və menecment mövzularında çıxış etmişdir. O, aqrar sənaye kompleksinin iqtisadiyyatı, idarə edilməsi, təşkili, kreditləşdirilməsi, aqromarketinq və s. problemlərə dair 50-dən çox broşura, məqalə, tövsiyə və sair elmi əsərlərin müəllifidir. F.İsgəndərov aqrar siyasətinin və aqrar islahatının prioritet istiqamətləri üzrə Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda elmi-tədqiqatlarını davam etdirir və bu mövzuda elmi məqalələrlə



mütəmadi olaraq çıxış edir. O, gənc aqrar-iqtisadçı alim kadrların hazırlanmasında da fəal içtirak edir.

F.İsgəndərov uzun müddət Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda ixtisaslaşdırılmış müdafiə şurasının üzvü olmuşdur.

F.İsgəndərov öz prinsipiallığı, tələbkarlığı, işgüzarlığı, nüfuzu ilə seçilən iqtisadçı-alim, öz işinə hədsiz sədaqətli, amalı uğrunda fədakar, xeyirxah və həssas insan, həm də qayğıkeş ata və ailə başçısıdır.

## Kərimov Akif Əkbər oğlu



Kərimov Akif Əkbər oğlu 1951-ci il avqustun 10-da Beyləqan şəhərində anadan olmuşdur. 1968-ci ildə Beyləqanda orta məktəbi, 1973-cü ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun əməyin iqtisadiyyatı və təşkili fakültəsini bitirmişdir. O, həmçinin 1982-ci ildə KP MK yanında iki illik Marksizim və Leninizm məktəbini bitirmişdir.

A.Kərimov 1969-cu ilin yanvar ayından 1979-cu ilin iyun ayınadək Azərbaycan SSR ət və süd sənayesi nazirliyinin əməyin təşkili və istehsalı idarəetmə mərkəzində böyük mühəndis, iqtisadçı, laboratoriya müdirinin müavini, laboratoriya və şöbə müdiri vəzifələrində çalışmışdır.

O, 1973-1974- cü ildə hərbi xidmətdə olmuşdur.

A.Kərimov 1979-cu ilin iyun ayından 1986-cı ilin oktyabr ayınadək Azərbayacan Dövlət Üzümçülük və Şərabçılıq komitəsində plan iqtisad idarəsinin rəisi vəzifəsində çalışmışdır.

O,1982-ci ildə "Əmək igidliyinə görə"medalı ilə təltif edilmişdir.

1986-cı ildə Respublikada kənd təsərrüfatı istehsalı və emalı, tikintisi və təchizatı ilə məşğul olan nazirliklər və dövlət komitələri birləşdirilərək Respublika Aqrar-sənaye kompleksi yaradıldı. A.Kərimovun bacarıqlı təşkilatçılığı nəzərə alınaraq Dövlət Aqrar-sənaye komitəsində sosial və iqtisadi inkişafın planlaşdırılması baş idarəsində rəis



müavini, az müddət keçdikdən sonra isə baş idarənin rəisi vəzifəsinə təyin edilmişdir. O, bu vəzifədə 1990-cı llədək çalışmışdır.

A.Kərimov 1990-1992-ci illərdə "Azərsığorta Azərbaycan Dövlət Sığorta Şirkəti"nin sədri vəzifəsində çalışmışdır.

A.Kərimov 1992-ci ildə Respublikada yeni yaradılmış Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyində nazir vəzifəsinə təyin olunmuşdur.

O, 1994-cü ildə Azərbaycan Respublikası Nazirlər Kabinetində regionlararası iqtisadi əlaqələr şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

A.Kərimov 1992-1996-cı illərdə Azərbaycan Respublikası Səhmdar Kommersiya Aqrar Sənaye Bankının Müşahidə Şurasınm sədri olub.

O, 1996-2006-cı illərdə Respublika Sığorta Cəmiyyətləri İttifaqınm prezidenti olmuşdur.

A.Kərimov 2008-ci ildə Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda Xalq təsərrüfatının iqtisadiyyatı və idarə edilməsi (kənd təsərrüfatı) ixtisası üzrə "Keçid iqtisadiyyatında səmərəli aqrar sığorta sisteminin formallaşması məsələləri" mövzusunda yazdığı dissertasiya işini müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsini almışdır. Bir neçə monoqrafiyanın və "Sığorta haqqında" kitabın müəllifidir.

A.Kərimov 1994-cü ildən bu günə qədər "Başak-İnam Sığorta Şirkəti" ASC-da Direktorlar Şurasının sədri vəzifəsində çalışır.

Evlidir, iki övladı var.

# Qasımlı Vüsal Əfras oğlu



Qasımlı Vüsal Əfras oğlu 1975-ci il aprelin 7-də İmişli şəhərində doğulmuşdur. Orta məktəbi əla qiymətlərlə bitirib, ən yüksək balla Azərbaycan Dövlət İqtisad Universitetinə daxil olmuşdur. Vüsal Qasımlı iqtisad üzrə fəlsəfə doktorudur. Onun ikinci ixtisası Gürcüstan İctimai Əlaqələr İnstitutundan (Luiziana Dövlət Universiteti proqramı çərçivəsində) aldığı jurnalistika üzrə magistr dərəcəsidir. Vüsal Qasımlı ANS-Press Nəşriyyat Evinin Prezidenti, Avropa İttifaqının eksperti vəzifələrində işləmişdir. Hazırda V.Qasımlı Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzində çalışır. O, Azərbaycan Dövlət İqtisad Universitetində Xüsusi İstedadlar Qrupu və MBA-də pedaqoji fəaliyyətlə məşğuldur. Vüsal Qasımlı Vaşinqton Universiteti, Varşava Universiteti və bir sıra digər nüfuzlu xarici universitetlərdə məruzələrlə çıxış etmişdir. Onun tədqiqat sahəsi makroekonometrika, beynəlxalq iqtisadi münasibətlər və aqrar iqtisadiyyatdır.

Vüsal Qasımlının "Valyutamagedon: beynəlxalq maliyyə arxitekturasının məhək daşı" adlı təhlil yazısı "G-Global platformasının ən yaxşı məqaləsi" nominasiyasında pul mükafatı və diplomla təltif olunub.



İqtisadçı alim ingilis, rus və Azərbaycan dillərində 10 kitabın və 500-ə qədər elmi əsər və analitik məqalənin müəllifidir.

Hazırda V.Qasımlı Az.ETKTİ və Tİ-da elmlər doktoru hazırlığı üzrə doktorantura təhsili alır.

## Qafarov Nizami Cəlal oğlu



Nizami Cəlal oğlu Qafarov 1958 –ci ildə Dərələyəz mahalının Köçbəy kəndində anadan olub. 1981 –ci ildə Bakı – Plan Uçot Texnikumunu, 1986 – ci ildə Naxçıvan Dövlət Pedoqoji İnstitutunu, 1997 –ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin "Uçot – İqtisad" fakültəsini, 2002- ci ildə Dağıstan Dövlət Universitetinin hüquq fakultəsini bitirib. 1980 -1988 –ci illərdə sovxozda mühasib, baş mühasib işləyib. 1988 – 1994 – cü illərdə Şuşa kənd təsərrüfatı texnikumunda iqtisadi fənlər kafedrasında müəllim, baş müəllim vəzifələrində çalışıb. 1997- 2002 - ci illərdə Az. ETKTİ və Tİ - nun dissertantı olub. "Aqrar sahədə kiçik və orta biznesin iqtisadi səmərəliliyinin yüksəldilməsi istiqamətləri" mövzusunda yazdığı dissertasiya işini 2006 –cı ildə müdafiə edib və iqtisad elmləri namizədi elmi adına layiq görülüb. 1997 – 2006 –ci illərdə Dağıstan Dövlət Universitetinin Bakı filialında "İqtisadi fənlər kafedrasında baş müəllim, dosent, kafedra müdiri və direktor müavini vəzifələrində işləyib. 2008 -ci ildə Azərbaycan Kooperasiya Universitetinin "Marketinq və turizm xidməti" kafedrasının müdiri vəzifəsinə seçilib və hal – hazırda da orada çalışır. 2010 –cu ildə AR Prezidenti yanında AAK-sı tərəfindən dosent elmi adı verilib. 50 – dən çox elmi məqalənin, 2 monoqrafiyanın, 2 dərsliyin, 9 fənn proqramı və metodiki göstərişlərin müəllifidir. YAP –ın üzvüdür.



## Qəhrəmanov Eldar Əvəz oğlu



Qəhrəmanov Eldar Əvəz oğlu 1948-ci ildə Oğuz şəhərində anadan olmuş, 1 nömrəli Oğuz şəhər orta məktəbini bitirmiş, 1966-cı ildə M.Qorki adına Türkmənistan Dövlət Universitetinin "İqtisadiyyat" fakültəsinə qəbul olunmuşdur. Türkmənistan Respublikası Mərkəzi Statistika İdarəsi sistemində fəhlə, mexanik təsərrüfat müdiri, sənaye, nəqliyyat və rabitə statistikası şöbəsində iqtisadçı vəzifəsində işləmişdir. 1971-1973-cü illərdə Oğuz Kolxozlararası Tikinti İdarəsində inşaat texniki, mühasib və iqtisadçı vəzifələrində çalışmışdır. 1974-cü ildə Oğuz rayon Məlumat-Hesablama Stansiyasının rəisi vəzifəsinə təyin olunmuş, 1978-ci ildə Azərbaycan Respublikası Mərkəzi Statistika İdarəsi kollegiyasının qərarı ilə Bakıya dəvət edilmiş və mərkəzi aparatda "Kənd təsərrüfatı statistikası" şöbəsinin rəisi vəzifəsinə təyin edilmiş, 1979-cu ildə kollegiya üzvü seçilmişdir.

1981-ci ildə Azərbaycan KP MK-nın aparatına işə dəvət edilmiş və 1989-cu ilin aprel ayınadək burada Kənd təsərrüfatı və yeyinti sənayesi şöbəsində əvvəlcə təlimatçı, sonra isə elm və iqtisadiyyat bölməsinin müdiri vəzifələrində çalışmışdır.

1990-cı ildə Bakı Politologiya İnstitutunda qiyabi təhsilini başa çatdırmış və politoloq ixtisasına yiyələnmişdir.

1989-cu ildən 1996-cı ilədək Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin birinci müavini

vəzifəsində çalışmış, respublikada milli statistikanın konsepsiyasının, onun hüquqi bazasının yaradılmasının təşəbbüskarı və əsas icracısı olmuşdur. Bu illər ərzində statistikanın metodoloji bazasının beynəlxalq təcrübəyə uyğunlaşdırılmasına, onun rəsmi və etibarlı beynəlxalq ünsiyyət vasitəsinə çevrilməsi prosesinə rəhbərlik etmişdir.

1994-cü ildə Vyana Birləşmiş İnstitutunda bazar iqtisadiyyatı şəraitində idarəetmənin makroiqtisadi problemləri üzrə hazırlıq kursu keçmişdir. Dövlət Aqrar İslahat Komissiyasının, habelə Milli Məclisin Aqrar Siyasət Komissiyasının ekspert qrupunun üzvü olmuşdur

1996-cı ildə Azərbaycan Dövlət Statistika Komitəsi sədrinin birinci müavini vəzifəsindən istefa vermiş və 57 saylı Bərdə-Ağcabədi seçki dairəsindən Azərbaycan Respublikasının Birinci çağırış Milli Məclisinə deputat seçilmişdir.

E. Qəhrəmanov 2000-ci ildə Azərbaycan Respublikası İkinci çağırış Milli Məclisinə seçkilərdə 80 saylı Oğuz - Şəki - Qəbələ seçki dairəsindən Yeni Azərbaycan Partiyasının namizədi olaraq deputat seçilmişdir. Birinci və ikinci çağırış Milli Məclisinin deputatı kimi Aqrar siyasət daimi Komissiyanın sədr müavini, MDB Parlamentlərarası Assambleyasının Sosial Siyasət və İnsan Hüquqları Komitəsinin sədri vəzifəsində fəaliyyət göstərmiş, 1996-2000-ci illərdə Milli Məclisin Rusiya Dövlət Duması, 2000-ci ildən isə Küveyt parlamenti ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri olmuşdur.

Eldar Qəhrəmanov Azərbaycan Milli Məclisini parlamentlərarası əlaqələrdə, beynəlxalq konfranslarda və



seminarlarda layiqincə təmsil etmiş, bu tədbirlərdə yüksək peşəkarlıq və siyasi hazırlıq nümayiş etdirmişdir.

2000-ci ildə iqtisad elmləri namizədi alimlik dərəcəsi almaq üçün «Aqrar bölmədə təsərrüfatların təşkilati-iqtisadi əsaslandırılması» mövzusunda üçün dissertasiya müdafiə etmişdir. Apardığı elmi araşdırmaların əsas nəticələri Az.ETKTİ və Tİ-da keçirilən «Bazar iqtisadiyyatına keçid şəraitində torpaq münasibətləri: təcrübə problemlər» mövzusunda (Bakı, 1997-ci il) elmi- praktik seminarlarda; Azərbaycan EA-nın Elm və Təhsil mərkəzinin, «Təfəkkür Universitetinin və Azərbaycan İqtisadçılar İttifaqının təşkil etdikləri «Azərbaycan XXI əsrin astanasında» elmi-praktik konfranslarında (Bakı, 1997 və 1998-ci illərdə); Türkiyə İqtisadi Əməkdaşlıq Agentliyinin təşkilatçılığı ilə Bilkənd Universitetinin iqtisadiyyat bölməsində «iqtisadiyyatda son yeniliklər, Azərbaycan və Türkiyə iqtisadiyyatları» mövzusunda keçirilən seminarda (Ankara, noyabr 1997-ci il); Almaniya Federativ Respublikasının Mərkəzi və Şərqi Avropada aqrar inkişaf institutunun və BMT-nin Ərzaq Məsələləri və Kənd Təsərrüfatı təşkilatının «Mərkəzi və Şərqi Avropada torpaq mülkiyyəti, torpaq bazarı və onların aqrar istehsalın səmərəliliyinə təsiri» mövzusunda beynəlxalq elmi konfranslarda (AFR, Hale şəhəri, may 1999-cu il); ADKTA- nın 70 illiyinə həsr olunan elmi konfransda (Gəncə, 1999- cu il) müəllif tərəfindən məruzə edilmiş və müvafiq külliyatlarda dərc olunmuşdur.

Müəllifin tədqiqat işinin nəticələrindən irəli gələn və daha çox praktik əhəmiyyət kəsb edən təklifləri Azərbaycan

Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən istifadə üçün qəbul olunmuşdur.

E.Qəhrəmanov hazırda "Azərbaycan" Universitetinin rektoru vəzifəsində çalışır.



## Musayev Məmməd Qurban oğlu



Məmməd Qurban oğlu Musayev 1955-ci ildə anadan olub. 1976-cı ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu fərqlənmə diplomu ilə bitirib, 1976-1984-cü illərdə SSRİ Dövlət Bankının Azərbaycan Kontorunun Mərkəzi aparatında işləyib. 1984-cü ildən Dövlət Bankının Qaradağ şöbəsinin müdiri, 1988-ci ildən Aqrar Sənaye Bankının Əməliyyat İdarəsinin rəisi, 1992-ci ildən 2001-ci ilə kimi Azərbaycan Respublikası Səhmdar Kommersiya Aqrar Sənaye Bankınm, 2001-ci ildən hal-hazıradək isə "Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə heyətinin sədri vəzifəsində çalışır.

Bank sistemində çalışdığı 26 ilin son 15 ilini aqrar sektor üzrə ixtisaslaşmış bankın rəhbəri vəzifəsində çalışmışdır. 1998-ci ildə "Aqrar-Sənaye Kompleksi sistemində iqtisadi münasibətlərin təkmilləşdirilməsi" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi almağa layiq görülmüşdür. Peşəkar alim kimi respublikanm elmi və dövri mətbuatında mütəmadi olaraq çıxış edir, "Aqrar islahatı prosesində bank kreditindən istifadənin səmərəliliyi", "Aqrar bölmədə iqtisadiyyatın sağlamlaşdırılmasında kreditin rolu", "Bazar iqtisadiyyatı şəraitində kreditdən istifadənin səmərəliliyinin yüksəldilməsi", "İqtisadiyyat və Aqrar Sənaye Bankının problemləri",

"Məqsədimiz bank sistemini beynəlxalq standartlara uyğun yenidən qurmaqdır" və s. bu kimi elmi məqalələrin müəllifidir.

M.Q.Musayev Azərbaycan müstəqillik əldə etdikdən sonra respublikanın maliyyə-bank sisteminin dünya standartlarına uyğun yenidən qurulması və təkmilləşdirilməsi sahəsində qanunvericilik bazasının yaradılmasında yaxından iştirakçı olmaqla bərabər bu qanunların həyata keçirilməsini təmin edən bank rəhbərlərindən biridir.

M.Q.Musayev Respublika Dövlət Aqrar İslahatlar Komissiyasının və Kənd Təsərrüfatında Özəl Təsərrüfatların formalaşdırılmasına yardım üzrə Dövlət Komissiyasınm üzvü olmaqla, Aqrar sahədə sahibkarlığın inkişafı və Dünya Bankının "Təsərrüfatların Özəlləşdirilməsi layihəsi" çərçivəsində 6 rayonda özəl kəndli (fermer) təsərrüfatı yaradılmasınm həyata keçirilməsi, bu təsərrüfatların inkişafı üçün onların maliyyə vəsaiti ilə təmin olunmaları istiqamətində səmərəli iş aparır ki, bu da nəticədə Respublikada istehsal olunan kənd təsərrüfatı məhsullarmın xüsusi çəkisinin artmasına xidmət edir. Onun rəhbərliyi altında respublikada ilk dəfə olaraq "Azərbaycanda kənd təsərrüfatı sahələrinin kreditləşdirilməsinin standart şərtləri" adlı qaydaları hazırlanmışdır.

Sənaye komitəsi Aqrar-Sənaye Bankının beynəlxalq əlaqələrinin qurulması və inkişafı, mütərəqqi dövlətlərdə kənd təsərrüfatı üzrə bank və sığorta sahəsində mövcud olan yeni texnologiyaların və üsulların Respublikada tətbiq olunması M.Musayevin adı ilə bağlıdır. Onun təşəbbüsü ilə 1995-ci ildə Türkiyə və digər dövlətlərdə kənd



təsərrüfatının maliyyələşdirilməsi üzrə ixtisaslaşmış "Ziraat" Bankla, SK Aqrar- Sənaye Bankınm təsisçi olduğu "Azər-Türk" Bankı və Türkiyənin ən böyük sığorta şirkətlərindən biri olan "Başak" sığorta şirkəti ilə birgə "Başak-İnam" sığorta şirkəti yaradılmışdır. Bunlar da hər iki ölkənin iqtisadiyyatının inkişafında mühüm rol oynayırlar.

Hazırda M.Musayevin rəhbərlik etdiyi "Aqrarkredit" QSO Bank olmayan Kredit Təşkilatı Ümumdünya Bankı, Beynəlxalq Valyuta Fondu , Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya və Sakit Okean ölkələrinin kənd təsərrüfatı assosasiyası "Arqaka", İslam İnkişaf Bankı və digər Beynəlxalq Maliyyə təşkilatları ilə əməkdaşlıq edərək Respublikanın Bank bazarında özünün əvvəlki mövqeyinin möhkəmləndirilməsi sahəsində əməli iş apararaq kənd təsərrüfatı sahələrinin kreditləşdirilməsində fəal iştirak etməkdədir.

2010-cu ildən paralel olaraq Azərbaycan Respublikası “Sahibkarlar Konfederasiyasının” sədri seçilən M.Musayev öz yeni fəaliyyətində də bir alim kimi səriştəlik nümayiş etdirir, ölkədə və xarici müstəvidə nüfuz sahibinə çevrilmişdir.

## Əsgərov Abdulla Çingiz oğlu



Əsgərov Abdulla Çingiz oğlu 20 fevral 1962-ci ildə Gəncə şəhərində anadan olmuşdur. 1979-cu ildə Gəncə şəhəri 4№-li orta məktəbi bitirmiş, 1980-ci ildə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının "Kənd təsərrüfatının iqtisadiyyatı və təşkili" fakültəsinə qəbul olunmuş, 1985-ci ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirərək, "iqtisadçı" ixtisası almışdır.

Əmək fəaliyyətinə 1984-cü ildən başlamışdır. Hələ tələbə olarkən 1984-1985-ci illərdə Azərbaycan Kəndə Təsərrüfatı Akademiyasının komsomol komitəsi katibinin müavini, 1986-1988-ci illərdə həmin Akademiyanın Həmkarlar Komitəsinin sədri vəzifələrində işləmişdir. 1988-1997-ci illərdə Azərbaycan Kəndə Təsərrüfatı Akademiyasının "İqtisadiyyat" fakültəsində assistent vəzifəsində çalışmışdır.

1998-2001-ci illərdə "XXI əsr Yeni nəşrlər evi"ndə baş redaktorun köməkçisi olmuş, 2001-2004-cü illərdə "Müasir Təhsil Kompleksi"ndə təsərrüfat işləri üzrə direktor müavini vəzifələrində işləmişdir. 2004-cü ildən hal-hazıra kimi "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədri vəzifəsində çalışır.

Əsgərov Abdulla Çingiz oğlu 2007-ci ildə Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun dissertantı olmuş, 2010-cu ildə "Aqrar



istehsalın intensiv inkişafının iqtisadi-ekoloji səmərəliliyi" mövzusunda dissertasiya müdafiə edib, iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi adını almışdır.

Əsgərov A.Ç. aqrar sahənin iqtisadiyyatına dair respublikada və xaricdə keçirilən elmi-praktik konfranslarda iştirak və çıxışlar etmişdir. Onun 10-dan artıq elmi məqaləsi (2-si xaricdə olmaqla), "Aqrar istehsalın intensiv inkişafının iqtisadi-ekoloji prioritetləri" adlı monoqrafiyası, 30-a qədər publisistik məqalələri nüfuzlu elmi nəşrlərdə və qəzetlərdə dərc edilmişdir.

## Quliyev Vasif Məmmədqulu oğlu



Vasif Məmmədqulu oğlu Quliyev 05 yanvar 1972-ci ildə Masallı rayonunun Təzə Alvadı kəndində ziyalı ailəsində anadan olmuşdur. 1979-1989-cu illərdə Təzə Alvadı kənd orta məktəbində təhsil alaraq oranı əla qiymətlərlə bitirmişdir. 1990-1992-ci illərdə hərbi xidmətdə olmuşdur. Əmək fəaliyyətinə 1989-cu ildən, elmi fəaliyyətə isə 1992-ci ildən başlamışdır. 1992-1997-ci illərdə Azərbaycan Memarlıq və İnşaat Universitetində "Tikintinin iqtisadiyyatı və idarə edilməsi" ixtisası üzrə əyani təhsil alaraq universiteti əla qiymətlərlə bitirmişdir. 1997-ci ildə "Rabitə" ATSC-də iqtisadçı mühəndis, 1998-ci ildə Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda elmi işçi, aparıcı elmi işçi, baş elmi işçi, "Marketinq xidmətinin təşkili və menecment" şöbəsinin müdiri vəzifəsində işləmişdir. 1998-ci ildə Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda aspiranturaya daxil olmuş və "Aqrar-sənaye kompleksi sistemində səmərəli idarəetmə strukturlarının formalaşdırılması problemləri" mövzusunda namizədlik dissertasiyasını vaxtından əvvəl (2000-ci ildə) müdafiə etmişdir. 2003-cü ildə iqtisad elmləri namizədi, 2006-cı ildə dosent, Azərbaycan Respublikasının ikinci dərəcəli dövlət qulluqçusu adına layiq görülmüşdür. Xalq təsərrüfatının və onun sahələrinin iqtisadiyyatı, planlaşdırılması və idarə



edilməsinin təşkili sahəsində, menecment, marketinq və s. üzrə iki kitabın, 40-dan çox elmi məqalənin müəllifidir. Azərbaycan dili ilə yanaşı, rus, ingilis, polyak və türk dilini bilir. Ailəlidir iki övladı var. Yeni Azərbaycan partiyasınm üzvüdür.

## Quliyev Vaqif Məhərrəm oğlu



Quliyev Vaqif Məhərrəm oğlu 1950-ci ilin noyabr ayının 10-da Gürcüstan Respublikası Bolnisi rayonunun Ayorta kəndində anadan olmuş, 1968-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olmuş, 1972-ci ildə həmin institutun Uçot-İqtisad fakultəsini bitirmişdir.

İnstitutu bitirdikdən sonra bir müddət Azərbaycan Dövlət Əmək Əmanət Kassaları İdarəsində təftişçi-mühasib işləmiş, 1972-1973-cü illərdə hərbi xidınətdə olmuşdur.Hərbi xidməti başa vurduqdan sonra Quliyev V.M. 1974-cü ildən 1976-cı ilə qədər Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda (Az.ETKTİ və Tİ) işləmiş, 1976-cı ildə həmin institutda əyani aspiranturaya daxil olmuş və təhsilini davam etdirmək üçün Moskva şəhərinə – Ümumittifaq Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı İnstitutuna ezam olunmuşdur.

1981-ci ildə həmin institutda dissertasiya müdafiə edərək, iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır.

Aspiranturada təhsilini başa vurduqdan sonra Quliyev V.M. Az.ETKTİ və Tİ-yə qayıtmış, 1988-ci ilə qədər həmin institutda elmi işçi, Elmi Katib və şöbə müdiri vəzifələrində işləmişdir.

1988-ci ildə müsabiqə yolu ilə Azərbaycan Dövlət İqtisad Universitetinə müəllim keçmiş, hal-hazırda da həmin



institutun «Mühasibat uçotu» kafedrasının dosenti vəzifəsində işləyir. Müxtəlif dövrlərdə o, «Uçot-iqtisad» fakültəsinin dekan müavini vəzifəsini icra etmişdir.

Quliyev V.M. ölkədə uçot və hesabatın yenidən qurulması, onların beynəlxalq praktikaya uyğunlaşdırılması, tədris prosesinin yeni sistemə uyğunlaşdırılması sahəsində fərdi fəaliyyət göstərmişdir.

V.M.Quliyev AR Nazirlər Kabinetinin 25 avqust 2005-ci il tarixli 250 nömrəli qərarı ilə Azəraycan Respublikasının Mühasibat Uçotu üzrə Məsləhət Şurasının üzvü seçilmişdir.

O, bir neçə dərsliyin, tədris vəsaitinin, çoxlu sayda proqramların, metodik göstərişlərin və 70-dən çox məqalənin müəllifidir. O, uçot-hesabat sahəsində və digər sahələr üzrə keçirilən bir çox yerli və beynəlxalq konfransların fəal iştirakçısı olmuş, maraqlı və aktual problemlərə dair məruzələrlə çıxış etmişdir.

Quliyev V.M. ailəlidir, iki övladı var.

## Mahmudova Sədaqət Mikayıl qızı



Mahmudova Sədaqət Mikayıl qızı 1946-cı ildə Salyan rayonunda qulluqçu ailəsində anadan olub. 1964-cü ildə M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutuna daxil olub, 1970-ci ildə həmin institutu bitirib, mühəndis iqtisadçı ixtisası almışdır.

1966-cı ildə Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda laborant vəzifəsinə qəbul olunmuşdur. 1970-ci ildən 1976-cı ilə qədər «Kənd təsərrüfatının ixtisaslaşdırılması və yerləşdirilməsi» şöbəsində kiçik elmi işçi vəzifəsində işləmişdir. 1976-cı ilin mart ayında həmin institutun əyani aspiranturasına daxil olub, 1980-ci ildə aspiranturanı bitirmişdir. 1982-ci ildə dissertasiya işini müdafiə edib iqtisad elmləri namizədi alimlik dərəcəsi adı almışdır. Aspiranturanı bitirdikdən sonra həmin şöbədə baş elmi işçi vəzifəsində işləmişdir. 25 elmi əsərin müəllifi olan S.Mahmudova uzun müddət institutun elmi şurasının üzvü olmuşdur.

2008-ci ildə dünyasını dəyişmşdir.



## Mirzəyeva Hicran Əmirxan qızı



Mirzəyeva Hicran Əmirxan qızı 1979-cu ildə sentyabrın 4-də Sumqayıt şəhərində anadan olmuşdur. 1986-1996-cı illərdə Sumqayıt şəhər T.İsmayılov adına 29 saylı orta məktəbi bitirmişdir. 1997-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin "Ərzaq mallarının əmtəəşünaslığı" fakültəsinə daxil olmuş, 2001-ci ildə bakalavr pilləsini başa vurmuş, həmin ildə Azərbaycan Dövlət İqtisad Universitetinin magistraturasına daxil olmuş və 2003-cü ildə magistr dərəcəsi almışdır. 2003-2009-cu illərdə Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatınm İqtisadiyyatı və Təşkili İnstitutunda böyük elmi işçi, aparıcı elmi işçi, kadr işləri üzrə baş mütəxəssis, "Ümumi" şöbənin müdiri vəzifələrində işləmişdir.

2009-2010-cu illərdə Azərbaycan Respublikası Auditorlar Palatasında aparıcı mütəxəssis və baş mütəxəssis, 2010-cu ildə isə "Aqrarkredit" Qapalı Səhmdr Cəmiyyətində mühasib vəzifəsində işləmişdir.

2004-cü ildə Az.ETKTİ və Tİ-da dissertanturaya qəbul olmuş və 2010-cu ildə həmin institutda fəaliyyət göstərən ixtisaslaşdırılmış dissertasiya şurasında namizədlik işini müdafiə edərək iqtisad üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almışdır. Bu müddətdə respublika və xarici ölkələrin nüfuzlu nəşrlərində 20-dən çox elmi məqaləsi dərc olunmuşdur.

2010-cu ildən Azərbaycan Əmək və Sosial Münasibətlər akademiyasında akademik məsləhətçisi, 2011-ci ildən isə "İqtisadiyyat və inzibati idarəetmə" fakültəsinin dekanı vəzifəsində işləyir.



## Nəcəfova Vəfa Qurban qızı



Nəcəfova Vəfa Qurban qızı 1975-ci ildə Siyəzən şəhərində anadan olmuşdur. 1992-ci ildə Siyəzən şəhər 1 saylı orta məktəbi bitirdikdən sonra 1992-ci ildə Azərbaycan Dövlət İqtisad İnstitutunun "Uçot-iqtisad" fakültəsinin "Mühasibat uçotu, nəzarət, TFT" şöbəsinə daxil olmuş, 1997-ci ildə təhsilini fərqlənmə diplomu ilə başa vuraraq iqtisadçı ixtisasına yiyələnmişdi. 1997-ci – 2010 –cu illərdə AZ.ETKTİ və Tİ elmi işçi, böyük elmi işçi, aparıcı elmi işçi vəzifəsində çalışmışdır. 2002-2006- cı illərdə Az.ETKTİ və Tİ – nun "Xalq təsərrüfatının iqtisadiyyatı və idarə edilməsi" ixtisası üzrə aspiranturada təhsil almışdır. 2009- cu ildə "Sahibkarlığın inkişaf problemləri" mövzusunda dissertasiya işini müdafiə edərək, iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. 2009-cu ildən Bakı Biznes Universitetinin "Maliyyə" və Azərbaycan Turizm İnstitutunda "İqtisadiyyat" kafedrasında müəllimə işləyir.

V.Nəcəfova 6,8 çap vərəqi həcmində 15 məqalənin və bakalavr pilləsi üzrə 3 fənn proqramınm müəllifidir.

Ailəlidir, bir oğlu, bir qızı var.

## Novruzova Fidan Nəbi qızı



Novruzova Fidan Nəbi qızı 1982-ci ildə Bakı şəhərində anadan olmuşdur.

1989-1999-cu illərdə 134 nömrəli məktəbdə təhsil almış və həmin il Azərbaycan Texniki Universitetinin "İnformatika və hesablama texnikası" fakültəsinə daxil olmuş, sonra təhsilini Azərbaycan Dövlət İqtisad Universitetində davam etdirmiş və 2004-cü ildə universitetin bakalavr pilləsi üzrə bitirmişdir.

Əmək fəaliyyətinə 2002-ci ildə AMEA-nın İqtisadiyyat İnstitutunda lobarant vəzifəsi ilə başlamışdır. 2007-ci ildə ADİU-nin magistraturasını fərqlənmə diplomu ilə bitirmişdir.

2010-cu ildə Az.ETKTİ və Tİ-da "Azərbaycanda aqrar-sənaye kompleksində maliyyə-sənaye qruplarının inkişafı məsələləri" mövzusunda dissertasiya işini müdafiə edərək iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışdır.

Dissertasiya mövzusu ilə əlaqədar 3,5 çap vərəqi həcmində 10 məqalə və tezisi dərc olunmuşdur.

Hazırda Azərbaycan Respublikası Vergilər Nazirliyinin xidmət idarəsində 2-ci dərəcəli böyük dövlət müfəttişi vəzifəsində işləyir.



## Rüstəmov Rövşən Mürvət oğlu



Rüstəmov Rövşən Mürvət oğlu 1980-ci il 06 oktyabrda İmişli rayonunun Cəfərli kəndində anadan olmuşdur. 1995-ci ildə Cəfərli kənd orta məktəbində 9-cu sinfi bitirdikdən sonra, orta təhsilini Bakı şəhəri, 1 saylı Fizika-riyaziyyat və informatika təmayüllü liseydə başa vurmuşdur.

1997-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "İnzibati idarəetmə" fakültəsinə ("Dövlət və bələdiyyə idarəetməsi" ixtisası üzrə) daxil omuşdur. 2001-ci ildə Akademiyanı fərqlənmə diplomu ilə bitirmiş və eyni ildə həmin Akademiyanın "İnzibati idarəetmə" fakültəsinin ("İqtisadiyyatın hüquqi tənzimlənməsi" ixtisası) magistraturasına daxil olmuşdur. 2003-cü ildə Akademiyanı fərqlənmə diplomu ilə bitirərək magistr elmi dərəcəsi almışdır. Bundan sonra təhsilini davam etdirərək, 2005-ci ildə Azərbaycan Respublikası Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun aspiranturasına daxil olmuşdur. 29.11.2007-ci ildə isə "Aqrar sahənin davamlı inkişafının tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi istiqamətləri" mövzusunda dissertasiya işi müdafiə edərək iqtisadiyyat üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. Hal-hazırda "Davamlı inkişafın aktual problemləri və tənzimlənməsi istiqamətləri" mövzusunda monoqrafiya üzərində çalışır.

R.Rüstəmov əmək fəaliyyətinə 2002-ci ildə jurnalist kimi başlamış və 2004-cü ilə qədər bir sıra aparıcı mətbu orqanlarda iqtisadiyyat sahəsi üzrə analitik məqalələrin yazılması və təhlillərin aparılması ilə məşğul olmuşdur. 2004-cü ilin iyul aymdan əmək fəaliyyətini Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətində davam etdirmiş və burada iqtisadçı, şöbə müdirinin müavini, şöbə müdiri vəzifələrində çalışmışdır. "Azərpoçt" MMC-də çalışdığı 8 ilə qədər müddət ərzində bir sıra digər funksiyaların icrasına da yaxından cəlb olunmuş, eləcə də 2005-2010-cu illərdə Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında imzalanmış "İnkişaf krediti haqqında" Sazişin (Maliyyə xidmətlərinin inkişafı layihəsinin) əsas icraçılarından biri, bu saziş çərçivəsində Avtomatlaşdırılmış Korporativ İnformasiya Sistemi layihəsinin texniki direktoru, 5-dən artıq işçi qrupun rəhbəri olmuşdur. 2012-ci ilin 14 fevral tarixindən indiyədək isə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin "Azərkosmos" ASC-də Korporativ idarəetmə üzrə baş mütəxəssis vəzifəsində çalışır.

Ailəlidir, 1 övladı var.



## Rzayev Vəli Rza oğlu



Vəli Rza oğlu Rzayev 1958- cildə Şalbuz rayonunun Türkeş kəndində anadan olmuşdur. 1975-ci ildə Şalbuz qəsəbə orta məktəbini bitirmişdir. 1975-77-ci illərdə sovxozda fəhlə işləmişdir.

1977-1979-cu illərdə hərbi xidmətdə olmuşdur. 1980-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna (indiki İqtisad Universitetinə) daxil olub, 1984-cü ildə həmin institutu fərqlənmə diplomu ilə bitirmişdir. 1984-cü ildən 1991-ci ilin noyabr ayınadək Naxçıvan Muxtar Respublikasının Meyvə-tərəvəz ASB-də, Dövlət Aqrar Sənaye Komitəsində, Təsərrüfat hesablı Üzüm Emalı Birliyində, Kənd Təsərrüfatı və Ərzaq Nazirliyində böyük mühasib, baş iqtisadçı, böyük iqtisadçı, aparıcı iqtisadçı, baş mütəxəssis, şöbə rəisi vəzifələrində işləmişdir.

1991-ci ilin noyabr ayından 1996-cı ilə kimi Naxçıvan MR Kənd Təsərrüfatı və Ərzaq Nazirliyində nazirin iqtisadi məsələlər üzrə müavini vəzifəsində, 1996-2004-cü illərdə Naxçıvan MR Nazirlər Kabinetində "Aqrar-sənaye sahələri" şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 2004-cü ilin avqust ayından Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda böyük elmi işçi vəzifəsinə təyin olunmuşdur. Haliyyədə həmin vəzifədə çalışır.

2006-cı ildə Naxçıvan MR-nın materialları əsasında "Torpaq münasibətlərinin təşkilati-iqtisadi mexanizminin

təkmilləşdirilməsi” mövzusunda dissertasiya müdafiə edərək iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. Elmi fəaliyyəti dövründə 20-yə yaxın elmi məqalənin müəllifidir.

Elmi araşdırmalarının hamısı torpaq münasibətlərinin təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsi sahəsinə həsr edilmişdir. Tədqiqat işləri ilə bağlı apardığı araşdırmalar üzrə gəldiyi nəticələr haqqında müxtəlif beynəlxalq və ümumrespublika səviyyəsində keçirilən konfrans və seminarlarda məruzə etmişdir.

Hazırda “Xalq təsərrüfatının iqtisadiyyatı və idarə edilməsi (kənd təsərrüfatı)” ixtisası ilə elmlər doktoru hazırlığı üzrə doktorantdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Aqrar İslahat Komissiyasınm üzvü, Aqrar İslahatları həyata keçirən işçi qrupun rəhbəri, Kənd Təsərrüfatında Özəl Bölmənin İnkişafına Yardım üzrə Dövlət Komissiyasının üzvü olmuşdur. Dünya Bankının “Kənd təsərrüfatına Yardım üzrə Dövlət Komissiyasının üzvü olmuşdur. Dünya Bankının “Kənd Təsərrüfatının inkişafı və kreditləşdirilməsi” layihəsi çərçivəsində informasiya və məsləhət xidməti üzrə mütəxəssis kimi respublikada fermerlərin ümumi bilik səviyyələrinin artırılmasında yaxından iştirak etmişdir.

Bundan başqa Azərbaycan Respublikasında aqrar islahatların həyata keçirilməsi məqsədi ilə müzakirə olunan qanunların, qərarların hazırlanmasına və aqrar islahatların həyata keçiriməsinə, “Torpaq İslahatı” haqqında qanunun hazırlanmasına dair müvafiq təkliflər vermişdir.

Ailəlidir, 3 övladı və 1 nəvəsi var.



## Soltanlı İlkin Qalib oğlu



Soltanlı İlkin Qalib oğlu 27 iyul 1968 - ci ildə Ağsu rayonunun Kalva kəndində ziyalı ailəsində anadan olmuşdur. 1992-ci ildə Azərbaycan Dövlət İqtisad İnstitutunu (indiki ADİU) fərqlənmə diplomu ilə bitirmişdir. Dövlət, ictimai və elmi - pedaqoji qurumlarda çalışmışdır. 2002-ci ildən isə AMEA İqtisadiyyat İnstitutunda işləyir. “Aqrar islahatlar və ərzaq təhlükəsizliyi problemləri” şöbəsinin aparıcı elmi işçisidir. İqtisad üzrə fəlsəfə doktorudur. O, yeni iqtisadi münasibətlər şəraitində istehsal - iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi, rəqabət qabiliyyətli aqrar iqtisadiyyatın və sahibkarlıq fəaliyyətinin formalaşması, iqtisadiyyatın müxtəlif sahələrinin, xüsusən də aqrar sahənin və müxtəlif infrastruktur bölmələrin dayanıqlı inkişafı problemləri, modernləşmə və innovasiyalı inkişaf məsələlərinə həsr olunmuş 3 kollektiv monoqrafiyanın,130-a yaxın elmi məqalə, tezis və müxtəlif iqtisadi yazıların müəllifidir.

Yuxarıdakı əsərlər çoxsaylı respublika və beynəlxalq səviyyəli konfranslarda məruzə edilmiş, həmçinin müxtəlif nəşrlərdə çap olunmuşdur. 2011- ci ildə AMEA İqtisadiyyat İnstitutunun Elmi Şurasının qərarı ilə, “Aqrar sahədə istehsalın maddi-texniki təminatının dövlət tənzimlənməsi mexanizmləri” (“Avropa” nəşriyyatı, 256 s.) kitabı nəşr olunmuşdur. Eyni zamanda onun redaktorluğu ilə bir sıra iqtisadi yönümlü kitablar da çapa hazırlanmış və nəşr

edilmişdir. Hal - hazırda müxtəlif televiziya kanallarında iqtisadi həyatımızın çağdaş inkişaf istiqamətləri, xüsusən də aqrar sahənin dayanıqlı inkişaf problemləri ilə bağlı iqtisadi verilişlərdə mütəmadi olaraq çıxış edir. Müəllif, müxtəlif vaxtlarda bir sıra xarici ölkələrdə, o cümlədən Türkiyə Cümhuriyyəti və Qazaxıstan Respublikasında keçirilmiş beynəlxalq iqtisadi tədbir və forumlarda fəal iştirak etmişdir.



## Şərifov Qalib Qabil oğlu



Şərifov Qalib Qabil oğlu 15 sentyabr 1961-ci ildə Sumqayıt şəhərində anadan olmuşdur. 1983-cü ildə D.Bünyadzadə adına Xalq təsərrüfatı institutunun "Xalq təsərrüfatının iqtisadiyyatı və planlaşdırılması" fakültəsini bitirmişdir. Uzun illər xalq təsərrüfatının müxtəlif sahələrində çalışmış, aktiv surətdə elmi-pedaqoji fəaliyyətlə məşğul olaraq, iqtisadi nəzəriyyə və təcrübənin vəhdətinə ciddi diqqət yetirmişdir.

2004-cü ildə Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitunda (Az.ETKİ və Tİ) **"Aqrar sahədə istehsal resurslarından istifadənin iqtisadi səmərəliliyinin yüksəldilməsinin əsas istiqamətləri"** mövzusunda dissertasiya müdafiə etmişdir və iqtisadiyyat üzrə fəlsəfə doktoru elmi adına layiq görülmüşdür. Q.Şərifov 1 kitabın və 52 məqalənin müəllifidir. O, özünün tədqiqatlarında bazar münasibətləri şəraitində aqrar sahədə istehsal resurslarından səmərəli istifadənin zəruriliyini və iqtisadi məzmununun əsaslandırılmasına, aqrar sahədə istehsal resurslarından səmərəli istifadə olunmasının qanunauyğunluqlarının və xüsusiyyətlərinin tədqiq olunmasına, aqrar sahədə istehsal resurslarından istifadənin iqtisadi səmərəliliyini müəyyən edən nəticələr sisteminin müəyyənləşdirilməsinə, kənd təsərrüfatı istehsalında resurslardan səmərəli istifadənin

təşkilati və iqtisadi amillərinin müəyyənləşdirilməsinə, aqrar sahədə istehsal resurslarından səmərəli istifadəni təmin etmək üçün mövcud çatışmamazlıqların, zəif yerlərin aradan qaldırılaraq elmi-texniki tərəqqinin son nailiyyətlərinin tətbiqinə, qabaqcıl ölkələrin iş təcrübəsinin geniş miqyasda yayılmasına, kooperasiya və inteqrasiya əlaqələrinin müəyyənləşdirilməsinə, dövlət tənzimlənməsinin iqtisadi mexanizminin formalaşdırılmasına xüsusi diqqət yetirmişdir. 2004-cü ildə dissertasiyasında qaldırdığı məsələlərin praktiki tətbiqi ilə əlaqədar olaraq Az.ETKTİ və Tİ-də yeni yaradılmış "Analitik təhlil" şöbəsinin müdiri vəzifəsinə təyin edilib. 2004-2007 illərdə həmin şöbəyə rəhbərlik edərək Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Aqrar Elm Mərkəzinin, elmi-tədqiqat institutlarının tədqiqatlarının nəticələrinin, torpaq sahələrini və mülkiyyətçiləri, maddi-texniki resursların qiymətləri, yükdaşıma tarifləri, idxal olunan kənd təsərrüfatı məhsullarının orta qiymətləri, idxal-ixrac rejimləri, emal müəssisələri, kənd təsərrüfatı məhsullarının bazar qiymətləri və məhsuldarlığı haqqında məlumatların müntəzəm toplanılması, monitorinqi, təhlili, praktik tövsiyələrin hazırlanması və onların operativ surətdə fermer və müvafiq dövlət orqanlarına çatdırılması prosesinin qurulmasında və dayanaqlı vəziyyətə gətirilməsində aktiv iştirak edib.

Mikroiqtisadiyyat və idarəetmə standartları Q.Şərifovun maraq dairəsində olan sahələrdəndir. O, müxtəlif beynəlxalq standartlarının əsasında qurulan idarəetmə sistemlərinin tətbiqi üzrə ekspert-məsləhətçi və İSO 9001: 2008 (keyfiyyətin idarəedilməsi) standartı üzrə beynəlxalq



kvalifikasiyalı auditordur. Onun rəhbərliyi ilə Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrini təmsil edən 40-a yaxın müəssisəsidə İSO 9001, OHSAS 18001 və İSO 14001 standartları əsasında uğurlu layihələr həyata keçirilmişdir. Son illər qida zəncirinin müxtəlif mərhələlərinə aid ISO 22006, GAP və İSO 22000 standartları üzrə tədqiqatlar aparmaqdadır.

Q.Şərifov Dünya Bankının Dövlət İnvestisiyaları üzrə Kadr Potensialının Gücləndirilməsi Layihəsinin rəsmi təlimçisidir (www.dikpgl.az), Azərbaycan Respublikası Standartlaşma, Metrologiya və Patentləşmə üzrə Dövlət Komitəsinin Keyfiyyətin idarə olunması sahəsi üzrə Texniki Komitəsinin üzvüdür.

## Şəfiyev Məhərrəm Əhər oğlu



Şəfiyev Məhərrəm Əhər oğlu 1962-ci ildə Bərdə rayonunun Hüseyinbəyli kəndində anadan olmuşdur.

1969-cu ildə Bərdə rayon Böyük Qəcər kənd orta məktəbinin birinci sinfinə getmişdir. 1979-cu ildə Bərdə rayon Şirvanlı kənd orta məktəbinin onuncu sinfini bitirmişdir. 1980-ci ildə Bərdə rayon 26 Bakı komissarı adına kolxozda əmək fəaliyyətinə başlamışdır. 1982-1984-cü illərdə Hərbi xidmətdə olmuşdur. 1984-cü ildən 26 Bakı komissarı adına kolxozda əmək fəaliyyətini davam etdirərək kolxozçu və sahə mexaniki işləmişdir. 1990-cı ildə S. Ağamalı oğlu adına Azərbaycan Kənd Təsərrüfatı Akademiyasına qəbul olmuş, 1996-cı ildə Kənd Təsərüfatının, mexanikləşdirilməsi üzrə mühəndis mexanik ixtisasına yiyələnmişdir. 1992-2000-ci illərdə Bərdə rayon Tədarük və Satış bazasının müdiri vəzifəsində işləmişdir.

2000-ci ildə Bərdə «Çörək» ASC-nin idarə heyətinin Sədri vəzifəsinə seçilmiş və hazırda da bu vəzifədə çalışır.

2000-ci ildən Yeni Azərbaycan Partiyasının üzvüdür. 2004-cü ildə Yeni Azərbaycan partiyası Bordo «Çörək» ASC-nin ərazi ilk təşkilatına sədr seçilmişdir. 2000-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi İdarəetmə fakültəsinin hüquqşunaslıq ixtisası üzrə ali məktəbə qəbul olmuş, 2003-cü ildə həmin məktəbi fərqlənmə ilə bitirmişdir. 2004-cü



ildən Azərbaycan Elmi- Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnsitutunun dissertantı olmuşdur. 2009-cu ilin 26 noyabr tarixində “Azərbaycanda taxıl istehsalı və onun artırılması yolları” mövzusunda dissertasiya işini müdafiə edərək, iqtisad elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

Dissertasiya işində əsasən, Azərbaycan Respublikası əhalisinin ərzaq təhlükəsizliyinin təmin olunmasında taxıl istehsalı və onun artırılması yolları araşdırılmışdır.

M.Şəfiyevin bütün elmi araşdırmaları respublikada taxılçılığın inkişafı, respublika əhalisinin taxıla olan tələbatının daxili istehsal hesabına təmin etməklə, ərzaq təhlükəsizliyinin aradan qaldırılması kimi mühüm problemin həllinə həsr olunmuşdur. O, “Taxıl məhsuldarlığının artırılmasının təşkilati məsələləri (əkinçiliklə məşğul olan sahibkarlar üçün vəsait)” kitabının həmmüəllifidir. Elmi əsərləri Az.ETKTİ və Tİ-nin Elmi əsərləri, Azərbaycan Aqrar Elmi, İqtisadiyyat və Audit, Аграрно-экономическая наука и технологии (Tbilisi şəhəri), Международный технико-экономический журнал России jurnallarında dərc olunınuşdur. 2009-2012-ci illərdə “Xalq qəzeti”ndə taxılçılıqla əlaqədar silsilə məqalələri dərc olunmuşdur.

## Vəliyev İlham Əli oğlu



Vəliyev İlham Əli oğlu 07 oktyabr 1959-cu ildə Tovuz rayonunun Əlibəyli kəndində anadan olmuşdur. 1967-1977-ci illərdə Əlibəyli kənd orta məktəbində oxumuşdur.

1977-ci ildə V.İ.Lenin adına APİ-nin "Riyaziyyat" fakültəsinə daxil olub və 1981-ci ildə həmin institutu bitirmişdir. Təyinatla Sabirabad rayonuna göndərilib, həmin rayonda müəllim işləmişdir. 1981-83-cü illərdə hərbi xidmətdə olmuşdur.

1983-88-ci illərdə Sənaye Pedaqoji Texnikumunda tərbiyəçi müəllim işləmişdir.

1985-1999-cu illərdə N.Tusi adına ADPU-də baş laborant, 1999-cu ildən 2007-ci ilin noyabr ayınadək Bakı İdarəetmə və Texnologiya Kollecində direktor müavini vəzifəsində işləmişdir.

1997-ci ildə San Marino Akademiyasının İdarəetmə Biznes və Hüquq İnstitutunda "İqtisadiyyat" fakültəsini bitirmişdir.

1993-cü ildən Yeni Azərbaycan Partiyasının üzvüdür.

2006-cı ildə "Aqrar bölmədə sahibkarlığın iqtisadi tənzimlənmə istiqamətləri" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək, iqtisad elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür. "İqtisadiyyat və elmi texniki tərəqqi" və "Riyaziyyatdan test çalışmaları" adlanan dərs vəsaitlərinin müəllifidir. Mikro və makro iqtisadiyyat



və iqtisadi nəzəriyyə kursunun öyrənilməsinə dair metodik vəsait tərtib etmişdir.

2 dərslik, 4 tədris metodik göstərişin, 2 dərs vəsaitinin, 2 proqramın 35-dən çox elmi məqalənin müəllifidir.

09 noyabr 2007-ci ildən Azərbaycan Kooperasiya Universitetində tərbiyə işləri üzrə prorektor işləyir. 2010-cu ildən universitetin dosentidir.

Ailəlidir, 3 övladı var.

## Yaqubov Şamil Əyyub oğlu



Yaqubov Şamil Əyyub oğlu 1939-cu il Bakı şəhərində Bayıl qəsəbəsində fəhlə ailəsində anadan olmuşdur. 1946-cı ildə 163 saylı orta məktəbə daxil olmuş, 1956-cı ildə həmin məktəbi bitirmişdir. 1967-ci ildən 1971 –ci ilə kimi Neft texnikumunda oxumuşdur. 1971-ci ildə Dadaş Bünyadzadə adına Xalq Təsərrüfatı İnstitutuna daxil olmuş, 1976-cı ildə həmin institutu bitirmişdir. 1961-1964-cü illərdə ordu sıralarında hərbi xidmətdə olmuşdur. 1961-ci ildən Dövlət Plan Komitəsinin nəzdində olan Elmi-Tədqiqat İqtisadiyyat İnstitutuna laborant vəzifəsinə işə qəbul olmuşdur. 2009-cu ilin yanvar ayına kimi həmin institutda müxtəlif vəzifələrdə çalışmışdır. 1971 ildə məqsədli aspiranturaya daxil olmuş və oranı 1974-cü ildə bitirmişdir. 1987-cı ildə namizədlik dissertasiyası müdafiə edib iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır. 2009-cu ilin yanvar ayından Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda aparıcı elmi işçi vəzifəsində çalışır.

Bir alim kimi, işlədiyi dövrlərdə ümumi olaraq Azərbaycanda 88 məqalə, 5 tezis, 2 məqalə isə Avropada dərc edilmişdir (İspaniya, Fransa). Bir sıra Beynəlxalq konfranslarda həm iştirak etmiş, həm də çıxışlar etmişdir.

Ailəlidir, 3 qız övladı var.



## Zeynallı Əlisa Təvəkkül oğlu



Zeynallı Əlisa Təvəkkül oğlu 1950-ci il avqustun 9-da Azərbaycan Respublikası Cəlilabad rayonunun Zopun kəndində anadan olmuşdur. Burada natamam orta təhsil almışdır. 1967-1968-ci illərdə Bakı Plan Uçot Texnikumunda oxuyaraq “Kənd təsərrüfatı iqtisadiyyatı” fakültəsini bitirmişdir. 1977-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (İndiki Dövlət İqtisad Universitetinin) Xalq təsərrüfatının planlaşdırılması fakültəsini qiyabi bitirmişdir. 1998-ci ildə Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda “Aqrar-sənaye kompleksi sistemində iqtisadi hesabların tədqiqi və tətbiqi problemləri” mövzusu üzrə dissertasiya işini müdafiə edərək, iqtisad elmləri namizədi alimlik dərəcəsini almışdır.

Elmi və praktiki fəaliyyəti ölkədə statistikanın təşkili və inkişafına həsr edilmişdir. Əmək fəaliyyətinə 1968-ci ildə Cəlilabad rayon Dövlət statistika müfəttişliyində başlamışdır. 1970-1972-ci illərdə hərbi xidmətdə olmuşdur. 1972-ci ildən isə əmək fəaliyyətini Azərbaycan Respublikası Dövlət Statistika Komitəsində (keçmiş Mərkəzi Statistika İdarəsində) davam etdirmişdir. Burada tikinti, əhali və səhiyyə, kənd təsərrüfatı statistikasının təşkili işlərində çalışmış, 1979-cu il “Əhalinin siyahıyaalması” şöbəsinin müdir müavini olmuş, 1989 və 1999-cu il siyahıyaalmalarında fəal iştirak etmişdir. Uzun müddət kənd təsərrüfatı məhsullarının

tədarükü statistikasının təşkilinə rəhbərlik etmişdir. Hal-hazırda "Ərzaq təhlükəsizliyi və balansları statistikası" şöbəsinin müdiri vəzifəsində çalışır.

Ölkəmizin müstəqil inkişafı illərində öz bilik və bacarığını, müasir mərhələdə bəşəriyyəti narahat edən əsas qlobal problemlərdən biri hesab olunan, ərzaq təhlükəsizliyi üzrə informasiya sisteminin qurulmasına həsr etmişdir. Beynəlxalq təşkilatlarla əməkdaşlıq nəticəsində qısa müddət ərzində məlumatlar bazasının yaradılması, 2001-2007-ci illərdə rüblük statistik bülletenlərin və illik statistik məcmuələrin hazırlanmasına gərgin əmək sərf etmiş, habelə milli iqtisadiyyatın müasir inkişaf mərhələsində aktual sayılan problemlər üzrə tematik statistik müşahidələrin keçirilməsi təcrübəsinə nail olmuşdur. Bütün bunlar onun elmi-nəzəri biliklərinin formalaşmasında əsas rol oynamışdır.

Bilavasitə onun elmi-praktik təcrübəsi və təşəbbüsünə əsasən "Azərbaycanda əhali və kənd təsərrüfatının su ilə təminatının vəziyyəti" (2002), "Taxıl istehsalı və istifadəsi" (2002), "Kənd yerlərinin yol və kommunikasiya şəbəkəsinin vəziyyəti" (2003), "Fərdi (şəxsi) nəqliyyat vasitələrilə sərnişin və yükdaşımaların qiymətləri" (2003), "Kənd təsərrüfatı istehsalçılarının əsas iqtisadi göstəricilərinin öyrənilməsi"(2003), "Heyvandarlığın inkişafının əsas məsələləri" (2004), "Ərzaq məhsullarının qiymətlərinin öyrənilməsi" (2004), "Ev təsərrüfatlarında ərzaq əldə etmək imkanları" (2004), "Emal müəssisələri, ticarət təşkilatları və təsərrüfatlarında ərzaq məhsullarının qalıqları" (2005), "İqtisadiyyatda məşğul olanların sayı və tərkibi" (2005), "Ev təsərrüfatlarında məşğulluq" (2006), "Əhalinin içməli su ilə



təminatının vəziyyəti" (2006), "Suvarılan torpaqlardan istifadənin vəziyyəti" (2007), "Cins əkinlərin vəziyyəti" (2007), "Kənd təsərrüfatı istehsalçılarının bazar münasibətlərinin vəziyyəti" (2008), "Kənd təsərrüfatı istehsalçılarına xidmətlər göstərilməsinin vəziyyəti" (2008) mövzularına dair birdəfəlik statistik müşahidələr keçirilmiş, onların icmallaşdırma proqramı hazırlanmış, ilkin müşahidə məlumatları icmallaşdırılaraq təhlil edilmiş, müvafiq təkliflər müəyyənləşdirilmiş və statistik külliyyatlar hazırlanaraq ölkə rəhbərliyinə, hökumətə və qanunverici orqanlara, habelə beynəlxalq təşkilatlara və elmi idarələrə təqdim edilmişdir. "Azərbaycanın milli iqtisadiyyatına maliyyə yardımı göstərilməsi və onun istehlak üçün səmərəliliyinin müəyyən edilməsi qaydaları" hazırlanmışdır (2009).

Ölkənin ərzaq balanslarının işlənməsi üçün nəzəri-metodoloji qaydaların hazırlanması, onların təcrübəyə tətbiqi üzrə 2007-2010-cu illərdə fəal və səmərəli fəaliyyət göstərmişdir. Hazırda bu işləri davam etdirir.

Onun elmi tədqiqatları və praktiki təcrübəsinin paralel davam etdirilməsinin nəticəsi olaraq 2005-ci ildə "Elm" nəşriyyatı tərəfindən "Azərbaycan kənd təsərrüfatınm müasir problemləri" adlı monoqrafiyası dərc edilmişdir.

2008-2011-ci illərdə elmi yaradıcılığının əsas hissəsini "Bazar iqtisadiyyatı şəraitində qiymət və qiymətin əmələgəlmə məsələləri", "İqtisadi nəzəriyyədə təkmilləşdirmə məsələləri", "Sahibkarlıq fəaliyyətində innovasiya məsələləri", "Kənd təsərrüfatında innovasiya məsələləri", "Regional inkişaf və innovasiya məsələləri" təşkil etmişdir. Bu mövzular üzrə beynəlxalq konfranslarda, elmi jurnallarda

və İqtisadiyyat qəzetində çıxışlar edilmiş və məqalələr dərc olunmuşdur. Habelə "İnsanın bilik (intellektual) kapitalının formalaşmasında ictimai şüurun rolu" mövzusunda məqaləsi dərc edilmiş və tövsiyələr irəli sürülmüşdür. "Statistika: ümumi nəzəri məsələlər" I kitab və "Statistika: sosial-iqtisadi məsələlər" II kitab hazırlamışlar. Bu kitablar Bakı Dövlət Universitetinin Gömrük işinin təşkili və idarəetmə, Beynəlxalq iqtisadi münasibətlər kafedralarının 28 sentyabr 2010- cu il tarixli birgə iclası, Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsinin Elmi Şurasının 8 oktyabr 2010-cu il tarixli iclası, Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsinin Elmi-Metodik Şurasının 1 oktyabr 2010-cu il tarixli iclasında, Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi-Metodik Şurasının İqtisadiyyat bölməsinin 11 noyabr 2010-cu il tarixli iclasında müzakirə edilmiş və dərs vəsaiti kimi nəşr olunması tövsiyə edilmişdir. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 13 yanvar 2011-ci il tarixli, 63 nömrəli əmri ilə təsdiq edilərək, 2011-ci ildə "Avropa" nəşriyyatı tərəfindən çap edilmişdir.

Əlisa Zeynallı beynəlxalq arenada da maraqlı çıxışları ilə fəal iştirak edir və faydalı təkliflər irəli sürür, praktiki təcrübələri öyrənir.

1998-ci ildə Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində keçirilən VI Beynəlxalq Aqroseminarda iştirak etmiş və "XXI əsrin astanasında aqrar statistikanın problemləri" mövzusu üzrə çıxış etmişdir (Get Document - Sixth IWG.AGRI Seminar on Agricultural Statistics; Russian Federation, St), 1999-cu ildə Türkiyə Statistika İnstitutunda beynəlxalq seminarda, Moldova Statistika və Təhlil Büro-



sunda beynəlxalq seminarda, 2000-ci ilin fevral və sentyabr aylarında Almaniya Statistika Təşkilatında beynəlxalq seminarlarda, 2000-ci ildə Gürcüstan Statistika Təşkilatında beynəlxalq seminarda, 2002-ci ildə Roma şəhərində (İtaliya) Ümumdünya Ərzaq və Kənd Təsərrüfatı (FAO) tərəfindən keçirilən təlim kursunda, FAO tərəfindən Azərbaycanda 2002-ci ilin iyun və oktyabr aylarında, 2003-cü ilin aprel ayında keçirilən təlim kurslarında iştirak etmiş və müvafiq diplomlar almışdır, 2008-ci ildə Vaşinqtonda (ABŞ) Kənd Təsərrüfatı Departamentində (Nazirliyində) kənd təsərrüfatı statistikasının təşkili məsələlərini öyrənmişdir.

2011-ci ildə Azərbaycanda ərzaq balanslarının metodologiyasının təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində Əlisa Zeynallının rəhbərliyi altında məqsədyönlü və faydalı işlər aparmışdır. Belə ki, Avropa Qonşuluq Siyasəti Şərq məkanında ərzaq təhlükəsizliyi üzrə qərarların qəbul edilməsinin yaxşılaşdırılması üçün məlumat sistemləri üzrə AB/FAO Proqramı Avropa Komissiyasının Ərzaq təhlükəsizliyi tematik Proqramı (2007-2010-cu illərdə) çərçivəsində əməkdaşlıq nəticəsində 2011-ci ilin may ayında Bakıda seminar təşkil edilmiş və FAO-nun mütəxəssisləri ilə müzakirələr aparılmışdır (EC/FAO Programme on Information Systems to Improve Food ...); noyabr ayında Litva Respublikası Statistika Departamentində ərzaq balanslarının tərtib edilməsi təcrübəsini öyrənməklə yanaşı, Azərbaycanda ərzaq balanslarının tərtib olunması təcrübəsi barədə çıxış etmiş və iki ölkənin mütəxəssisləri arasında fikir mübadiləsi aparılmışdır EC/FAO Programme on Information Systems to Improve

Food Security; dekabr ayında İtaliyanın Roma şəhərində FAO-nun mütəxəssisləri və bir sıra ölkələrin mütəxəssislərinin iştirakı ilə keçirilən seminarda çıxış etmiş və müzakirələr aparmışdır (Prezentace aplikace PowerPoint).

2012-ci ilin mart ayında FAO-da "Ərzaq və qida təhlükəsizliyi üzrə informasiya: qəbul edilən qərarların səmərəliliyinin real qiymətləndirilməsi" mövzusunda keçirilmiş Beynəlxalq Elmi Simpoziuma, habelə İnsan Hüquqları və Qlobal Sülh təşkilatı tərəfindən keçirilən Beynəlxalq Konfransa "Bazar iqtisadiyyatı şəraitində ərzaq təhlükəsizliyinin təmin edilməsinin bəzi prinsipləri" mövzusunda tezislər (slayd formasında) göndərilmişdir. Əlisa Zeynallı ölkənin ictimai həyatında da fəal iştirak edir. O, Azərbaycan İqtisadçılar Birliyi və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. Elmi konfranslarda, mətbuat orqanlarında vaxtaşırı çıxışlar edir. Ümumiyyətlə, 130-dən çox elmi, elmi-praktik tezis, məqalə və monoqrafiyaların müəllifidir. 1994-cü ildə Azərbaycan İcarədarlar və Sahibkarlar İttifaqı və Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçiləri Həmkarlar İttifaqı tərəfindən "Azərbaycanın iqtisadi dirçəlişi" mövzusunda keçirilən müsabiqənin qalibi olmuş, 2002-ci ildə isə "İqtisadiyyat və audit" elmi-praktik jurnalında dərc edilmiş ən yaxşı məqalələr üçün elan edilən müsabiqədə I yeri tutmuşdur.

Əlisa Zeynallı gənc nəslin təlim-tərbiyəsində də özünün bilik və bacarığını əsirgəmir. Bakı Dövlət Universitetinin "İqtisadi və sosial coğrafiya" kafedrasında pedoqoji fəaliyyətini davam etdirir.

Rus və ingilis dillərini bilir.

Ailəlidir. İki oğlu var.



## MÜNDƏRİCAT

**Giriş** ... 4
**Mahmudov Əhməd Əkbər oğlu** ... 18
**Nadirov Asəf Abbasqulu oğlu** ... 29
**Ələsgərov Ağasəlim Kərim oğlu** ... 41
**Muradov Şahbaz Musa oğlu** ... 52
**Musayev Akif Fərhad oğlu** ... 62
**Məmmədov Aydın İsrafil oğlu** ... 67
**Mirzəyev Soltan Abbas oğlu** ... 71
**Məmmədov Rasim Fəti oğlu** ... 74
**Hacıyev Əhməd Hafiz oğlu** ... 76
**Qasımov Həsən Allahyar oğlu** ... 79
**Verdiyev Əhməd Çoban oğlu** ... 81
**Salahov Sadıq Vəli oğlu** ... 87
**Allahverdiyev Həsən Bəkir oğlu** ... 93
**Alıyev İsa Hüseyn oğlu** ... 98
**Ataşov Bəyah Xanalı oğlu** ... 102
**Balayev Rəsul Ənvər oğlu** ... 106
**Cahangirov Əli Dadaş oğlu** ... 109
**Cəbrayılov Şakir Əbiş oğlu** ... 111
**İbrahimov Eldar Rza oğlu** ... 114
**Niftullayev Vaqif Məmmədqulu oğlu** ... 116
**İbrahimov İslam Hacı oğlu** ... 119
**Əhmədov İsa Vəli oğlu** ... 125
**Əhmədov Afət Tərlan oğlu** ... 128
**Əliyev Ramil Bəylər oğlu** ... 131
**Adigözəlov Fikrət Salam oğlu** ... 135
**Əlirzayev Əli Qənbərəli oğlu** ... 142
**Qarayev İslam Şamil oğlu** ... 146
**Hüseynov Məcid Əli oğlu** ... 150
**Xəlilov Həmzə Ağakişi oğlu** ... 153
**İsayev Veysəl İlyas oğlu** ... 154
**İsgəndərov Ramiz Kamal oğlu** ... 158

Qasımov Əbülfəz Cəbrayıl oğlu........162
Qəhrəmanov Rüstəm Cəbrayıl oğlu........165
Rüstəmov Ağarza Ağahəsən oğlu........168
Səbzəliyev Sifariz Mirzəxan oğlu........173
Şirəliyev Asif İsmayıl oğlu........176
Hüseynov Məhərrəm Cəlal oğlu........178
Məmmədov İbrahim Xəlil oğlu........180
Abbasov Anar Fazil oğlu........182
Vəliyev Akif Həmzə oğlu........184
Əliyev Həsən Musa oğlu........187
Tağıyev Tağı Məsim oğlu........189
Süleymanov İsmayıl Kazım oğlu........194
Abbasov Vahid Hacibəy oğlu........196
Əlibəyov Nemət Vəlibəy oğlu........199
Mehdiyev Mehdi Qurban oğlu........203
Xeyirxəbərov İsmayıl Mahmud oğlu........206
Qasımova Elmira İsmayıl qızı........208
Əliyev Sahib Bayram oğlu........210
QuliyevEldar Əli oğlu........212
Hacıyev Qalib Bəhram oğlu........214
Hüseyn Ramil Zahid oğlu........217
Salahov Sənan Sadıq oğlu........219
Şalbuzov Namiq Əlövsət oğlu........221
Məmmədova Müşfiqə Əjdər qızı........223
Əhmədov Famil Talverdi oğlu........225
Tağıyev Albert Həmid oğlu........226
Abbasov Teymur Abbas oğlu........231
Abbasov Fazil Həşim oğlu........233
Abbasov Rəşad Vaqif oğlu........235
Abasov Nicat Səməndər oğlu........236
Ansuxskiy Abdulqədir Əli oğlu........238
Cavadov Natiq Əli oğlu........239
Daşdəmirov Əlləz İsa oğlu........241
Əjdər Qiyaslı........243



Əliyeva Yasəmən Əli qızı........246
ƏlizadəAsif Həmid oğlu........248
Əliyev Şəmsəddin Camalxan oğlu........250
Əlirzayev Emin Əli oğlu........252
Əmrahov Vahid Tofiq oğlu........254
Fərhadi Püstə Oruc qızı........255
Hüseynova Məlahət Soltan qızı........257
Hüseynova Şəhla Akif qızı........259
Hüseynov Ramil Vəkil oğlu........260
Hüseynov Möhübbət Musa oğlu........261
Xubanov Ceyhun Xalid-Paşa oğlu........263
İbrahimov Mehman Cəfər oğlu........265
İsgəndərov Faiq Bayraməli oğlu........267
Kərimov Akif Əkbər oğlu........274
Qasımlı Vüsal Əfras oğlu........276
Qafarov Nizami Cəlal oğlu........278
Qəhrəmanov Eldar Əvəz oğlu........279
Musayev Məmməd Qurvan oğlu........283
Əsgərov Abdulla Çingiz oğlu........286
Quliyev Vasif Məmmədqulu oğlu........288
Quliyev Vaqif Məhərrəm oğlu........290
Mahmudova Sədaqət Mikayıl qızı........292
Mirzəyeva Hicran Əmirxan qızı........293
Nəcəfova Vəfa Qurban qızı........295
Novruzova Fidan Nəbi qızı........296
Rüstəmov Rövşən Mürvət oğlu........297
Rzayev Vəli Rza oğlu........299
Soltanlı İlkin Qalib oğlu........301
Şərifov Qalib Qabil oğlu........303
Şəfiyev Məhərrəm Əhər oğlu........306
Vəliyev İlham Əli oğlu........308
Yaqubov Şamil Əyyub oğlu........310
Zeynallı Əlisa Təvəkkül oğlu........311

Yığılmağa verilmişdir: 20.04.2012
Çapa verilmişdir: 26.04.2012
Formatı 60×90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 20
Sifariş 12158. Tiraj 300.

Qiyməti razılaşma yolu ilə

“Şərq-Qərb” Nəşriyyat Evinin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 374 83 43, Faks: (+99412) 370 18 49